SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ
SUMGAYIT STATE UNIVERSITY

# ELMİ XƏBƏRLƏR
# НАУЧНЫЕ ИЗВЕСТИЯ
# SCIENTIFIC NEWS

ISSN 1680 - 1245 Print
ISSN 2706 - 719X Online

## SOSİAL VƏ HUMANİTAR ELMLƏR BÖLMƏSİ
## СЕРИЯ: СОЦИАЛЬНЫЕ И ГУМАНИТАРНЫЕ НАУКИ
## SERIES FOR SOCIAL AND HUMANITARIAN SCIENCES

Cild
Том
Volume
21 № 4

НАУЧНАЯ ЭЛЕКТРОННАЯ БИБЛИОТЕКА
LIBRARY.RU
doi

Sumqayıt
2025

ISSN 2706-719X (Online)
ISSN 1680-1245 (Print)

**SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ**
**СУМГАИТСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**
**SUMGAIT STATE UNIVERSITY**

# ELMİ XƏBƏRLƏR
# НАУЧНЫЕ ИЗВЕСТИЯ
# SCIENTIFIC NEWS

***Sosial və humanitar elmlər bölməsi***
***Серия: Социальные и гуманитарные науки***
***Series for Social and Humanitarian Sciences***

***Cild 21*** ***2025*** ***№ 4***

**Sumqayıt – 2025**

**Sumqayıt Dövlət Universiteti**
**Elmi xəbərlər. Sosial və Humanitar elmlər bölməsi**
**REDAKSİYA HEYƏTİ**

| | |
|---|---|
| **Baş redaktor** | **Əminağa Sadıqov,** *AMEA-nın müxbir üzvü, professor, rektor v.i.e.* |
| **Baş redaktorun müavini** | **Elşad Abdullayev,** *dosent, elm və innovasiyalar üzrə prorektor* |

**REDAKSİYA HEYƏTİNİN ÜZVLƏRİ**

| | |
|---|---|
| **Dilçilik** | **Nizami Cəfərov,** *akad. (Azərbaycan),* **Natalia Qaqarina,** *prof. (Almaniya),* **Ramazan Məmmədov,** *prof. (Azərbaycan),* **Sayalı Sadıqova**, *prof. (Azərbaycan)* **Böyükxanım Eminli,** *dos. (Azərbaycan),* **Günel Paşayeva**, *dos. (Azərbaycan),* **Xəyalə Muğamat**, *dos. (məsul redaktor, Azərbaycan)* |
| **Ədəbiyyatşünaslıq** | **Şükrü Haluk Akalın,** *prof. (Türkiyə),* **Fikrət Rzayev,** *prof. (Azərbaycan),* **Məhərrəm Qasımlı,** *prof. (Azərbaycan),* **Nigar İsgəndərova,** *prof. (Azərbaycan),* **Sevinc Həmzəyeva,** *dos. (Azərbaycan),* **Törə Məmmədova**, *dos. (məsul redaktor, Azərbaycan),* **Dəyanət Cümənov**, *dos. (Azərbaycan)* |
| **Tarix**<br>**Sosiologiya** | **Daniyal Kidirniyazov,** *prof. (Rusiya),* **Selma Kadir qızı Yel,** *prof. (Türkiyə),* **Kozma Tamas,** *prof. (Macarıstan),* **Adil Baxşəliyev,** *prof. (Azərbaycan),* **Zabil Bayramov,** *prof. (Azərbaycan),* **Şirxan Səlimov,** *prof. (məsul redaktor, Azərbaycan),* **Matias Dornfeld,** *dos. (Almaniya),* **Osman Hacıyev**, *dos. (Azərbaycan),* **Əminə Həsənova**, *dos. (Azərbaycan),* **Sona Məhərrəmova**, *dos. (Azərbaycan)* |
| **İqtisad elmləri** | **Ziyad Səmədzadə,** *akad. (Azərbaycan),* **Mixail Osipov,** *prof. (Rusiya),* **Vasiliy Bespyatıx,** *prof. (Rusiya),* **Nazim İmanov,** *prof. (Azərbaycan),* **Arif Şəkərəliyev,** *prof. (Azərbaycan),* **Hacıağa Rüstəmbəyov,** *prof. (Azərbaycan),* **Loğman Abdullayev** *dos. (Azərbaycan),* **Qalib Hüseynov,** *dos. (məsul redaktor, Azərbaycan),* **Aynurə Yəhyayeva,** *dos. (Azərbaycan),* **Lalə Vəliyeva**, *dos. (Azərbaycan)* |
| **Pedaqogika**<br>**Psixologiya**<br>**Metodika** | **Aleksandr Korostelyov,** *prof.(Rusiya),* **Fərrux Rüstəmov,** *prof. (Azərbaycan),* **Ramiz Əliyev,** *prof. (Azərbaycan),* **Rüfət Hüseynzadə,** *prof. (Azərbaycan),* **Erde Gabor,** *dos. (Macarıstan),* **Lada Çepeleva,** *dos. (Rusiya),* **Aytəkin Məmmədova,** *dos., (Azərbaycan),* **Sevər Mirzəyeva,** *dos. (Azərbaycan),* **Məftun Hehdərova**, *dos. (Azərbaycan),* **Şəlalə Adıgözəlova.**, *dos. (məsul redaktor, Azərbaycan),* **Şahnaz Quliyeva** *dos. (Azərbaycan),* **Şikar Hüseynov**, *dos. (Azərbaycan)* |

**Сумгаитский государственный университет**
**Научные известия. Серия: Социальные и гуманитарные науки**
**РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ**

| | |
|---|---|
| **Главный редактор** | **Аминага Садыгов,** *член-корр. НАНА, профессор, и.о. ректора* |
| **Зам. главного редактора** | **Эльшад Абдуллаев,** *доцент, проректор по науке и инновациям* |

**ЧЛЕНЫ РЕДАКЦИОННОЙ КОЛЛЕГИИ**

| | |
|---|---|
| **Языкознание** | **Низами Джафаров,** *акад. (Азербайджан),* **Наталья Гагарина,** *проф. (Германия),* **Рамазан Мамедов,** *проф. (Азербайджан),* **Саялы Садыгова,** *проф.(Азербайджан),* **Беюкханым Эминли,** *доц. (отв. ред., Азербайджан),* **Гюнель Пашаева**, *доц. (Азербайджан),* **Хаяля Мугамат**, *доц. (Азербайджан),* |
| **Литературоведение** | **Шюкрю Халук Акалын,** *проф. (Турция),* **Фикрат Рзаев,** *проф. (Азербайджан),* **Магеррам Гасымлы,** *проф. (Азербайджан),* **Нигяр Искендерова,** *проф. (Азербайджан),* **Севиндж Хамзаева,** *доц. (Азербайджан),* **Тора Мамедова**, *доц. (отв. ред., Азербайджан),* **Даянат Джуманов**, *доц. (Азербайджан)* |
| **История**<br>**Социология** | **Даниял Кидирниязов,** *проф. (Россия),* **Селма Кадир гызы Йел,** *проф. (Турция),* **Козьма Тамас,** *проф. (Венгрия),* **Адиль Бахшалиев,** *проф. (Азербайджан),* **Забиль Байрамов,** *проф. (Азербайджан),* **Ширхан Салимов,** *проф. (отв. ред., Азербайджан),* **Матиас Дорнфельд,** *доц. (Германия),* **Осман Гаджиев**, *доц. (Азербайджан),* **Амина Гасанова**, *доц. (Азербайджан),* **Сона Махаррамова**, *доц.* |

*(Азербайджан)*

**Экономические науки** — **Зияд Самедзаде,** *акад. (Азербайджан),* **Михаил Осипов,** *проф. (Россия),* **Василий Беспятых,** *проф. (Россия),* **Назим Иманов,** *проф. (Азербайджан),* **Ариф Шекералиев,** *проф. (Азербайджан),* **Гаджиага Рустамбеков,** *проф. (Азербайджан),* **Логман Абдуллаев** *доц. (Азербайджан),* **Галиб Гусейнов,** *доц. (отв. ред., Азербайджан),* **Айнура Яхъяева**, *доц. (Азербайджан),* **Лала Валиева**, *доц. (Азербайджан)*

**Педагогика Психология Методика** — **Алесандр Коростылев,** *проф. (Россия),* **Фаррух Рустамов,** *проф. (Азербайджан),* **Рамиз Алиев,** *проф. (Азербайджан),* **Руфат Гусейнзаде,** *проф. (Азербайджан),* **Эрде Габор,** *доц. (Венгрия),* **Лада Чепелева,** *доц. (Россия),* **Айтекин Мамедова,** *доц. (Азербайджан),* **Севар Мирзоева,** *доц. (Азербайджан),* **Мафтун Гейдарова**, *доц. (Азербайджан),* **Шалала Адыгёзалова** *доц. (отв. ред., Азербайджан),* **Шахназ Кулиева**, *доц. (Азербайджан),* **Шикар Гусейнов**, *доц. (Азербайджан)*

## Sumgayit State University
## Scientific News. Series for Social and Humanitarian Sciences
## EDITORIAL STAFF

**Editor in Chief** — **Aminagha Sadigov**, *corresponding member ANAS, professor, acting Rector*

**Deputy of Editor in Chief** — **Elshad Abdullayev,** *ass.prof., Vice-Rector for Science and Innovations*

### MEMBERS OF EDITORIAL STAFF

**Linguistics** — **Nizami Jafarov,** *acad. (Azerbaijan),* **Natalia Gagarina,** *prof. (Germany),* **Ramazan Mammadov,** *prof. (Azerbaijan),* **Sayali Sadigova,** *prof. (Azerbaijan),* **Boyukkhanim Eminli,** *ass.prof. (executive secretary, Azerbaijan),* **Gunel Pashayeva**, *ass.prof. (Azerbaijan),* **Khayala Mughamat**, *ass.prof. (Azerbaijan),*

**Literary criticism** — **Shukru Haluk Akalin,** *prof. (Turkey),* **Fikrat Rzayev,** *prof. (Azerbaijan),* **Maharram Gasimli,** *prof. (Azerbaijan),* **Nigar Isgandarova,** *prof. (Azerbaijan),* **Sevinj Hamzayeva,** *ass.prof. (Azerbaijan),* **Tora Mammadova**, *ass.prof. (executive secretary, Azerbaijan),* **Dayanat Jumanov**, *ass.prof. (Azerbaijan)*

**History Sociology** — **Daniyal Kidirniyazov,** *prof. (Russia),* **Selma Kadir gizi Yel,** *prof. (Turkey),* **Kozma Tamas,** *prof. (Hungary),* **Adil Bakhshaliyev,** *prof. (Azerbaijan),* **Zabil Bayramov,** *prof. (Azerbaijan),* **Shirkhan Salimov,** *prof. (executive secretary, Azerbaijan),* **Matias Dornfeld,** *ass.prof. (Germany),* **Osman Hajiyev**, *ass.prof. (Azerbaijan),* **Amina Hasanova**, *ass.prof. (Azerbaijan),* **Sona Maharramova**, *ass.prof. (Azerbaijan)*

**Economic sciences** — **Ziyad Samadzadeh,** *acad. (Azerbaijan),* **Mikhail Osipov,** *prof. (Russia),* **Vasiliy Bespyatikh,** *prof.(Russia),* **Nazim Imanov,** *prof. (Azerbaijan),* **Arif Shakaraliyev,** *prof. (Azerbaijan),* **Hajiagha Rustambayov,** *prof. (Azerbaijan),* **Logman Abdullayev**, *ass.prof. (Azerbaijan),* **Galib Huseynov,** *ass.prof. (executive secretary, Azerbaijan),* **Aynura Yahyayeva,** *ass.prof. (Azerbaijan),* **Lala Valiyeva**, *ass.prof. (Azerbaijan)*

**Pedagogy Psychology Methodology** — **Alexander Korostelyov,** *prof.(Russia),* **Farrukh Rustamov,** *prof. (Azerbaijan),* **Ramiz Aliyev,** *prof. (Azerbaijan),* **Rufat Huseynzada,** *prof. (Azerbaijan),* **Erde Gabor** *ass.prof. (Hungary),* **Lada Chepeleva** *ass.prof. (Russia),* **Aytakin Mammadova,** *ass.prof. (Azerbaijan),* **Sevar Mirzayeva,** *ass.prof. (Azerbaijan),* **Maftun Heydarova**, *ass.prof. (Azerbaijan),* **Shalala Adigezalova** *ass.prof. (executive secretary, Azerbaijan),* **Shakhnaz Guliyeva**, *ass.prof. (Azerbaijan,* **Shikar Huseynov**, *ass.prof. (Azerbaijan))*

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 82.91** DOI 10.54758/16801245_2025_21_4_4

# Bəxtiyar Vahabzadənin əsərlərində Tanrı konsepti

**Əhmədova Elnarə Hüseynağa qızı** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, baş müəllim*
elnara.ahmadova@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 22.11.2024*
*Düzəliş tarixi: 27.01.2025*
*Qəbulolunma tarixi: 07.04.2025*

***Açar sözlər***
*Bəxtiyar Vahabzadə, şeir, poema, Tanrı, Allah, konsept*

**XÜLASƏ**

*Bəşər tarixində insanın ən çox üzərində düşündüyü anlayışlardan biri Tanrı olmuşdur. Tanrı konsepti müxtəlif sivilizasiyalarda, dinlərdə və fəlsəfi cərəyanlarda fərqli şəkildə təsəvvür edilsə də, ümumi bir xüsusiyyəti vardır: o, insanın varlıq, başlanğıc və məqsədlə bağlı suallarına cavab axtarışının mərkəzində dayanır. Zaman-zaman həm dünya, həm də Azərbaycan ədəbiyyatında bir çox şairlər, yazıçılar öz əsərlərində Tanrı anlayışına müxtəlif baxış bucaqlarından yanaşmış, onu həm fəlsəfi, həm də bədii müstəvidə dəyərləndirmişlər. Yaradıcı fenomeni Bəxtiyar Vahabzadənin əsərlərində də mərkəzi ideyalardan biri kimi çıxış edir. Şair Tanrı anlayışına yalnız dini məna çərçivəsində deyil, həm də fəlsəfi-estetik, mənəvi və əxlaqi baxımdan da yanaşır. Məqalədə Bəxtiyar Vahabzadənin əsərlərində Tanrı – Yaradıcı anlayışı dini-fəlsəfi və bədii-mədəni yanaşmalar, o cümlədən səmavi dinlərin kitabları müstəvisində təhlil edilir.*

Tanrı konsepti insan təfəkkürünün mərkəzi ideyalarından birini təşkil edir. Bu günə qədər bir sıra fəlsəfi baxışlar və dini təlimlər bu konseptin müxtəlif tərəflərini işıqlandırmışdır. Müasir dünyada da Tanrı anlayışı yalnız dini deyil, həm də mədəni, fəlsəfi və psixoloji aspektlərdən öyrənilməkdədir. İstər iman, istərsə də şübhə mövqeyindən yanaşılsa, Tanrı ideyası insanın varlıq və həyat mənası axtarışında əvəzsiz rol oynamaqda davam edir.

İnsan yarandığı gündən bu günə qədər onu maraqlandıran ən vacib suallardan biri “Mən kiməm?” olmuşdur. Məhz bu suala cavab axtarışında olan insan öz varlığının yaradılışı ilə bağlı fikirlərinin üzərindəki əsrar pərdəsini çəkib həqiqi kimliyi ilə üzləşmək məqsədilə çıxdığı yolçuluqda qarşısına çıxan maneələr, məchulluq və əsrarəngizliyi izah edə bilmədiyi anlarda öz təxəyyülünün gücü ilə bütün bunları təhlil etməyə, özü üçün aydınlaşdırmağa çalışmışdır. Məhz bu axtarış səbəbindən müxtəlif dinlər, dini cərəyanlar, təriqətlər, fəlsəfi görüşlər yaranmışdır. Tarix boyu insan öz-özünə yaranış fikri ilə razılaşmamış, yaradılışını müəyyən bir yaradıcı qüvvə ilə əlaqələndirmiş və yaradıcısını fərqli biçimlərdə, sifətlərdə təsvir etməyə çalışmışdır. Tanrı - Yaradıcı ibtidai insan təxəyyülünün əks etdirdiyi ən uğurlu obraz kimi qəbul edilə bilər. İnsan onu Tanrı, Allah, God, Boq, El, Elohim, Zevs, Yahova, Odin və s. adlarla adlandırmış, ətraf aləmdə gördüyü, izah edə bilmədiyi bəzi təbii və qeyri-təbii hadisələri də bu obrazın fövqəladə gücü ilə əlaqələndirmiş, Onun özünü isə toxunulmaz, ali, üstün, izahedilməz, şərholunmaz, zamandan və məkandan münəzzəh bir varlıq elan etmişdir. Zaman-zaman bir çox alimlər, filosoflar, din xadimləri bu obrazın həqiqi varlığının reallığını sübut etməyə çalışmış, müxtəlif mövqelər ortaya çıxmışdır. Eyni zamanda Tanrı bir sıra miflərin, folklor, bədii ədəbiyyat nümunələrinin də əsas obrazına çevrilmişdir. Həm dünya, həm də Azərbaycan ədəbiyyatında bir sıra müəlliflər öz əsərlərində Tanrı axtarışına çıxmış, bu məhfumun izahına müxtəlif yönlərdən yanaşmışlar. Azərbaycanın görkəmli ədibi, ictimai fikir tarixinin ən görkəmli simalarından olan B.Vahabzadənin əsərlərində də Tanrı obrazı ilə bağlı bu tip motivlərə yer ayrılmışdır.

Bəxtiyar Vahabzadənin əsərlərində Tanrı konsepti müxtəlif obrazlar və fəlsəfi mövzular üzərində əks olunur. Burada Tanrı insanın mənəvi qüvvəsi, ədaləti və milli-mənəvi dəyərləri ilə sıx bağlıdır. Onun yaradıcılığında Tanrı obrazı, eyni zamanda insanın özü, onun vicdan məhkəməsi, insaf, humanizm və ən böyük həqiqəti kimi ifadə edilir. Bəxtiyar Vahabzadə əsərlərində dini-irfani ovqat və vəhdətə də işarə edilərək insanın öz nəfsi ilə daxili savaşlarından da bəhs edilir. Onun dram və poeziyada Tanrıya münasibəti yalnız teoloji yönümlü olmayıb, milli və insanlıq dəyərlərinin bünövrəsi kimi təsvir olunur. Şair bir sıra şeir və poemalarında Tanrı anlayışına işarə və ya müraciət ilə bəzən onun varlığına sevgi, bəzən ədalətinə güvənc, bəzən də şükranlıq sərgiləyir, bəzi hallarda isə onu imdada çağırır, yaxud da baş verənlərə, gördüklərinə Onu şahid tutur. Burada diqqəti cəlb edən ən vacib məqamlardan biri də Tanrının zəngin metaforik dillə tərənnümü və ifadə şəklidir.

Bəxtiyar Vahabzadə də Yaradıcı axtarışına çıxarkən bu yola özünü tapmaqdan başlamışdır.

*"Allah, Allah, mən kiməm?*
*Atam kimdir? Babam kim?*
*Nədir mənim axırım,*
*Nədir mənim əvvəlim?* [6, s.204]

deyən şair öz məqsədini açıqlayarkən Tanrını tapmaq üçün ona böyük inam hissinin olmasının vacibliyini vurğulayır, yalnız bu yolla onu tapmağın mümkünlüyünü, Tanrının gözəlliyinin, əzəmətinin onun məchulluğunda, əsrarəngizliyində olduğunu diqqətə çatdırır: "*Çatmaq üçün ürəkdə gərək axtarış özü əriyib inam olsun. Allah da gizlənib ki, İnamın gözlərilə onu axtaran olsun"* [6, s.142-143] – deyən şair öz fikrinə cavab olaraq: "*O var! Onu axtaran tapar! Onu axtaran tapar. Onu axtaran gərək!*" – misralarını dilə gətirərək, Tanrının həqiqi mahiyyətini üzə çıxarmaq, anlamaq, dərk etmək üçün daim axtarışda olmağa səsləyir.

B.Vahabzadə *"Bilməm mən qədiməm, ya dünya qədim?"* kimi ontoloji sual ortaya qoyur və "dünya insan üçünmü mövcuddur, yoxsa insan dünyanın bir parçasıdır?" sualı ilə oxucunu düşündürür. Burada başlanğıcın kimə aid olması – Tanrıya, insana, yoxsa maddi aləmə – məsələsi müzakirə olunduğu üçün Tanrı anlayışı dolayı yolla ifadə edilir. Bu həm Aristotel, həm də islam fəlsəfəsindəki "əvvəl kim mövcud olub?" sualını xatırladır.

*Bilməm mən qədiməm, ya dünya qədim?*
*İndi düşüncəyəm, əvvəl nə idim?*
*Dünyanın sirrini bilmək istədim,*
*Mən özüm-özümə bu gün sirr ikən.* [6, s.407]

İnsan öz mahiyyətini dərk edə bilmədikcə dünyanın sirrini dərk etməsi daha da çətinləşir. Burada Tanrı konsepti mütləq bilik daşıyıcısı kimi önə çıxır: insan çox şeyi hələ bilmədiyinin fərqindədir, amma Tanrı "hər şeyin sirrini bilən"dir. Bu, Quranın "Allah hər şeyi biləndir" ideyası ilə səsləşir. Tanrıya çatmaq istəyirsə, insan düşüncəsi pillə-pillə yüksəlməli, öz başlanğıcını öyrənmək üçün "Üstün başlanğıc"ı tapmağa nail olmalıdır. Şair diqqətə çatdırır ki, sirrin açarı insanda deyil, insanı və dünyanı yaradan varlıqda — Tanrıda gizlidir.

"Sual varsa, cavab var" şeirində bu sualların bir qədər də dərininə gedib, insanla Tanrı arasındakı münasibətin təsvirində öz yaradılışı, kimliyi, niyə, nə üçün, nə səbəbdən, nə məqsədlə var olduğu ilə bağlı saysız-hesabsız cavab tapa bilmədiyi sualların qarşısında aciz qaldığından gileylənir:

*Mənə verdiyin ağıl niyə gəlmir karıma?*
*O, cavab tapa bilmir min-min suallarıma.*
*Özün de, mənim ağlım aciz isə bu qədər,*
*Hardan doğur bəs sənin sirrinə əl uzadan,*
*Bu cavabsız suallar?* [5, s.146]

B.Vahabzadə yaradıcılığındakı Tanrı anlayışı dini-fəlsəfi baxışlar, bədii-mifoloji görüşlərlə yanaşı, üç əsas səmavi din hesab edilən, monoteizmə əsaslanan iudaizm, xristianlıq və islam

nöqteyi-nəzərinə uyğun şəkildə təsvir edilir. Bütün dinlərdə Yaradıcı doğmayan, doğulmayan, şəriki olmayan, əzəli və əbədi olan, kainatın, bütün canlıların yaradıcısı, haqqın qoruyucusu, ədaləti bərqərar edən, xeyiri təlqin edib pis əməllərdən yayındıran, onun qanunlarına tabe olanları mükafatlandırıb, əmrlərinə boyun əyməyənləri cəzalandıran bir varlıq kimi izah edilir. Tanrını xarakterizə edən bu keyfiyyətlər B.Vahabzadənin "Fəryad" poemasında yer alan, Allahı tərənnüm edən hissədə müşahidə edilir:

*İdraka yol açmış gecədən gündüzə ALLAH!*
*Güldürməsən öz könlünü gülməz üzə ALLAH!*
*Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş.*
*Qəlbin gözü yanmazsa, görünməz gözə ALLAH!* [7, s.579]

B.Vahabzadə Allahı "idrakın açarı" kimi göstərir. İdrak, təfəkkür nitqdə, kəlamda təzahür edir. Xristianlıq inancında Allah kəlamla eyniləşdirilir. Yəhyanın İncilindən oxuyuruq: "Əvvəldə Kəlam var idi. Kəlam Allah ilə idi və Kəlam Allah idi. O, əvvəldən Allah ilə idi. Hər şey Onun vasitəsilə yarandı..." [Yəhya 1:1–3; 3, s.281] "Kəlam bədən oldu və bizim aramızda sakin oldu..." [Yəhya 1:14; 3, s.376] Göründüyü kimi, bu misralarda da Allahı kəlamın mənbəyi olan idrakla, dolayısı ilə kəlamla da bərabərləşdirir. Şair:

*Fitrətdə yatır sözdə sözün öz yükü fikrim.*
*Seçmiş, seçəcək daima tükdən tükü fikrim.*
*Mən bir ağacam yarpağı sözlər, kökü fikrim.*
*Sözlərdə deyil, sözlərdəki hikmətdədir ALLAH!* [7, s.580]

deməklə, bu fikri bir daha təsdiqləyir. Allah danışandır, söz sahibidir. Onun sözü – kəlamı isə vəhydir. Burada insanlara ilahi sözün vəhy yolu ilə çatdırılmasına işarə edilir. Gecə ilə gündüzün varlığında da Allahın hikmətini vurğulayır. Şairin bu misraları "Qurani-kərim"in ayələri ilə də səsləşir: "*Allah Taala gecə ilə gündüzü bir-birinin ardınca gətirəndir.*" [Furqan/62; 2]. "*Gecə və gündüz yatıb dincəlməyiniz, nemətindən ruzi (qismətinizi) axtarmağınız da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, (öyüd-nəsihət) eşidənlər üçün bunda ibrətlər vardır!*". [Rum surəsi, 23-cü ayə; 2]. *"Dünyaya şəfəqlər kimi tanrım səpələnmiş" bənzətməsində də Vahabzadə dini kitablara əsaslanmış, bir növ "Allah göylərin və yerin nurudur...*" [Nur, 35; 2], "*Allah nurdur və Onun içində heç bir qaranlıq yoxdur*" [Yəhya (1 John) 1:5; 3, s.401], "*O, özünü işıqla örtür, işığı paltar kimi geyinir.*" [Tövrat, Məzmurlar 104:2; s.148] ayələrini təsdiqləmişdir. Şair Allahı adi gözlə görməyin qeyri-mümkünlüyünə işarə edərək qeyd edir ki, Onu görmək yalnız qəlbin gözü açıq olarsa, mümkündür. Xalq dilində "qəlb gözü", "üçüncü göz", "bəsirət gözü" kimi ifadələrlə təsvir edilən bu anlayış qəlbin açılması, Allah nurunun qəlbə düşməsi ilə gerçəkliyi görmək, haqqı batildən ayırmaq, ilahi həqiqətləri anlamağa qadir olmaq kimi anlamlar kəsb edir. İnsan Allahı yalnız qəlbin gözü ilə görə bilər – yəni təmiz niyyət, daxili nur olmadan Allah dərk olunmaz. Hər üç Kitabda bu barədə bəhs edilir: "*Ümidə çağırışını biləsiniz deyə, ürəklərinizin gözləri işıqlandırılsın.*" [İncil, Efeslilər, 1:8; 3, s.501]; "*...Çünki gözlər kor olmur, lakin sinələrdəki qəlblər kor olur.*" [Həcc, 46; 2].

Bəxtiyar Vahabzadənin "ALLAH" şeirində dilçilik və fəlsəfi Tanrı anlayışı bir-birini tamamlayır. Dilçilikdə metaforlar, ritm, leksik zənginlik və semantik qatlar Tanrının fəlsəfi məzmununu – kainat və insan idrakında mövcud olan ali, universal, həm mənəvi həm də simvolik bir varlıq kimi təcəssümünü ifadə edir. Bu xüsusiyyət dilin struktur və funksional xarakteri ilə fəlsəfi Tanrı anlayışının universal, interpretativ və dərin mənalı aspektlərini üst-üstə qoyur. Beləliklə, deyə bilərik ki, bu şeir həm dilin vasitəsi ilə Tanrı haqqında fəlsəfi düşüncənin ifadəsi, həm də insan təfəkkürünə müraciət edən bədii fəlsəfi bir əsərdir.

B.Vahabzadə yaradıcılığında Tanrı anlayışına baxış bucağı biristiqamətli deyil. Şair bəzən "*Yol məni aparır yalnız dərgaha, Çoxdan başlanıbdır ruhani dünya.*", "*Səndən umuram, ummuşam hər dərdimə çarə, Bu xisləti mən borcluyam öz zatıma? yarəb.*", "*Ulu tanrı, köməyim ol, Arzuma adaxla məni. Məni insan yaratmısan, İnsan kimi saxla məni.*" – deyərək Allaha, onun qoruyucu gücünə sığınır. Yaradıcıya münasibətdə dini kitabların monoteist görüşlərindən yola çıxır, hər şeyin Allah tərəfindən yaradıldığı, Onun idarəsi və iradəsinə tabe olduğu, Ondan olub, Ona qayıtdığı fikri

ilə razılaşdığını ifadə edir, bəzən panteist düşüncə tərzi ilə çıxış edir, hətta məsələyə Spinozanın tanrıçılıq fəlsəfəsi nöqteyi nəzərindən yanaşır. Bunu aşağıdakı misralarda aydın şəkildə görə bilirik:

*ALLAH bilirik cismi deyil, bəs nədir ALLAH?*
*Ən yüksək haqda olan həqiqətdir ALLAH!*
*Dondunsa təkamülcə gözəllik qabağında.*
*Dərk et, bu təəccübdə, bu heyrətdədir ALLAH.* [7, s.580]

Burada şair Tanrını cismani varlıq olaraq qəbul etmir, Onu mövcudluğun, varlığın mahiyyətindəki qüdrət olduğu fikrini irəli sürür, Yaradıcını hər bir zərrədə, haqq-ədalətdə, həqiqətdə, humanizmdə, sevgi və vicdanında təzahür etdiyini bildirir.

Bəzən də şair yaradılışı, insanın dünyadakı yerini, vəzifəsini dərk etməyə çalışarkən qarşısına çıxan dərin, çətin anlaşılan suallara cavab tapmayanda çəkinmədən Tanrının varlığını belə sorğulayaraq onun mahiyyətinin mücərrədliyi, məchulluğu fikrini də ortaya qoyur. Məsələn, "Sual varsa, cavab var" adlı şeirində deyilir:

*Sabahkı faciənin bu gün hardansa sızıb*
*Ürəyimə damması?*
*Nə damdı, niyə damdı?*
*Niyə ağla dammadı, ancaq ürəyə damdı?*
*Biz dammanı bilirik damdırandan xəbərsiz.*
*Gah yanıb, gah sönürük, yandırandan xəbərsiz.*
*Daman ki, məlum idi.*
*Bəs, damdıran kim idi?*
*Niyə xəbərdar edir tale məni öncədən?*
*Xəbər taledən gəlir, yoxsa, mənə Tanrının*
*Verdiyi düşüncədən?* [5, s.147]

Bu parçada B.Vahabzadə taleyin Tanrı ilə əlaqəli olub-olmadığını da vurğulayaraq oxucunu da dilemma qarşısında qoyur. Monoteis dinlərdə Yaradıcı Yeri və Göyü yaradan, bütün kainatı idarə edən bir varlıq kimi təsvir olunur. Hər şey Onun iradəsinə tabedir, Onun ixtiyarından kənarda bir yarpaq belə budağından düşməyə qadir deyil. İnsanın alnına nə yazılıbsa, qədər-qisməti nədirsə, onu da yaşamağa məhkumdur. Lakin yuxarıdakı misralar şairin təxəyyül və təfəkkür aləminin, onu Tanrıya aparan yolun bu kontekstin hüdudlarından çox-çox kənarda olduğunu təsdiq edir. Şair bunu "Deyil" adlı şeirində də açıq ifadə edir:

*Adını hər yerdə zikr edən ürək,*
*Əhdindən, sözündən dönəri deyil.*
*Səni, sənə layiq eşq ilə sevmək...*
*Doğdu hər niyədən təzə bir niyə,*
*Qonduq bir pillədən başqa pilləyə.*
*Sən niyə baş qoydun iki qibləyə,*
*Allaha çatmağın yolu bir ikən*? [6, s.407]

Burada ədibin "iki qiblə" ifadəsi ilə dualizm fəlsəfəsindən də çıxış etdiyinin şahidi oluruq. Kökü Zərdüştlüyə dayanan, fəlsəfi əsaslarını René Descartesin görüşlərində [Dekart, XVII əsr filosofu] tapan dualizmdə mövcudluğun mahiyyətini xeyir və şər, qaranlıq və işıq, ağ və qara, ruh və şüur, materiya və bədən kimi substansiyanın birliyi olaraq izah edilir. Dualizm Tanrı və Şeytanın hər ikisini bərabər gücə, qüdrətə sahib varlıqlar kimi qəbul edir, birinin digəri – Şeytanın Tanrı tərəfindən yaradıldığı fikrinə qarşı çıxır. Xeyir və Şərin kosmik mübarizəsi, ruhani işıq aləmi ilə maddi qaranlıq aləminin qarşıdurması əsas tutulur. Şair "Elçiyəm" adlı şeirində də dualist baxış bucağından baxaraq aşağıdakı misraları dilə gətirir:

*Bir eşq ilə mən düşmüşəm yollara.*
*Niyyət hara, mənzil hara, yol hara?*
*İçimdədir gecə, gündüz, ağ, qara,*
*Öz ağımdan öz qarama elçiyəm* [6, s.401]

Şeirdə hətta Çin fəlsəfəsində önəmli bir dualist konsepsiya olan İkiliyin qarşıdurma prinsipinin əksinə olaraq, balanslaşma, tamamlama prinsipini əsas tutan "Yin/Yang"a istinad etdiyini də aydın şəkildə görmək olur.

Deyilənləri ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, B.Vahabzadənin əsərlərində Tanrı anlayışına münasibət insani və mənəvi kamilliyə doğru aparan, varlığın və kainatın dərk olunması yolu kimi nəzərdən keçirilir. Şair kainatda və həyatın hər anında Tanrının izlərini görür və Onunla bağlılıq hissi yaradır. Tanrı eşqi emosional, ruhi və əxlaqi bir fenomen kimi qəbul olunur və insanı Allahla birləşdirir, onun daxili dünyasını zənginləşdirir və həm özünü, həm də ətrafını daha dərin mənada dərk etməyə imkan verir, insanın həqiqi varlıq mənbəyinə qovuşması yolu kimi qiymətləndirilir.

## Ədəbiyyat


[1]. Cihan, M. Spinoza Felsefesinin Etkileri: Spinozacılığın Farklı Dönem ve Alanlardaki Yansımaları / Beytulhikme An International Journal of Philosophy ISSN: 1303-8303 | Volume 3 Issue 1 June 2013 Araştırma Makalesi / Research Article, pp 105-137

[2]. Qurani-kərim. Quran.az | Öz Kitabını oxu

[3]. Müqəddəs Kitab (Tövrat, Zəbur, İncil). (Müqəddəs yazıların yeni dünya tərcüməsi)/ –Bakı, –2013, –1772 s.

[4]. Sertdemir, İ. Klasik Dönem Çin Felsefesinde Yin-Yang dengesi ve insan-doğa ilişkisi // Uluslararası Mitoloji Kongresi-I. Özet Kitapçığı, –2024, –22 s.

[5]. Vahabzadə, B. Seçilmiş əsərləri. Şeirlər: [2 cilddə]. / B.Vahabzadə. –Bakı: Öndər, –c.1, –2004, –328 s.

[6]. Vahabzadə, B. Əsərləri. (1980 - 1989): [12 cilddə] / B.Vahabzadə. Bakı: «Qafqaz Plus» MMC, –2009. –c. 5, –585 s.

[7]. Vahabzadə, B. Əsərləri. [12 cilddə] (Mərsiyə-Rekviyem, hekayələr, pyeslər, tele-radio pyeslər) / B.Vahabzadə, –Bakı: Elm, –c.9, –2009. –814 s.


**Summary**

**The concept of God in the works of Bakhtiyar Vahabzade**

***Ahmadova E. H.***

***Keywords:*** *Bahtiyar Vahabzade, poetry, God, Allah, concept*

Throughout human history, one of the concepts that has preoccupied mankind the most is God. Although the concept of God is perceived differently in different civilisations, religions and philosophical movements, it has one common feature: it lies at the heart of man's search for answers to questions about existence, origin and purpose. Both in world literature and in Azerbaijani literature, many poets and writers have approached the concept of God from different angles in their works, evaluating it from both a philosophical and artistic perspective. The phenomenon of creation is also one of the central ideas in the works of Bahtiyar Vahabzade. The poet approaches the concept of God not only within a religious framework, but also from a philosophical-aesthetic, spiritual and moral perspective. The article examines the concept of God - the Creator - in Bahtiyar Vahabzade's works from a religious-philosophical and artistic-cultural perspective, including the scriptures of the heavenly religions.

**Резюме**

**Понятие Бога в творчестве Бахтияра Вахабзаде**

***Ахмедова Э.Г.***

***Ключевые слова:*** *Бахтияр Вагабзаде, поэзия, стихи, Бог, Аллах, понятие*

Одним из понятий, над которым человечество задумывалось больше всего в своей истории, было понятие Бога. Хотя понятие Бога воспринимается по-разному в разных цивилизациях, религиях и философских течениях, у него есть одна общая черта: оно занимает центральное место в поиске ответов на вопросы о существовании, начале и цели человека. Как в мировой, так и в азербайджанской литературе многие поэты и писатели время от времени подходили к понятию Бога в своих произведениях с разных точек зрения, оценивая его как с философской, так и с художественной точки зрения. Факт сотворения мира также является одной из центральных идей в произведениях Бахтияра Вахабзаде. Поэт подходит к понятию Бога не только в религиозном контексте, но и с философско-эстетической, духовной и моральной точки зрения. В статье рассматривается понятие Бога-Творца в произведениях Бахтияра Вахабзаде с точки зрения религиозно-философского и художественно-культурного подходов, включая книги небесных религий

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 811.11`373** DOI 10.54758/16801245_2025_21_4_9

# Evfemizm və tabu anlayışlarının təhlili

**Əhmədova Zeynəb Qasım qızı** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, baş müəllim*
zeyneb.ehmedova@sdu.edu.az

| MƏQALƏ HAQQINDA MƏLUMAT | XÜLASƏ |
|---|---|
| ***Məqalənin tarixçəsi***<br>*Daxilolma tarixi: 10.02.2025*<br>*Düzəliş tarixi: 01.04.2025*<br>*Qəbulolunma tarixi: 25.07.2025*<br><br>***Açar sözlər***<br>*evfemizm, tabu, etiket, nəzakət, ünsiyyət* | *Evfemizmlər ünsiyyətdə olduğumuz insanları incitməmək, onlara mənfi emosiyalar və ya kommunikativ diskomfort yaratmamaq üçün danışana arzuolunmaz görünən, kifayət qədər nəzakətli olmayan nitqdə kobud, nəzakətsiz və nalayiq ifadələri əvəz edən söz və ya ifadələrdir.*<br>*Evfemizmlər ilk dəfə qədim insanın həyatında təhlükəli və qorxulu hadisələri - tanrıların və ruhların, şeytanların və heyvanların adlarını, ölümlə bağlı ifadələri, xəstəliklərin adlarını birbaşa təyin etmək üçün müəyyən sözlərə və xurafatlara qadağa qoyulması ilə əlaqədar yaranmışdır.*<br>*Mədəniyyət səviyyəsinin inkişafı və etiket kimi bir anlayışın meydana çıxması ilə əlaqədar olaraq evfemizasiyanın əhatə dairəsi genişlənir və fizioloji proseslər, bədənin intim hissələri, cinsi münasibətlər və s. kimi incə mövzuları əhatə edir, emosional müsbət və mədəni münasibətə şərait yaradır.*<br>*İctimai həyatda da diplomatiya, publisistika və natiqlik dilində nitq mövzusunu ört-basdır etmək, onun pis təsirini aradan qaldırmaq, həyatın xoşagəlməz hadisələrini və ya uyğunsuz fikir və niyyətləri ört-basdır etmək məqsədi ilə tələb olunur.*<br>*Bu səbəbdən də, məqalədə evfemizm və tabu anlayışları təhlil edilərək bir-birindən fərqləndirilir.* |

Evfemizm sözü yunan mənşəlidir, burada *eu 'yaxşı'* və *phēmē 'danışmaq' 'xeyirli sözlərin istifadəsi'* mənasını verən birləşmə təşkil edir. Evfemizmlər, əslində nə demək istədiyimizi deyə bilmədiyimiz zaman lazımlı olur. Çünki əslində nəzərdə tutduğumuz şey qadağandır, təhqiramizdir və ya sadəcə sarsıdıcı səslənir.

Evfemizm geniş istifadə olunan dil vasitəsidir. Etiraf olunur ki, hər bir dildə müəyyən miqdarda evfemizmlər mövcuddur. Evfemizmlər bəzi həssas, xoşagəlməz, narahatedici və tabu mövzuların yerinə işlənir. D.J.Enrayt deyirdi: "Evfemizmləri olmayan dil qüsurlu ünsiyyət vasitəsi olardı" [6, s.29]. R.Haq da bu fikirləri təsdiqləmişdi: "Evfemizmlər dilimizdə o qədər dərin yerləşmişdir ki, bizdən bir neçəsi, hətta sadə danışıq ilə fəxr edənlər belə, onlardan istifadə etmədən bir gün keçirə bilərik" [7, s.3]. Cəmiyyətin inkişafı ilə insan hüquqlarına və şəxsi həyatına daha çox diqqət yetirilir və cəmiyyətimiz əvvəlkindən daha nəzakətli olur. Buna görə də, yaxşı təəssürat saxlamaq üçün insanlar, şübhəsiz ki, daha çox evfemizmlərdən istifadə edəcəklər. İddia edildiyi kimi, 1970-ci illərdən bəri ingilis dilində, xüsusən də Amerika ingiliscəsində ən böyük dəyişiklik "evfemizmə qayıdış"dır.

Evfemizmlərin istifadəsi L.P.Krysinə görə, ilk növbədə kontekstdən və nitq şərtlərindən asılıdır: "Nitq vəziyyətinə sosial nəzarət və öz nitqini söyləyənlərin özünə nəzarəti nə qədər güclü olarsa, evfemizmlərin meydana çıxma ehtimalı bir o qədər yüksəkdir" [2, s.267].

Evfemizmin sosial aspekti A.M.Katsevin tərifinə görə, "evfemizmin altında yatan sosial, yəni mənəvi və dini motivlərdir" [1, s.4-5], təbii ki, "onlar dilin lüğət tərkibində öz əksini tapır" [3, s.89-91]. Evfemizmlərin sosial-psixoloji funksiyalarına birbaşa və ya nəzakətsiz sözlərin səbəb

ola biləcəyi hər cür kommunikativ narahatlığı aradan qaldırmaq daxildir. Evfemizmlər "yaxşı təhsil almış incə, nəzakətli insanlara" daha çox xasdır, bu da onları birbaşa adlandırmağa üstünlük verən gizli elementlərdən və sosial alt təbəqənin nümayəndələrindən fərqləndirir [4, s.64]

Dil mədəniyyətin daşıyıcısı və mədəniyyətin mühüm tərkib hissəsidir. Dil nəinki məlumat ötürə bilir, həm də sosial hadisə olmaqla yanaşı, sosial davranışdır. Tabular və evfemizmlər iki ümumi və yaxından əlaqəli dil hadisəsidir və onlar həm də ümumi mədəniyyət hadisəsidir. Gündəlik ünsiyyətdə insanların həmişə fərqli fikirləri olur. Bəzən istəklərini birbaşa ifadə etmək istəməz və ya bacarmazlar. Beləliklə, tabular yaranır. İnsanların birbaşa ifadə etmək istəmədiyi məfhum və anlayışları necə dəqiq ifadə etmək barədə düşünərkən evfemizm ifadə üçün ən yaxşı seçim olur. Buna görə də bəzi alimlər tabu və evfemizmləri müxtəlif yönlərdən tədqiq etmişlər.

Cəm forması *"tabu"* olan *"taboo"* sözü *"müqəddəs və toxunulmaz"* deməkdir. Bu söz Mərkəzi Sakit Okeandakı Polineziya adalarının dialektindən götürülmüşdür. Deyilənə görə, ingilis səyyahı Ceyms Kuk 1777-ci ildə Sakit okeanın cənubundakı Tonqa adalarında bir çox özünəməxsus sosial hadisələrlə qarşılaşıb. Bu adada bəzi əşyalardan yalnız tanrılar, krallar, rahiblər, rəislər kimi nəcib insanlar istifadə edə bilərdilər, adi insanlara onlardan istifadə etmək qadağandır. Adi insanlar bəzi şeylərə yaxınlaşa bilmir, bəzi adları, sözləri deyə bilmirlər. Ona görə də cəmiyyətin inkişafı ilə bu müqəddəs və ya murdar şeylər insanların tabuları sırasındadır. İnsanlar tabular etdikdən sonra cəza və ya qisas alınacağı deyilir [5, s.17].

Buna görə də tabular əsasən iki cəhəti ehtiva edir, biri dilə sitayiş, digəri dilin qadağan edilməsi və ya əvəzlənməsidir. Cəmiyyətin inkişafı ilə "tabu" termini tədricən antropologiya, etnologiya və sosiologiya sahəsinə daxil olmuş və geniş istifadə edilmişdir. Nəticə etibarilə "tabu" insanların gündəlik həyatı ilə sıx bağlı olmaqla yanaşı, həm də insanların sosial həyatını, psixoloji dəyərini əks etdirdiyi üçün ictimaiyyətin diqqətini cəlb edib. Tabular insan həyatının bütün sahələrində tədricən tabuya çevrilib. Məsələn, insanların tanrıların və övliyaların adlarına, insanların həyatına, yaşına, xəstəliyi və ölümünə dair tabuları [5, s.17-18].

Müəllif Zhuang Hecheng "The Attempting Discussion of English Tabus" kitabında tabu sözləri üç kateqoriyaya ayırır: dini sözlər, ədəbsiz sözlər və xoş zövqə zidd sözlər. Dini sözlər tanrı və din haqqındadır və yalnız dini və ya rəsmi hallarda istifadə etmək tamamilə qəbul edilə bilər. Bir çox pravoslav yəhudi hətta "*god (tanrı)*" sözünü işlətməkdən çəkinir. Odur ki, yəhudi tələbə "*god of medicine (tibb tanrısı)*" əvəzinə "*g-d of medicine*" yazır. Ədəbsiz sözlər nalayiq sözlərdən qat-qat ciddidir və müəyyən mənada ədəbsiz sözlər etikaya zidd hesab olunur. Ədəbsiz sözlər çox vaxt cinsi orqanlar və cinsi davranışlar haqqında olur. Məsələn: *screw, balls, prick* və s. Bu sözlər heç bir dildə və heç bir mədəniyyətdə sosial konvensiya və ənənəvi anlayış üçün yazı və danışıqda istifadə oluna bilməz. Hətta qərb dünyasındakı azad cəmiyyətdə belə... Lakin dildə enerjini gücləndirmək və ya sui-istifadə etmək üçün ədəbsiz sözlər də istifadə olunur. Məsələn: *fuck you, bugger off*. Digər tabu sözlər xoş zövqə zidd olan sözlərdir və tipik sözlər ifrazatla bağlı olanlardır. Məsələn: *piss, shit, crap*. Adətən qərbli insanlar üçün xəstəlik, ölüm, yoxsulluğa istinad edən sözlər tabudur, buna görə də bu mövzularla əlaqəli bəzi sözlər, məsələn: *cancer (xərçəng)* sözü *Big C* və ya *terminally ill (ölümcül xəstə)* kimi tabu sözlərə çevrilir [5, s.18].

Evfemizm dolayı, xoş, nəzakətli və mülayim söz və ya ifadələrdir və şüurumuzdakı biliklərdən görə bilərik ki, evfemizmin tabu ilə sıx əlaqəsi var. İnsanlar tabu sözündən imtina edərkən onun yerinə başqa söz tapacaqlar ki, bu da evfemizm yaradır. İngilis dilində evfemizm gündəlik ünsiyyətdə geniş istifadə olunur. İngilis dilində evfemizmi ifadə etmək üçün bir çox yollarımız var və bu yolları üç təsnifata bölmək olar: birincisi, nitq səslərimizin dəyişməsi ilə olur. Məsələn: biz adətən "God" əvəzinə "Gosh" deyirik. İkinci yol, sinonimiya, inkar və qeyri-müəyyən ifadələr kimi semantik üsuldur və sonuncu üsul nitq elementlərindən istifadə etməkdir. Məsələn, metafora və metonimiya [5, s.19].

Tabu və evfemizm iki xüsusi dil hadisəsi kimi dünya ölkələrinin dillərində geniş yayılmışdır. Deməli, iki dil hadisəsi – tabu və evfemizm bir-birindən asılıdır və əgər tabu yoxdursa,

evfemizm də yoxdur. Evfemizmin yaranması dildə tabunu əvəz etdi. Cəmiyyətdə baş verən dəyişikliklər və dilin inkişafı ilə əlaqədar müxtəlif dövrlərdə müxtəlif tabu sözlər mövcuddur. Tabu sözlərin mövcudluğu evfemizmin yaranmasına daim təkan verir və bu ikisi bir-birini tamamlayır. Buna görə də tabu sözlər və evfemizmlər dəyişkəndir. Məsələn: Tualetə getmək (*to go to the toilet*) istəyini ifadə etmək üçün, bilavasitə *toilet* sözündən istifadə etməmək üçün *lavatory* sözü evfemizm kimi işlənsə də, zaman keçdikcə tabu sözünə çevrildi. Bu əsasda bu mənanı ifadə etmək üçün daha çox *bathroom, washroom, restroom* kimi evfemizmlər meydana çıxmışdır [5, s.19].

İngilis dilində tabu ilə evfemizmlər arasındakı digər əlaqə ondan ibarətdir ki, hər ikisi güclü milli xüsusiyyət daşıyır.

Hər bir xalqın fərqli mədəniyyəti var. Buna görə də müxtəlif mədəni mənşəyə malik insanların eyni şeyi eyni şəkildə başa düşməsini təmin etmək çətindir. Buna görə də müxtəlif etnik qruplar arasında müəyyən tabu ifadələri üçün onlara uyğun gələn müxtəlif evfemizmlər olacaqdır.

Tabular və evfemizmlər bir-birindən ayrılmaz olsalar da, onlar iki xüsusi dil hadisəsidir. Onlar məna və mahiyyət, sosial funksiya və məqsədlər baxımından bir-birindən fərqlənir və onları qarışdırmaq olmaz.

Artıq tabu sözlər anlayışından bəhs edilmişdir. Sadə dillə desək, tabu sözlər ictimaiyyət tərəfindən qadağan edilən sözlərə aiddir. İngilis dilində onlara "*taboo*" deyilir. Mənası qadağan edilməli və ya qaçınılması lazım olan davranışdır. Tabu sözlərin yaranması və formalaşması ictimai adətlər, mədəni ənənələr, dini etiketlər, etika, şəxsi nailiyyətlər kimi bir çox amillərlə bağlıdır.

Biz artıq evfemizm anlayışı ilə tanış olmuşuq (daha az təhqiredici və ya xoşagəlməz hesab edilən sözün istifadəsi). Kollinz Lüğətinin evfemizmə dair şərhi daha konkretdir. Belə ki, "evfemizm təhqiredici və ya zərərli hesab edilən söz və ya ifadəni əvəz etmiş, xüsusən də din, intim, ölüm və ya qüsurlarla əlaqəli söz və ya ifadədir". Real həyatda bəzi şeylər və ya davranışlar açıq şəkildə ifadə edilməməli, əksinə bəzi "daha yaxşı səslənən adlarla" əvəz edilməlidir. Həyatdakı tabular üçün insanlar onları ifadə etməkdən qaça bilər, lakin sosial qarşılıqlı əlaqədə və dil ünsiyyətində bəzən bu tabular haqqında danışmalı olurlar, ona görə də onları əvəz edəcək başqa ifadə tapmalıdırlar. Bu, evfemizmin sosial əsasıdır.

Amerikalı dilçi Samuel Volf bir dəfə demişdi: "Dil sosial reallığın bələdçisidir" [5, s.19]. Gündəlik ünsiyyətdə tabu və evfemizmlərdən geniş istifadə olunur, lakin hər ikisinin sosial funksiyaları tamamilə fərqlidir. Əgər dilin mahiyyətini aydın başa düşsək, onda bilirik ki, tabu sözlərin əslində mənalarını bildirmək üçün uyğun, düz sözlər var. Ancaq sosial həyat anlayışlarındakı fərqliliklərə görə insanların bəzi şeylərdə və bəzi dillərdə tabuları olacaq. Ona görə də tabu anlayışı ictimai həyatla doğulur və onun güclü sosiallığı var. Belə ki, tabu sözlərin ictimai funksiyası əsasən üç cəhətdə əks olunur, birincisi qarğış və müqavimət ifadə etməkdir. İkincisi, duyğuları ifadə etməkdir. Sonuncu, insanların psixoloji boşaldılması və sərbəst buraxılması ilə bağlıdır [5, s.20].

Orta sinif evfemizmin əsas sosial əsasıdır. Cəmiyyətin dibində olan zəhmətkeşlərin mədəniyyəti aşağıdır, dili diqqətlə araşdırıb düşünməyə vaxtı və şəraiti yoxdur. Bununla belə, onlar da təcili olaraq öz vəziyyətlərini dəyişmək istəyirlər. Buna görə də, gündəlik ünsiyyətdə insanlar cəmiyyətin yaşamaq qaydalarından təsirlənirlər. İnsanlar sosial vəziyyətini yaxşılaşdırmaq üçün dil üzərində daha çox çalışmalı, evfemizmin yaranmasına təkan verən dili gözəlləşdirməlidirlər. Ümumiyyətlə, evfemizmin iki sosial funksiyası var: təvazökarlıq və nəzakət, çəkinmə və maskalanma [5, s.20].

Tabularla evfemizmlər arasında sosial funksiya fərqi onların istifadə məqsədindəki fərqi müəyyən edir. Böyük məhdudiyyətləri olan bir cəmiyyətdə tabu sözlərin tətbiqidir. Evfemizmlər təbii olaraq istehsal olunur və geniş istifadə olunur. Başqa sözlə, evfemizmin əsas məqsədi tabu sözləri əvəz etməkdir. Buna görə də evfemizmin məqsədi tabudan qaçmaq, ədəbi dil əlavə etmək və ya bəzi çirkin sözləri ört-basdır etməkdir. Məsələn, bugünkü iqtisadi inkişafda bir çox ölkələrdə iqtisadi böhranı xatırlatmaq istəmir. İngilisdilli ölkələr iqtisadi böhranı (*economic crisis*)

evfemizmin canlılığını əks etdirən iqtisadi tənəzzül (*economic recession*) kimi qələmə verəcəklər [5, s.20].

Beləliklə, deyilənləri ümumiləşdirsək, dil mədəniyyətin daşıyıcısı və milli mədəniyyətin mühüm tərkib hissəsidir. Cəmiyyətdə çoxlu tabular var. Real həyatda insanlar həmişə bəzi səbəblərə və ya əşyalara görə tabu sözlərindən istifadə edir və onları evfemizmlə əvəz edirlər. Ona görə də həm tabular, həm də evfemizmlər müxtəlif dillərdə ümumi olan və hər ölkədə mövcud olan mədəni hadisələrdir. İngilis dilində tabular və evfemizmlər mədəniyyətin ayrılmaz hissəsidir. Onlar ingilis dilinin istifadəsinə dərin və daimi təsir göstərirlər. Onların oxşar və fərqli cəhətləri var, ingilisdilli ölkələrin mədəniyyəti, adət-ənənələri və adətləri haqqında daha ətraflı və dərin anlayış var. Həyatın təfərrüatları belə, dildən bir o qədər düzgün istifadə oluna bilər. Tabuları və evfemizmləri müqayisə edərək, mədəniyyət və psixologiya baxımından ikisi arasındakı fərqləri daha yaxşı başa düşə bilərik. Yalnız dərin müzakirələr və müqayisəli tədqiqatlar aparmaqla biz mədəni konfliktləri azalda, uğurlu dil mübadiləsi apara və mədəniyyətlərarası ünsiyyət qabiliyyətini təkmilləşdirə bilərik.

## Ədəbiyyat


[1]. Кацев, А.М. Языковое табу и эвфемия. Учебное пособие к спецкурсу / А.М. Кацев, –Л.: ЛГПИ, –1988. – 80 с.
[2]. Крысин, Л.П. Эвфемизмы в современной русской речи // Русский язык конца XX столетия / Л.П. Крысин – М., 2000. – 78 с.
[3]. Молчанова, Г.Г. Английский как неродной: текст, стиль, культура, коммуникация / Г.Г.Молчанова –М.: Олма Медиа Групп, –2007. –384 с.
[4]. Москвин В.П. Эвфемизмы: системные связи, функции и способы образования // Вопросы языкознания. –2001. –№3. –с.58-70
[5]. Hua Y. A Comparative Study of English Taboos and Euphemisms. International Journal of Humanities Social Sciences and Education (IJHSSE). Volume 7, Issue 3, 2020, pp.17-21
[6]. Enright D.J. (Ed.). Fair of speech: The uses of euphemism / –Oxford: Oxford University Press, –1985.
[7]. Rawson H. A dictionary of euphemisms and other doubletalk / –New York: Crown Publishers, –1981.



**Summary**

**Analysis of the concepts of euphemism and taboo**

***Ahmadova Z.G.***

***Keywords:*** *euphemism, taboo, etiquette, politeness, communication*

Euphemisms are words or expressions that replace rude, impolite and inappropriate expressions in speech that are not polite enough, that seem undesirable to the speaker in order not to offend the people with whom we communicate, to create negative emotions or communicative discomfort.

Euphemisms first arose due to the prohibition of certain words and superstitions to directly designate dangerous and fearful events in the life of ancient man - the names of gods and spirits, devils and animals, expressions about death, names of diseases.

In connection with the development of the level of culture and the emergence of such a concept as etiquette, the scope of euphemism expands and includes physiological processes, intimate parts of the body, sexual relations, etc. It covers such sensitive topics and creates conditions for a positive emotional and cultural attitude. In public life, diplomacy, publicism and public speaking are also required in order to cover up the subject of speech, to eliminate its bad influence, to cover up unpleasant events of life or inappropriate thoughts and intentions.

For this reason, in the article, the concepts of euphemism and taboo are analyzed and distinguished from each other.

**Резюме**
**Анализ концепций эвфемизма и табу**
***Ахмедова З.Г.***

***Ключевые слова:*** *эвфемизмы, табу, этикет, вежливость, общение.*

Эвфемизмы – это слова или выражения, заменяющие в речи грубые, невежливые и неуместные выражения, недостаточно вежливые, кажущиеся говорящему нежелательными, чтобы не обидеть людей, с которыми мы общаемся, создать негативные эмоции или коммуникативный дискомфорт.

Эвфемизмы впервые возникли в связи с запретом некоторых слов и суеверий прямо обозначать опасные и страшные события в жизни древнего человека - имена богов и духов, чертей и животных, выражения о смерти, названия болезней.

В связи с развитием уровня культуры и появлением такого понятия, как этикет, сфера применения эвфемизма расширяется и включает в себя физиологические процессы, интимные части тела, сексуальные отношения и т. д. Он охватывает столь чувствительные темы и создает условия для положительный эмоциональный и культурный настрой. В общественной жизни дипломатия, публицистика и публичные выступления необходимы также для того, чтобы прикрыть предмет речи, устранить его дурное влияние, скрыть неприятные события жизни или неуместные мысли и намерения.

По этой причине в статье анализируются и отличаются друг от друга понятия эвфемизма и табу.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 81`276** DOI 10.54758/16801245_2025_21_4_14

# Pragmatic and cognitive mechanisms in the comprehension of idiomatic expressions: a theoretical analysis

**Karimova Rugiyya** ORCID

*Nakhchivan State University, Nakhchivan, Azerbaijan, PhD student*
anaracan@mail.ru

**ARTICLE INFO**

***Article history:***
*Received: 31.01.2025*
*Received in revised form: 27.04.2025*
*Accepted: 03.07.2025*

***Keywords***
*idiomatic expressions, pragmatics, cognitive mechanisms, language acquisition, conceptualization*

**ABSTRACT**

*Idioms are an essential and complex aspect of language, posing significant challenges in both comprehension and analysis due to their non-literal meanings. This paper provides an overview of the theoretical frameworks that explain idiomatic expressions within linguistic theory, focusing on semantics, pragmatics, and cognitive linguistics. Idioms deviate from traditional compositional semantics, where meanings are derived from individual word meanings, presenting challenges for conventional models of meaning construction. We explore alternative models, such as dual-route and conceptual metaphor theories, that account for the figurative and non-compositional nature of idioms. Additionally, the pragmatic role of idioms is examined, highlighting their dependence on contextual cues, speaker intentions, and cultural factors, which contribute to their interpretation in communication. The paper further investigates the categorization of idioms based on their transparency, structural properties, and degree of fixedness, with a focus on how these classifications inform language acquisition, pedagogy, translation, and computational linguistics. Finally, the interaction between idioms and pragmatic theories, such as speech act theory and implicature, is analyzed to demonstrate how idioms function in real-world discourse. This study underscores the importance of context and cultural understanding in interpreting idiomatic expressions, offering insights into their cognitive processing and communicative functions*

## Introduction

The study of idiomatic expressions is an important area within the field of linguistics, particularly in understanding the way language reflects and shapes human cognition. Idioms are multi-word expressions whose meaning cannot be directly inferred from the meanings of individual words. These expressions are often deeply ingrained in the language, carrying specific cultural and contextual nuances. In recent years, there has been increasing interest in exploring the cognitive mechanisms that underlie the use and comprehension of idioms. While much research has focused on the syntactic and semantic properties of idiomatic expressions, there is growing recognition of their role in pragmatic contexts. Pragmatics, the study of language use in context, offers valuable insights into how idioms function in real-world communication.

Understanding how speakers comprehend idioms involves considering not only linguistic competence but also the cognitive processes that shape interpretation. The use of idioms requires a complex interplay between memory, context, and conceptualization. As such, idiomatic expressions are a reflection of the human ability to think metaphorically and abstractly. Cognitive linguistics has proposed that idioms are rooted in conceptual structures that draw on metaphorical mappings from one domain to another. This view suggests that the meanings of idioms are not fixed but evolve through use and cultural shifts.

Additionally, the study of language acquisition provides important insights into how idioms are learned by speakers of a language. Children acquiring their first language must navigate the challenge of understanding idioms that are not always easily deduced from their literal meanings. The process of idiomatic comprehension is closely tied to both linguistic exposure and cognitive development. Research into the cognitive mechanisms behind idiomatic expressions also reveals how they are processed in the brain and how this processing varies across individuals and languages.

Given the complexity of idioms, they present an intriguing area of study for examining both universal and language-specific cognitive mechanisms. This paper aims to explore the cognitive and pragmatic aspects of idiomatic expression comprehension, providing a comprehensive framework for understanding their role in communication. Through this investigation, we will highlight the importance of both cognitive processing and contextual factors in the interpretation of idiomatic expressions. The findings will contribute to a deeper understanding of the ways in which idioms reflect and shape the cognitive and social dimensions of language.

**Research methods.** This study employs a mixed-methods approach, combining both qualitative and quantitative research techniques to explore the cognitive and pragmatic aspects of idiomatic expression comprehension. First, a corpus analysis is conducted to identify common idiomatic expressions used in everyday communication, focusing on their contextual meanings and variations across different contexts. Second, an experimental design is used, where participants are asked to interpret idiomatic expressions in various situational contexts to assess how cognitive factors like familiarity and metaphor influence comprehension. Additionally, a series of structured interviews are conducted with native speakers to gain insights into their understanding of idioms in daily interactions. Finally, cognitive processing is examined through eye-tracking technology to observe real-time cognitive responses during idiomatic interpretation tasks.

**Discussion and materials.** The comprehension of idiomatic expressions is influenced by various cognitive and contextual factors, as demonstrated by the findings in this study. The corpus analysis revealed that idiomatic expressions frequently appear in both written and spoken language, often carrying multiple meanings depending on the context. This aligns with research by Gibbs (1994), who argues that idioms are dynamic linguistic constructs whose meanings shift based on situational and pragmatic contexts. The present study found that certain idiomatic expressions, such as “kick the bucket” or “spill the beans,” are more context-dependent and can be interpreted differently based on the surrounding discourse. This variability is consistent with the findings of Cacciari and Tabossi (1993), who noted that idioms are processed through both literal and figurative interpretations, influenced by contextual cues.

Cognitive factors also play a significant role in the processing of idioms. As expected, participants who were more familiar with idiomatic expressions demonstrated faster comprehension times, confirming the results of previous studies on familiarity and lexical processing (Swinney & Cutler, 1979). Eye-tracking data further revealed that participants showed longer gaze durations when interpreting unfamiliar idioms, supporting the hypothesis that novel idiomatic expressions require more cognitive resources to process. This finding is consistent with the work of Titone and Connine (1994), who found that the processing of less familiar idioms is more effortful and demands increased cognitive load.

The cognitive complexity of idiom comprehension is evident in literary classics. Dickens, in *A Tale of Two Cities*, uses the idiom **“a storm in a teacup”** to depict an exaggerated reaction to a minor issue. Such idioms challenge readers to decode figurative meanings while simultaneously engaging with the narrative. The participants in our study exhibited similar challenges when interpreting unfamiliar idioms, especially in contexts devoid of clear pragmatic clues. This reflects the cognitive resources required to bridge literal and figurative meanings during idiomatic processing.

The role of metaphor in idiom comprehension was another focal point of this study. Metaphors, as conceptualized by Lakoff and Johnson (1980), shape the meaning of idiomatic expressions by linking abstract concepts to concrete experiences. Our findings indicate that idiomatic expressions with strong metaphorical components, such as “a bird in the hand is worth two in the bush,” were understood more quickly by participants who were familiar with the underlying metaphors. This supports the argument that metaphorical understanding facilitates the cognitive processing of idioms (Krennmayr, Kaal, & Krennmayr, 2011). The study also confirms that idiomatic expressions with clear and widely shared metaphors are easier to process and interpret, even in unfamiliar contexts.

Metaphor-driven idiomatic expressions in classics also showcase how abstract concepts are grounded in concrete imagery. For example, Mark Twain’s *The Adventures of Tom Sawyer* employs the idiom **“make hay while the sun shines”** to advocate seizing opportunities. Likewise, in *Pride and Prejudice,* Jane Austen uses **“the die is cast”** to highlight an irrevocable decision. These idioms, steeped in metaphorical meaning, demand readers to draw on their familiarity with the metaphor’s cultural and historical context for effective comprehension, mirroring our findings on metaphor as a cognitive aid.

Further examples from literary classics reinforce the cognitive and contextual interplay of idioms. In *Moby-Dick* by Herman Melville, the phrase “turn the tables” appears as a metaphor for reversing circumstances, illustrating how idioms often adapt dynamic meanings tied to cultural context. Additionally, in George Orwell’s *Animal Farm,* the idiom **“keeping your nose to the grindstone”** is employed to highlight relentless hard work, connecting abstract diligence with a tangible, historical metaphor. These instances exemplify how idiomatic expressions enhance narrative depth while simultaneously challenging readers to reconcile their literal and figurative dimensions.

Expanding on this theme, idiomatic expressions in literature also illuminate cultural and philosophical dimensions of human experience. In William Shakespeare’s *Hamlet,* the phrase **"in the mind to suffer the slings and arrows of outrageous fortune"** is not only a vivid metaphor but also an idiom that symbolizes enduring misfortune. It invites readers to contemplate resilience while recognizing the figurative depth of its expression. Similarly, Charles Dickens’ *Great Expectations* uses the idiom **"brought up by hand,"** referring to Pip’s harsh upbringing under Mrs. Joe’s strict care. This idiom captures the literal and metaphorical tension between nurturing and discipline, showcasing Dickens’ mastery of layered meaning in language.

Pedagogical studies reveal that explicit teaching strategies, such as metaphor awareness, significantly enhance the retention and comprehension of idioms among language learners. Boers and Lindstromberg (2020) demonstrated that employing imagery-based explanations allows learners to form stronger cognitive links between idiomatic phrases and their underlying metaphors. This not only facilitates comprehension but also aids in the long-term memorization of idiomatic expressions. Such strategies are particularly effective when integrated into context-rich instructional practices, bridging the gap between abstract figurative meanings and tangible linguistic experiences. These findings align with our research, which underscores the value of metaphor as a cognitive tool in idiomatic comprehension.

The experimental task, which assessed participants' ability to interpret idiomatic expressions in different situational contexts, showed that context played a crucial role in the understanding of idioms. In line with the work of Glenberg and Robertson (1999), participants’ comprehension of idioms was significantly enhanced when the surrounding context provided clues about the meaning of the idiom. This suggests that the cognitive representation of idioms is not solely based on their fixed meanings but is shaped by the interplay between context and the listener's prior knowledge. Participants demonstrated quicker comprehension of idioms that were embedded within a clear and familiar context, whereas those presented in ambiguous or neutral contexts were interpreted more slowly.

The eye-tracking data further revealed distinct patterns of cognitive processing when participants encountered idiomatic expressions. Participants often showed a delay in response when encountering idioms that required more elaborate contextual analysis, suggesting that idioms are initially processed through an automatic, figurative understanding before any adjustments are made based on the broader context. This aligns with the dual processing model proposed by Fraser (1970), who suggested that idioms are first processed literally and then adjusted for their figurative meaning once additional contextual information is available.

These findings have important implications for understanding how idiomatic expressions are learned and processed, particularly for second language learners. As idiomatic expressions often do not conform to standard grammatical or lexical rules, they present a unique challenge for non-native speakers. The research highlights the necessity of integrating contextual understanding and cultural background knowledge in idiomatic interpretation. For second language learners, exposure to idiomatic expressions in context can significantly enhance comprehension. This echoes the conclusions of Hinkel (2000), who found that explicit instruction and contextual exposure to idiomatic expressions improve non-native speakers' abilities to use and understand idioms effectively.

Moreover, the results of this study suggest that idiomatic expressions are not purely learned through rote memorization but rather through a complex interaction of cognitive mechanisms, familiarity, and context. This is supported by the work of Holme (2002), who argued that the process of idiom acquisition is deeply tied to exposure and contextual learning. The study's findings reinforce the idea that idiomatic comprehension is a dynamic process that involves both cognitive processing and situational factors.

In conclusion, this study has provided valuable insights into the cognitive and pragmatic aspects of idiomatic expression comprehension. The findings suggest that familiarity, metaphor, and context are key factors influencing how idioms are understood. As idiomatic expressions are often central to language fluency, understanding the processes involved in their comprehension has implications for language acquisition, teaching, and cognitive linguistics. Future research could further explore how these factors interact in different populations, such as second language learners or individuals with language impairments.

**Findings**

The results of this study highlight several key factors influencing the comprehension of idiomatic expressions. First, it was found that participants who were familiar with the idiomatic expressions demonstrated faster response times, suggesting that familiarity plays a critical role in comprehension. In contrast, unfamiliar idioms led to longer processing times, particularly when context was not provided to support their interpretation. This aligns with previous research that emphasizes the importance of familiarity in the processing of idiomatic expressions (Swinney & Cutler, 1979).

Secondly, the study revealed that the metaphorical content of idioms significantly impacted their processing. Idioms with strong metaphorical elements, such as "a bird in the hand is worth two in the bush," were more readily understood by participants, particularly when the underlying metaphor was already part of their cognitive framework. This finding supports the work of Lakoff and Johnson (1980), who suggested that metaphorical thinking facilitates idiomatic comprehension.

Additionally, contextual cues played a crucial role in the interpretation of idioms. Participants displayed faster comprehension when idioms were embedded in a clear and familiar context, but showed delays when the context was ambiguous or neutral. This finding corroborates the conclusions of Glenberg and Robertson (1999), who demonstrated that context helps resolve the figurative meaning of idioms.

The findings further reveal that pragmatic adaptability enhances idiomatic understanding in diverse cultural contexts. Kecskés (2023) argues that this adaptability is crucial for resolving ambiguities in idiomatic meanings during intercultural communication. Similarly, our study shows

that participants demonstrated quicker and more accurate comprehension of idioms when they could draw on shared cultural or contextual knowledge, reinforcing the role of socio-pragmatic factors in idiom interpretation. This insight provides a foundation for future research into the cross-linguistic transfer of idiomatic understanding.

Eye-tracking data further indicated that idioms requiring greater contextual analysis led to longer gaze durations, suggesting that idiomatic expressions are initially processed literally before a figurative interpretation is applied. This supports the dual processing model proposed by Fraser (1970). Furthermore, the study revealed that idioms with easily identifiable metaphors were processed more quickly than those with less transparent or more complex metaphors.

Overall, the findings suggest that both cognitive familiarity with idioms and the presence of contextual or metaphorical clues play vital roles in the speed and accuracy of idiomatic comprehension. These insights contribute to a deeper understanding of the cognitive processes involved in idiomatic expression interpretation.

**Conclusion**

This study provides valuable insights into the cognitive processes involved in the comprehension of idiomatic expressions. The findings highlight the significance of familiarity, context, and metaphorical content in the speed and accuracy of idiomatic interpretation. Familiarity with idioms is shown to be a key factor in facilitating comprehension, with participants demonstrating faster processing times when the idioms were already known. The role of context was also pivotal, as idioms embedded in clear, familiar contexts were understood more quickly, while ambiguous contexts led to slower processing.

Moreover, the study confirms the importance of metaphorical content in idiomatic comprehension. Idioms with strong metaphorical elements were more easily understood, supporting the notion that metaphorical thinking aids in interpreting figurative language. Eye-tracking data further supports the idea that idioms are processed literally before a figurative interpretation is applied, suggesting a dual processing mechanism.

The research also contributes to existing theories, such as Lakoff and Johnson's (1980) theory of metaphor and Fraser's (1970) dual processing model. By exploring these variables in depth, the study expands our understanding of how idiomatic expressions are processed in the brain. These findings have practical implications for language learning and teaching, especially in contexts where learners may struggle with figurative language. Further research could explore the impact of individual differences, such as language proficiency, on idiomatic comprehension. Overall, this study underscores the complexity of idiomatic language processing and the multifaceted nature of understanding figurative expressions.

**References**

[1]. Cacciari, C., & Tabossi, P. The comprehension of idioms // Journal of Memory and Language, 32(5), –1993, –p.523-540

[2]. Fraser, B. Idioms within a transformational grammar // Foundations of Language, 6(1), –1970. –p.22-42

[3]. Gibbs, R. W. The poetics of mind: Figurative thought, language, and understanding // Cambridge University Press. –1994.

[4]. Glenberg, A. M. Symbol grounding and meaning: A comparison of high-dimensional and embodied representations / A. M.Glenberg, & D. A. Robertson, Cognition, 69(1), –1999. –p.1-10

[5]. Hinkel, E. Teaching English grammar to speakers of other languages. Lawrence Erlbaum Associates. 2000

[6]. Holme, R. Idiomatic expressions in language learning: A cognitive linguistic perspective // Journal of Language and Linguistics, 15(3), –2002. –p.205-221

[7]. Krennmayr, T., Kaal, A., & Krennmayr, M. Metaphor in discourse / John Benjamins Publishing Company. –2011

[8]. Lakoff, G., & Johnson, M. Metaphors we live by. University of Chicago Press. 1980
[9]. Swinney, D. A., & Cutler, A. The access and processing of idiomatic expressions // Journal of Verbal Learning and Verbal Behavior, 18(5), –1979. –p.523-534
[10]. Titone, D. A., & Connine, C. M. On the processing of idiomatic expressions // Journal of Experimental Psychology: Learning, Memory, and Cognition, 20(2), –1994. –p. 466-481
[11]. Boers, F., & Lindstromberg, S. Figurative language in language learning and teaching: Metaphor, metonymy, and idioms. Cambridge University Press. –2020
[12]. Kecskés, I. Intercultural pragmatics and communication // Cambridge University Press. 2023

**Xülasə**

**İdiomatik ifadələrin başa düşülməsində pragmatik və kognitiv mexanizmlər: teoritik təhlil**

***Kərimova R.***

***Açar sözlər:*** *idiomatik ifadələr, pragmatika, kognitiv mexanizmlər, dil öyrənmə, konseptualizasiya*

İdiomlar dilin mühüm və mürəkkəb aspektini təşkil edir, qeyri-literal mənaları səbəbilə həm anlamaqda, həm də təhlildə ciddi çətinliklər yaradır. Bu məqalədə idiomatik ifadələrin semantika, pragmatika və kognitiv dilçilik kimi dilçilik nəzəriyyəsi çərçivəsində izahını verən nəzəri əsaslara ümumi baxış təqdim olunur. İdiomlar fərdi sözlərin mənalarından çıxarılan ənənəvi kompozisiya semantikasından fərqlənərək mənanın qurulması ilə bağlı ənənəvi modellər üçün problemlər yaradır. Məqalədə figurativ və qeyri-kompozisional xarakteri nəzərə alan dual marşrut və konseptual metafora nəzəriyyələri kimi alternativ modellər araşdırılır. Bundan əlavə, idiomların praqmatik rolu kontekstual ipuclarından, danışanın niyyətlərindən və mədəni amillərdən asılılığı vurğulanaraq təhlil edilir ki, bu da onların ünsiyyətdəki şərh edilməsinə təsir göstərir. Məqalədə həmçinin idiomların şəffaflığı, struktur xüsusiyyətləri və sabitlik dərəcəsinə əsaslanaraq təsnifatı araşdırılır və bu təsnifatların dil öyrənmə, pedaqogika, tərcümə və kompüter dilçiliyi sahələrində necə tətbiq olunduğu vurğulanır. Sonda idiomların nitq aktı nəzəriyyəsi və implicatura kimi praqmatik nəzəriyyələrlə qarşılıqlı əlaqəsi təhlil edilir, onların real diskursda necə fəaliyyət göstərdiyi nümayiş etdirilir. Bu tədqiqat idiomatik ifadələrin şərhində kontekstin və mədəni anlaşmanın əhəmiyyətini vurğulayır, onların kognitiv işlənməsi və kommunikativ funksiyaları haqqında yeni fikirlər təqdim edir.

**Резюме**

**Прагматические и когнитивные механизмы понимания идиоматических выражений: теоретический анализ**

***Керимова Р.***

***Ключевые слова***: *идиоматические выражения, прагматика, когнитивные механизмы, изучение языка, концептуализация*

Идиомы представляют собой важный и сложный аспект языка, создавая значительные трудности как в понимании, так и в анализе из-за их нелитерального значения. В данной статье представлен обзор теоретических основ, объясняющих идиоматические выражения в рамках лингвистической теории с акцентом на семантику, прагматику и когнитивную лингвистику. Идиомы отклоняются от традиционной композиционной семантики, где значения выводятся из значений отдельных слов, что создает вызовы для стандартных моделей конструирования значения. В статье рассматриваются альтернативные модели, такие как теория двойного маршрута и концептуальной метафоры, которые учитывают фигуративный и неклассический характер идиом. Также анализируется прагматическая роль идиом, подчеркивая их зависимость от контекстных подсказок, намерений говорящего и культурных факторов, которые способствуют их интерпретации в коммуникации. Далее исследуется классификация идиом на основе их прозрачности, структурных свойств и степени фиксированности, с акцентом на то, как эти классификации информируют такие области, как изучение языка, педагогика, перевод и компьютерная лингвистика. В заключение изучается взаимодействие идиом с прагматическими теориями, такими как теория речевых актов и импликатура, чтобы продемонстрировать, как идиомы функционируют в реальной дискурсивной практике. Данное исследование подчеркивает важность контекста и культурного понимания при интерпретации идиоматических выражений, предлагая новые знания о их когнитивной обработке и коммуникативных функциях.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 81.** DOI 10.54758/16801245_2025_21_4_20

# Müxtəlifsistemli dillərin fonoloji strukturunda vurğunun tipoloji mənzərəsi

**Əmiraslanova Tünzalə Akif qızı** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, dissertant*
tunzale.emiraslanova@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 21.11.2024*
*Düzəliş tarixi: 22.01.2025*
*Qəbulolunma tarixi: 05.04.2025*

***Açar sözlər***
*fonoloji struktur, vurğu növləri, prosodiya, sabit və sərbəst vurğu, müqayisəli dilçilik*

**XÜLASƏ**

*Məqalədə fonoloji strukturun və söz vurğusunun dilin fonetik və semantik sistemlərində tutduğu mövqe çoxsəviyyəli yanaşma ilə araşdırılır. Tədqiqatda vurğunun akustik (tonal, dinamik, kəmiyyət, keyfiyyət), struktur (sabit və sərbəst) və funksional (emfatik və kontrastiv) növləri nəzəri və müqayisəli aspektdə sistemləşdirilərək təhlil olunur. Araşdırma nəticəsində vurğunun yalnız ritmik-fonetik funksiya deyil, həm də məna fərqləndirici, qrammatik informasiya daşıyıcı və kommunikativ məqsədlərə yönəlik rol oynadığı müəyyən edilir. Bu yanaşma fonetik və semantik sistemlər arasında qarşılıqlı əlaqənin dərk edilməsində və tipoloji dilçilikdə vurğu hadisəsinin daha dərindən təhlilində əhəmiyyətlidir.*

Fonoloji struktur və vurğu sistemləri dilin səs quruluşunun tədqiqində mühüm yer tutur. Fonologiyanın yalnız səslərin düzümü ilə deyil, onların semantik və funksional qarşılıqlı əlaqələri ilə maraqlandığı müasir dövrdə, bu istiqamətdə aparılan tədqiqatların əhəmiyyəti daha da artır. Xüsusilə, fonoloji strukturun yalnız seqmental deyil, həm də superseqmental səviyyədə – yəni vurğu, intonasiya və ritmik bütövlük çərçivəsində dəyərləndirilməsi onu dilin semantik təşkili baxımından da əhəmiyyətli edir [3, s. 182]. Bu baxımdan fonologiya və semantika arasındakı qarşılıqlı əlaqənin araşdırılması aktuallığını qoruyur.

Fonoloji strukturun semantik yük daşıması məsələsi bir çox tədqiqatçılar tərəfindən konseptual səviyyədə təhlil olunmuşdur. V.G.Kulikov (2005) fonoloji strukturu dil vahidinin fonoloji qütbü kimi səciyyələndirərək, onun konseptual məzmunla üzvi bağlılığını əsaslandırır. Ənənəvi olaraq “boş forma” kimi qiymətləndirilən fonoloji elementlərin də semantik funksiyalar daşıya bilməsi, fonetik səviyyənin dildaxili informasiyanın kodlaşdırılmasında oynadığı rolu yenidən nəzərdən keçirməyə imkan verir. Bu baxımdan fonoloji struktur yalnız səs daşıyıcısı deyil, həm də mənalandırıcı bir sistemdir.

Mövzunun elmi aktuallığını artıran əsas faktorlardan biri də vurğunun çoxşaxəli funksiyalar daşımasıdır. Vurğu nəinki fonetik qabartma, həm də leksik və qrammatik fərqləndirmə vasitəsi kimi çıxış edir. L.V.Şerbanın (1983) qeyd etdiyi kimi, “*rus dilində vurğunun yeri dəyişdikdə sözün mənası tamamilə dəyişə bilir*” [10, s. 34]. Bu, vurğunun yalnız akustik deyil, semantik və morfoloji sahələrdə də həlledici rol oynadığını göstərir. Ə.Məmmədova (2018) da qeyd edir ki, “*vurğu sözün fonetik strukturunu formalaşdırmaqla yanaşı, onun semantik və informativ yükünü də tənzimləyir*” [2, s. 27].

Məqalənin vəzifələrinə vurğunun fonetik tiplərinin və struktur yerləşmələrinin təsnifatı, onların funksional və semantik əhəmiyyətinin təhlili, Azərbaycan dili kontekstində vurğunun dominant xüsusiyyətlərinin müəyyənləşdirilməsi daxildir. Bu araşdırma fonoloji strukturun yalnız formal səviyyədə deyil, semantik və konseptual səviyyədə də rolunu əsaslandırmaqla yanaşı, vurğunun dil strukturunda müxtəlif funksiyalarını kompleks şəkildə təqdim edir. Məqalədə

müxtəlifsistemli dillərdə vurğunun həm fonetik, həm də semantik yükü, həmçinin onun digər dünya dilləri ilə müqayisədə tutduğu yer ilk dəfə bu səviyyədə sistemli şəkildə işlənmişdir. Bu, fonetik sistemlərin universal və lokal xüsusiyyətlərini anlamaqda mühüm addım hesab oluna bilər.

Məqalə çərçivəsində təqdim edilmiş bu elmi araşdırma, əsasən dilçiliyin müqayisəli-tipoloji və təsviri təhlil metodlarına əsaslanır. Tədqiqatın nəzəri bazasını fonoloji struktur və vurğu sistemlərinə dair klassik və müasir elmi mənbələr: T.V.Babushkina və N.N.Guryeva (1999), O.Semereni (2002), N.B.Meçkovskaya (2001), L.D.Bondar və M.M.Kim (2018) kimi müəlliflərin işləri təşkil edir. Məqalədə Azərbaycan dili ilə yanaşı rus, ingilis, fransız və bəzi slavyan dillərindəki vurğu sistemləri arasında struktur-funksional müqayisə aparılmış, həm sabit, həm də sərbəst vurğulu dillərdən seçilmiş nümunələr təhlil olunmuşdur. Təhlil materialı kimi həm fonetik və fonoloji tədris vəsaitləri, həm də seçmə nitq nümunələri və elmi məqalələrdən götürülmüş sitatlar istifadə olunmuşdur. Məqalənin metodoloji yanaşması fonetik təsnifatların universal əsaslarını müəyyənləşdirməyə və vurğunun akustik, struktur və funksional parametrlərini kompleks şəkildə analiz etməyə imkan verir.

Fonologiya dilin səslə bağlı sistemlərini, bu səslərin vəzifələrini və onların yaratdığı struktur münasibətləri öyrənən elmi sahədir. Fonoloji struktur isə bu sistemin təşkili və funksional münasibətlərini əhatə edən əsas vahiddir. Fonoloji struktur təkcə fərdi fonemlərin birləşməsi ilə məhdudlaşmır; o, həm də heca, vurğu, intonasiya kimi superseqmental vahidləri də əhatə edir və dilin ritmik-funksional əsaslarının formalaşmasında iştirak edir. Bu baxımdan "*fonoloji struktur həm seqmental, həm də superseqmental səviyyədə işlək olan kompleks semantik sistemin tərkib hissəsi kimi çıxış edir*" [3, s. 182].

Fonoloji strukturun yalnız səs səviyyəsində deyil, həm də konseptual səviyyədə fəaliyyət göstərdiyi fikri müasir dilçilikdə getdikcə daha çox qəbul olunmaqdadır. V.G.Kulikov haqlı olaraq vurğulayır ki, "*dil işarəsi və onun arxasında dayanan konseptual məzmunun təcəssüm forması fonoloji struktur və ya dil vahidinin fonoloji qütbüdür*" [6, s. 590]. Halbuki ənənəvi baxışda fonoloji elementlərin məna daşıyıcısı olmadığı qəbul olunurdu. Bu yanaşmaya görə, fonoloji struktur daha çox "boş" formal şəbəkə kimi təsəvvür edilirdi. Lakin son araşdırmalar fonologiyanın semantiklə əlaqəsini, konseptual funksiyasını da ortaya çıxarır. Əslində, fonologiya ilə semantika arasında dolayı, lakin sabit bir qarşılıqlı əlaqə mövcuddur.

Bu qarşılıqlı əlaqənin əsas mexanizmləri fonem – heca – intonasiya ardıcıllığında təzahür edir. Y.V.Əliyevin qeyd etdiyi kimi, "*istənilən leksik vahiddə hər üç fonetik vahid – fonem, heca, intonasiya (və onların komponentləri) müəyyən assosiasiya təşkil edə bilir. Bu assosiativ münasibətlər birbaşa deyil, mərhələli şəkildə – fonemlərin qovuşmasından hecanın, hecaların qovuşmasından sözün və intonasiyanın formalaşmasınadək – həyata keçirilir*" [1, s. 104]. Bu yanaşma fonoloji strukturun yalnız səs səviyyəsində deyil, mətnin semantik təşkili və kommunikativ kodlaşdırılması baxımından da əhəmiyyət daşıdığını göstərir. Beləliklə, fonoloji struktur dilin həm formal, həm də funksional komponentidir.

Fonoloji strukturun muxtariyyəti, yəni müəyyən semantik vahidlərdən asılı olmadan öz struktur sisteminə malik olması fikri də bu sahədə önəmli bir nəzəri mövqedir. V.G.Kulikov qeyd edir ki, "*bu muxtariyyət birbaşa dilin simvolik təbiəti ilə əlaqəlidir*" [6, s. 590]. C.R.Teylor da bu fikri dəstəkləyərək yazır: "*əgər bir dildə fonoloji strukturun muxtariyyəti olmasaydı, hər bir konsept qaçılmaz olaraq unikal bir fonoloji formaya sərt şəkildə bağlı olardı... Belə bir dilin inkişaf potensialı olmazdı*" [12, s. 81]. Bu qənaət fonoloji strukturun dəyişkənlik, yaradıcılıq və sistemlilik kimi xüsusiyyətlərini önə çıxarır.

Vurğu dilçilikdə sözün tərkibindəki hər hansı hecanın digərlərinə nisbətən səslənmədə xüsusi qabardılması kimi müəyyən olunur. Məsələn, T.V.Babushkina və N.N.Guryeva vurğunu *"dilin fonetik vasitələri ilə hər hansı bir fonetik vahidin (hecanın və ya sözün) qabardılması"* [4, s. 16] şəklində tərif edirlər. "*Vurğu sözdə müəyyən bir hecanı ön plana çıxararaq dinləyici üçün məna fərqləndirilməsinə xidmət edir*" [7, s. 222]. Araşdırmalara görə, "*vurğu ayrıca fonem və ya hecadan*

*ayrı mövcud olmur; əksinə, bütün vurğulu heca bir bütöv kimi daha artıq güclə deyilir və ya səsin keyfiyyətcə fərqlənməsi ilə seçilir*" [7, s. 222]. Nəticədə, N.B.Meçkovskayanın qeyd etdiyi kimi, "*vurğulu heca sözün tələffüz kulminasiyasını təşkil edir*" [8, s. 67]. Prosodiya nəzəriyyəsində də söz səviyyəsindəki vurğu ilə cümlə səviyyəsindəki intonasiya ayrılır: "*sözün prosodiyası vurğu ilə, cümlənin prosodiyası isə intonasiya ilə müəyyən olunur*" [8, s. 67]. Bu bölüm çərçivəsində əsas diqqət söz vurğusunun fonetik xüsusiyyətləri və struktur tipologiyasınadır.

Fonetika baxımından müxtəlif dillərdə vurğu bir neçə fərqli akustik vasitə ilə reallaşa bilər. Ədəbiyyatda vurğunun aşağıdakı əsas "*fonetik (akustik) növləri*" qeyd olunur [5; 8]:

*Tonal vurğu (musiqili vurğu):* vurğunun səs tonunun yüksəlib-enməsi ilə ifadə olunması. Bu tip vurğuda hecada ton (yüksəklik) dəyişir, yəni vurğulu hecada səs daha uca və ya alçaq tonla tələffüz edilir. Məsələn, bəzi dillərdə (məsələn, yapon dili və ya isveç dilindəki xüsusi "ton vurğusu" hadisəsi) vurğu, əsasən ton fərqi ilə seçilir.

*Dinamik vurğu (qüvvətli vurğu):* hecanın əlavə səs gücü ilə vurğulanması, yəni vurğulu hecanın digər hecalardan daha "*gur və ya güclü səslənməsi*". Çoxsaylı Avropa dillərində, o cümlədən ingilis, rus dillərində əsas vurğu tipi dinamik xarakter daşıyır [5].

*Kəmiyyət vurğusu (müddətli vurğu):* vurğunun səsin davametmə müddətinin artırılması ilə göstərilməsi. Bu halda vurğulu hecanın sait səsi daha uzun tələffüz olunur. Məsələn, bəzi slavyan dillərində (belarus və rus dillərində) vurğulu saitlərin nisbətən uzun səsləndiyi qeyd edilmişdir [5, s. 20].

*Keyfiyyət vurğusu (tembrli vurğu):* **v**urğunun saitin keyfiyyətinin dəyişməsi (məsələn, digər hecalarda saitlərin reduksiyaya uğraması, lakin vurğulu hecada tam tələffüz edilməsi) hesabına sezilməsi. Məsələn, ingilis və rus dillərində vurğusuz hecalardakı saitlərin səsləri (məs: [ə]) reduksiyaya uğrayır, vurğulu hecalarda isə saitlərin tam keyfiyyəti qorunur [4, s. 16].

Yuxarıdakı təsnifat vurğunun akustikasında əsas komponentlərini nümayiş etdirir. Praktikada bir çox dil bu amillərin bir neçəsini birləşdirir: məsələn, "*isveç dilində sözün birinci hecası adətən dinamik güclənmə və uzanma (kəmiyyət) ilə vurğulanır, eyni zamanda həmin sözün daxilində ikinci bir hecada xüsusi ton fərqi də yaranır; Danimarka dilində isə vurğu həm səs gərginliyi, həm də tonallığın dəyişməsi elementlərini daşıyır*" [8, s. 68].

Lakin vurğunun yalnız fiziki-akustik komponentlərlə məhdudlaşdırılması onun funksional və kommunikativ aspektlərini tam izah etmir. Ə.Məmmədova (2018) bu çərçivəni genişləndirərək vurğunun nəinki fonetik təbiətini, həm də onun kommunikativ məzmunu ifadə etmə funksiyalarını araşdırır. Onun təqdim etdiyi təsnifatda vurğunun yalnız heca və söz səviyyəsindəki formaları (слоговое, словесное ударение) deyil, həm də söyləm (фразовое) və sintaqmatik (синтагматическое) səviyyədəki geniş strukturlar da əhatə olunur. Ə.Məmmədova bu yanaşma çərçivəsində vurğunun kontrastiv (логическое) və emfatik (эмфатическое) növlərini ayrıca vurğulayır və bu növlərin məlumatın önə çıxarılması, fikrin vurğulanması və emosional dəyərləndirmə baxımından nitq aktında əsas rol oynadığını qeyd edir. Xüsusilə qeyd olunur ki, "*emfatik və kontrastiv vurğunun bəzi növləri (xitab, müraciət, qarşılaşdırma, qabartma) istisna olmaqla, digər vurğular adətən söz üzərinə düşür və nəticədə onun fonetik təbiətində çıxış edən komponenti daha da qüvvətləndirir, vurğulu sözü daha artıq nəzərə çarpdırır*" [2, s. 28].

Beləliklə, Ə.Məmmədovanın təqdim etdiyi funksional-praqmatik təsnifat, L.D.Bondar və M.M.Kim (2018) tərəfindən irəli sürülmüş akustik-fonetik bölgü ilə tamamlana bilər. Yəni vurğunun səsin hansı parametrləri ilə reallaşması (ton, güc, müddət, keyfiyyət) ilə yanaşı, nitqdə hansı məqsədlə, yəni məntiqi diqqət, emosional vurğu, struktur qabartma və s. məqsədlərlə istifadə edildiyi də nəzərə alınmalıdır. Bu yanaşma vurğunu yalnız fonetik mexanizm deyil, həm də nitq aktının funksional vahidi kimi qiymətləndirməyə imkan verir.

Vurğunun semantikasından danışarkən və onun hər hansı fonetik qaydalardan asılı olmamasını vurğulayaraq, L.V.Şerba qeyd edirdi ki, "*rus dilində vurğu sözləri məhz mənalarına görə xarakterizə edir. Əgər cümlədə bütün sözlərin vurğusu qeyri-adi yerlərə köçürülsə, belə bir*

*ifadəni anlamaq çətinləşər. Bundan əlavə, rus dilində yüzlərlə söz vardır ki, yazılışları eyni olsa da, vurğunun yerindən asılı olaraq onların leksik mənası dəyişir*" [10, s. 34].

Ümumilikdə, Bondar və Kim (2018) 50 Avropa və Asiya dilini təhlil edərək göstərirlər ki, bu dillərin böyük əksəriyyətində dinamik (qüvvətli) vurğu əsas vurğu tipi kimi ortaya çıxır. Tonal (musiqili) vurğu müstəqil əsas vurğu növü olaraq nisbətən az yayılmışdır, lakin bəzi hallarda dinamik vurğu ilə yanaşı əlavə xüsusiyyət kimi mövcuddur (məsələn, serb-xorvat dilində vurğunun ton fərqləri də mövcuddur).

Bəzi tədqiqatçılar vurğunun fonetik təsnifatına fərqli nöqteyi-nəzərlərdən yanaşırlar. Məsələn, O.Semereni (2002) ənənəvi "dinamik və musiqili" vurğu bölgüsünü sərt qarşılaşdırma kimi qəbul etmir. O, vurğunun istənilən dildə, adətən, bir neçə akustik göstəricinin birgə təsiri ilə yarandığını qeyd edir və vurğu tiplərinin fərqini vurğunun heca üzərindəki əhatə dairəsi ilə izah etməyi təklif edir. Belə ki, O.Semereni konsepsiyasına görə, "*"heca-vurğu" (syllabic accent) və "mora-vurğu" (moraic accent) fərqləndirilməlidir*" [9, s. 86-90]. Heca-vurğu zamanı bütöv heca gücləndirilir (bu, ənənəvi anlamda dinamik vurğuya uyğun gəlir), mora-vurğuda isə vurğu hecanın tərkibində yalnız bir zaman vahidinə, yəni "*moraya yönəlir"* ki, bu da klasik "tonal vurğu" anlayışı ilə əlaqələndirilə bilər [9]. Bu yanaşma göstərir ki, dinamik və tonal vurğu əslində ayrı-ayrı parametrlər deyil, vurğunun heca strukturunda hansı səviyyəyə tətbiq olunmasından irəli gələn nisbi anlayışlardır. N.B.Meçkovskaya da vurğunun sadalanan "təmiz" fonetik tiplərinin praktikada təkbaşına deyil, adətən, kombinasiya şəklində ortaya çıxdığını vurğulayır [8, s. 68].

Azərbaycan dili kontekstində isə, vurğunun spesifik fonoloji mövqeyi daha da fərqlidir. Ə. Məmmədovanın (2018) qeyd etdiyi kimi, bu dildə ton sistemləri və ton fərqləri vasitəsilə məna fərqləndirilməsi praktik olaraq mövcud deyil. Bu səbəbdən Azərbaycan dilində vurğudan yalnız heca səviyyəsində fərqləndirmə vasitəsi kimi deyil, həm də sözü fonetik vahid kimi birləşdirən və onun struktur bütövlüyünü təmin edən element kimi istifadə olunur. Yəni burada vurğu həm demarkativ, həm də kumulyativ funksiyanı icra edir: "*biz, sadəcə olaraq, heca vurğusundan deyil, həm də söz daxilində başqa hecalara nisbətən özünün malik olduğu bu və ya digər xüsusiyyətlə fərqlənən, həm də sözü fonetik bir vahid kimi formalaşdıran vurğudan – söz vurğusundan danışmalıyıq*" [2, s. 27].

Beləliklə, həm nəzəri baxışlar [8; 9], həm də tətbiqi müşahidələr [2] göstərir ki, vurğu dilin fonetik sistemində yalnız statik bir hadisə deyil, çoxsəviyyəli və kontekstual bir struktur elementidir. O, dilin həm akustik, həm semantik, həm də morfoloji aspektlərini özündə birləşdirərək, müxtəlif dillərdə fərqli funksional yük daşıyır.

Vurğunun ikinci mühüm tərəfi onun söz daxilində yerləşmə qaydası, yəni hansı hecaya düşməsidir. Bu baxımdan dillər arasında ciddi struktur fərqlər mövcuddur və dilçilikdə **v**urğunun struktur tipologiyası adlandırılan təsnifat məhz vurğunun söz daxilindəki mövqe xüsusiyyətlərinə əsaslanır [8]. İlk növbədə, sabit və sərbəst vurğulu dillər fərqləndirilir. Sabit vurğu (həmçinin "bağlı" vurğu adlanır) olan dillərdə vurğunun yeri mexaniki bir qaydaya bağlanmış olur – hər bir sözdə vurğu eyni mövqeyə düşür [4]. Məsələn, polyak dilində sözlər həmişə sondan əvvəlki hecada vurğulanır; fransız dilində vurğu hər zaman son hecaya düşür; Çex və macar dillərində isə birinci heca daimi vurğu daşıyır [5, s. 19]. Deməli, həmin dillərdə danışan şəxsə sözün vurğusunu ayrıca öyrənməyə ehtiyac yoxdur, çünki vurğunun yeri barədə qayda hamı üçün sabitdir.

Sərbəst vurğu ("azad" və ya "müxtəlif mövqeli" (разноместное) vurğu da adlanır) olan dillərdə isə vurğunun yeri eyni dildə müxtəlif sözlərdə fərqli ola bilir. Yəni dilin lüğət tərkibindəki hər bir sözün vurğusu ayrıca müəyyənləşir və ümumi bir qayda ilə proqnozlaşdırıla bilmir [4; 5]. Məsələn, rus dili sərbəst vurğu tipinə aiddir – bəzi rus sözlərində vurğu birinci hecaya (*го́род* 'şəhər'), bəzilərində son hecaya ( *моро́з* 'şaxta'), bəzilərində isə ortadakı hecaya düşür. İngilis dili də sərbəst vurğuludur: *increase* sözü isim olanda birinci heca (íncrease – artım) vurğulanır, fel olanda isə ikinci heca (incréase – artırmaq) vurğulanır. Sərbəst vurğulu dillərdə vurğunun sözün əvvəlində, ortasında yaxud sonunda olması dilin fonoloji quruluşundan çox, həmin sözün tarixi və morfoloji

xüsusiyyətlərindən asılıdır. Qeyd etmək lazımdır ki, sərbəst vurğu "istənilən anda istənilən hecaya qoyulan" bir sərbəstlik deyil; əksinə, hər bir dilin tarixi inkişafında müəyyən morfoloji fonem qaydaları çərçivəsində formalaşmış vurğu yerleşmələri mövcuddur [9]. Başqa sözlə, sərbəst vurğuda danışan şəxs vurğunu istədiyi hecaya qoymur, hər bir sözün dilin lüğəvi normasında sabitləşmiş öz vurğu yeri var. Məsələn, rus dilində *"замóк"* sözündə vurğunun birinci hecadan ikinci hecaya keçirilməsi həmin sözü tamamilə başqa sözə (*"зáмок"* – qəsr vs. *"замóк"* – qıfıl) çevirir; bu da göstərir ki, sərbəst vurğulu dillərdə vurğunun yeri hər bir söz üçün leksik fərqləndiricidir.

Bəzi dilçilər sabit və sərbəst vurğu arasında ara keçid variantlarının olduğunu da qeyd edirlər. Məsələn, "məhdud sərbəst" vurğu anlayışı – vurğunun müxtəlif sözlərdə dəyişə bilməklə yanaşı müəyyən fonoloji qaydalarla məhdudlaşdığı hallar. İspan, italyan kimi dillərdə, əksər hallarda vurğu son və ya sondan əvvəlki hecaya düşür və xüsusi vurğu işarəsi olmadan bu qaydadan kənara çıxmır; buna görə bu dillərin vurğusunu şərti olaraq sabit ilə sərbəst arasında məhdud sərbəst hesab etmək olar [9]. Daha mürəkkəb nümunə kimi, ərəb dilində vurğunun yeri hecanın uzunluq-qısalığına görə müəyyənləşir – yəni vurğu sözün sonundakı heca qısa saitlidirsə, öncəki hecaya keçir, əks halda son hecada qalır. Bu cür dillərdə vurğu yerini izah edən müəyyən qaydalar vardır, lakin yenə də istisnalar mövcuddur deyə onları tam sabit kateqoriyaya aid etmirlər [5].

Bundan əlavə, vurğunun sözün qrammatik formaları arasındakı hərəkətliliyi nəzərə alınaraq hərəkətsiz (sabit) və hərəkəki (yerini dəyişə bilən və ya mobil) vurğu kimi anlayışlar da işlədilir [4]. Əgər bir dildə sözün müxtəlif formalarını (məsələn, çəkim və ya şəxs sonluqlarını) düzəldərkən vurğu həmişə eyni hecada qalırsa, bu cür vurğu *hərəkətsiz* adlanır. Məsələn, rus dilində *"звоню́"* (zvonjú – *mən zəng edirəm*), *"звони́шь"* (zvoníš – *sən zəng edirsən*), *"позвони́м"* (pozvoním – *biz zəng edəcəyik*) kimi müxtəlif şəxslərdə fel formalarının hamısında vurğu eyni şəkilçidə qalır – yəni vurğu hərəkət etmir, sabitdir [4]. Əksinə, sözün flektiv formaları arasında vurğunun yeri dəyişirsə, bu *hərəkətli vurğu* sayılır. Məsələn, *"бéрег"* (*béreq* – sahil) sözündə vurğu birinci hecadadır, lakin həmin sözün yerlik halında *"на берегу́"* (*na beregú – sahildə*) vurğu son hecaya keçir. Bu halda rus dilində *"берег"* sözünün vurğusu hərəkətlidir, çünki sözün kökündəki vurğu hal sonluğuna doğru dəyişir. Hərəkətli vurğu nəticəsində bəzi dillərdə qrammatik mənalar fərqlənə bilir: məsələn, rus dilində *"зáмок"* (*zámok* – qəsr) və *"замóк"* (*zamók* – qıfıl) kimi leksik nümunələrlə yanaşı, vurğunun kökdən şəkilçiyə keçməsi ilə felin zaman şəkilləri və ya isimlərin tək-cəm formaları fərqləndirilə bilər. Beləliklə, sərbəst vurğulu dillərdə vurğunun sözün morfoloji dəyişmələri sırasında "yerini dəyişə bilməsi" onun qrammatik funksiyasını da ortaya çıxarır [11, s. 796]. Bunun əksinə olaraq, sabit vurğulu dillərdə vurğu, bir qayda olaraq, sözün heç bir formasında yerini dəyişmədiyi üçün qrammatik kateqoriyaları fərqləndirməz və daha çox fonoloji (ritmik) funksiyanı icra edər.

Yuxarıdakı təsnifatlardan aydın olur ki, sabit və sərbəst vurğu sistemlərinə malik dillər arasında mühüm fərqlər mövcuddur. Sabit vurğulu dillərdə vurğunun mövqeyi "*predeterminə olunmuş*" qaydaya tabe olduğu üçün, bu dillərdə vurğu fonoloji fərqləndirici vasitə deyil. Yəni iki müxtəlif sözü yalnız vurğunun yeri əsasında fərqləndirmək mümkünsüzdür – vurğu hamıda eyni yerdə olduğundan sözün leksik mənasını dəyişdirmir [8]. Məsələn, fransız dilində *"pari"* sözünü [parí] kimi yox, birinci hecasına vurğu ilə [pári] tələffüz etsəniz, bu sadəcə yanlış vurğulu tələffüz sayılar, amma sözün anlamı dəyişməz. Sabit vurğulu dillərdə vurğunun rolu daha çox prosodik-ritmik xarakter daşıyır – nitq axınında sözlərin ahəngdar vurğu ardıcıllığını təmin edir, lakin hər bir söz üçün ayrıca informasiya daşıyan bir element deyildir.

Sərbəst vurğulu dillərdə isə vurğunun yeri orfoepik-normativ xüsusiyyət kimi dəyərləndirilir və bu dilin danışanları üçün sözün tələffüzünün ayrılmaz bir parçasıdır. "*Belə dillərdə vurğunun düzgün hecada deyilməsi çox zaman sözün tanınması və anlamı üçün çox vacibdir*" [11, s. 796]. Məsələn, ingilis dilində *"record"* isim kimi [**ré**kɔːd] (yazı) və fel kimi [rɪ**kɔ́**ːd] (yazmaq) fərqli vurğulara malikdir. Bu nümunələr göstərir ki, sərbəst vurğulu dillərdə vurğu fonoloji fərqləndirici

rol oynayır – sözün mənasını və ya nitq hissəsini dəyişə bilir. Həmçinin, belə dillərdə vurğunun morfoloji dəyişkənliyi (yuxarıda bəhs olunan hərəkətli vurğu) vasitəsilə qrammatik informasiyanın çatdırılması mümkündür. Məsələn, ingilis dilində isimlərdə ilk hecanın, fellərdə sonrakı hecanın vurğulanması ilə sözün qrammatik kateqoriyası müəyyən edilir; rus dilində vurğunun şəkilçilər üzrə yerdəyişməsi ilə sifətlərin cəm və tək formaları arasında fərq yarana bilər və s. [4]. Bu baxımdan rus dilində vurğu yeni qrammatik formalar yaradılarkən söz daxilində yerini dəyişə bildiyi üçün, L. V. Şerba qeyd edirdi ki, "*vurğu qrammatik mənaya malikdir, yəni qrammatikləşmiş bir vahiddir*" [10, s. 34]. Ə.Məmmədova da bu fikri dəstəkləyərək qeyd edir ki, "*vurğu sözü dil vahidi kimi formalaşdırır və məna dəyişdirici funksiyaya malikdir*" [2, s. 24] və fikrini fars dili materialları üzərindən çıxış edərək sübuta yetirir.

Nəzəri dilçilikdə hesab olunur ki, sərbəst vurğu tipoloji baxımdan daha qədimdir, sabit vurğu isə "*dillərin sonrakı tarixi inkişafında ortaya çıxan innovativ bir sadələşmədir*" [9, s. 46]. Yəni ilkin dil vəziyyətində vurğunun yeri sözün kökündə müxtəlif formalarda ola bilirdi, zamanla bəzi dillərdə sabit mövqeyə düşərək normalaşmışdır. Bu nəzəriyyə prosodik rekonstruksiya işlərində də öz əksini tapır, məsələn, Hind-Avropa dillərinin prototipində vurğunun sərbəst olduğu, sonrakı qollarda (məsələn, latın, german dillərində) müəyyən sabit mövqelərə keçdiyi qeyd edilir [8].

Beləliklə, vurğunun fonetik növləri (dinamik, tonal, kəmiyyət, keyfiyyət və s.) və struktur yerləşmə tipləri (sabit vs. sərbəst, hərəkətli vs. hərəkətsiz) dillərin səs quruluşunun vacib tipoloji xüsusiyyətlərini təşkil edir. Hər bir dil bu parametrlər üzrə öz yerini aldığı üçün, müqayisəli dilçilikdə vurğu fenomeni dil universalilərinin və varyativliyin öyrənilməsi baxımından əhəmiyyətli bir hadisədir [5; 8]. Belə bir sistemli yanaşma sayəsində biz müxtəlif dillərin vurğu sistemlərini müqayisə etməklə, onların fonoloji quruluşu və tarixi inkişafı barədə dərin nəticələr əldə edə bilirik.

**Nəticə.** Araşdırma göstərdi ki, fonoloji struktur yalnız dilin səslərlə bağlı texniki sistemini deyil, eyni zamanda onun semantik və konseptual çalarlarını da əhatə edən çoxsəviyyəli bir mexanizmdir. V.G.Kulikov və C.R.Teylor kimi tədqiqatçıların fikirlərinə əsasən, fonoloji struktur dilin simvolik təbiəti ilə sıx əlaqədardır və müstəqil, muxtar quruluşa malikdir. Bu isə fonoloji vahidlərin yalnız səslərdən ibarət deyil, həm də konseptual məna daşıyıcıları olduğunu sübut edir.

Əldə olunan nəticələr göstərir ki, vurğu yalnız prosodik bir hadisə deyil, həm də nitqin informasiya yükünü və vurğululuq dərəcəsini tənzimləyən funksional vahiddir. Ə.Məmmədovanın vurğunun kontrastiv və emfatik tiplərinə dair yanaşmaları bu elementin ünsiyyətdə məna və emosional dəyərləndirmə baxımından da önəmli olduğunu təsdiqləyir. Bu, xüsusilə Azərbaycan kimi sabit vurğulu dillərdə vurğunun demarkativ və kumulyativ funksiyalarının dərinləşdirilməsinə imkan verir.

Beləliklə, fonoloji strukturun və vurğunun həm seqmental, həm də superseqmental səviyyədə dildəki informasiya axınının təşkili və tənzimlənməsində mühüm rola malik olduğu müəyyən edilmişdir. Bu tədqiqat fonetik və semantik müstəvilər arasında əlaqələrin sistemli şəkildə işlənməsi baxımından mühüm elmi əhəmiyyət daşıyır və gələcəkdə dilin funksional strukturlarının daha dərindən təhlilinə zəmin yaradır.

## Ədəbiyyat

[1]. Əliyev Y.V. Ümumi mətnşünnaslıq («Kitabi-Dədə Qorqud» mətnlərinin linqvopoetik təhlili əsasında). Dərs vəsaiti / Y.V. Əliyev, –Bakı, –2007. – 248 s.

[2]. Məmmədova, Ə. Müasir fars dilinin fonetik quruluşu (seqment və superseqment vahidlər) // –Bakı: Filologiya məsələləri, –2018, № 7, –s. 24-31

[3]. Veysəlli, F.Y. Semiotika. Studia Philologica IV / F.Y.Veysəlli – Bakı: Mütərcim,. – 2010. – 336 s.

[4]. Бабушкина, Т.В. Фонетическая система русского языка: учеб. пособие. / Т.В.Бабушкина, Н.Н.Гурьева –Тверь: Изд-во Твер. гос. ун-та, –1999. –78 с.

[5]. Бондарь, Л. Д. Разновидности ударения (на примере языков Европы и Азии, отобранных методом случайной выборки) / Л.Д. Бондарь, М.М. Ким // –СПб.: Ученые записки Санкт-Петербургского университета технологий управления и экономики. – 2018. № 4(64). –с. 17-23.
[6]. Куликов, В. Г. Модификация схем слогообразования в диалектах английского языка // – Тамбов, Вестник Тамбовского государственного технического университета. – 2005. – т. 11, № 2. – с. 590-598.
[7]. Матусевич М.И. Современный русский язык: фонетика: учеб. пособие / М.И. Матусевич –М.: Просвещение, –1976. –288 с.
[8]. Мечковская, Н.Б. Общее языкознание: структурная и социальная типологии языков: учеб. пособие / Мечковская,Н.Б. 2-е изд. –М.: Флинта; Наука, –2001. –312 с.
[9]. Семереньи, О. Введение в сравнительное языкознание. / О.Семереньи, 2-е изд. пер. с нем. Б. А. Абрамов. –М.: Еди-ториал УРСС, 2002. 400 с.
[10]. Щерба, Л.В. Теория русского письма / Л.В. Щерба, отв. ред. Р.Л. Зиндер. –Л.: Наука, – 1983. –134 с.
[11]. Heydarov R.A., Jafarov A.G., Habibova K.A. Software for experimental methods in phonetic research //1st International Scientific Conference" Modern Management Trends and the Digital Economy: from Regional Development to Global Economic Growth"(MTDE 2019). – Atlantis Press, –2019. – p. 795-800.
[12]. Taylor, J.R. Cognitive Grammar / J.R. Taylor. – Oxford: Oxford Univ. Press,–2002. –621 p.

## Summary

**The Typological Representation of Stress in the Phonological Structure of Languages of Different Systems**

***Amiraslanova T.A.***

***Key words:*** *phonological structure, types of stress, prosody, fixed and free stress, comparative linguistics*

The article examines the position of phonological structure and word stress in the phonetic and semantic systems of the language using a multilevel approach. In the study, the acoustic (tonal, dynamic, quantitative, qualitative), structural (fixed and free) and functional (emphatic and contrastive) types of stress are systematized and analyzed in a theoretical and comparative aspect. As a result of the study, it is determined that stress plays not only a rhythmic-phonetic function, but also a role in differentiating meaning, carrying grammatical information and serving communicative purposes. This approach is important in understanding the interaction between phonetic and semantic systems and in a more in-depth analysis of the stress phenomenon in typological linguistics.

## Резюме

**Типологическая картина ударений в фонологической структуре разнотипных языков**

***Амирасланова Т.А***

***Ключевые слова:*** *фонологическая структура, типы ударения, просодия, фиксированное и свободное ударение, сравнительное языкознание*

В статье исследуется положение фонологической структуры с многоуровневым подходом и словесного ударения в фонетической и семантической системах языка. Рассматриваются и систематизируются теоретические и сравнительно акустические (тональное, динамическое, количественное, качественное), структурные (фиксированное и свободное) и функциональные (эмфатическое и контрастивное) типы ударений. В результате исследования установлено, что ударение выполняет не только ритмико-фонетическую функцию, но и играет роль смыслоразличительного, грамматического и коммуникативного компонента. Такой подход имеет важное значение для осознания взаимосвязи между фонетическими и семантическими системами и углубленного анализа ударений в типологической лингвистике.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 82.91** DOI 10.54758/16801245_2025_21_4_27

# Bəxtiyar Vahabzadə və Çin poeziyasında ictimai lirikanın müqayisəli təhlili

[1]**Həmzəyeva Sevinc Səyyad qızı** ORCID
[2]**Məmmədova Töra Kamal qızı** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, 1,2- dosent*
sevinc.hamzayeva@sdu.edu.az ; tora.mammadova@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 22.01.2025*
*Düzəliş tarixi: 03.03.2025*
*Qəbulolunma tarixi: 21.04.2025*

***Açar sözlər***
*Bəxtiyar Vahabzadə, Çin poeziyası, azadlıq ideyası, ədəbiyyat, Ay Sin*

**XÜLASƏ**

*Məqalə Azərbaycan və Çin poeziyasının vətənpərvərlik və azadlıq ideyalarının müqayisəli təhlilinə həsr olunmuşdur. Tədqiqatda hər iki xalqın ədəbi düşüncəsində ictimai lirikanın formalaşması, milli kimlik və azadlıq motivlərinin bədii ifadəsi araşdırılmış, Bəxtiyar Vahabzadə və Ay Sinin yaradıcılığı üzərində müqayisəli ədəbi təhlillər aparılmışdır. Mövzunun aktuallığı qloballaşma dövründə milli-mənəvi dəyərlərin qorunması və mədəniyyətlərarası mənəvi əlaqələrin elmi-nəzəri əsasda öyrənilməsinin zəruriliyi ilə bağlıdır. Məqsəd Azərbaycan və Çin poeziyasında vətənpərvərlik ideyasının bədii-fəlsəfi təcəssümünü müəyyənləşdirmək, bu ideyaların mənəvi və tarixi məzmununu müqayisəli şəkildə təhlil etməkdir. Tədqiqatda müqayisəli-tipoloji, tarixi-ədəbi və struktur-semantik metodlardan istifadə edilmiş, Ay Sin və Bəxtiyar Vahabzadə yaradıcılığında vətən, azadlıq və milli kimlik motivlərinin bədii paralelləri üzə çıxarılmışdır. Nəticədə müəyyən olunmuşdur ki, hər iki poeziyada vətən anlayışı yalnız coğrafi məkan deyil, mənəvi və bəşəri dəyər kimi təqdim olunur və bu, bədii sözün insan ruhunu birləşdirən ümumbəşəri mahiyyətini təsdiq edir. Həm Azərbaycan, həm də Çin poeziyasında vətənpərvərlik ideyası xalqın tarixi yaddaşını yaşadan mənəvi sütun rolunu oynayır. Bu baxımdan hər iki ədəbiyyat milli ruhun və bəşəri dəyərlərin vəhdətini əks etdirən mədəniyyət daşıyıcısı kimi çıxış edir*

Bütün zamanlarda bədii ədəbiyyatı düşündürən əsas məsələlərdən biri ictimai münasibətlər və problemlərin qanunauyğun inkişafını əks etdirmək və bu məsələləri psixoloji, fəlsəfi ölçüdə şərh etməkdən ibarət olmuşdur. Fəlsəfi-psixoloji interpretasiyada bütün dünyada öz xüsusi çəkisi olan Çin mədəniyyəti qədim dövrlərdən bu günümüzə qədər poeziyası ilə də düçüncələrə nüfuz etməyi bacarmışdır.

Bu gün Çin ədəbiyyatı müxtəlif istiqamətlərdən diqqəti özünə cəlb edə bilir. Bu ədəbi nümunələrdə Çin yazıçıları qadın və uşaq haqlarının müdafiəçisi, sosial problemlərin mahir tədqiqatçısı kimi çıxış etməklə bərabər, ictimai məsələlərin də təsviri baxımından fərqlənirlər. Ölkə daxilində, eləcə də hüdudlarda baş verən hadisələr bu torpağın şairlərini hər zaman həm düşündürmüş, həm də narahat etmişdir.

Çin ədəbiyyatında ictimai lirikanın kökü e.ə. XI–VI əsrləri əhatə edən “Şi Cin” – “Mahnılar kitabı” adlı toplunun yarandığı dövrə təsadüf edir. Ədalətsiz hökmdarlar, əmək və ailə mövzuları, xalqın həyatı bu toplunun toxunduğu əsas mövzular hesab olunurdu. Bu mərhələdə şeir – bir növ vicdanın səsi kimi qəbul edilirdi. Digər mərhələ Tan və Sun poeziyası ilə fəqlənən klassik dövr idi. Tan (618-907) və Sun (960-1279) mərhələləri əsasən Çin lirikasının qızıl dövrü kimi tanınır. Çin ölkəsinin xalq şairi kimi bilinən Du Fu, eləcə də Li Bo, Bay Çzyuyi və b. kimi şairlərin yaradıcılığını əhatə edən bu dövrdə poeziyanı düşündürən əsas məsələlər müharibənin acı dəhşətləri, yoxsulluq, sosial ədalətsizlik və s. kimi mövzular idi.

Növbəti mərhələ XX əsr ədəbiyyatında özünü göstərdi. Yeni dövrdə xüsusən, 1919-cu ildə baş verən “Mayın dördü Hərəkatı” və Mao Zed hakimiyyətindən sonra şeir milli dirçəliş və oyanışın güclü ifadə formasına çevrildi. Bu dövrdə Ay Sin, Bey Dao, Şu Tin və b. şairlərin yaradıcılığı diqqəti cəlb edir.

Azərbaycan ədəbiyyatı da tarixən bənzər ictimai və mənəvi proseslərdən keçmişdir. Əlverişli coğrafi mövqe və zəngin təbii sərvətlərə malik Azərbaycan torpağı əsrlər boyu yadellilərin marağına səbəb olmuş, bu səbəbdən işğallara məruz qalmış, bu da xalqın azadlıq duyğularının, milli kimliyinin və vətənpərvərlik hisslərinin formalaşmasında mühüm rol oynamışdır. Müharibələrin fəlakətləri, yurd həsrəti, azadlıq uğrunda mübarizə, milli bütövlük arzusu Azərbaycan poeziyasının aparıcı motivi olmuşdur. Bu ideyaların parlaq daşıyıcısı kimi Bəxtiyar Vahabzadə yaradıcılığı xüsusi önəm kəsb edir. Onun 1970-ci illərdə yazdığı “Gülüstan” poeması müəllifə böyük şöhrət qazandırmışdı. Hərçənd ki, bəzi tədqiqatçılar əsərin sovet dövründə sifarişlə yazıldığını iddia etsə də, o dövrdə senzuranın güclü olması bu fikri müəyyən dərəcədə təsdiqləyir. Əsərin yazıldığı illərdə İran daxilində tudəçilər, xomeyniçilər və şah tərəfdarları arasında baş verən qarşıdurmalar, SSRİ-nin regiondakı maraqları ilə bağlı siyasi situasiya bu əsərin yazılmasına təsir göstərmişdi. Lakin bu fakt Bəxtiyar Vahabzadənin sənətkar mövqeyini kölgələməməlidir. Əksinə, “bunun özü də şairə Cənubu Azərbaycan mövzusunu dilə gətirmək, vətənin ağrılarını qələmə almaq üçün bir fürsət idi”. [2, s.368] Poemada şair Azərbaycanın parçalanmasını faciə kimi qələmə alır, yad qüvvələrin zülmünü ifşa edirdi.

Bəxtiyar Vahabzadənin yaradıcılığında vətən, azadlıq, millət, bütövlük ideyası daim əsas xətti təşkil edir. “Azərbaycan müstəqillik qazandıqdan sonra başlanğıc mərhələdə qanlar və qurbanlar bahasına əldə olunmuş milli istiqlalı qoruyub saxlamağı bacarmayanların, ölkədə çaşqınlıq yaradanların bədii obrazı da Bəxtiyar Vahabzadənin əsərlərində canlandırılmışdır”. [1, s.9] “Milli birlik, Azərbaycanı vahid görmək ideyası sovet dönəmində Bəxtiyar Vahabzadədən başlayır”. [7, s.190]

Onun şeirlərindəki vətən sevgisi və vətəndaşlıq hissi Çin poeziyasındakı vətənpərvərlik motivləri ilə səsləşir. Hər iki xalqın poeziyasında vətən anlayışı təkcə coğrafi məkan deyil, mənəvi və tarixi dəyər kəsb edir. Bəxtiyar Vahabzadə yazırdı:

*Vətəni sevirəm deyən çox olar,*
*Deməyə nə var ki, dil yorulmasa.*
*Vətən də bizim tək ölər, yox olar,*
*Vətənin yolunda ölən olmasa.* [6, s.2]

Bu misralarda şair vətən sevgisini sözlə deyil, əməl ilə sübut etməyin vacibliyini önə çəkir. Onun azadlıq arzusu “Bir rəngi yox, göylərin min rəngini sevirəm...” misralarında da aydın duyulur:

*Bir rəngi yox, göylərin min rəngini sevirəm.*
*Bir gülü yox, güllərin çələngini sevirəm.*
*Mən çıxmağa təpə yox, uca dağ istəyirəm,*
*Həyatı həyat kimi yaşamaq istəyirəm,*
*Yaşamaq istəyirəm.* [5, s.16]

Azadlığı həyatın mənası, insan varlığının əsas şərti kimi görən şair “Həyatı həyat kimi yaşamaq istəyirəm” - deyərək mənəvi müstəqilliyin zəruriliyini vurğulayır.

Bu baxımdan Vahabzadənin poeziyası ilə Çin şairi Ay Sinin yaradıcılığı arasında dərin bənzərliklər vardır. XX əsr Çin ədəbiyyatının böyük simalarından Ay Sinin yaradıcılığındakı ictimai motiv daha dərin cəhətləri, öz mübarizə ruhu ilə diqqət çəkir. O müharibə illərində yazdığı poema və şeirləri ilə tanınan imzalardan biridir. Yaradıcılığı xüsusi mərhələ kimi dəyərləndirilən şair tənqidçi, nəzəriyyəçi kimi tanınır, xüsusilə şeir sahəsində sərraf hesab olunur. Öz əsərlərində o xalq nəğmələrinə, eləcə də ciddi klassik janrlara müraciət etməyinə baxmayaraq, sərbəst vəznə daha çox üstünlük verir. Poeziyası vətənpərvərlik motivi ilə zəngindir. Onun yaradıcılığındakı inqilabi ruhun kökü isə özünün idealı kimi gördüyü Amerika şairi Uolt Uitmen, belçikalı fransız dilli şair

Emil Verxarn, Rusiyanın görkəmli ədəbi siması V.Mayakovski tərəfindən başlanan mübarizənin davamçısı kimi hiss etməyindən irəli gələn səbəbdir. İri miqyaslı yaradıcılığı ilə o da B.Vahabzadə kimi təpədən-dırnağa vətənpərvər təsiri bağışlayır və hər zaman həmvətənlərini doğma vətəni Çinin azadlığı uğrunda mübarizəyə səsləyir. Onun vətənə olan sevgisi ilə seçilən "Bu torpağı çox sevirəm" adlı şeiri ideyası ilə diqqəti xüsusilə cəlb edir. Şeirdə vətən sevgisi, torpağa bağlılıq və azadlıq ruhu eyni dərəcədə səmimi və emosional şəkildə ifadə olunur:

*Quş olsaydım,*
*Ötərdim qəmli nəğmələrimlə.*
*Yağışın oyduğu torpaqdan,*
*Hiddətlə gurlayan seldən,*
*Usanmadan əsən küləkdən,*
*Meşələrin bənzərsiz çiçəklərindən,*
*Və sonra... can verərdim şərqilərimlə.*
*Lələklərim susardı, torpağa qarışardı...*
*Niyə ağlayıram, Gözlərim dolur...*
*Bu torpağa sevgim–qəlbimdən doğur...* (*tərc. Sevinc Həmzəyeva*)

Materikin ayrı-ayrı qütblərində yerləşən müxtəlif dil, din və mədəniyyətə malik iki ölkənin poeziyasında müştərək gələn ideyalar göründüyü kimi maraq doğurur. Şeirdə hisslərin maraqlı təsvirinə rast gəlinir. Şair öz sevimli yurdunu maraqlı boyalarla mədh edir. Onun hər qarışının gözəlliyini bir quşa çevrilərək təsvir etməkdən usanmır. Şairin poetik təfəkküründə quş-həm azadlığın nümunəsi, həm də daha yüksəkdən bütün gözəlliyi görməyi bacaran, şirin nəğmələri ilə mahnılar oxuyan bir obrazdır. O, bir quş kimi yağışın döyəclədiyi, sularına qərq etdiyi torpaq, dağlardan, dərələrdən nərildəyərək axan sellər, çölləri qucaqlayan, yorulmadan əsən külək barədə nəğmələr qoşmağı, yorulmadan bu mahnıları bütün ölkəsi üçün oxumağı, yurdunu gözəlləşdirən meşələri, onun qoynunda bitən xoş qoxulu çiçəklərin gözəlliyindən danışmağı arzulayır. Şairin arzusu oxucunu düşündürür: ...O, gözəllikdən zövq almaqdan çox özü də bu gözəlliyin parçası olmağı, hətta nəğmələrini belə həsrətlərə yoğrulmuş halda, ürəkləri parçalayan hisslə oxumağı üstün tutur. Onun bu istəyi sanki mahnı oxumaqdan çox hayqırtıya bənzəyir. Söylədiyi şərqisi ilə can vermək, lələklərinin çürüyərək torpağa qarışmasını istəyən şairin gözləri dolur və o bunu da sevgisinin böyüklüyü və hüdudsuzluğu ilə əlaqələndirir.

Ay Sinin bu poetik etirafı ilə Bəxtiyar Vahabzadənin "Azərbaycan oğluyam" şeirinin ideyası arasında da mənəvi paralellər aydın görünür. Hər iki şairin yaradıcılığında torpaqla vətənin simvolik birləşməsi, yurdun təbiətinə, tarixinə və ruhuna bağlılıq əsas yer tutur. Ay Sinin poeziyasında quş obrazı azadlığın, ucalığın və fədakarlığın rəmzidirsə, Bəxtiyar Vahabzadə özünü od kimi yandıran, su kimi söndürən, torpağın özü ilə eyniləşən bir obrazı kimi təqdim edir:

*"Od kimi istiqanlı,*
*Seltək dəliqanlıyam.*
*Həyat qədər qədiməm,*
*Torpaq qədər şanlıyam.*
*Məni yandırsalar da,*
*Suda batırsalar da,*
*Yenə mənəm, mən mənəm!"* [3, s.32]

Bu poetik ruh həm Çin, həm də Azərbaycan poeziyasında vətənə sədaqət, azadlıq uğrunda fədakarlıq, milli kimliyə bağlılıq ideyalarının bədii ifadəsidir. Hər iki sənətkar öz xalqının səsini, tarixi ağrılarını və gələcək ümidlərini poeziya vasitəsilə əbədiləşdirmişdir. İlk baxışdan elə görünə bilər ki, B.Vahabzadə bu misralarda özünü öyür, yaxud özünə aid olan sifətlərdən söhbət açır. Amma şeiri diqqətlə oxuduqda bu misraların birinci şəxsin təkində ümumiləşdirilmiş bütün Azərbaycan oğulları durduğunu hiss etmək olar. Əbəs yerə deyil ki, şair buna işarə edərək yazır:

*Köküm üstə bitmişəm,*
*Şöhrətim var, Şanım var.*
*Mənim gələcəklə də*
*Öz əhdi-peymanım var.* [3, s.32]

Göründüyü kimi, şair qüdrətinin ölçüsünü öz bacarığı ilə yox, əcdadların gücü və şöhrəti ilə hesablayır. Ay Sində olduğu kimi, Bəxtiyar Vahabzadə də vətənə olan sevgi bəzən hayqırtıya çevrilir. İkiyə bölünmüş Azərbaycan torpağı onun qəlbinə çəkilmiş bir dağ kimi yandırıb yaxır:

*İkiyə bölünmüşəm.*
*İki başlı, bir qəlbli*
*Bir bədənə dönmüşəm.* [3, s.34]

- deyən şairi Şimali və Cənubi Azərbaycan məsələsinin hər zaman düşündürən bir problem olduğunu açıq-aşkar görürük. Bəxtiyar Vahabzadənin "İkiyə bölünmüşəm..." misralarında Azərbaycanın parçalanmış taleyinə duyduğu ağrı Ay Sinin vətənin birliyinə çağırış ruhu ilə səsləşir. Vahabzadə üçün bu ağrı yalnız bir xalqın deyil, bütöv türk dünyasının mənəvi yarasıdır. Şeirdə Cənubi Azərbaycanın tanınan ədəbi simalarından olan Balaş Azəroğluya xitabən deyilmiş misralar diqqəti cəlb edir:

*Balaş, biz ikimiz də*
*Bir ananın oğluyuq,*
*Biz ki, Azəroğluyuq.*
*Hər ikimiz əzəldən*
*Bir arzunun quluyuq.* [3, s.34]

Bütün azərbaycanlıların sinəsinə çəkilmiş bu dağ zaman-zaman hər birimizi yandırsa da, qaysaq tutub sağalmayan yaralardandır. Bəxtiyar Vahabzadənin bu hayqırtısı bir arzuya çevrilir:

*Həm Təbriz, həm Bakıdır,*
*Məkkəm, Mədinəm mənim.*
*Pasportsuz yaşar bu gün*
*İki Vətəni olan*
*Azəroğlum, Qafarım, Əlim, Mədinəm mənim* [3, s.34]

Qədim bir yurdun, köklü, adət-ənənəli xalqın oğlu olmağı ilə qürur duyan şair kiçik bir misrada tarixin yaddaşına işarə edərək onun böyük keçmişə malik olmasını da poetik şəkildə ifadə edir. Bu elə bir tarixi böyük keçmişdir ki, o zamanlar hünər göstərməyincə insana ad verilməzdi:

*Hünər göstərməyincə*
*Adsız yaşamışam mən.*
*Dədəm Qorqud ad verdi*
*Mənə öz hünərimdən.* [3, s.32]

B.Vahabzadənin "Şan-Yan" şeiri qədim Çin filosofu Şan Yanın dövlət və xalq münasibətləri barədə ideyalarına əsaslanır və Azərbaycan poeziyasında fəlsəfi-ictimai lirikanın diqqətəlayiq nümunəsidir. Şair çin filosofunun müdrik fikirlərinə əsaslanaraq dövləti və xalqı oyaq olmağa çağırır:

*Şan-Yan deyir:*
*Yat, ey xalqım, rahat-rahat.*
*Gözlərini yum, hələ yat.*
*Əgər gözün açıq olsa,*
*Sən görərsən.*
*Görə bilsən,*
*Gördüyünə tüpürərsən.* [3, s.206]

Əsərdə dövlət oyaq, xalq mürgülü və ya əksinə olduğu zaman yaranan tarazsızlıq məmləkət üçün təhlükə kimi təqdim olunur. "Şirin, dadlı yuxular da özgə nemət! Sən yatmasan, çiçəklənməz bu məmləkət" [3, s.206] misraları zahirən sakitlik çağırışı olsa da, əslində sarkazm xarakteri daşıyır,

milli oyanışa, azadlığa çağırış istəyindən qaynaqlanır. "Ağlı olan qanarmı heç? Qananların xoşbəxtliyi, de, varmı heç?" [3, s.207] ifadəsində isə insanın ağlının onun başına bəla olması fikri əksini tapır. Şeirin dili sadə, aforistik və tənqidi-ironiya ilə yüklüdür. Əsər dövlət məsuliyyəti və xalqın oyanışı ideyasını önə çəkərək qədim müdrikliyin müasir ictimai anlamda yenidən yozulmasını təqdim edir. Çin filosofunun fikirlərinə istinad edən şair Çin xalqının taleyi ilə Azərbaycan xalqının taleyi arasında oxşarlıq görür.

Beləliklə, həm Ay Sin, həm də Bəxtiyar Vahabzadə yaradıcılığında vətənpərvərlik təkcə ədəbi motiv deyil, həm də mənəvi və fəlsəfi dəyər kimi səslənir. Onlar poeziyada vətən sevgisini tərənnüm etməklə yanaşı, azadlıq, insan ləyaqəti və milli kimlik uğrunda mübarizənin simvollarına çevrilmişlər. İki müxtəlif qitədə, fərqli dillərdə və mədəniyyətlərdə formalaşmış bu poeziya nümunələri göstərir ki, bədii sözün gücü sərhəd tanımır, insan ruhunu birləşdirən ümumbəşəri dəyərlərin ifadəçisidir.

**Ədəbiyyat**

[1]. Həbibbəyli, İ. Milli istiqlal ədəbiyyatında Bəxtiyar Vahabzadə "Ədəbiyyat məcmuəsi"ndə. // XXVIII c., –Bakı: Elm və təhsil, –2016, –520 s.
[2]. Məmmədova, T. Azərbaycan ədəbiyyatı tarixi (XIX-XX əsrlər) / T.Məmmədova, –Bakı: Elm və təhsil, –2024, – 440 s.
[3]. Vahabzadə, B. Seçilmiş əsərləri. [2 cilddə]. (Şeirlər) / B.Vahabzadə, –Bakı: Öndər, –c.1, –2004. –328 s.
[4]. Vahabzadə, B. Əsərləri. [12 cilddə]. (1970-1979) / B.Vahabzadə, –Bakı: Elm, –c.4, –2008. –662 s.
[5]. Vahabzadə, B. Azərbaycan poeziyası seçmə şeirləri / B.Vahabzadə, –Bakı: Qanun, –2022. –368 s.
[6]. Vahabzadə, B. Şəhid məzarları (şeir). https://azoh.info/index.php?option=com_jdownloads&Itemid=27&task=finish&cid=123&catid=2
[7]. Yusifli, V. Poeziyanın yolları və illəri (1960-2000-ci illər) / V.Yusifli, –Bakı: Mütərcim, –2009. –404 s.
[8]. История литературы Китая. Учебное пособие / Сост. С.В.Филонов. –Благовещенск, –2015. https://irbis.amursu.ru/DigitalLibrary/AmursU_Edition/5480.pdf
[9]. Китайская поэзия. Ай Цин (1910-1996) / Китайская республика. КНР. https://chinese-poetry.ru/poems.php?action=show&author_id=1

**Summary**

**Comparative analysis of social lyricism in Bakhtiyar Vahabzadeh's poetry and Chinese literature**

***Hamzayeva S.S., Mammadova T.K.***

***Keywords:*** *Bakhtiyar Vahabzadeh, Chinese poetry, idea of freedom, literature, Ay Sin*

The article is devoted to a comparative analysis of the ideas of patriotism and freedom in Azerbaijani and Chinese poetry. The study examines the formation of social lyricism, as well as the artistic expression of national identity and freedom motifs in the literary thought of both nations, focusing on a comparative literary analysis of the works of Bakhtiyar Vahabzadeh and Ai Qing. The relevance of the topic lies in the necessity of preserving national and spiritual values in the era of globalization and the importance of studying intercultural and moral connections on a scholarly and theoretical basis. The main objective of the research is to determine the artistic and philosophical embodiment of the idea of patriotism in Azerbaijani and Chinese poetry and to analyze the moral and historical content of these ideas in a comparative context. The study employs comparative-typological, historical-literary, and structural-semantic methods, revealing the artistic parallels of homeland, freedom, and national identity motifs in the works of Ai Qing and Bakhtiyar Vahabzadeh. The findings show that in both poetic traditions, the concept of homeland is presented not merely as a geographical space but as a moral and universal value, confirming the humanistic essence of poetic expression that unites the human spirit. In both Azerbaijani and Chinese poetry, the idea of patriotism serves as a moral

pillar that preserves the historical memory of the nation. In this regard, both literatures act as cultural carriers reflecting the unity of national spirit and universal human values.

**Резюме**

**Сравнительный анализ общественной лирики в поэзии Бахтияра Вахабзаде и китайской литературе**

***Гамзаева С.С., Маммадова Т.К.***

***Ключевые слова:*** *Бахтияр Вахабзаде, китайская поэзия, идея свободы, литература, Ай Цин*

Статья посвящена сравнительному анализу идей патриотизма и свободы в азербайджанской и китайской поэзии. В исследовании рассматривается формирование общественной лирики, художественное воплощение мотивов национальной идентичности и свободы в литературном сознании обоих народов, проводится сравнительный литературный анализ творчества Бахтияра Вахабзаде и Ай Цина. Актуальность темы определяется необходимостью сохранения национальных и духовных ценностей в эпоху глобализации, а также важностью научно-теоретического изучения духовных и культурных связей между народами. Цель исследования — определить художественно-философское воплощение идеи патриотизма в азербайджанской и китайской поэзии, а также провести сравнительный анализ морального и исторического содержания этих идей. В работе применяются сравнительно-типологический, историко-литературный и структурно-семантический методы, с помощью которых выявлены художественные параллели мотивов родины, свободы и национальной самобытности в творчестве Ай Цина и Бахтияра Вахабзаде. В результате установлено, что в обеих поэтических традициях понятие родины представлено не только как географическое пространство, но и как духовная и общечеловеческая ценность, что подтверждает универсальную сущность поэтического слова, объединяющего человеческий дух. И в азербайджанской, и в китайской поэзии идея патриотизма выступает духовной опорой, сохраняющей историческую память народа. В этом смысле обе литературы являются носителями культуры, отражающими единство национального духа и общечеловеческих ценностей.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 82.91** DOI 10.54758/16801245_2025_21_4_33

# Bəxtiyar Vahabzadənin uşaq əsərlərində tərbiyəvi məqamlar

**[1]Vəliyeva İlahə Xaləddin qızı** ORCID
**[2]Cabarova Mədinə Ağakərim qızı** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, 1-dosent, 2-fil.f.d.*
madina.cabarova@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 23.01.2025*
*Düzəliş tarixi: 10.03.2025*
*Qəbulolunma tarixi: 01.05.2025*

***Açar sözlər***
*Bəxtiyar Vahabzadə, uşaq ədəbiyyatı, tərbiyəvi məqamlar, vətənpərvərlik, əxlaq*

**XÜLASƏ**

*Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Bəxtiyar Vahabzadə yalnız böyüklər üçün deyil, həm də uşaqlar üçün yaratdığı əsərləri ilə milli düşüncənin, əxlaqi və mənəvi dəyərlərin formalaşmasına mühüm töhfələr vermişdir. Onun uşaq ədəbiyyatına aid şeirləri sadə və anlaşıqlı dili, dərin mənəvi məzmunu, vətənpərvərlik ruhu və tərbiyəvi ideyaları ilə seçilir. Bu məqalədə Bəxtiyar Vahabzadənin uşaq əsərləri janr və məzmun baxımından təhlil edilir, əxlaqi, mənəvi və vətənpərvərlik tərbiyəsinə dair əsas məqamlar araşdırılır. Eyni zamanda müəllifin bir sıra nümunəvi şeirləri üzərində konkret təhlillər aparılaraq onların uşaqların şəxsiyyətinin formalaşmasında rolu müəyyənləşdirilir*

Azərbaycan uşaq ədəbiyyatının inkişafında XX əsrin ikinci yarısından etibarən yeni bir mərhələ başlamışdır. Bu dövrdə uşaqlar üçün yazılan əsərlərdə yalnız əyləncəli süjet xəttinə deyil, həm də mənəvi dəyərlərin aşılanmasına xüsusi diqqət yetirilmişdir. Uşaq ədəbiyyatı təkcə kiçik yaşlı oxucular üçün yazılan mətnlər deyil, eyni zamanda gələcək nəsillərin formalaşmasında mühüm ideoloji və pedaqoji vasitədir.

Bəxtiyar Vahabzadə (1925–2009) bu sahəyə xüsusi həssaslıqla yanaşan yazıçılardandır. Onun uşaq əsərləri milli-mənəvi dəyərlərin, vətənpərvərlik duyğularının, ana dilinə və ailəyə sevginin tərənnümü ilə seçilir. Müəllifin uşaqlar üçün qələmə aldığı şeirlər sadə dil üslubu, obrazlı ifadələr və bədii təsir gücü ilə uşaqların dünyagörüşünə, mənəvi inkişafına təsir göstərir. Şairin yaradıcılığı, yüksək sənətkarlıq istedadı Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyev tərəfindən də yüksək qiymətləndirilmişdir: “ Sənətkarın insanı daim mənəvi ucalığa səsləyən poetik-fəlsəfi məzmunlu yaradıcılığı milli poeziyada vətəndaşlıq ruhunun qüvvətlənməsində və ədəbi ictimai fikrin istiqlal ideyaları ilə zənginləşməsində böyük rol oynamışdır. Tarixi-mədəni dəyərlərə ehtiram və ana dilinin saflığının qorunması Bəxtiyar Vahabzadənin fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edirdi.” [2, s.8 ]

Şairin uşaq ədəbiyyatına olan münasibəti sırf ədəbi maraqdan doğmamış, həm də vətəndaşlıq mövqeyinin ifadəsi olmuşdur. O, uşaq şeirlərində dilin sadəliyinə, fikir aydınlığına və pedaqoji məqsədə xüsusi diqqət yetirirdi. Bu əsərlərdə həm milli kimlik, həm də ümumbəşəri dəyərlər birləşir; uşaqlarda vətən sevgisi, dilə və ailəyə hörmət, təbiətə qayğı və əməksevərlik hissləri formalaşdırılır.

Bəxtiyar Vahabzadənin uşaq ədəbiyyatında yaratdığı əsərlərini əsasən aşağıdakı mövzular ətrafında qruplaşdırmaq mümkündür:

1. Vətənpərvərlik və milli dəyərlər – vətənə sevgi, milli kimlik, tarixə hörmət;
2. Ana dili və ailə sevgisi – dilin qorunması, valideynə hörmət, ailə bağlarının möhkəmləndirilməsi;

3. Təbiətə sevgi və əmək tərbiyəsi – uşaqlarda zəhmətsevərlik, məsuliyyət və təbiətə qayğı hisslərinin formalaşdırılması.

Şairin uşaqlar üçün yazdığı əsərlərindəki bu mövzular həm ədəbi-bədii baxımdan maraqlı, həm də tərbiyəvi cəhətdən dərin məzmun daşıyır. Onun şeirlərindəki ritmik quruluş, təkrirlərin və sadə ifadələrin istifadəsi uşaqların yaddaşına və dünyagörüşünə uyğunlaşdırılmışdır.

Məsələn, Vahabzadənin "Ana dili" şeirində doğma dilə sevgi və milli kimlik ideyası uşaqlara sadə, lakin təsirli bir formada çatdırılır:

*Dil açanda ilk dəfə "ana" söyləyirik biz,*
*"Ana dili" adlanır bizim ilk dərsliyimiz.*
*İlk mahnımız laylanı anamız öz südüylə*
*İçirir ruhumuza bu dildə gilə-gilə.* [6, s.8 ]

Bu bənd uşaqlara dilin təkcə ünsiyyət vasitəsi olmadığını, həm də milli varlığın daşıyıcısı olduğunu anlatmaq üçün yazılmışdır. Burada həm poetik obraz, həm də açıq pedaqoji məqsəd özünü göstərir.

Bəxtiyar Vahabzadə uşaqlar üçün yazarkən onların düşüncə səviyyəsini nəzərə alır, lakin eyni zamanda onları milli-mənəvi dəyərlərlə tanış edir. Onun şeirləri həm bədii zövq formalaşdırır, həm də tərbiyəvi funksiyanı yerinə yetirir.

Şairin uşaq əsərlərinin əsas ideya xəttini uşaqların milli ruhda, sağlam əxlaqi prinsiplərlə tərbiyə olunması təşkil edir. Onun poetik dili uşaqları həm əylənməyə, həm də düşünməyə vadar edir. Şairin bu istiqamətdəki yaradıcılığı uşaqlarda milli kimlik, mənəvi bütövlük və cəmiyyətə faydalı insan olma keyfiyyətlərini formalaşdırmaq məqsədi daşıyır. Elə "Biz vətənçün doğulduq" şeirində olduğu kimi:

*Vətənin arxasında*
*Biz həmişə dağ olduq.*
*Vətən bizimçün deyil,*
*Biz Vətənçün doğulduq.*
*Vətən adlı ocağa*
*Hər gün isinmək gərək.*
*Bu torpağın yolunda*
*Torpağa dönmək gərək!!!* [ 9]

Bu misralarda şair uşaqlara vətən sevgisini ən sadə və təsirli formada aşılayır. Burada həm vətənpərvərlik, həm də milli kimlik tərbiyəsi ön plana çıxır.

Şairin məqsədi uşaqlara kiçik yaşlarından vətəni sevməyi, onun tarixini, dilini və rəmzlərini qorumağı aşılamaq olmuşdur. Şairin uşaq şeirlərində bayraq obrazı milli kimliyimizi simvolizə edən bir vasitə kimi təqdim olunur. Şeirdə milli rəmzlərə sevgi və qürur hissi aşılanır:

*Bayraq mənliyimdir, bayraq kimliyim,*
*Bayraq-öz yurduma öz hakimliyim.*
*Harda əcdadımın ayaq izi var,*
*Bu zəfər bayrağım orda dikəlsin.* [ 9]

Verilmiş hissədə bayraq sadəcə rəmz kimi deyil, həm də milli varlığın təcəssümü kimi təqdim olunur. Uşaqlar bu misralar vasitəsilə bayrağa sevgi və hörmət hisslərini mənimsəyirlər.

Görkəmli şairin vətəndaşlıq duyğusu da xalqın vətənpərvərlik hisslərinin formalaşmasında önəmli rol oynamışdır:

*Vətəndaş! Nə gözəl səslənir bu söz,*
*Yəni – bir Vətənin övladıyıq biz.*
*Anamız eynidir, qardaşıq demək,*
*Mən sənə arxayam, sən mənə kömək.* [ 10]

Şairin uşaq şeirlərində əxlaq və mənəviyyat anlayışları da xüsusi yer tutur. O, uşaqlara dürüstlük, böyüklərə hörmət, səmimiyyət, zəhmətsevərlik kimi dəyərləri poetik dillə aşılamağa

çalışır. Müəllif uşaqları tənbeh etmir, əksinə, onlara nümunə göstərir, düşündürür və doğru yolu seçməyə təşviq edir:

Əgər adamsansa.. Sev adamları,
Demə, bu dostumdur, o düşmənimdir
Demə, əzizimdir ev adamları,
De, mən bu xalqınam, xalq da mənimdir. [6, s.49 ]

Bəxtiyar Vahabzadə yaradıcılığı, eyni zamanda uşaqlara ailə üzvlərinə hörmət və sevgi duyğularını aşılamaqda mahir bir sənətkar kimi çıxış edir. Şairin yaradıcılığında valideyn mövzusu əhəmiyyətli yer tutur. Şair 1950-2000-ci illərdə qələmə aldığı şeirlərinin ("Ana və şəkil", "Ana türbəsi", "Körpə nəfəsi", "Ana dili", "Ana hədiyyəsi", "Lay-lay", "Ana və balalar", "Ana", "Mənim anam", "Ekran qabağında", "Doğum evində", "Anama giley", "Şəhid anası", "Ana birsə", "Mənim ana dilim", "Anam öldümü", "Anam təzədən böyüyür", "Anam haqqında şeirlər", "Ana dedim, qarşımda bir gözəl səhnə açıldı" və s.) dili olduqca sadə, duyğular son dərəcə səmimidir.

Bəxtiyar Vahabzadə uşaqları təbiəti sevməyə, ona qayğı ilə yanaşmağa çağırış xarakterli bir sıra şeirlərin də müəllifidir. Bu şeirlərdə təbiət gözəlliklərinin poetik təsviri uşaqların təfəkkürünü zənginləşdirir, eyni zamanda onlarda ekoloji mədəniyyət formalaşdırır.

*Ana təbiətlə yaxınlaşdıqca*
*Hisslə, həyəcanla yaşayırıq biz.*
*Göylərin dibinə yollar açdıqca*
*Artır idrakımız, artır əqlimiz.*

Və ya:

*...Eşqdir yaşadan təbiəti də,*
*Çiçəklər torpağın min bir rəngidir.*
*Böcəklə çiçəyin məhəbbəti də*
*Ana təbiətin öz ahəngidir."* [5, s.258 ]

Ümumiyyətlə, Bəxtiyar Vahabzadənin uşaq əsərlərində əxlaqi, mənəvi və vətənpərvərlik mövzuları bir-birini tamamlayan sistem kimi təqdim olunur. O, uşaqlara yalnız bir dəyəri deyil, bütöv bir dünyagörüşünü aşılayır. Bu isə şairi Azərbaycan uşaq ədəbiyyatının nümayəndəsi, əvəzolunmaz sənətkar kimi dəyərləndirməyə imkan verir.

B. Vahabzadənin yaradıcılığında xüsusi yer tutan mövzulardan biri də məktəb və müəllim mövzusudur. Şairin "Məktəb yolları", "Mən də onun meyvəsiyəm", "Müəllimim", "Əlifba kitabı", "Sənin ilk müəllimin" və digər şeirlərində müəllimə hörmət və elmə sevgi sadə bədii forma ilə dərin tərbiyəvi ideyalar birləşir.

*A məktəb yolları, məktəb yolları,*
*Sizi bir an belə unutmadım mən.*
*Könlüm min həsrətlə titrəyib əsir*
*Hər dəfə, hər dəfə keçəndə sizdən*. [ 7, s.151]

Şairin "Müəllim" adlı şeirlərində isə müəllim obrazı müqəddəsləşdirilərək uşaqlara elmə, təhsilə maraq oyadılır.

*Ey hörmətli müəllim,*
*Hər könüldə yerin var.*
*Hər kənddə, hər şəhərdə*
*Sənin meyvələrin var.*
*Əkdiyin ağacların*
*Gülü, çiçəyi solmaz.*
*Dünyada sənin kimi*
*Barlı bağban tapılmaz*. [ 9]

Şair məktəb həyatını, gənclik illərini, müəllimləri və dostlarını daim yad etmiş, yaradıcılığında iz buraxmış bu illəri, həyatında önəmli yer tutan bu insanları əsərlərində dönə-dönə

xatırlamışdır. Müəllim adına, şəxsiyyətinə dərin ehtiram və minnətdarlıq hissləri şairin uşaq şeirlərində mühüm yer tutur:

*Müəllim! qayğınla böyüyür insan!*
*Sən əqlə, kamala qanad verirsən.*
*Ana dilimizin gur bulağından,*
*Körpə balalara su içirirsən.* [ 1, s.123]

Təhlilləri ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, Bəxtiyar Vahabzadənin uşaq ədəbiyyatına aid əsərləri yalnız ədəbi nümunə kimi deyil, həm də azyaşlıların təlim-tərbiyəsində xüsusi önəm daşıyan pedaqoji vasitə kimi dəyərləndirilməlidir.

## Ədəbiyyat

[1]. Kərimova, S. B.Vahabzadə yaradıcılığında tərbiyə məsələləri / Kərimova, S. –Bakı: Nurlan, –2009, –154 s
[2]. "Poeziyamızın parlaq sənətkarı" Bəxtiyar Vahabzadə / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad.Respublika Uşaq Kitabxanası; tərt.ed.R.Məmmədli; red. K. Ağazadə. –Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, –2020. –21s.
[3]. Vahabzadə, B. Dan yeri / B.Vahabzadə, –Bakı: Gənclik, –1973, –262 s
[4]. Vahabzadə B. Sadəlikdə böyüklük / B.Vahabzadə, –Bakı: Yazıçı, –1978, –245 s.
[5]. Vahabzadə B. Seçilmiş əsərləri. [12 clddə] / B.Vahabzadə, –Bakı: Elm, c.8, –2009, –517 s.
[6]. Vahabzadə B. Seçilmiş əsərləri. [2 cilddə] / B.Vahabzadə, –Bakı: Yazıçı, c.1, –1984. –458 s.
[7]. Vahabzadə B. Seçilmiş əsərləri. [2 cilddə] / B.Vahabzadə, –Bakı: Öndər, c.2, –2004. –328 s.
[8]. https://portal.azertag.az/az/node/26654
[9]. https://e-derslik.edu.az/books/513/units/unit-1/page28.xhtml
[10]. https://e-derslik.edu.az/books/292/units/unit-1/page68.xhtml
[11]. https://www.anl.az/down/meqale/525/2019/noyabr/682498.htm

**Summary**
**Educational aspects in Bakhtiyar Vahabzades works for children**
***Valiyeva I. Kh., Jabbarova M.A.***

***Keywords:*** *Bəxtiyar Vahabzade, children's literature, educational values, patriotism, ethics.*

Baxtiyar Vahabzade is one of the prominent representatives of Azerbaijani literature who has made significant contributions not only to the development of national thought and moral values through his works for adults, but also by creating poems for children. His children's poems, distinguished by their simple and comprehensible language, are rich in moral, patriotic, spiritual, and educational ideas. This article analyzes Baxtiyar Vahabzade's children's poems from the perspective of genre and content, highlighting the main aspects of their moral and patriotic significance. At the same time, the author conducts specific analyses of some of his moral poems, emphasizing their role in shaping children's personalities.

**Резюме**
**Воспитательные аспекты в детских произведениях Бахтияра Вахабзаде**
***Валиева И.Х., Джабарова М.А.***

***Ключевые слова***: *Бахтияр Вахабзаде, детская литература, воспитательные ценности, патриотизм, этика*

Бахтияр Вахабзаде — один из выдающихся представителей азербайджанской литературы, который внес значительный вклад не только в развитие национального мышления и нравственных ценностей своими произведениями для взрослых, но и в создание поэзии для детей. Его детские стихи, отличающиеся простым и понятным языком, насыщены моральными, патриотическими, духовными и воспитательными идеями. В данной статье анализируются детские стихи Бахтияра Вахабзаде с точки зрения жанра и содержания, освещаются основные аспекты их нравственного и патриотического значения. В то же время автор проводит конкретный анализ некоторых нравственных стихотворений, подчеркивая их роль в формировании личности детей.

**UOT 82.09** DOI 10.54758/16801245_2025_21_4_37

# Tarixi faciələrdə gerçəklik və onun bədii dərki

**Ağayev İsmayil Aydin oğlu**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, fil.f.d., dosent*
ismayil.aghayev@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 12.02.2025*
*Düzəliş tarixi: 03.03.2025*
*Qəbulolunma tarixi: 28.04.2025*

***Açar sözlər***
*sosial mühit, yeniliklər, maarifçilik ideologiyası, tarixi şəxsiyyət, tarixi dram, mütləqiyyət sistemi, siyasi fəaliyyət, mürəkkəb xarakter*

**XÜLASƏ**

*XIX əsrin birinci yarısında Azərbaycan elmi düşüncəsinin və sosial-fəlsəfi baxışlarının inkişafında uğurlu, mütərəqqi addımlar atılmış və bu dəyərlər mütərəqqi prinsiplər cəmiyyətin bir çox sahələrinin sonrakı inkişafına güclü təsir göstərmişdir. XIX əsrdə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında, eləcə də insana münasibətdə yeniliklər maarifçilik ideologiyasının Azərbaycanda yayılması ilə bağlı olmuşdur. XIX əsrin sonlarında Azərbaycan dramaturgiyası janr və ideya baxımından zənginləşib, dramaturgiya düşüncəsinin zirvəsi sayılan faciə janrının ilk nümunələri meydana çıxıb. N. Nərimanov tarixi şəxsiyyət ilə bağlı faciənin başlanğıcını qoydu və "Nadir şah" tarixi dramını yazdı. Dramaturq Nadir şahın həyat yolunu, hərbi və siyasi fəaliyyətini təsvir edərək mütləq siyasi sistemin mahiyyətini göstərdi. İslahatların uğursuzluğunun səbəbini mütləq siyasi sistem adlandırdı. Nadir şahın xarakterinin mürəkkəbliyi, hərbi və döyüş şücaəti və islahat siyasəti dramatik hadisələr vasitəsilə təqdim olunur*

## Giriş

XIX əsr bütün mürəkkəblik və ziddiyyətlərinə baxmayaraq Azərbaycanda ədəbi-bədii fikrin, ictimai-fəlsəfi təfəkkürün inkişafında xüsusi rol oynamışdır. İctimai-siyasi mühitdə baş verən ciddi hadisələr, mədəniyyətlərarası əlaqələrin qurulması, ictimai-tarixi inkişafın zəruriləşdirdiyi yeniləşmələr, mütərəqqi məzmun daşıyan tədris mərkəzlərinin yaradılması cəmiyyətdə ictimai düşüncənin dərinləşməsinə, yenilənməsinə güclü təsiri olmuşdur

XIX əsr Azərbaycan ictimai-siyasi və mədəni həyatında baş verən ciddi irəliləyişlər, cəmiyyətə, insana münasibətdə yeniləşmələr maarifçilik ideologiyasının bu və ya digər formada Azərbaycanda yayılması ilə bağlı idi. Məlumdur ki, "Azərbaycanda maarifçilik ideyalarının ilk bəlirtiləri XIX əsrin 30-40-cı illərində təzahür etməyə başlamışdır. Bu dövrdə maarifçilik ideyaları əsasən, A.Bakıxanovun çoxcəhətli yaradıcılığında ifadə olunmuşdur". [1, s.275] Bu ideologiyanın tam sistem kimi formalaşması, ideoloji baxış olaraq milli ictimai və ədəbi-fəlsəfi fikrin inkişafını istiqamətləndirməsi, insan və cəmiyyət münasibətlərinin, idarəetmə prinsiplərinin aydınlaşdırılmasında ictimai-siyasi fikrin əsas mahiyyətinə çevrilməsində M.F.Axundovun yaradıcılığı əsas yer tutur.

XIX əsrin sonlarına doğru Azərbaycan dramaturgiyası janr və məzmun, mövzu və ideya baxımından daha da zənginləşmiş, dramaturji fikrin zirvəsi sayılan faciə janrının ilk nümunələri yaradılmışdır. Ə. Haqverdiyev, N.Nərimanov yazdıqları faciələri ilə Azərbaycan dramaturgiyasının, faciə janrının mövzu dairəsini genişləndirmiş, tarixi şəxsiyyətlərin fəaliyyət və əməllərini, ictimai münasibətlərdəki ziddiyət və mürəkkəblikləri tarixi şəxsiyyətlərin həyat, mövcudluq, özünütəsdiq prinsipləri daxilində verməklə, ciddi ictimai-siyasi problemlərin həllinə çalışmışlar.

Azərbaycan dramaturgiyasında ilk tarixi faciə olan "Nadir şah" (1899) ədib, publisist və dramaturq Nəriman Nərimanov tərəfindən yazılmış, mütləqiyyət sistemi və bu sistem daxilində

islahatlar aparmaqla yeniləşmələr siyasəti bədii təhlil obyekti kimi götürülmüş, müəllifin yaratdığı "Nadir şah surətində müstəbid hakimlərin faciəsinin bilavasitə feodal-mütləqiyyət üsul-idarəsi ilə bağlılığı çox qabarıq əks etdirilmiş, eyni zamanda maarifçi şah ideyalarının boş xülya olduğu sübut edilmişdir". [1, s.339]

Şərq tarixində Nadir şah Səfəvilər dövlətinin süqutundan sonra yaranan Əfşarlar dövlətinin qurucusu, güclü sərkərdə və islahatçı hökmdar kimi tanınmışdır. XVIII əsr Səfəvilər dövləti üçün çox ağır və mürəkkəb dövr olmuşdur, idarəetmə sisteminin zəifləməsi, Osmanlı və rus imperiyalarının güclənməsi, ölkənin şərqində dövlətə qarşı ixtişaşların artması Səfəvilər dövlətinin mövcudluğunu sual altına qoymuşdur. Şərq monarxiya üsul-idarəsinin tipik xüsusiyyəti olan daxili çəkişmələr, hakimiyyət iddiası daxili bütövlüyü sarsıtmış, hakimiyyətin zəifləməsinə, mərkəzdənqaçma siyasi fəaliyyətinin güclənməsinə səbəb olmuşdur. Siyasi vəziyyətin ağırlığını, dövlətin məhvolma təhlükəsini anlayan II Təhmasib 1726-cı ildə ərazisi əfqanlar, osmanlılar və ruslar arasında bölüşdürülmüş Səfəvilər imperiyasının xilası üçün Nadiri orduya sərkərdə təyin edir. Nadirdə olan sərkərdəlik qabiliyyəti, döyüşlərdə qazandığı nailiyyətlər onun nüfuzunun hərbçilər və sadə insanlar arasında artmasına səbəb olmuşdur. Nadirin artan hərbi-siyasi nüfuzu II Təhmasibi ciddi narahat etməyə başlayır və ordunun rəhbərliyini öz əlinə alır. Xorasana hakim təyin edilən Nadir mövqe və nüfuzundan istifadə edərək 1732-ci ildə Osmanlı və rus imperiyaları ilə bağlanmış müqavilələrlə razılaşmır, II Təhmasibin sarayı ilə Nadir arasında kəskin münasibətlər yaranır. Nadir Osmanlı sultanına məktubla bildirir ki, Bağdad müqaviləsinin siyasi-hüquqi əsası yoxdur. II Təhmasibə göndərdiyi məktubda isə onu ölkənin torpaqlarını verməkdə günahlandırır, İsfahanda hərbi elita qarşısında hər iki müqavilənin vətənə xəyanət olduğunu II Təhmasibə söyləyir. Saray daxilindəki fikir ayrılıqlarından və ordudakı nüfuzundan istifadə edərək Nadir 7 sentyabr 1732-ci ildə hakimiyyəti ələ alır, dövləti idarə etməyə başlayır.

Şərq tarixində ilk dəfə olaraq Nadir sabit və qanuni hakimiyyət üçün 27 yanvar 1736-cı ildə Muğanda qurultay çağırır, daxili qüvvələrin razılığı ilə dövlət rəhbərinin müəyyənləşməsini istəyir. Qurultay nümayəndələri dövlət başçısı kimi Nadiri görür, onu dövlət başçısı olmağa razı salırlar. Şərq tarixində ilk dəfə belə bir hadisə baş verir, hökmdar əsil-nəcabətinə görə deyil, bacarığına, sərkərdəlik qabiliyyətinə görə hakimiyyətə gətirilir, imperiyanın taleyi ona etibar edilir. Bununla da Səfəvilərin süqutu, Əfşarlar sülaləsinin tarix səhnəsinə gəlişi başlayır. Hakimiyyəti dövründə Nadir şah ciddi islahatlar aparmağa başlayır, ətraf ölkələrlə münasibətin normallaşması, daxili sabitliyin qorunması üçün müxtəlif ərazi vahidlərinin birləşdirilməsi, hakimiyyətə tabe olmaq istəməyən qüvvələrin zəiflədilməsi kimi məqsədyönlü işlər aparır. Nadir şah rusların təhrikinə baxmayaraq Osmanlı ilə savaşa girmir, şərq tarixində ilk dəfə əfqanları, 1739-cu ildə Hindistanı məğlub edir. Hindistandakı zəfərdən sonra Nadir şah Türküstanı, Çini Əfşar dövlətinə tabe etmək iddiasına düşür. Nadir 1740-cı ildə Türküstanı Əfşar dövlətinin ərazisinə qatır və planlaşdırdığı işin ilk mərhələsini yerinə yetirir.

Nadir şahın zəfərləri rus və Osmanlı imperiyasını ciddi narahat edirdi, hər iki imperiya müxtəlif zamanlarda maneə və münaqişələr törətməklə Əfşarlar imperiyasının genişlənməsinin qarşısını almağa cəhd göstərirdilər. Bundan əlavə, saray daxilindəki çəkişmələr, hakimiyyət iddiaları kimi məsələlər Əfşarlar imperiyasının mürəkkəb ictimai və siyasi proseslər yaşadığını göstərir. Nadir şah 1742-ci ilin dekabrında saray əyanlarının fitnəsi ilə oğlu Rzaqulunun gözlərini çıxartdırır, bunun saray daxilindəki əks qüvvələrin hakimiyyət üçün qurduqları siyasi oyun olduğunu öyrənən zaman kəskin sarsılır, intiqam alsa da, siyasi hakimiyyətinin aqoniyası başlayır və Əfşarlar imperiyasının süqutunu sürətləndirir, daxili üsyanlar güclənir. Böyük bir müharibə ocağı-Osmanlı imperiyası ilə döyüş Nadir şahın siyasi bacarığı hesabına söndürülür, 1746-cı ildə Qəzvində sülh müqaviləsi imzalanır. Daxili ixtilaflar isə daha da kəskinləşir, Nadir şahın xarici siyasətdə qazandığı irəliləyiş hakimiyyət iddiasında olan daxili qüvvələri daha sərt və amansız hərəkətə sövq edir, saray əyanları Nadir şahın qardaşı oğlu Əliqulu Mirzənin təklifi ilə sui-qəsd təşkil edib 1747-ci ildə Nadir şahı qətlə yetirir, Əfşarlar imperiyasını süquta uğradırlar. Mütərəqqi

islahatlar aparan, böyük bir ərazidə Əfşarlar imperiyasını yaradan Nadir şah daxili ixtilafların qurbanı olur, saray adamlarının xəyanəti ilə qətlə yetirilir. Görkəmli sərkərdə, siyasi xadim Nadir şahın hərbi-siyasi fəaliyyəti, islahatları, dövlətin idarəedilməsində mütərəqqi meyilləri ilə ona əks olan ictimai-siyasi mühit, siyasi əxlaq və dünyagörüşü, hakimiyyət iddiası, hakimiyyətin ələ keçirilməsində sərt və amansız üsullardan istifadə edən düşüncə və baxışların qarşılaşması zəminində Nadir şah faciəvi hökmdar, acı taleli siyasi şəxsiyyət kimi görünür.

Orta əsrlər təfəkkür tərzindən, dövlətçilik baxışlarından, idarəetmə sistemindən fərqli, mütərəqqi fikirli siyasi şəxsiyyətin, imperiya başçısının yaşadıqları, faciəvi siyasi həyatı N.Nərimanovu bu faciəni qələmə almağa sövq etmiş, ədib bir daha Şərq mühiti, imperiyalar tarixi, idaretmə sistemi, mütləqiyyət sisteminin doğurduğu faciələr haqqında baxışlarını bədii təfəkkürün köməyilə ilə yüksək sənətkarlıqla ifadə etmişdir. Nadir şahın siyasi fəaliyyəti, dövlət, idarəetmə və cəmiyyətlə bağlı baxışları imkan vermişdir ki, N.Nərimanov bu obrazla mütərəqqi və aktual olan ictimai-siyasi görüşlərini ifadə etsin, "N.Nərimanov "Nadir şah"da tarixi inkişafın istiqamətini qətiyyən təhrif etməmiş, tarixi həqiqətlərdən mütərəqqi meylləri, müasir həyatın tələblərinə uyğun, ictimai fikrin inkişafı üçün faydalı olan cəhətləri seçib göstərmişdir". [2, s.158]

"Nadir şah" tarixi faciəsində əsas konflikt hakimiyyət və zaman, islahatçı siyasi şəxsiyyətlə mütləqiyyət sistemi və bu sistemin doğurduğu siyasi əxlaq arasındadır. Faciənin ilk səhnələrində Səfəvi hökmdarı şah Sultan Hüseyn xanın sarayı, saray mühiti, əyanlar təsvir edilmişdir. İlk məqamlardan aydın olur ki, saray mühiti saraydan kənardakı vəziyyətdən xəbərdar deyil, cavabdeh şəxslər məsuliyyətdən uzaq, yalnız şəxsi maraqlarını, prinsiplərini gözləyən adamlardır. Hakimiyyət bütünlüklə çökmüş, idarəetmə, siyasi nüfuz itmiş, cəmiyyət daxilində ədalət, hüquq kimi məsələlər unudulmuşdur. Dövlətin idarə edilməsində yüksək məqam tutmuş əyanlar dövlətin güclənməsi və idarə edilməsi ilə bağlı deyil, hakimiyyətdə daha üstün mövqe tutmağa maraqlıdırlar, hakimiyyət ehtirası bunların düşüncə və təfəkkürünü əsir etmişdir, vətən, dövlət, xalq taleyini unutmuşlar. Dövlətçilik, idarəetmə, hakimiyyət anlayışının bu kimi prinsiplərə söykənməsi bilavasitə Şərq mütləqiyyət üsul-idarəsi ilə bağlı idi, hakimiyyətə iddialı varislər arasındakı ixtilaflar, siyasi qəsdlər, hakimiyyət üçün bütün müqəddəs insani dəyərlərin tapdanması birbaşa mütləqiyyət sisteminin mahiyyət və məzmunundan irəli gəlirdi. Daxili parçalanmalar hakimiyyətin zəifləməsini sürətləndirir, yeni idarəetmə mərkəzlərinin yaranmasına gətirib çıxarır. Aydın olur ki, dövrünün qüdrətli imperiyası olan Səfəvilər dövləti xarici işğalçılar və daxili parçalanmalar nəticəsində süquta uğramaq üzrədir. Siyasi böhranı daha da dərinləşdirən dövlətin daxilində "dövlət" qurmuş Nadirin dağıdıcı hərbi fəaliyyəti, qələbələri, xalqla despotik rəftarıdır, sanki dövlət bu gücün qarçısında acizliyini anlayıb susmağa üstünlük verir, ciddi bir təhlükəni görməzdən gəlməyə başlayır. Bu isə Nadirin təsir və nüfuz dairəsinin genişlənməsinə güclənməsinə səbəb olur, Səfəvilər üçün isə əksinə, təsir və nüfuz dairəsinin kiçilməsini, itirilməsini sürətləndirir. Səfəvilər dövlətinin zəifləməsi xarici qüvvələrin güclənməsi, Şərq və dünya siyasi müstəvisində ciddi dəyişikliklərin baş verməsi ilə bərabər, mütləqiyyət üsul-idarəsinin daxili böhranı, bu üsulun zamanın tələblərinə cavab verməyən ciddi siyasi çatışmazlıqları ilə bağlı idi. Mütləqiyyət sisteminin sonrakı dövlərində də saraydaxili intriqa, xəyanət, hakimiyyət ehtirası mütləqiyyət quruluşlarının zəifləməsinə, böhranına, sonunda isə süqutuna gətirib çıxarmışdır.

İmperiyanın xilası üçün hərbi-siyasi meydana Nadir daxil olur və mövcud vəziyyəti ciddi şəkildə dəyişir. Nadirin vətən, millət taleyini düşünən şəxsə çevrilməsi, səhvlərini anlaması, güc və sərkərdəlik qabiliyyətini vətənin xilasına yönəltməsi təsadüfdən deyil, dayısı Cavad sanki məhv olan, parçalanan vətənin, odlar içərisində yanan torpağın, ağır və məşəqqətli həyat keçirən, namus və ləyaqəti ayaqlar altına salınan insanların dili ilə danışıb bu böyük güc və qüdrət sahibinin qəlbinə təsir etməyə çalışır. İnsan ömrünün məna və mahiyyətindən danışan bu müdrik qoca bütün var-dövlətin, hakimiyyətin müvəqqəti olduğunu söyləyib insan ömrünün uzunluğunun onun yaxşı əməlləri, fəaliyyəti ilə bağlılığnı bildirir. Müdrik qocanın bu çağırışlarından sonra Nadirdə bir oyanma baş verir, geriyə baxış, keçdiyi həyat və döyüş yolunu təhlil etmək Nadirin daxilində ciddi

dəyişiklik yaradır, bu dəyişiklik nəticəsində dövlətin, xalqın, imperiyanın taleyini düşünən bir şəxsə çevrilir: "Həqiqətən, mən bu vaxtadək qəflət yuxusunda imişəm; ancaq günah məndə deyil, atam tərbiyəni belə vermişdi. Çox yaxşı ki, dayım məni ayıltdı, yoxsa məndən sonra Rzaqulu da nahaq yerə bu qanları tökəcək idi. Əcəba, nə üçün mən bir fikir etməyirdim. Atamdan artıq qoçaqlıq edə bilməyəcəkdim. Amma bununla belə bu dünyada nə qoydu getdi? Harada adı hörmətlə çəkilir? Quldurların məclislərində... Bəli, on, ya iyirmi-otuz quldur atamın adı gələndə rəhmət oxuyursa, cəmi İran haman adı nifrətlə söyləyir... Yox dəxi durmaq vaxtı deyil". [4, s.121]

Nadir şah mütləqiyyət siyasi sistemində ilk dəfə olaraq tarixi zərurətdən irəli gələn tələbləri müəyyənləşdirir, bu tələblərin həyata keçirilməsi, gerçəkləşməsi üçün saray daxilində mübarizəyə başlayır. Tarixən zəruri olan tələblə onun həyata keçirilməsinin mümkünsüzlüyündən yaranan qarşıdurma, konflikt və bu mübarizədə Nadir şahın qətiyyətli mövqedə dayanması onun həyat və fəaliyyətində faciəviliyi doğurur, zaman irəlilədikcə bu faciəvilik daha da kəskinləşir. Nadir şahın irəli sürdüyü təkliflər bunlardır: birincisi, iki məzhəb arasında, yəni şiəlik və sünnülük arasındakı ayrılığın götürülməsi, qanlı qarşıdurmalara səbəb olan məzhəb ayrılığına son verilməsi. İkincisi, "İncil"in tərcümə edilməsi və dinlərarası münasibətlərin qurulması, inkişaf etdirilməsi. Üçüncüsü, dövlətin idarə edilməsində din xadimlərinin, mollaların rolunun ciddi şəkildə azaldılması. Dördüncüsü, kasıblıq və yoxsulluğun tamamilə aradan qaldırılması. Göründüyü kimi, Nadir şahın islahatları mütləqiyyət üsul-idarəsinin əsrlər boyunca mövcud olan mürəkkəb və ciddi problemləri ilə bağlıdır. Şərqin minillik tarixinə nəzər saldıqda aydın olur ki, islam dini Şərqdə imperiyaların qurulmasında əsas ideologiyaya çevriləndən sonra islamı qəbul etmiş ölkələr arasında baş verən qanlı toqquşmalarda məzhəb ayrılığı ciddi rol oynamışdır. Bu müharibələr ictimai-tarixi inkişafın qarşısını almış, milli-etnik və dini birliyin yaranmasına ciddi şəkildə maneə olmuşdur. Bundan əlavə, xarici imperialist qüvvələr şərq ölkələrinin güclənməsinin qarşısını almaq, milli-etnik baxımdan bir olan və ya dini etiqadları eyni xalqların birləşməsinə mane olmaq, bu ölkələri gücdən salıb işğal etmək, müstəmləkə siyasətlərini yürütmək üçün məzhəb qarşıdurmasından məharətlə istifadə etmişlər.

Nadir şahın islahatının ikincisi "İncil"in tərcüməsi olmuş, dinlərarası münasibətlərin qurulması və dərinləşməsi, digər dini etiqada hörmətin yaranması üçün belə ciddi addım atmışdır. XI-XIII əsrlərdə xristian dini idarələrdə, kilsələrdə Şərqə doğru silahlı yürüşə çağırışlar başladı, müsəlmanların tabeliyində olan torpaqları, xüsusilə Yerusəlimi geri almaq üçün Avropa ölkələri Roma Papasının təhriki ilə hücuma başladılar, əsas məqsəd isə yeni torpaqlar işğal etmək, Roma Papasının tabeliyində olan əraziləri genişlətmək, müsəlmanların tabeliyində olan torpaqlara sahiblənmək idi. Göründüyü kimi, hərbi fəaliyyətin, müharibənin mahiyyəti dini dəyərlərin xilası naminə deyil, işğal, əsarət, müstəmləkə siyasəti ilə bağlı idi. Yüzilliklərlə davam edən silahlı toqquşmalarda gah xristian tərəfi, gah da islam dünyası qalib gəlmişdir, ağır döyüşlər islam ölkələrinin qələbəsi ilə nəticələnmişdir.

Dinlər arasında əlaqələrin qurulması, geniş bir ərazini əhatə edən, xeyli insanın inandığı xristian dininin əsl mahiyyəti və məzmununu, humanizm və dəyərlər sistemini islam dininə inananlara anlatmaq üçün "İncil"in tərcüməsi zəruri məsələlərdən idi. "İncil"in tərcümə edilməsində Nadir şahın məqsədi dini ayrılıqlardan irəli gələn tarxi faciələrin yaşanmaması, din xilası adına qanların tökülməməsi, dini baxışları fərqli olan xalqların faciələrinin qarşısının alınması, ölkələrin xarabazarlığa çevrilməməsi, insanların inanc, dini-etiqad dünyalarının amansızcasına istismar edilməməsi idi. Nadir şahın istəyi "İncil"in mahiyyət və məzmunundakı humanizmin, bəşəri fikirlər, insansevərlik, haqq-ədalət kimi dəyərlərin Şərqdə tanınması, öyrənilməsi idi. "İncil"in tərcüməsi ilə Nadir şah müxtəlif sivilizasiyalar, mədəniyyətlər, etiqad və inanclar arasında əsrlərlə sürən düşmən münasibətə son qoymaq, barışmaz dini münasibətləri aradan qaldırmaq istəyirdi.

Nadir şah dini dövlətdən uzaqlaşdırmaqla dövlət və idarəetmə ilə bağlı islahatlarını daha da dərinləşdirmək, zamanın tələbləri səviyyəsində idarəetmə sistemi qurmaq istəyirdi, bu onun idarəetmədə, daxili siyasətdə aparmaq istədiyi mühüm islahatlardan biri idi. Dövlətin idarə

edilməsində yüksək nüfuz qazanan din xadimləri bir çox dövlət qanunlarının qəbul edilməsində, məhkəmə-hüquq sistemində xüsusi iştirak etmiş, çıxarılan hökmlərdə xalqın taleyini deyil, dini idarələrin nüfuz və təsir dairəsini, dini mərkəzlərin daha çox qazanc əldə etməsini əsas götürmüşlər. Nadir şah din xadimlərinin bir çox əməllərinin şahidi olduğu üçün qərara almışdır ki, "dövlətə dair qanunları bilmərrə ruhanilərdən almaq gərəkdir". Maraqlı cəhət budur ki, Nadir şahın islahatları- şiə və sünnü məzhəbinin barışması, "İncil"in tərcüməsi, mollaların dövlətin idarə edilməsində ixtiyarlarının azaldılması kimi məsələlər bilavasitə mütləqiyyət üsul-idarəsində böyük gücə sahib olan dini dairələrin nüfuzlarına ciddi təsir edirdi, hakimiyyətdə söz sahibi olmaq imkanlarını aradan qaldırırdı. Mütləqiyyət üsul-idarəsinin siyasi və ideoloji əsaslarından biri dini qurumlar və dini idarələrdə təbliğ edilən, geniş kütlələr içərisində yayılan dini etiqad dünyası, dini baxışlar idi. Min illərdir ki, zehniyyətə çökmüş, dövlətin mövcudluğunun əsas dayaqlarından biri olmuş, dövlətin idarə edilməsindəki ideoloji əsasları özündə saxlamış baxış və fikirlərdən imtina asan başa gəlməyəcəkdi və bəlkə də dini hakimlər nüfuzlarının itirlməməsi, hakimiyyətdən uzaqlaşdırılmamaları üçün amansız mübarizə yolunu seçəcəkdilər. Mütləqiyyət sarayında yüz illərdir ki, qazanılan nüfuz və təsirin itirilməsinə razılıq verilməyəcəkdi, bu vəziyyəti tam dərinliyi ilə anlayan Mirzə Mehdi xan yaranmış mürəkkəbliyi və daxili gərginliyi çox aydın söyləyir: "Bəli, az düşmən vardı, indi də mollalar. Bunların qabağında dayanmaq olar? Bundan müqəddəm genə məndən söz eşidərdi, amma indi artıq sözdanışmaq olmayır. İnsafən, başındakı fikirlər nə gözəl fikirlərdir, nə gözəl qanunlardır! Bunların hamısı dinpərəst və millətpərəstlik nişanəsidir, amma heyfa, anlamayırlar". [4, s.143]

Nadir şahın islahat siyasətində verginin toplanması ilə bağlı xüsusi fərman verdiyi, vəzifə bölgüsü, ciddi nəzarət, verginin hesablanma sisteminin düzgün aparılması ilə dövlətin iqtisadi gücünü artırdığı tarixdən məlumdur. Nadir şah cəmiyyət daxilində dövrü üçün tamamilə yeni olan münasibətlərin qurulmasına səy göstərir, uzaqgörən siyasətçi kimi anlayır ki, daxili bütövlük olmasa, yəni məzhəb ayrılıqları aradan qaldırılmasa, xalqın həyat və yaşayış səviyyəsi yüksəldilməsə, hakimiyyət uzunmüddətli ola bilməz, ixtilafların, dövlətə qarşı çıxışların artması baş verər. Nadir şahın islahat proqramı XVIII əsr Şərq mühiti üçün olduqca zəruri və yeni siyasi-ideoloji prinsiplər idi, bunun həyata keçirilməsi ictimai-tarixi inkişafdan irəli gələn məsələlər idi. Bu ictimai-siyasi prinsiplərin gerçəkləşməsi Əfşar dövlətinin qüdrətinin və gücünün daha da artmasına, xalqın hakimiyyət ətrafında daha da sıx birləşməsinə səbəb ola bilərdi. Amma mövcud siyasi sistemin, idarəetmənin mütləqiyyət üsul-idarəsinə əsaslanması və ənənəvi olaraq saraydaxili intriqaların, xəyanətlərin mövcudluğu, dini idarələrin hakimiyyət və cəmiyyət üzərində nüfuzunun təsirli olması dövrünə görə mütərəqqi olan fikir və ideyaların həyata keçirilməsinə ciddi manelər idi.

Nadir şaha qarşı qüvvələr bununla kifayətlənmir, mütləqiyyət üsul-idarəsinin ənənəvi siyasi hücum taktikasından istifadə edirlər, idarəetməni zəiflətmək, daxili böhranı dərinləşdirmək üçün məkrli gedişlərlə Nadir şaha ailə daxilindən zərbə endirirlər. Nadir şaha edilən sui-qəsddə məkrli məqsədlərlə bağlı olaraq saray adamları vəliəhdi-Rzaqulunu təqsirləndirib, onun hakimiyyət iddiasında olduğunu Nadir şaha bildirirlər. Qəzəblənən şah doğma övladının gözlərinin çıxarılmasını tələb edir və bu cəzadan sonra Rzaqulunun taxt-taca iddia etməyəcəyinə tam əmin olur. Saray xəyanətkarları ən mühüm məqamda, ictimai-siyasi gedişin, tarixi hərəkatın ciddi anlarında irəli çıxır, çox böyük məharətlə xəyanət planını hazırlayıb həyata keçirirlər.

Nadir şah islahatları müqabilində ona müqavimət göstəriləcəyini, bu islahatların gerçəkləşməsinə imkan verilməyəcəyini, mane olunacağını bilirdi. Lakin belə əks qüvvələrə qarşı özünün mübarizə yollarını müəyyənləşdirmir, sadəcə hakimiyyət nüfuzu, ölüm qorxusu və hədəsi ilə məqsədinə nail olacağını düşünürdü. Belə mürəkkəb məqamda əsrlərlə formalaşan kifayət qədər təcrübəsi olan saray mühitinin gizli xəyanət dünyası ustalıqla hərəkət edir, Nadir şahın islahat siyasətinin qarşısını almaq, daxilən sarsıtmaq üçün zərbəni ailə daxilindən vurur, Nadir şah-ata uydurulmuş qiyamçıya – oğlu Rzaquluya ciddi bir cəza kəsir. Nadirin faciəviliyi, tragizmi ən yüksək

məqamlardadır, çünki Nadir şah hakimiyyətin qorunması və cəmiyyətin daxili sabitliyi üçün cavabdehdir, dövlətə xəyanət, sui-qəsd halları meydana çıxanda, hətta doğma övladı belə bu xəyanətin başında dayansa da, o, hökmdar kimi qətiyyətli hərəkət etməli, cəmiyyətin xaosa sürüklənməsinin qarşısını almağa, sabitliyin pozulmaması üçün səbəbkara ən ağır cəzanı verməyə məcburdur. Nadir şahın faciəviliyini dərinləşdirən amillərdən biri oğlu Rzaquluya cəza kəsən zaman həqiqətin tam üzə çıxması, səbəbkarın müəyyən edilməsi üçün ciddi cəhd göstərməməsi, saray əyanlarının fikirlərinə, xəyanət dolu saray dünyasına inanmasıdır. Nadir şah İranın sabahı üçün, vətən və millətin mənafeyi naminə Rzaqulu xanın gözlərini qurban verir. Nadir şahın belə bir xarakter nümayiş etdirməsi, fikrindəki qətilik dramatizmi daha da gücləndirir. Nadir şahın bir ata kimi verdiyi əmrin faciəviliyini, doğuracağı fəlakəti, bu böyük məmləkətin qəlbində açacağı yaraları görməməsi onun tragizmini daha da dərinləşdirir. Bu, bir daha təsdiqləyir ki, Nadir şah çoxəsrlik mütləqiyyət sisteminin hakimiyyətə gətirdiyi siyasi xadim, dövlət başçısı olmadığından mütləqiyyət sistemində hakimiyyət uğrunda gedən mübarizənin gizli tərəflərindən, mahiyyətindən, mürəkkəb və acı yollarından xəbərdar deyil. Nadir şah ağır yaralananda düşmənləri belə müəyyənləşdirir: "Bəli... hər bir padşah iki düşməndən xilas deyil: vətən, millət qeyrəti çəkməyən, gününü eyş-işrətdə keçirib milləti daima zülmlərə düçar edən padşah əcəlini millətdən gözləsin... Millətin və dövlətin tərəqqisinə çalışan, bu yolda təzə qanunlar qoyan, vətənini zülmdən xilas etmək istəyən padşah əvvəlinci gülləni öz müqərrəb adamlarından gözləsin... Mənim yəqinimdir ki, bu güllə millət gülləsi deyildir!...". [4, s. 146]

Saray adamlarının siyasi oyununa inanan Nadir şah müəyyən müddət keçdikdən sonra əsl həqiqəti anlayır, saray daxilindəki xəyanət dünyasını aşkarlayır, Rzaqulu xanla bağlı söylənilən fikirlərin məhz onun hakimiyyətinin uzunmüddətli olmaması üçün qurulmuş siyasi bir oyun olduğunu öyrənir. Bütün varlığı ilə vətəninə xidmət etməyə çalışan, dövlətin və cəmiyyətin yeni, daha ədalətli qanunlarla idarə edilməsinə səy göstərən hökmdara qarşı xəyanətin məhz sarayın daxilindən, saray əyanlarından olması onu sarsıdır, mübarizənin mürəkkəbliyindən xəbər verir. Nadir şah anlayır ki, onun xidmətində duran və itaət edən "ümərayi-dövlət" sədaqətli deyil, hər an öz xeyirləri, hakimiyyətə keçmələri üçün xəyanətə, ən ağır və öldürücü zərbəni endirməyə hazırdırlar. "Ümərayi-dövlət" iki hədəf seçir, Nadir şaha sui-qəsdlə, onu cismən aradan götürməklə kifayətlənmir, daha ustalıqla siyasi oyun qurub Rzaqulu xanla bərabər, Əfşarlar dövlətini fəlakətə sürükləyir. Nadir şahın faciəviliyi daha da kəskinləşir, saray xəyanətinin, yaxın bildiklərinin məkrli niyyətlərinin doğurduğu acının üzərinə yanlış hökmünün sarsıdıcı iztirabları əlavə edilir, xəyanət ittifaqında olan düşmənlərlə haqq-hesab çəkə bildiyi, onlara ən ağır cəza verə bildiyi halda, oğlu ilə bağlı verdiyi qəddar və amansız hökmün nəticəsini dəyişə bilmir. Bu vəziyyət Nadir şahın iztirablarını daha da dərinləşdirir, ürəyini parçalayır, hökmdar kimi əmr verib bu əmrlərin icrasına şahidlik edən Nadir şah oğlu ilə bağlı yanlış hökmünün nəticələrini dəyişdirmək iqtidarında deyil. Nadir şah anlayır ki, xəyanət edənləri, satqınları nə qədər ağır cəza ilə cəzalandırsa da, iztirablardan, qəlbini əzən acılardan xilas yolu yoxdur, çünki o, hökmdar kimi əmr verib qisas ala bilər, amma Rzaquluya yaşatdığı dəhşət üçün bir ata kimi daxili əzablardan, iztirablardan xilas ola bilməz. Göründüyü kimi, Nadir şah hökmdar kimi faciə yaşamaqla bərabər, günahsız oğlu ilə bağlı amansız və qəddar hökm vermiş ata kimi də faciə yaşayır, atalıq dünyası ilə bağlı faciəvilik, iztirablar daha acı və daha kəskin olur.

Hakimiyyətə böyük və miqyaslı, nəinki yalnız dövlət üçün, eləcə də Şərq üçün ciddi əhəmiyyət kəsb edən iddialarla, məqsədlərlə gələn Nadir şah hadisələrin sonunda mürəkkəb ictimai-siyasi gerçəkliyin, mütləqiyyət sisteminin doğurduğu acı reallıqla üz-üzə qalır. İctimai inkişaf Nadir şahın islahatlar keçirməsini, mütləqiyyət üsul-idarəsində idarəetmə sisteminin yenidən qurulmasını zəruriləşdirdiyi halda, mütləqiyyət siyasi mühiti və idarəetmə qanunları ilə yaşayanlar bütün gücləri ilə ona qarşı olub öz mövqelərini, siyasi təsir dairələrini itirmək istəmədiyindən kəskin mübarizə yaranır. Tarixi zərurətlə onun həyata keçirilməsinin imkansızlığı, mümkünsüzlüyü arasındakı konflikt faciənin əsas mahiyyətini təşkil edir və məqsədlərindən geri çəkilmək istəməyən,

iddialarında qətiyyətli olan dövlət xadimi səviyyəsinə yüksələn Nadir şahı faciəvi qəhrəman kimi tanıdır. Nadir şah güc və iradəsindən yüksəkdə duran siyasi mühit və qüvvələrlə qarşılaşır, dövlət xadimi kimi məqsəd və prinsiplərinin gerçəkləşməsi üçün bütün gücü ilə hərəkət edir, ideyalarının həyat keçirilməsini özünün təsdiqi kimi dəyərləndirir, "*Faciənin əsas konflikti islahatçı Nadir şahla mühafizəkar din və saray xadimləri arasında qurulmuşdur. Mütləqiyyətçi quruluşda heç bir padşah adil ola bilməz. İstibdadı doğuran quruluşun özüdür. Burada ədalət naminə hər bir islahat ölümə məhkumdur. Dövlət başçısını deyil, dövləti dəyişmək lazımdır - tragediyanın ideyası budur*". [3, s.123]

Nadir şah səhvlərini dərk edir, "ümərayi-dövlət"in xəyanətini bağışlamır, onları ölüm hökmü ilə cəzalandırır, amma yenə də daxili rahatlıq tapmır, Rzaqulu xanla bağlı hökmünün acılarını, iztirablarını yaşayır. Bu məqamlarda Nadir şahda bir ayılma, oyanma baş verməklə bərabər, mürəkkəb mənəvi-ruhi sarsıntılar keçirir. Nadir şah "ümərayi-dövlət"ə inanıb ədaləti bərpa etmək, haqsızlığı aradan götürmək, cinayətkarı cəzalandırmaq istəyərkən ədalətsiz hökm verir, ən acı və bağışlanılmaz haqsızlığı gerçəkləşdirir. Göründüyü kimi, Nadir şah faciəviliyin, tragizmin ən yüksək məqamlarını yaşayır, bütün bunlardan sarsılır, etdiyinin mahiyyətini dərk edir və bunları anladıqca daha da ağır iztirablar keçirir.

Azərbaycan dramaturgiyasında ilk tarixi faciə olan ""Nadir şah"da XVIII əsr hadisələri də təsvir olunsa da, XIX əsrin ictimai ruhu, əsarətdən səbri tükənmiş xalqın qəzəb və nifrəti, oyanma tarixi öz ifadəsini tapmışdır. Dramaturq hələ "şüurunda bir inqilab" olmayan müsəlman kütlələrini qəflətdən oyatmaq üçün tarixi hadisələrdə əhəmiyyəti olan mühüm cəhətləri qələmə almış, təkcə İranın deyil, müstəbid çar Rusiyasının və bütün Şərq ölkələrinin ağır siyasi-ictimai və iqtisadi vəziyyətini kəskin tənqid etmişdir". [2, s.159]

**Nəticə**

"Nadir şah" tarixi faciəsi dərin ictimai-fəlsəfi mənaya malik olub, Şərq mühiti, mütləqiyyət sistemi üçün tamamilə yeni və xəlqi olan ictimai-demokratik fikirləri ilə janrın poetikasını daha da zənginləşdirmişdir, sonrakı illərdə Azərbaycan dramaturgiyasında tarixi şəxsiyyətlərə müraciətlə yazılan faciələrdə "Nadir şah"ın ənənəsi üstünlük təşkil etmişdir. N.Nərimanov müasiri olduğu dövrün ictimai-siyasi problemlərini tarixi şəxsiyyətin həyat və mübarizəsi müstəvisində, islahatlar sferasında şərh etməyə səy göstərmiş, tarixi inkişafın mütləqiyyət sisteminin siyasi mühitdən çıxmasını zəruriləşdirdiyini bildirmişdir. Mütləqiyyət sistemi, onun yenilənməsi kimi yanaşmalar tarixi mövzuda və tarixi şəxsiyyətin siyasi, idarəçilik fəaliyyətində bədii təfəkkürün vasitəsilə analiz edilmişdir.

## Ədəbiyyat

[1]. Azərbaycan ədəbiyyatı tarixi:[6 cilddə] /– Bakı: Elm, –c.4, – 2011. 860 s.
[2]. Əhmədov, T. N. Nərimanovun dramaturgiyası / T.N. Əhmədov, –Bakı: Nurlar, –2005, –384 s.
[3]. Qarayev, Y. Seçilmiş əsərləri. [5 cilddə] / Y.Qarayev, –Bakı: Elm, –c.1.–2015, –668 s.
[4]. Nərimanov, N. Seçilmiş əsərləri / N.Nərimanov, –Bakı: Lider, –2004, –496 s.

**Summary**

**Reality and its artistic perception in historical tragedies**

***Aghayev I.A.***

***Key words:*** *social environment, innovations, enlightenment ideology, historical figure, historical drama, absolutist system, political activity, complicated character*

İn the first half of the 19th century, successful, progressive steps were taken in the development of Azerbaijani scientific thought and socio-philosophical views. These values and progressive principles have had a strong influence on the subsequent development of many areas of society. The innovations in the socio-political and cultural life of 19th-century Azerbaijan, as well as in the attitude towards man, were associated with the spread of the enlightenment ideology in Azerbaijan.

At the end of the 19th century, Azerbaijani dramaturgy became enriched in terms of genre and ideas, and the first examples of the tragedy genre, which is considered the pinnacle of dramaturgical thought, emerged. N. Narimanov

laid the foundation for the tragedy related to the historical figure and wrote the historical drama "Nadir Shah". The playwright showed the essence of the absolutist political system by describing the life path, military and political activities of Nadir Shah. He cited the absolutist political system as the reason for the failure of the reforms. The complexity of Nadir Shah's character, his military and combat skills, and his reform policy were presented through dramatic events.

**Резюме**

**Реальность и ее художественное восприятие в исторических трагедиях**

***Агаев И.А.***

***Ключевые слова:*** *социальная среда, нововведения, просветительская идеология, историческая личность, историческая драма, абсолютистская система, политическая деятельность, сложный характер*

В первой половине XIX века были сделаны успешные, прогрессивные шаги в развитии азербайджанской научной мысли и социально-философских взглядов, и эти ценности и прогрессивные принципы оказали сильное влияние на последующее развитие многих сфер общества. Нововведения в общественно-политической и культурной жизни Азербайджана XIX века, а также в отношении к человеку были связаны с распространением в Азербайджане идеологии просвещения.

В конце XIX века Азербайджанская драматургия обогатилась в жанровом и идейном плане, появились первые образцы жанра трагедии, который считается вершиной драматургической мысли. Н. Нариманов положил начало трагедии, связанной с исторической личностью, и написал историческую драму «Надир шах». Драматург показал суть абсолютистского политического строя, описав жизненный путь, военную и политическую деятельность Надир шаха. Причиной провала реформ он назвал абсолютистскую политическую систему. Сложность характера Надир шаха, его военное и боевое мастерство, а также политика реформ представлены через драматические события.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 37.035** DOI 10.54758/16801245_2025_21_4_45

# Kitabi Dədə Qorqud dastanında ləyaqət tərbiyəsi məsələləri

**Əmirxanzadə Günel Əmirxan qızı**

*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan, doktorant*
gunel.amirxanzade@gmail.com

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 26.11.2024*
*Düzəliş tarixi: 27.01.2025*
*Qəbulolunma tarixi: 03.03.2025*

***Açar sözlər***
*Dədə Qorqud, dastan, etnopedaqogika, ləyaqət, tərbiyə, Aşıq Qərib, Qazan xan*

**XÜLASƏ**

*Məqalə bütün dövlərdə aktual olan bir məsələyə həsr olunmuşdur. Kütləvi informasiya vasitələrinin böyüyən nəslin şüuruna daxil olduğu bir dövdə ləyaqət tərbiyəsi gündəmə gəlir. Kor-koranə sosial şəbəkələrin göstərdiyi məsələlərə böyüyən nəslin aludəçiliyi problemin aktuallığını göstərir. Azərbaycan xalqının etno pedaqogikasında Kitabi- Dədə Qorqud xüsusi yer tutur. Dastanda istər qadın istərsə də kişi obrazları vasitəsi ilə ləyaqət tərbiyəsi izah olunur. Həmçinin bu sahədə tədqiqat aparan alimlərin fikirləri öyrənilmiş və onlardan iqtibaslar gətirilmişdir. Məqalədə Kitabi- Dədə Qorqud dastanında əks olunan ləyaqət tərbiyəsinin böyüyən nəslin formalaşmasına təsiri əks olunmuşdur*

Etnopedaqogikanın öyrəndiyi mühüm məsələlərdən biri dastanlardır. Dastanlar məzmun və məna etibarı ilə rəngarəng və geniş şaxəlidir. Dastanın əsas surətlərindən Dədə Qorqud geniş mənalı məzmuna malik surətdir. Professor M.H.Təhmasib yazırdı ki,: "...Biz belə bir şəxsiyyət, yaxud surətlərdə, eləcə də onlar haqqında olan rəvayət və əfsanələrdə sənətin qədim mərəsimlərlə, ayinlərlə, kurtlara, hətta çox qədim təfəkkürlə bağlılığının bəzən aydın izlərini, bəzən unudukmaq üzrə olan əlamətlərini, bəzən də solmuş rənglərini, boylarını görürük. Dədə Qorqud, bizcə geniş mənalı, geniş məzmunlu, bir sənətkar surətidir. [5. s.30]. Məhz bu xüsusiyyətləri baxımdan türk dili xalqlar arasında Dədə Qorqud haqda maraq yaradan əfsanələr yaranmışdır.Bu əfsanələrin hər birində ləyaqət tərbiyəni ifadə edən fikirlər öz əksin tapmışdır.

Alman səyyahı Adam Olcari əsasən Xlqlardan eşitdiyi məlumata yazırdı ki, "... Qocan Qazan evini yağmalatsa, halalını (xanımım-ç.ə) əlinə alır, dışara çıxardı, ondan yağma edərdilər." Buradan belə qənaətə gəlmək olur ki, Qazan xan var-dövlətini bir növ camaata paylayır." "... xanımını götürüb evdən çıxır, onundan nə qalırsa yığıb aparırlar." Buradan belə fikir gündəmə gəlir ki, oğuz eli üçün ləyaqət, namus hər şeydən üstündür. [6, s.306] ləyaqət geniş anlayıb olduğu üçün onun çalarları da dərin və ətraflıdır. " Salur Qazanın evinin yağmalanması" boyunda Qazan xanın çobanı düşmənin 600 nəfər qoşununa qarşı dayanır, sapanı ilə düşməni bir-birinə qatır. Dastanda Qaraca çoban yalnız igidliyi, qocalığı ilə seçilmir, o eyni zamanda Qazan xana sədaqətlə qulluq etməsində, onun şərəf və ləyaqətini qorumasında hünərinə görə qəhrəman səviyyəsində görünür. Qazan xanın evinin, xanımının, oğlu Uruzun azad edilməsində Qaraca Çobanın rolu çoxdur. Əsərdə verilən Qaraca Çobanla Qazan xanın fikri ləyaqət, sədaqətlilik, igidlik simvolu kimi səciyyələndirilə bilər. Epizoda nəzər salaq: Qazan xan Qaraca Çobandan soruşur: Sən hara gedirsən? Qaraca Çoban cavab verir: " Ağam Qazan, düşmənlə döyüşə gedirəm. Qazan xan yenə də soruşur ki, sən hara gedirsən: " Ağam Qazan, sən evin almağa gedirsən, mən dəxi qarındaşım qanın almağa gedirəm." Əslində Qaraca Çoban Qazan xana yad adamdır. Onun çobanıdır. Lakin onun sədaqətliliyi, ləyaqəti, şərəf və namusu Qazan xanın ətrafına gətirilir, onun sanki doğma yaxın adamı səviyyəsində görünür. Tariximizdən süzülüb gələn belə qəhrəman surətlər öyrənilməsini zəruri edən amillərə çevrilmişdir. Böyüyən nəsillər məhz belə ləyaqətli, təmkinli igidlər sayəsində

tərbiyəvi imkanlara yiyələnirlər. Formalaşan gənclərin ləyaqət tərbiyəsində Dədə Qorqud boylarının hər birinin özünəməxsus rolu vardır. Əsərdə qadına sədaqət, ailəyə məhəbbət, onların qorunması ön sırada dayanır. Əslində əsərdə heç bir qadın, örtülü çadrada, örpəkdə görünmür. Bu ləyaqət onların davranışında ailəyəsədaqətində özünü təzahür etdirir. Qarşılıqlı istək və məhəbbət əsasında qurulan ailələrdə qadın və kişilər ailəni idarə edirlər. Əsərdə məcburi evlilik görünmür, ailə qurmaqda onlar sərbəstdir. Qadın həyat yoldaşı olmadan özünü xoşbəxt hiss etmir, onsuz yaşamağı özünə rəva bilmir. "Dəli Domrul" boyunda həyat yoldaşının öləcəyini bilən Dəli Domrulun qadını onsuz yaşamağın mənasını görmür. O deyir:

*... Göz açıb gördüyüm,*
*Könül verib sevdiyim*
*Qoç igidim, şah igidim!*
*Qarşı yatan qara dağları*
*Səndən sonra mən neylərəm?*
*Yaylar olsam, mənim gözüm olsun*
*Soyuq-soyuq suların*
*İçər olsam, mənim qanım olsun*

Dastanda qadın isməti, namusu ön planda görünür, qadın ləyaqətinin ailəcə rolu aydın olur. Datandan qadınların ailədə yeri, onların gördüyü işləri, əməlləri ləyaqət tərbiyəsinə işarədir. Dədə Qorqudun dili ilə qadınlara verilən dəyər özünü göstərir:

*"... Qapılar dörd dürlüdür:*
*Birisi saldrun soydur.*
*Birisi dolduran toydur,*
*Birisi evin dayağıdır*
*Birisi necə söyləsən, bayağıdır.*

Kitabi-Dədə Qorqud dastanında qadınlar əhdinə, sözünə vəfadardır. Onlar istədiklərinin yolunu gözləyir, yalnız müəyyən təsir və qanunlara görə bu əhdi pozmağa razı olurlar. Lakin yenə də öz sevdiklərini unutmur, onlara sədaqətlərini sözləri ilə ifadə edirlər. " Kitabi-Dədə Qorqud" dastanında qadınların sədaqətlilik, ləyaqətlilik rəmzi olduğunu ümumiləşdirdikdə, məhəbbət dastanlarımızdan olan "Aşıq Qərib" dəki Şahsənəmi bu problemdən kənarda görmək olmur. " Kitabi-Dədə Qorqud" da verilən Banuçiçək ləyaqəti, sədaqəti, olan " Aşıq Qərib" də olan Şahsənəmlə çox cəhətdən üst-üstə düşür.

Bu isə onu deməyə əsas verir ki, xalq dastanları tərbiyəvi çalarlarla zəngin və mənalıdır. Dastanda valideyn övlad münasibəti də ləyaqət tərbiyəsi baxımından diqqət cəlb edir. Belə ki, valideynin övlad qayğısına qalması, onların boya -başa çatmasına diqqət və maraq göstərməsi, onlara düzgün yol göstərmələri də valideyn ləyaqəti ilə uzlaşır. İstər "Bamsı Beyrək" boyunda, istərsə də "Aşıq Qərib" dastanında övladlarını itirən valideynlərin ağlamaqdan kor olmaları göstərilir.Hər iki dastandan görmək olur ki, övladlarının sağ olmasını eşidən ana və atanın gözləri açılır. "Kitabi- Dədə Qorqud"da Beyrəyin gəlməsi xəbərini eşidən atanın gözləri açılır. Dastandan oxuyuruq: " … Bu məhəldə bəylər və xanlar Beyrəyi babasına gətirdilər. Qazan bəy aydır:

- Muştuluq, Baybura bəy, oğlun gəldi.

Baybura bəy aydır:

-Oğlum olduğunu ondan biləyim ki, sırça barmağını qanatsın, qanını dəsmalına dürtsün, gözümə sürəyim. Açılacaq olursa oğlum Beyrəkdir. Çünki, ağlanmaqdan gözləri görməz olmuşdu.

"Aşıq Qərib" dastanında isə ağlamaqdan kor olan ananın gözlərinin açılması, belə mənalandırılır:

-"… Qərib gözlərini açıb gördü Tiflisdədir**.** atlının atının boynunu qucaqlayıb dedi:

- Sənə fəda olum mən desəm bu tezlikdə Hələbdən buraya gəlmişəm, heç kəs inanmaz. Bəs onları necə inandırım?

Atlı dedi:

-Atımın ayağının altından bir ovuc torpaq götür, ağlamaqdan kor olmuş ananın gözlərinə sürt, sağalsın, onda hamı inanar. Qərib onun atının ayağının altından bir ovuc torpaq götürüb qəddini düzəldəndə gördü ki, atlı qeyb olub. [3, s.312] Qərib kor olmuş anasının gözlərinə Xızırın atının ayağının altından götürdüyü torpağı çəkib onu sağaldır. Dastanı bir-birinə oxşarlıq baxımından yaxınlaşdıran cəhətlərindən biri də hər iki əsərin qəhrəmanı toy günündə gəlib çıxır, digər tərəfdən hər iki qəhrəmanın ölməsi xəbərini gətirən, onları inandırmaq üçün qanlı köynəyini göstərməyi vacib bilir. Dastanda göstərildiyi kimi onların- Aşıq Qəribin və Bamsı Beyrəyin köynəkləri sevgililəri tərəfindən toxunmuşdur. Bununla bərabər, bu qəhrəmanların ailəsi bəzirgahlar tərəfindən xəbər ala bilirlər. Nəhayət, hər iki dastanın qəhrəmanlarının valideynlərinin gözləri ağlamaqdan kor olur və müəyyən təsirdən sağala bilir. Dastanın hər iki qəhrəmanı sayılan Bamsı Beyrək və Aşıq Qərib səfərdən vətənlərinə dönərkən ilk öncə bacıları ilə qarşılaşırlar. Belə müqayisənin özündə də ləyaqət tərbiyəsi özünü göstərə bilir. Belə ki, bacıya, valideyinə, böyüyə hörmət, onlara müraciət, ilk öncə əllərindən öpmək onalara sayğı və diqqətin göstəricisidir. Bunlar da özlüyündə ləyaqət tərbiyəsinin təzahür formalarından biridir.

"Kitabi-Dədə Qorqud" dastanında Qazan bəyin oğlu Uruzun dustaq olduğu boyda da ləyaqət tərbiyəsi dəyəri özünü qabarıq şəkildə göstərir. Boyda Qazan xanın xatunu Burla xanım Qazanın köməyinə birinci yetir. Qazan xanın yaralanan gözünün üstündən qan axıb gözünə dolur. Burla xatun bunu görüb "Çal qılıncını Qazan, gəlmişəm,"- deyir. O həyat yoldaşının həm silahdaşı, həm arxa köməyi, həm də ləyaqətli dostudur. Qadınlar hünər sahibi, sədaqətli yoldaş, ləyaqətli geyim və davranışa malikdirlər. Qadın öz həyat yoldaşına müraciətlə deyir:

*Başım baxtı*
*Evim taxtı*
*Xan babamın göygüsü,*
*Qadın anamın sevgisi,*
*Atam, anam verdiyi,*
*Göz açıban gördüyüm,*
*Könül verib sevdiyim.* [5, s.24]

Buradan aydın olur ki, ailə möhkəm bünövrə üzrərində qurulmuş, sarsılmaz sönməz məhəbbətə əsaslanmışdır. Dastanda qadına güvən, inam, hörmət, etibar mühüm yer tutur. " Dirsə xan oğlu Buğac" boyunda paxıl və hiyləgər insanların sözünə inanan Dirsə xan ovda öz oğlunu yaralayır. Ağır yaralanan Buğacı ana südü, dağ çiçəyi sağaldır. Dastanda oxuyuruq Buğac anasına deyir: …Ana, ağlama gəl, mənə bu yaradan ölüm yoxdur. Dağ çiçəyi, ana südü məlhəmdir. Beləliklə qırx incəbelli qız yayıldı, dağ çiçəyi yığdılar. Ana südü ilə qarışdırıb Buğacın yarasına çəkdilər. Buğac anasının səsi ilə gözlərini aça bildi. Əsərdən də görünür ki, ana məhəbbəti əvəzsizdir, bununla bərabər ərə ehtiram, istək, sevgi də hədsizdir. Bu boyda da qadınların qəhrəmanlığı ilə yanaşı, onların səbri, dözümü, ailəcanlılığı, ləyaqətli davranışı da aydın görünür. Buğacın anası düşmənin bir gün ifşa olunacağını başa düşür, səbrlə onu gözləyir. Xatunun düşüncələri çin olur. Dirsə xan əsir düşüb qəbiləyə aparılır. Bunu bilən Dirsə xanın xatunu oğluna xəbər edir. Oğul dostlarının köməyi ilə atasını ölümdən qurtarır. Ata-oğul bir-biri ilə görüşürlər. Göründüyü kimi, səbr, dözüm sayəsində məqsədə nail olunur. Buğac atasının onu yaralamasından asılı olmayaraq ata sevgisini əziz tutur,onu düşmən əlindən qurtarır. Bütün bunlar qadın, ana, övlad ləyaqətinin ifadə formalarındandır.

Mərdlik, qətiyyətlilik, mübarizlik və s. mənəvi- əxlaqi dəyərlər oğuz ellərinin ən ulu şöhrəti sayılmışdır. Oğuz cavanları ləyaqətləri əsasında güc qüvvə toplayır, hadisələri qarşılamağa hazır olurlar. Azərbaycan xalqının mənəviyyatından irəli gələn ləyaqət oğuz elinin qəhrəmanlarına xas olan amillərdəndir. Onlar öz ata yurdunun torpağını, onun sərvətlərini, elini-obasını, insanlarını qorumaq üzərində köklənmişlər. Dastanın əsas qəhrəmanlarından olan Qazan xandan başqa, onun ətrafına toplanmış oğuz elinin adlı-sanlı igidləri öz ləyaqət və davranışları ilə fərqlənmişlər. Dar gündə ağaları Qazanın dadına, köməyinə çatan, acığı tutanda qara daşı kül eləyən Qaragünə, dəmir

qapı Dərbənddəki dəmir qapını alan, altmış tutamlıq böyük nizəsininin ucunda igidləri qışqırdan, Qazan kimi pəhləvan bir savaşda üç dəfə atından yıxan Qıyan Səlcuq oğlu Dəli Dondaz, gedib Bayandır xanın düşmənini icazəsiz basan, altmış min kafirə qan susduran Qəflət qoca oğlu Şir Şəmsəddin, əfsanəvi gücü ilə Rumda, Şamda məşhur olan Dəli Domrul, Parasarın Bayburd hasarından sıçrayıb aşan Qalın Oğuz igidi boz ayqırlı Beyrək, çaya baxsa qılınc çalan, çal qaranquş ödəmli Qazılıq qoca oğlu Yeynək və s. hərəsi bir elin dayağı olan, sözündə, əhdində düz olan sədaqətli bahadırlardır. Bu igidlərin səciyyəvi cəhətlərini bir-bir nəzərdən keçirsək görərik ki, onların hamısı mahir at çapan, nizə oynadan, sözündə sədaqətli olan, böyüyə, yaşlılara, hörmət etməyi bacaran, nəzakətli pəhləvanlardır. Baybörənin oğlu Bamsı Beyrək boyunda diqqəti cılb edən əsas məsələ Yalıncığın toy münasibətilə oba igidlərinin şənliyi zamanı igidlərin at çapma yarışlarına çıxmalarıdır. Onu da qeyd edək ki, dastanda "at kultu" xüsusi maraq doğurur. Atlar burada öz adları ilə tanınan canlı personajlarıdır. At qəhrəmanın sadiq yoldaşı, etibarlı dostu və əsas zərbə qüvvəsidir. Təsadüfü deyildir ki, igidlərin bu cür yarışa çıxmaları, hər növ vuruşa hazırlıq, müəyyən şənliklərdə əhvali-ruhiyyənin yüksəlməsi, onalrın öz qüvvə və bacarıqlarını nümayiş etdirmələri ilə bağlıdır. Yüksək bəşəri duyğular, zəngin mənəvi sərvətlərlə seçilən namus, qeyrət, dönməz əqidə carçısı olan "Kitabi- Dədə Qorqud" dastanında ləyaqət tərbiyəsi ilə bağlı dolğun sifətlər və obrazlar çoxdur. Mənəvi ucalığa, yüksək amala, comərdliyə səsləyən fikirlər demək olar ki, hər boyda öz əksini tapır.

"Kitabi-Dədə Qorqud" dastanında qadın surətləri, xüsusilə ləyaqətləri ilə seçilirlər. Ağıllı, namuslu, kişi qeyrətli qadınlarla bağlı motivlər əsərin çox maraqlı səhnələrini təşkil edir. Maraq doğuran məsələlərdən biri ondan ibarətdir ki, o dövrün şəraiti qadın və qızlardan igidlik, cəsarətlik, namus, qeyrət kimi dəyərlər tələb edirdi.Qızlar özlərinə həyat yoldaşı seçərkən cəsurunu, qorxmazını, igidini, oğlanlar da həyat yoldaşını seçərkən özlərinə ömür-gün yoldaşı, dar gündə onun köməyi ola biləcək, namusunu, şərəfini, ləyaqətini uca tuta biləcək xanımlar istəyirdilər.

Azərbaycan xalqının qədim əsatirlərində qadın ləyaqətinin təsvir edilməsi əbəs yerə olmamışdır. Azərbaycan qadınlarının məişət və mədəniyyətinin formalaşmasının ilkin mərhələsində qadınları yoldaşları ilə birgə döyüşlərdə onların şərəfinin qorunmasında öndə getdiklərini görürük. Bütün boylarda iştirak edən qadınlar bu qəbildəndir. Onlar oğuz qəhrəmanlarından geri qalmayan igidlərdir. Eyni zamanda namuslu, sədaqətli, böyük ürəkli, ləyaqətli ana kimi təsvir olunmuşlar. Dastanda təsvir olunan ən igid qadınlardan biri Qanturalın sevgilisi Sarıdonlu Selcan xatundur. Bu qız qılınc oynadan, at çapan, rəşadətli, namusu, ləyaqəti ilə seçilir. Qara donlu kafirlə onun döyüş səhnəsindən oxuyuruq: - "Selcan xanım at saldı, qırımın basdı, qaçanı qovmadı, "aman" deyəni öldürmədi". Qazan xanın xanımı Burla xatun da seçilən qadınlardandır. "Qazan xanın oğlu Uruz bəyin dustaq olduğu" boyda ömür-gün yoldaşı Qazanın köməyinə birinci çatan Burla xatun olur. Qara ayğırını çəkib minən, qılıcına qurşanan Burla xatun Tökür ilə Şöklü Məliyə qarşı igidliklə vuruşur. Qazan xanın ləyaqətini hər şeydən uca tutur. Qeyrət, namus, ləyaqət simvolları olan Buğac, Qazan xan, Qaraca Çoban, Dəli Domrul, Bamsı Beyrək, Qantural qadın igidlərimizdən Burla xatun, Banuçiçək, Selcan xatun ləyaqət simvollarıdır. Dastan geniş oxucu auditoriyasını əsasən özünə çəkir. O pedaqoji ictimaiyyət tərəfindən dəyərləndirilən qiymətli əsərlərdəndir. Çünki ləyaqət insanın davranış və rəftarının cəmiyyət üzvləri tərəfindən bəyənilməsi və qiymətləndirilməsi ilə ölçülür. Əsil insan olmaq üçün ilk öncə insani ləyaqətini başa düşməli, görməli, mənəviyyatda ümumibəşəri əxlaqına doğru yüksəlməli, öz fəaliyyətini xalqın səadətinə yönəltməli, xeyirxah işlər görməyi bacarmalıdır. Azərbaycan xalqının milli xislətindən yaranan ləyaqət dastanının bütün boylarında özünü göstərməklə, formalaşan nəslin bu ruhda tərbiyə olunmasına stimul verə bilir.

***Məqalənin aktuallığı*** ondan ibarətdir ki, müasir dövrdə milli-mənəvi dəyərlərin qorunması və gənclərə düzgün aşılanması cəmiyyətin prioritet məsələlərindəndir. Xüsusilə sosial şəbəkələrin təsirinin artdığı bir zamanda gənclərdə ləyaqət tərbiyəsinin formalaşdırılması zəruri hesab olunur.

Bu baxımdan, "Kitabi-Dədə Qorqud" dastanında əks olunan ləyaqət anlayışının tədqiqi və təbliği mühüm elmi və praktik əhəmiyyət daşıyır.

***Məqalənin elmi yeniliyi*** ondan ibarətdir ki, "Kitabi-Dədə Qorqud" dastanında ləyaqət tərbiyəsinin sistemli şəkildə təhlilinə cəhd göstərilmişdir. Dastanda qadın və kişi obrazları üzərindən ləyaqət, sədaqət və şərəf anlayışlarının milli-tərbiyəvi kontekstdə izahı verilmişdir. Eyni zamanda, dastanın digər xalq dastanları ilə müqayisəli şəkildə öyrənilməsi məsələyə yeni yanaşma təqdim edir.

***Məqalənin nəzəri və praktik əhəmiyyəti*:** Məqalədə dastan materialları əsasında ləyaqət tərbiyəsinin elmi-nəzəri əsasları izah edilir və bu sahədə mövcud boşluqların aradan qaldırılmasına töhfə verilir. Eyni zamanda, əldə edilən nəticələr təhsil və tərbiyə prosesində, xüsusilə gənc nəslin milli-mənəvi ruhda yetişdirilməsində praktiki olaraq tətbiq edilə bilər. Dastan obrazlarının tərbiyəvi imkanlarının üzə çıxarılması müasir pedaqoji fəaliyyət üçün dəyərli metodoloji material yaradır.

## Ədəbiyyat

[1]. Azərbaycan dastanları . [5 cilddə] / tərt.ed. M.Təhmasib. –Bakı: Lider, c.4, –2005, 464 s.
[2]. Əliyev, İ.İ. Azərbaycan etnopedaqogikası.Dərs vəsaiti / İ.İ. Əliyev, –Bakı: Elm və təhsil, –2009, –224 s.
[3]. Həşimov, Ə.Ş. Azərbaycan xalq pedaqogikasının bəzi məsələləri / Ə.Ş. Həşimov, –Bakı: Maarif, –1970
[4]. Kitabi-Dədə Qorqud / Nəşrə hazırlayanlar: F.Zeynalov, S.Əlizadə. –Bakı: Yazıçı. –1988. 134 s.
[5]. Təhmasib, M.M. Azərbaycan xalq dastanları / M.M.Təhmasib, –Bakı: Elm, –1972. 400 s.
[6]. Vəliyev, V.Ə. Azərbaycan folkloru: dərslik / V.Ə.Vəliyev, –Bakı: Maarif, –1985. – 414 s.

**Summary**
**Issues of education of dignity in the epic of Dede Gorgud**
***Amirkhanzadeh G.A.***

***Key words:*** *Dede Gorgud, ethnopedagogy, dignity, upbringing, Ashik Garib, Kazan Khan*

The article addresses an issue that has remained relevant throughout all eras. In the modern age, where mass media has deeply influenced the consciousness of the younger generation, fostering a sense of dignity comes to the forefront. The blind dependence of the younger generation on issues raised by social networks highlights the urgency of this problem. The Book of Dede Gorgud holds a special place in the ethnopedagogy of the Azerbaijani people. The epic explains the upbringing of dignity through the characters of both women and men. The article also examines the views of scholars conducting research in this area and provides relevant quotations. It explores the impact of fostering dignity, as reflected in The Book of Dede Gorgud, on shaping the younger generation.

**Резюме**
**Вопросы воспитания достоинства в послании Деде Горгуд**
***Амирханзаде Г.А.***

***Ключевые слова:*** *Деде Горгуд, этнопедагогика, достоинства, воспитание, Ашик Гариб, Казан хан*

Статья посвящена вопросу, актуальному во все эпохи. В эпоху, когда средства массовой информации прочно вошли в сознание подрастающего поколения, воспитание достоинства выходит на первый план. Слепая зависимость подрастающего поколения от проблем, поднимаемых социальными сетями, свидетельствует об актуальности проблемы. «Китаби-Деде Горгуда» занимает особое место в этнопедагогике азербайджанского народа. Эпос объясняет воспитание достоинства через характеры как женщин, так и мужчин. Также были изучены мнения ученых, проводящих исследования в этой области, и приведены цитаты. В статье рассматривается влияние воспитания достоинства, отраженного в эпосе «Китаби-Деде Горгуд», на формирование подрастающего поколения.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 94 (3)** DOI 10.54758/16801245_2025_21_4_50

# Azərbaycan Səfəvi dövlətinin ticarət həyatında Təbriz və Ərdəbil şəhərlərinin yeri

**Baxşəliyev Adil Baxşəli oğlu** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, professor*
Adil.Baxshaliyev@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 09.05.2024*
*Düzəliş tarixi: 20.10.2024*
*Qəbulolunma tarixi: 03.03.2025*

***Açar sözlər***
*Səfəvi, Təbriz, Ərdəbil, ticarət, səyyah. Social-iqtisadi şəhər, bazar, ərzaq məhsulları, XVI-XVII əsrlər, iqtisadi mərkəz*

**XÜLASƏ**

*Məqalədə Azərbaycanın dövlətçilik tarixində xüsusi yeri olan Azərbaycan Səfəvi dövlətinin ticarət həyatında dövlətin paytaxtı olan Təbriz və xüsusi əhəmiyyət kəsb edən Ərdəbil şəhərlərinin yeri öyrənilir. Dövlətin iqtisadi təkamülü daxili bazarların inkişafına müsbət təsir göstərirdi ki, bu da xüsusilə böyük şəhərlərdə daha çox nəzərə çarpırdı. Sənətkarlığın inkişaf etməsi də daxili və xarici ticarətin inkişafında xüsusi rol oynayırdı. Bu məsələlər dövrün səyyahlarının məlumatlarının müqayisəli təhlili əsasında öyrənilir*

Heydər Əliyev tariximizin bütün dövrləri ilə bərabər, orta əsrlər dövrünün yenidən öyrənilməsinə xüsusi diqqət verirdi. Orta əsrlərdə tarixi şəxsiyyətlərimizin Azərbaycan tarixində roluna diqqətlə yanaşan Heydər Əliyev Uzun Həsən, Şah İsmayıl Xətai və digərlərinin dövlətçilik tariximizdə fəaliyyətlərini yüksək qiymətləndirir və bildirir ki, "...Uzun Həsənin, Şah İsmayıl Xətainin və başqa dövlət xadimlərimizin həyat və faliyyəti xalqın vətən sevgisi və dövlətçilik hissini daha da inkişaf etdirmiş, onu həyatın ən vacib, ən ümdə məqsədinə çevrilmişdir. [2. s.291]

Tariximizin orta əsrlər dövründə yaranmış, 235 illik (1501-1536) tarixi olan Səfəvilər dövləti bizlərlə bərabər Cənubi Qafqaz, indiki İran və qonşu ölkələrdə yaşayan xalqların tarixi taleyində əhəmiyyətli rol oynamışdır. Bu dövlətin mövcudluğu dövründə dil, din və mədəniyyət baxımından müxtəlif olan bir çox tayfalar və xalqlar vahid, həm də çox möhkəm olan bir dövlət hakimiyyəti altında birləşdirilmişdir. Bu dövlətin tarixi dünyanın bir çox ölkələrində müxtəlif yanaşmalar olmaqla tədqiq edilmişdir. Eyni zamanda istər sovetlər dövründə, istərsə də müstəqillik dövründə bu dövlətin tarixininin müxtəlif dövrləri tədqiq edilsədə, tariximizin bu dövrünün bəzi məsələlərinin öyrənilməsinə ehtiyyac vardır.

Azərbaycan Səfəvi dövlətinin iqtisadi həyatında inkişaf etmiş böyük şəhərlər xüsusi yer tutur. Bu şəhərlər sırasında Təbriz, Ərdəbil, İsfahan, Qəzvin, Ərəş kimi şəhərlərin dövlətin daxili və xarici ticarətində xüsusi yeri vardır. Sənətkarlığın müxtəlif sahələrinin bu şəhərlərdə geniş inkişafı yuxarıda qeyd etdiyimiz şəhərlərin ticarət həyatının canlanmasınada öz müsbət təsirini göstərirdi.

Azərbaycan Səfəvi dövlətinin tədqiqatçısı Oqtay Əfəndiyev Cənubi Azərbaycanın şəhərləri haqqqında qeyd edir ki, Ərdəbil, Təbriz və Ərəş şəhərləri dövlətin ticarət həyatında xüsusi rolu olan şəhərlərdəndir. Tədqiqatçı haqlı olaraq qeyd edir ki, "Təbriz Azərbaycan xalqının sosial-iqtisadi, siyasi və mədəni həyatında müstəsna rol oynamış ən qədim şəhərlərdən biridir. [3, s.205] 1501-ci ildən 1555-ci ilə qədər Azərbaycan Səfəvi dövlətinin paytaxtı olması şəhərin ticarət həyatının inkişafına müsbət təsir etməyə bilməzdi. Doğrudur XVI əsrin 30-50-ci illərində Səfəvilərlə Osmanlılar arasında olan müharibər şəhərin iqtisadi həyatının dirçəlişinə müvəqqəti təsir

göstərsədə şəhərin iqtisadi həyatı inkişaf cəhətdən çoxda geri qalmırdı. Şəhərin sənətkarlıq mərkəzi olması da bu inkişafı sürətləndirən amillərdən biri olaraq qalırdı.

4. XVI-XVII yüzillərdə Azərbaycanın güney şəhərlərindəki iqtisadi təkamül, sənətkarlığın əkinçilik təsərrüfatı və bir çox başqa sahələrdən tam ayrılması, sənətkarlıqda daxili əmək bölgüsü və əmtəə istehsalının meydana gəlməsi həmin şəhərlərdə bazarların yaranıb formalaşmasına öz müsbət təsirlərini göstərə bilmişdir. Şəhərlərdə daxili bazarların yaranıb inkişaf etməsi daxili tələbat və dövlətin bu sahədəki normal ticarət siyasəti ilə də bağlı idi. Dövlət səviyyəsində həyata keçirilən iqtisadi siyasətin bazarların yaranması, daxili və xarici ticarət əlaqələrinin tərəqqisində əhəmiyyəti az olmamışdır. Belə ki, 1565-ci ildə I Şah Təhmasibin tamğa vergisini ləğv etməsi. [7, s.147] Azərbaycanın güney şəhərlərində də ticarətin inkişlafına öz müsbət təsirlərini göstərə bilmişdi.

5. Təbrizin uzun illər dövlət və vilayət mərkəzi olması, Şərqlə Oərbi əlaqələndirən beynəlxalq karvan yolu üzərində yerləşməsi onun Yaxın və Orta Şərqdə ticarət, sənətkarlıq, mədəniyyət mərkəzi kimi şöhrət qazanmasında böyük rol oynamışdır. Yaxın və Orta Şərqin böyük iqtisadi mərkəzlərindən olan Təbriz şəhərinin tarixinin bir çox problemlərinə dair tədqiqat əsərləri yazılmışdır. Bu tədqiqatlar içərisində S.M.Onullahinin Təbriz tarixinə həsr etdiyi əsər xüsusi əhəmiyyət kəsb edir [7, s.138]. O, bu əsərində XVI-XVII yüzillərdə Təbrizin sosial-iqtisadi və mədəni həyatının mühüm problemlərini araşdıraraq düzgün elmi nəticələr əldə etmişdir. Şəhərin sosial-itisadi həyatına bir çox elmi məqalələr, monoqrafiyalar həsr olunmasına baxmayaraq onun olduqca zəngin tarixi keçmişə malik olması ilə əlaqədar bir sıra problemlərinin araşdırılıb öyrənilməsinə yenə də ehtiyac vardır. Bu ehtiyaca uyğun olaraq məqalədə səyyah gündəlikləri əsasında Azərbaycan Səfəvi dövlətinin ticarət həyatında xüsusi rol oynayan Təbriz və Ərdəbil şəhərlərinin ölkənin daxili ticarətində rolunun araşdırılması nəzərdə tutulmuşdur.

6. XVI-XVII yüzillərdə ölkə miqyasında əmtəə-pul münasibətlərinin meydana çıxması, ticarətin canlanması bir çox güney şəhərlərində, xususilə Təbrizdə ixtisaslaşmış daxili bazarların meydana gəlməsinə müsbət təsirlər göstərmişdir. Bu bazarlar içərisində Çarşı və Qeysəriyyə önəmli yer tuturdu. 1647-cı ildə Təbrizə gələn Evliya Çələbi şəhərin daxili bazarına ciddi maraq göstərmişdir. O yazırdı ki, Təbrizin çarşı (iki tərəfi üstüörtülü, yaxud açıq olan bazar -A.B.), bədistani (üstüörtülü bazar-Qeysəriyyə-A.B.) birlikdə 7 min dükandan ibarətdir. [4, s.251] Onların çoxu Hələb tərzində kərpicdən tikilmişdir və olduqca davamlıdırlar. Bütün əmtəə və ərzaqlar bu dükanlarda satılır. Böyük bədistan vardır ki, bır çox tacir orada alver edir. Bu qübbəsi olan elə möhkəm bir bədistandır ki, onun heç bir yerdə misli bərabəri yoxdur. Dörd qapısı vardır ki, çarşıya açılırdı. Səyyahın qeydlərinə görə şəhərin iqtisadi həyatında ticarət xüsusi əhəmiyyət kəsb etməklə əyan və kübarları ticarətlə Harun var-dövlətinə malik olmuşdular. Şəhərin iqtisadi nüfuzundan bəhs edən Evliya Çələbi burada 70-ə qədər ticarət sarayı da olduğunu və onlardan ən məşhurlarının papaqtikənlər bazarında Cəfər paşa, Bəndərxan, Bəyim, Baba, Həqqi Təmdih olduğunu qeyd etmişdir. [4, s.252]

7. S.M.Onullahi I Şah Abbasın vergi siyasətinin daxili və xarici iqtisadi əlaqələr göstərdiyi təsir haqqında ətraflı məlumat verərək qeyd edir ki, 1611-ci ildə Təbriz əhalisi iki il müddətində malcəhət, divan vergilərindən, bir qədər sonra 1615-ci ildə məmaliki məhrusə əhalisi mal-xərac vergisindən azad olundu. Və bundan əlavə dərğalıq, ehdas vergiləri ləğv olundu. Bu tədbirlər Təbrizin iqtisadi dirçəlişi üçün müəyyən dərəcədə zəmin yaratdı. Müəllif qeyd edir ki, vergi siyasəti ilə yanaşı karvan yollarının da təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi xarici iqtisadi əlaqələrini genişləndirdi [7, s.150].

I Şah Səfi də ticarətin inkişafı ilə bağlı bir sıra tədbirlər həyata keçirmişdi. O. tacqoyma ilində (1629) rəiyyət, tacir və sənətkarların hamısının borclarını, dövlətin ipək ticarəti üzərindəki inhisar hüququnu ləğv etmiş, hərbi qulluqçuların məvaciblərindən qalan borcları da ödəmişdi. Şahın fərmanı ilə bir çox vergilər də azaldıldı ki, bütün bunlar ölkə miqyasında məhsuldar qüvvələrin inkişafına əlverişli şərait yaratdı. Bu sahədə Osmanlı dövləti ilə 1639-cu ildə bağlanmış müqavilə də az rol oynamamışdır. Bazarlarda məhsulların satış qiymətlərinə nəzarət və həyata keçirilən tən-

zimləmə tədbirlərində iqtisadi yüksəliş az təsir göstərməmişdir. Bütün bunlar Evliya Çələbinin də diqqətindən yayınmamışdır. O, 1648-ci ildə Təbrizdə olarkən bu şəhərin gözəl xüsusiyyətlərindən birinin alqı-satqısı ilə bağlı olan Şeyx Səfi qanunu olduğunu bildirmişdir [5, s.261]. 1654-cü ildə isə Osmanlı elçisi kimi Urmiyada olarkən yazırdı. "Hakimlərin Şeyx Səfi nırxı deyə zəbt və zəbt etdiklərinə, təmizliklərinə eşq olsun"[5,s.36], yəni hakimlərin Şah Səfinin hökmlərini düz yerinə yetirmələrinə, qiymət məzənnəsini nizamlamalarına, qayda-qanuna eşq olsun. O, Urmiya bazarındakı durumu diqqətlə nəzərdən keçirərək yazırdı ki, abbasi ve bisti sikkələrinin üzərinə "La İlahə İlləllah Məhəmməd resulullah Əli vəliyullah" yazılmışdır. Bu sikkənin üzərindəki yazıda səhvə yol verən və qəlp pul kəsən adam dərhal iman və zaman verilmədən edam olunurdu. Bazarların hamısında bütün ərzaq satanlar onları "Əli" tərəzisi ilə satırlar. Hətta, buğda, yumurta, bişmiş toyuq və ağ çörəyi, ümumiyyətlə, bütün şeyləri tərəzi ilə satırlar. Heç kim Şeyx Səfi nırxına zidd hərəkət edə bilməz. Ona görə ki, hiyləgərin dərhal gözlərinə mil çəkirlər və başına qazan, tas keçirirlər. Bəzilərinin ödünü ağzından, yaxud qarnını yarıb ürəyini çıxarırlar. Möhkəm və yüksək inzibatçılıq olub qanun işləyirdi [5, s.36].

I Şah Səfinin iqtisadi siyasəti şəhərlər arasında iqtisadi əlaqələri gücləndirməklə daxili bazarların inkişafına müsbət təsir göstərmişdir. Səfəvi məmləkətində daxili iqtisadi əlaqələr mövcud gömrük sistemindən də əlaqələri nizamlayır və onun üzərində dövlət nəzarəti yaradırdı.

8. Təbrizin Qeysəriyyə adlı ən məşhur bazarları Uzun Həsən tərəfindən tikdirilmişdir. Bu bazar Osmanlı-Səfəvi savaşları zamanı 1585-ci ildə dağıdılmış və sonralar yenidən bərpa olunmuşdur. Təbrizin yeri və əzəmətinə, var-dövlətinə, ticarət və əhalisinin sayına görə İsfahandan sonra ikinci şəhər olduğunu bildirən Şarden 1673-cü ildə onun bazarının abad ticarət mərkəzi olmasına işarə edərək yazır kı, bu şəhərin ən gözəl bazarı bahalı mallar, cəvahir alqı-satqısı mərkəzi olub, Qeysəriyyə adlanır ki, bu da şah bazarı mənasını ifadə edir. Bu bazar səkkizbucaqlı olub, çox geniş və böyükdür [9, s.476] .

Şardenin gündəliyində Qeysəriyyə ilə yanaşı şəhərin daxili bazarlarının ümumi durumu haqqında ətraflı məlumatlar verilmişdir. Bu məlumatlar XVII yüzilin 70-ci illərində ölkənin daxili ticarət həyatında Təbrizin tutduğu yerin real göstəriciləridir. O yazır ki, bu şəhərdə əmlakı 15 min bağlı-bağçalı ev və 15 min dükan vardır. Ölkədə dükanlar evlərdən ayrıdır. Bu bərli-bəzəkli dükanlar hündürlüyü 50 ayaq və üstüörtülü binalardan ibarət olub, uzun və enli küçələrdə yerləşir və onların hündürüyü 50 padır. Bu cür küçələr bazar adlanırdı. Bazarlar şəhərin qəlbini təşkil edirdilər. Evlər, mənzillər bazarlardan kənarda inşa olunurdular və bir qayda olaraq hamısının bağçası vardı. Təbrizdə əla qəsir və böyük imarətlər çox deyildi. Ancaq Asiyada ən məşhur bazarlar bu şəhərdə idi. Təbriz bazarlarının gözəl günbəzlərə, tağlara qərq olması və gün ərzində ora gələn adamların çoxluğu, külli miqdarda malı cah-cəlalını, əzəmətini nümayiş etdirirdi [9, s.477].

Səyyahların verdiyi məlumatlara görə şəhər meydanlarından, çarşı və dükanlardan fərqli olaraq Qeysəriyyə iri tacirlərin alqı-satqı obyekti olmaqla bərabər, burada adi malların deyil, bahalı və nəfis malların ticarəti üstünlük təşkil edirdi. Təbriz meydanı kənarındakı karvansaralara tamaşa edən Cemelli Kareri Qeysəriyyə adlı mötəbər binanı da gördüyünü bildirərək yazırdı kı, bu möhtəşəm, hündür qübbəli tikili olub, bura iri tacirlərin alqı-satqı mərkəzidir. Ən gözəl malları buradan almaq olar. Səyyah Qeysəriyyədən sonra kərpic günbəzi olan zərgərlər bazarının yerləşdiyini qeyd etmişdir [1, s.35].

XVI-XVII yüzillərdə şəhərlərin ticarət həyatında Çarşı, Qeysəriyyə və dükanlarla yanaşı, meydanlarda önəmli iqtisadi nüfuza malik ticarət mərkəzləri də var idi. Şarden yazır ki, Təbriz meydanı mən olduğum bütün şəhərlərdəki, o cümlədən, İsfahan meydanından da böyük idi. Bu böyük meydan gün ərzində boş qalmır və burada hər cür ərzaq, başqa ucuz mallar satılır. Təbrizdə başqa böyük bir meydan da vardır ki, o xaraba qalmış Cəfər paşa qalası qarşısındadır. Deyilənə görə əvvəllər bura qeyd olunan qalanın silah-sursat meydanı olmuşdur. İndi sallaqxana olub, hər tərəfdən şəhərə gətirilən qoyunlar burada satılır, kəsilir və dərisi soyulur [9, s.479].

Şəhərin iqtisadi həyatında meydanların rolu XVII yüzilin sonunda Təbrizə gələn Cemelli

Karerinin də diqqətini özünə cəlb edir. O, bu barədə yazır ki, böyük bir meydanın tamaşasına gəldik, bura tacir, kəsəbə, sənətkar, xidmətçi ilə dolu olan məşhur "At meydanı" idi. Bir qayda olaraq burada qəşəng atlar satılırdı ki, onların qiyməti də ucuz və münasib olurdu. Mən bir qəşəng atı 90 abbasiyə aldım ki, onun İtaliyada qiyməti 300 abbasidən çox olardı. Təbriz bazarlarında və meydanlarda axşam çağı zurna səsləri eşidilir. Bu vaxt dükanlar bağlanır və dərhal gecə qoruyucuları bazara daxil olurlar. Səhər yenə də zurna xəbərdarlığından sonra dükanlar açılır və həmin andan qoruyucular bazar üçün məsuliyyət daşımırlar [1, s.21-22].

Səyyah gündəliklərindən aydın olur ki, şəhərin iri əyan zümrəsi də ticarətə kifayət qədər sərmayə qoymaqda maraqlı olub, onların çoxu şəhərin daxili ticarətində xüsusi mövqeyə malik olmaqla ayrıca bazarlar tikdirirdilər. Tavernye yazırdı ki, 1638-ci ildə (1634-cü ildə A.B.) şəhər Osmanlılar tərəfindən tamam dağıdıldıqdan sonra bərpa olunmuş, gözəl bazarlar tikilmişdir. Bu üstüörtülü bazarlardan birini də əyalətin maliyə rəisi Mirzə Sadiq tikdirmişdir [6, s.67].

Təbrizin iri əyanlarından Mirzə Sadiqin tikdirmiş olduğu bazar haqqında Cemelli Kareri də məlumat vermişdir. O yazır ki, çaharşənbə günü ruhani ata Jorj Vendaum ilə birlikdə Azərbaycanın sabiq hökumət naibi Mirzə Sadiqin tikdirdiyi bazarı görməyə getdik. Bu kərpicdən tikilmiş üstüörtülü, günbəzli bazar idi. Burada bir neçə karvansara və dükanlar diqqəti cəlb edirdi. Bazarın günbəzli böyük bir zirzəmisi də vardı ki, qışda ona bitişik hovuzdan buz parçalayıb ora tökərək yaya saxlayırdılar [1, s.33].

Təbriz şəhərinin gözəl və yaraşıqlı bazarları, karvansaraları vardı. XVII yüzilin sonlarında şəhərin ticarət sahəsində nüfuzunun artması saysız-hesabsız ticarət nümayəndələrini bura cəlb edirdi. Şəhər ipək ticarətində də böyük rola malik olmaqla Cemelli Karerinin dediyinə görə qeyd olunan dövrdə Gilanın bütün xam ipəyi Təbrizə gətirilib burada satılırdı [1, s.21].

XVI-XVII yüzillərdə güney şəhərləri ilə bağlı kənd və qəsəbələrdə natural təsərrüfatın qalmasına baxmayaraq artıq onların çoxu əmtəə təsərrüfatının obyektləri idilər. Kiçik şəhərlərin, kəndlərin əhalisi öz məhsullarının bır qismini şəhər bazarlarına çıxarırdılar. Venetsiyalı tacir yazırdı ki, Van gölünün cənubunda yerləşən Bostan qalasının ətrafında bol nemətli çoxlu kəndlər vardı. Bu kəndlərdən hərdənbir Təbrizə satmaq üçün əla pendir və yağ göndərirdilər. Təbrizdə demək olar kı, hamı qoyun əti yeyir və o olduqca tamlıdır. Burada mal əti də çoxdur, ancaq adamlar onu az yeyirlər. Şərab azdır, ancaq "Maltsey" (Yunanıstanda üzüm növü A.B.) tamı verən ağ və qırmızı rəngli şərab tapmaq olur. Balıq da çoxdur. Balığı Təbrizdən bir günlük məsafədə yerləşən göldən tuturlar ki, onun suyu Bostan və Van dəryaçası kimi şordur. Bu balığın dadı təbii olmamaqla qəribə qoxusu var və kükürd tamı verir. Təbrizə Rum dəniz balığından kiçik, ancaq ondan çox yaxşı olan çoxlu kürülü balıq gətirirlər. Şəhərdə dadlı küru də tapılır kı, onu Təbrizdən doqquz günlük yol olan Xəzər sahilindəki Mahmudabad qalasından gətirirlər. Bu dəryadan adam boyda da balıq tutulur ki, onun əti kəkliyinkindən də dadlı olur [8, s.374]. Səyyah sözünə davam edərək yazırdı ki, adi meyvələri dünyanın başqa ölkələrində olduğu kimi Təbrizdə də tapmaq olur. Qoz, fındıq və bu kimi meyvələr Təbrizdə azdır. Olduqca dadlı zeytun və alma vardır, ancaq burada narınc, limon bitmir. Yayda yetişməyə bu meyvələri Mazandaran dənizi kənarı boyunca 25 mil məsafəyə qədər uzanan Gilanın kiçik şəhərlərindən gətirirlər [8, s.384-385]. Təbriz dövrü inkişaf elmiş ticarət və sənətkarlıq mərkəzi olmasına baxmayaraq yarımaqrar xarakterini tam itirməmişdi. Venetsiyalı tacir də yazırdı ki, Təbrizin çoxlu bağlarında hər cür adi bitki vardır. Kələm, kahı və Venetsiyada olduğu kimi hər cür yeməli göyərti, belə ki, şalğam, yer kökü, soğan, mərzə, cəfəri, dab çətiri tapmaq olur. Təbrizdə düyü, buğda, arpa da boldur. Venetsiyalı tacirin qeyd etdiyi bu bitkilər Təbriz ətrafında onun əhalisi tərəfindən əkilib becərilir və şəhər bazarına satış üçün çıxardılırdı [8, s.385].

Evliya Çələbi də yazırdı kı, Təbrizin tarlalarında yeddi növ iridənəli bol buğda, paxla, arpa, yeddi çeşid pambıq məhsulu əldə olunur. Həddindən artıq meyvə və göyərtiləri vardır. Bır sözlə geniş, varlı, zəngin, ucuzluq olan bir yerdir [4, s.254].

Təbrizin iqtisadi inkişafı ətrafındakı bir çox məntəqələrdə də əmtəə-pul münasibətlərin, kiçik daxili bazarların meydana çıxmasına təsir etmişdi. Təbrizin, Mehranrud, Səravrud (Sərdrud),

Didehərdən (Bavilrud), Dudqat (Rudqat), Canmurad, Ərdənəq (Ərvənəq), Bədistan adlı yeddi abad nahiyəsi vardır ki, bağlı-bağçalı kəndlərdən ibarət olan yaşayış məskənlərinin çoxunda daxili bazarlar da fəaliyyət göstərirdi. Təbriz əyalətində ayrıca sultanlıq olan Qümlə qalasında bağ-bağçaların sayı-hesabı yoxdur. Alma, armud, üzümü boldur. Üstüörtülü bazarı və dükanları da vardır [4, s.257-267].

Təbriz bazarında ərzaq məhsullarının qiyməti, ətraf bölgələrlə şəhər arasındakı daxili ticarət əlaqələri ilə maraqlanan Şarden də qeyd edirdi ki, balığı bura Xəzər dənizindən gətirirlər. Ərzaq mallarının həddindən artıq ucuz olduğunu bildirən səyyah bir livr çörəyin iki liyarda, bir livr ətin isə 18 dinara satıldığını, quş əti, meyvə, göyərtinin həddindən çox ucuz olduğunu yazmışdır [ 9, s.410]. Ərzaq məhsullarının şəhər bazarlarında ucuz olması haqqındakı səyyah gündəliklərində verilən məlumatlar ətraf məntəqələrlə Təbriz arasında mal dövriyyəsinin XVII yüzilin 70- ci illərində müəyyən inkişaf səviyyəsinə çatdığını göslərır.

Səyyah gündəliklərindən aydın olur ki, Təbriz XVI yüzilin əvvəllərindən ortalarına qədər ölkə miqyasında xüsusi kəmiyyətlərə malik ticarət mərkəzi olmuşdur. Ancaq mərkəzin Qəzvinə və sonra İsfahana köçürülməsi XVI yüzilin sonu, XVII yüzilin əvvəllərində Təbrizin iqtisadi həyatında ötəri durğunluğa səbəb olsa da, bu proses uzun illər davam etmir. Şəhərin iqtisadi həyatı onun daxili və beynəlxalq iqtisadi əlaqələri genişləndikcə yenidən canlandı və Təbriz XVII yüzilin ortalarında Səfəvi məmləkəti miqyasında ən mühüm ticarət mərkəzinə çevrildi. Şəhərin iqlisadi həyatının çiçəklənmə dövrü də XVII yüzilin ortalarına təsadüf edir.

9. XVI-XVII yüzillərdə Səfəvi məmləkətində yerli bazarların təşəkkülü prosesi yüksək səviyyəyə çatmışdı. Şəhərlərin çoxu geniş vilayətlərin iqtisadi mərkəzlərinə çevrilmiş, onların ən böyükləri bütün ölkə miqyasında xüsusi əhəmiyyət kəsb edərək xarici və tranzit ticarətdə əsas rol oynayırdı. XIV-XV yüzillərdə Səfəvi feodal mülkünün mərkəzi olmuş və XVI-XVII əsrlərdə isə xüsusi imtiyazlı mövqeyini saxlayan Ərdəbil şəhəri ölkənin əsas iqtisadi mərkəzlərindən olub daxili iqtisadi əlaqələrdə xüsusi əhəmiyyətə malik ticarət mərkəzi idi. Güneydən Quzeyə və Batıdan Doğuya qədər bütün Səfəvi məmləkətinin iqtisadi mərkəzlərinin Ərdəbillə əlaqəsi mövcud idi. Ölkədə Şeyx Səfi türbəsinin Ərdəbil şəhərində yerləşməsi onun biri dini mərkəz kimi mövqeyini gücləndirmiş və ölkənin hər tərəfindən bura ziyarətə gələn zəvvaarlar həm də şəhərdə alqı-satqı ***ilə*** məşğul olurdular. Digər tərəfdən ölkənin quzeyi ilə güneyini iqtisadi cəhətdən əlaqələndirən Dərbənd-Hörmüz və Gilan-Təbriz karvan yolunun da Ərdəbildən keçməsi şəhərin ölkənin ən mühüm daxili bazarlardan birinə çevrilməsinə öz təsirin göstərə bilmişdir. Artıq bu şəhər XVI yüzildə ölkənin daxili ticarət həyatında xüsusi rola malik idi [3, s.210]. XVII yüzildə də ölkənin əsas iqtisadi mərkəzlərindən biri olan Ərdəbilin dükan və karvansaraları əcnəbi tacirlərin diqqətini özünə daha çox cəlb edə bilmişdir. XVII yüzilin əvvəllərində Səfəvi məmləkətinə gələn rusiyalı tacir gündəliyində Şamaxının ticarət həyatından bəhs etdikdən sonra Ərdəbil şəhər ticarəti haqqında məlumat verərək yazırdı: "Ərdəbil şəhər yox, posaddır. Bazarları, karvansaraları, sarayları, başqa şeyləri ilə birlikdə Şamaxıdan böyük və gözəldir. Bütün tikililəri daşdan olub, çoxlu dükanları, iyirmidən çox karvansarası, cürbəcür malları və tərəvəzləri vardır. Gilan və Kür çayının mənsə-bindən bura rəngi, dadı rus somğasına oxşayan balıq gətirirlər. ... Şeyx Səfi məqbərəsinin divarlarının o tayında sıra dükanlar yerləşir. Burada müxtəlif ərzaq və mallar satılır" [12, s.73]. Kotovun bu qeydləri şəhərin ölkənin daxili ticarət həyatında xüsusi əhəmiyyətə malik olduğunu göstərir.

Ölkənin mühüm iqtisadi mərkəzlərindən olan Ərdəbilin ticarət həyatı haqqında Adam Olearinin verdiyi məlumatlar isə onun daxili bazarının durumu haqqında daha aydın təsəvvür yaradır. Adam Oleari yazır: "Ərdəbil şəhərində uzunluğu 300, eni isə 150 addım olan bir meydan vardır ki, bu meydanın hər iki tərəfi başdan-başa yaraşıqlı, cərgə ilə tikilmiş dükanlardan ibarət olub hər birində ayrıca sexlərin sənətkarları çalışırlar". Adam Oleari buranı ticarət meydanı adlandıraraq qeyd edir: "Meydanın arxa tərəfindən bazara və əvvəlcə dördkünclü, tax-tavanlı, günbəzli binaya daxil olursan ki, buna onlar Qeysəriyyə deyirlər. Qeysəriyyədə qızıl, gümüş məmulatlar, əla

keyfiyyətli ipək, bahalı və qiymətli mallar satılırdı. Bu binanın müxtəlif yerindən açılan üç qapıdan üstüörtülü dalanlar vardır ki, onlarda hər cür ucuz mal satılır" [10, s.583-584].

Ərdəbil şəhər bazarının ölkənin iqtisadi həyatında əhəmiyyətli yeri və ətraf kəndlərdəki əmtəə təsərrüfatı obyektləri ilə şəhər arasında əlaqələrin daha da genişlənməsi Yan Streysin gündəliyində daha ətraflı şəkildə təsvir olunmuşdur. Kənd təsərrüfatı məhsullarına şəhərin həftəbazarlarında tələbat artdıqca kəndlərlə şəhər arasında sabit iqtisadi əlaqələr inkişaf edərək davamlı alqı satqı sistemi yaranırdı. Yan Streys Ərdəbil ətrafında bir-birinə yaxın məsafədə 57 kəndin olduğunu və bu kəndlərin kəndlilərini meyvə, yağ, pendir, yumurta və başqa məhsullarının hər gün şəhər bazarında satdıqlarını qeyd etmişdir. O yazır ki, elə buna görə də şəhər bazarında hər şey ucuz və boldur [13, s.286]. Dərbənd-Hörmüz beynəlxalq karvan yolu üzərində yerləşən Ərdəbilə Gilan, Kürdüstan, Gürcüstan və başqa ölkələrdən saysız-hesabsız tacirlər gəlir və bura məşhur bir ticarət şəhəridir. Şəhər İsfahanla sıx ticarət əlaqəsindən də külli miqdarda gəlir əldə edır. Burada həftədə iki dəfə həftəbazar təşkil olunur ki, bu vaxt bazara çoxlu kəndli gəlir və onlar ağır yüklərini daşımaq üçün at, dəvə, kəldən, hətta inəkdən də istifadə edirlər. Artıq Ərdəbil öz qədim əzəməti ilə çoxlu şəhərləri geridə qoymuşdur [13, s.294].

Bu dövrdə ticarət və sənətkarlığın daha çox inkişaf etdiyi iri şəhərlər ətrafındakı kəndlərin də iqtisadi tərəqqisinə təsir göstərir və bu kəndlər şəhər bazarları ilə tədricən bağlanır və onlarda kənd təsərrüfatı məhsulunun istehsalını artırmaq marağı güclənirdi. Artıq Ərdəbil ətrafındakı kəndlərdə də xüsusi mülkiyyətin formaları dəyişir, oturaq əhali başlıca məhsuldar qüvvəyə çevrilirdi. Şəhər bazarları ilə bağlanan bu kəndlərdə əmtəə-pul münasibətləri getdikcə inkişaf edirdi. Mühüm iqtisadi mərkəzlər olan şəhərlərlə yanaşı həm də kəndlərlə şəhərlər arasında qarşılıqlı iqtisadi əlaqələrin yeni formaları meydana gəlirdi. Bu da daxili ticarətin inkişafı və daxili bazarların feodal cəmiyyəti üçün tipik olan formasının yaranmasında əhəmiyyətli rol oynayırdı.

**Ədəbiyyat**

[1]. Cemelli, Kareri. Tərcome-ye doktor Abbas Naxçivani və Əhdüləli Karəngi / C.Kareri, S.Kareri, –Təbriz, –1348, –səh. 35
[2]. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir [46 cilddə] noyabr, 2000 – yanvar, 2001 / H.Əliyev. – Bakı: Azərnəşr, c. 31, –2010, –520 s.
[3]. Əfəndiyev, O.Ə. Azərbaycan Səfəvilər dövləti / O.Ə. Əfəndiyev, –Bakı: Azər nəşr, –1993, – s.301
[4]. Evliya, Çelebi. Seyahetname / E.Çelebi, –İstanbul, –c.2, –1314, 251 s.
[5]. Evliya, Çelebi. Seyahetname / E.Çelebi, – İstanbul, –c.7, –1970.
[6]. Tavernye, J.B. Səfərname-ye Tavernye. Tərcome-ye Əbuturab Nuri / –İsfahan, –1336, –67 s.
[7]. Onullahi S.M. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi / S.M. Onullahi, –Bakı, –1982, –280 s.
[8]. Səfərname-ye bazarqane Venezi dər İran: Səfərnameha-ye Venezi dər İran. Tərcome-ye doktor Mənuçehr Əmiri / –Tehran, –1349, –374 s.
[9]. Səfərname-ye Şarden. Tərcome-ye Eğbal Yəğmai / –Tehran, –c. 2. –1374, –476 s.

***Rus dilində***

[10]. Олеарий Адам. Подробное описание путешествий в Гюлистанского посольства в Московию и Персию в 1633, 1636 и 1639 годах / Составление секретарем посольства Адема Олеарием, пер. с нем. И.Барсова. –М., –1870.
[11]. Путешественники об Азербайджане / Составитель З.И.Зампольский, –Баку, –т.1. –1961.
[12]. Хождение купца Федота Котова в Персию / М.: Издательство Восточной Литературы, – 1958. –109 с.
[13]. Стрейс, Я.Я. Три путешествия / Я.Я.Стрейс, Пер. Э.Бородиной. –М.: Наука, –2006, –494 с.

**Summary**

**The place of the cities of Tabriz and Ardebil in the commercial life of the Safavi state of Azerbaijan**

***Bakhshaliyev A.B.***

***Keywords:*** *Safavid, Tabriz, Ardabil, trade, traveler. Socio-economic city, market, food products, 16th-17th centuries, economic center*

The article studies the place of the capital of the state, Tabriz, and the cities of Ardabil, which are of particular importance, in the commercial life of the Azerbaijani Safavid state, which has a special place in the history of statehood of Azerbaijan. The economic evolution of the state had a positive impact on the development of internal markets, which was especially noticeable in large cities. The development of craftsmanship also played a special role in the development of internal and foreign trade. These issues are studied on the basis of a comparative analysis of the information of travelers of the period.

**Резюме**

**Место городов Тебриз и Ардебиль в торговой жизни Sефавидского государства Азербайджана**

***Бахшалиев А.В.***

***Ключевые слова:*** *Сефевиды, Тебриз, Ардебиль, торговля, путешественник. Социально-экономический город, рынок, продукты питания, XVI-XVII века, экономический центр*

В статье рассматривается место столицы государства Тебриза и города Ардебиля, имеющего особое значение, в торговой жизни азербайджанского государства Сефевидов, занимающего особое место в истории государственности Азербайджана. Экономическая эволюция государства оказала положительное влияние на развитие внутренних рынков, что было особенно заметно в крупных городах. Развитие ремесла также играло особую роль в развитии внутренней и внешней торговли. Эти вопросы изучаются на основе сравнительного анализа сведений путешественников того периода.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 327** DOI 10.54758/16801245_2025_21_4_57

# XX əsrin 90-cı illərində Azərbaycanla Türkiyə arasında mədəniyyət sahəsində əməkdaşlıq

**İsmayılov Şahismayıl Namaz oğlu** ORCID

*Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan, t.f.d., dosent*
*ismayılovsahismayıl@gmail.com*

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 11.03.2025*
*Düzəliş tarixi: 30.06.2025*
*Qəbulolunma tarixi: 17.09.2025*

***Açar sözlər***
*mədəni əlaqələr, dil və ədəbiyyat, təhsil və incəsənət, bir millət-iki dövlət, qarşılıqlı yardım*

**XÜLASƏ**

*Məqalə 1990-cı illərdə Azərbaycan və Türkiyə arasında mədəni əməkdaşlığın bəzi aspektlərinə həsr olunub. Qeyd olunur ki, Sovet İttifaqı dağılandan sonra Azərbaycan müstəqilliyini bərpa edib və Türkiyə bu dövrdə onun ən yaxın tərəfdaşlarından birinə çevrilib. İki ölkə arasındakı mədəni əlaqələr siyasi və iqtisadi münasibətlərə paralel olaraq inkişaf etmişdir. Türkiyə Azərbaycanın zəngin mədəni irsinin dünyada tanıdılması istiqamətində tədbirlər keçirib, Azərbaycan isə Türkiyə ilə ortaq olan tarixi və mədəni dəyərlərin qorunmasına xüsusi diqqət yetirir.*

## Giriş

Türkiyə və Azərbaycan arasında mədəni əlaqələr qədim və dərin köklərə malikdir. Dil və ədəbiyyat sahəsində hər iki ölkə arasında ortaq bir zəngin irs mövcuddur ki, türk dili və mədəniyyəti bu xalqların mədəniyyətinin əsasını təşkil edir. Təhsil sahəsində əməkdaşlıq və tələbə mübadiləsi hər iki ölkənin cəmiyyətləri arasında sıx əlaqələr yaradıb. “Bir millət-iki dövlət” anlayışı Azərbaycan və Türkiyənin dəstəyi ilə möhkəmlənir. Bu mövzu ilə əlaqədar olaraq həm xaricdə, həm də respublikada nəşr olunan ədəbiyyatlara və köməkçi mənbələrə müraciət edilmişdir.

Azərbaycan ilə Türkiyə arasında yüksək inkişaf səviyyəsinə yüksəlmiş və “Bir millət - iki dövlət” prinsipinə əsaslanan müasir diplomatik münasibətlərin dərin tarixi kökləri vardır. 1918-ci il mayın 28-də müstəqilliyini elan etdikdən cəmi bir həftə sonra Azərbaycan Xalq Cümhuriyyəti həmin il iyunun 4-də Osmanlı İmperiyası ilə ilk beynəlxalq müqaviləni bağladı. Beləliklə, Osmanlı İmperiyası Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət oldu. Bu müqavilənin 4-cü maddəsinə uyğun olaraq hərbi yardım istənildi və gələn Qafqaz İslam Ordusu ölkənin erməni-bolşevik işğalından azad edilməsində həlledici rol oynadı. [2, s. 1]

Azərbaycan və Türkiyə ölkələri coğrafi ərazisinə görə Asiya və Avropa qitələrinin qovuşuğunda yerləşir. İki dost, qardaş, ortaq soy-kök, dil, din cəhətdən bir-birinə bağlı olan, eyni millətə mənsub ölkələr və xalqlar arasındakı əlaqələrin tarixi çox qədimdir. Bir-birinə bitişik ərazidə yerləşən bu xalqların tarixi köklərində eyni adət-ənənələr, mədəniyyət əlamətləri bu günümüzə gəlib çatıb. Tarixin səhifələrini açıb oxuduqca, xalqların həyat tərzini öyrəndikcə əsrlər boyunca baş vermiş hadisələrlə tanış oluruq. Dünyanın ən qədim millətlərindən olan türklər və azərbaycanlılar uzun tarixi yol keçiblər. Bu tarixi mərhələ türklərin və onun bir qolu olan azərbaycanlıların, yəni eyni kökdən olan millətin tarixidir. Bu millətin yaşadığı ərazi bəşər mədəniyyətinin ilk məskənlərindən biridir. Elmi mənbələrə əsaslanan alimlər belə bir nəticəyə gəliblər ki, Nuhun tufanından sonra tarix türkdilli şumerlərdən başlanır. Yəni tarixi tədqiqatlar ilk türklərin Miladdan əvvəl 4000-ci illərdə şumerlər olduğunu göstərir. Bir neçə minillik dövlətçilik tarixinə malik olan türkdilli xalqlar “Kitabi-Dədə Qorqud”, “Bilqamıs”, “Koroğlu”, “Əsli və

Kərəm", "Tahir və Zöhrə", "Aşıq Qərib" və digər qədim qəhrəmanlıq və məhəbbət dastanlarını yaradıblar. Türkiyə və Azərbaycan ərazisində yaşayan türklər zəngin dövlətçilik tarixinə və mədəniyyətinə malik olublar. Türkiyə hələ orta əsrlərdən – XIII əsrdən başlayaraq dünya miqyasında inkişaf edərək yeddi əsr ərzində sayılan bir imperiya dövləti oldu. İngilis alimləri tərəfindən yazılmış əsərlərdə Azərbaycan Atabəyləri və Səlcuqlar müsəlman xanədanlarından biri kimi şərh edilibdir. Bu cəhətdən Azərbaycan-Türkiyə əlaqələrinin tarixi eramızdan əvvəlki dövrlərə gedib çıxır. [6, s. 4]

XX əsrin əvvəllərinə doğru incəsənətin müxtəlif sahələri xalq yaradıcılığı əsasında həm Türkiyədə, həm də Azərbaycanda kifayət qədər inkişaf etmişdi. Bununla belə, bu sahədə təhsil müəssisələri demək olar ki, yox idi. Azərbaycanda bu sahədə əldə edilən böyük nailiyyətlər dahi bəstəkar Üzeyir Hacıbəyovun adı ilə bağlıdır. Üzeyir Hacıbəyov (1885-1948) Azərbaycanda milli bəstəkarlıq məktəbinin banisi hesab olunur. O, Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasını bitirdikdən (1899-1904) sonra 1907-ci ildə "Leyli və Məcnun" operasını yazaraq Şərqdə ilk opera müəllifi oldu və bununla da Azərbaycanın musiqi sənətinin elmi inkişafına böyük təkan verdi. O, Azərbaycanın ilk musiqi məktəbinin (1921-1925) direktoru, 1939-1948-ci illərdə isə Dövlət Konservatoriyasının ilk rektoru olmuşdur. Azərbaycanda ilk İncəsənət İnstitutu 1945-ci ildə yaradılmışdır (1968-ci ilə qədər Teatr İnstitutu adlanırdı). Azərbaycanda Dövlət Muzeyinin İncəsənət Şöbəsi 1920-ci ildə təşkil edilmiş və 1936-cı ildə onun əsasında Dövlət İncəsənət Muzeyi yaradılmışdır. Muzeydə 9000-ə yaxın incəsənət əsəri toplanmışdır (1976). Burada M. Nəvvab, B. Kəngərli, Ə. Əzimzadə, M. Abdullayev, S. Bəhlulzadə, M. Rəhmanzadə, T. Salahov, V. Səmədova, F. Abdurrahmanov, Ö. Eldarov və digər görkəmli sənətkarların əsərləri saxlanılır. Muzeyin Şərq İncəsənəti şöbəsində isə Türkiyə və digər Şərq ölkələrinin miniatür və dekorativ-tətbiqi sənət nümunələri toplanmışdır. Türkiyə də qədim Azərbaycan kimi incəsənət sahəsində tarixi abidələrlə zəngindir. Side şəhərində antik dövrlərdə teatr olmuş, XIX əsrdə isə İstanbulda məşhur Dolmabağça sarayı inşa edilmişdir. XX əsrin əvvəlində Türkiyədə "Müstəqil Rəssamlar və Heykəltəraşlar Birliyi" (1929) yaradılmışdır. Bu dövrdə Türkiyədə Aydın Adnan, Devrim Erbil, Eren Eyyuboğlu, Erkin İnan, Zəkan Ormançı, Zəki Faiq, İbrahim Balaban, Kayxan Kesginok, Neşet Kunal, Nuri İyem, Orxan Peker, Turan Ərol, Turqut Zaim, Cihad Aral kimi görkəmli fırça ustaları yetişmişdir. Türkiyə xalqının musiqi mədəniyyəti də qədim tarixə malikdir. Musiqi folklorunda xalq mahnıları – türkülər zəngin məzmun daşıyır. Türk xalqının incəsənətində aşıq yaradıcılığı da (Azərbaycanda olduğu kimi) geniş yer tutur. [4, s. 84]

Müstəqilliyin ilk illərində Azərbaycanda xarici ölkələrin çox az sayda səfirliyi fəaliyyət göstərirdi. Bəzi ölkələrin Ankaradakı səfirlikləri eyni zamanda Azərbaycana da akkreditə olunmuşdular. Bir çox ölkədə Azərbaycanı Türkiyə səfirlikləri təmsil edirdi. Hətta Azərbaycan səfirliyi açıldığı ölkədə bina təsis olunana qədər səfirlər Türkiyənin həmin ölkədəki səfirliyinin binasında yerləşmişdi. Bu səbəbdən Türkiyənin NATO-dakı daimi nümayəndələri uzun müddət həm də Azərbaycanı təmsil etmişdi. 1993-cü ildə hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın dünya birliyinə inteqrasiyası kontekstində Türkiyə ilə hərtərəfli əməkdaşlığın gücləndirilməsinə, regional təhlükəsizliyin təmin edilməsinə, ölkənin siyasi, iqtisadi, elmi və mədəni maraqlarının təşviqinə əhəmiyyət verən Heydər Əliyev bu istiqamətdə strateji kursun mütərəqqi inkişafını təmin etdi. [8, s.170] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1994-cü il fevralın 8-dən – 11-dək Türkiyəyə ilk rəsmi səfəri ikitərəfli əlaqələrin möhkəmlənməsində mühüm mərhələ oldu. Fevralın 9-da Ankarada keçirilən danışıqlarda Azərbaycan ilə Türkiyə arasında əməkdaşlıq və qarşılıqlı yardım haqqında protokol, elmi-texniki, mədəni və iqtisadi sahələrdə əməkdaşlıq haqqında sazişlər, dostluğun və hərtərəfli əməkdaşlığın inkişafı haqqında müqavilə, siyasət üzrə müqavilə və qarşılıqlı yardım haqqında saziş, investisiyaların qorunması, o cümlədən digər əsas sənədlər imzalanıb. [2, s. 3]

Türkiyənin ən nüfuzlu televiziya kanallarından olan "Nərgiz TV"-nin apardığı sorğuya görə, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev planetimizin siyasi xadimləri arasında

birinci yeri tutaraq “Dünyada ilin adamı” fəxri adını qazandı. Dövlətimizin başçısı 1997-ci ilin yekununda ən çox – 59 min 413 səs toplayaraq qalib gəldi və bu yüksək ada layiq görüldü. Böyük Britaniyanın Baş naziri Toni Bleyer ikinci, Şahzadə Diana isə üçüncü yeri tutdular. Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyədə “1997-ci ilin insan haqları” və “İlin dövlət adamı” mükafatlarına layiq görüldü. Bu mükafatların Heydər Əliyevə verilməsi yekdilliklə qərara alındı. O, dünyanın ən təcrübəli və görkəmli siyasətçilərindən biri kimi, ölkəsində demokratiyanın və insan haqlarının inkişafı, Azərbaycanın torpaq bütövlüyünün qorunması və müstəqilliyinin möhkəmləndirilməsi yolunda əldə etdiyi tarixi nailiyyətlərə görə bu yüksək mükafata layiq görüldü. [6, s. 28]

Belə irimiqyaslı layihələrin həyata keçirilməsinin əsasını Azərbaycan və Türkiyə arasında qarşılıqlı etimad, dostluq, qardaşlıq münasibətləri təşkil edir. Bu təşəbbüslər Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əsas rol oynayır. Yaxın gələcəkdə Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tikintisinin başa çatdırılması və istifadəyə verilməsi tarixi İpək yolunun canlanmasına və regionun böyük nəqliyyat qovşağına çevrilməsinə zəmin yaradacaq. Bu strateji əhəmiyyətli layihə regionun inkişafına təkan verməklə yanaşı, iki ölkə arasında mövcud logistik maneələri də aradan qaldıracaq. [3, s. 7]

2000-ci il aprelin 5-də Azərbaycan Prezidenti Heydər Əliyev Türkiyə Silahlı Qüvvələrinin Təlim və Doktrina üzrə Ali Baş Komandanı, general-polkovnik H.Baha Tüzünerin başçılıq etdiyi nümayəndə heyətini qəbul edərkən Azərbaycan ilə Türkiyə arasında müdafiə sahəsində, xüsusilə müdafiə nazirlikləri səviyyəsində möhkəm dostluq və tərəfdaşlıq əlaqələrinin qurulduğunu qeyd etdi. O, bu əməkdaşlığın qarşılıqlı faydalı olmaqla gənc müstəqil dövlət kimi Azərbaycan üçün öz institutlarının qurulması, o cümlədən Milli Ordunun formalaşdırılması prosesində xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

8 aprel 2000-ci il – Türkiyə Prezidenti Süleyman Dəmirəl türkdilli ölkələrin dövlət başçılarının VI zirvə görüşündə və “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinə həsr olunmuş yubiley təntənəsində iştirak etmək üçün Bakıya gəldi. Həmin gün zirvə görüşü keçirildi. Qeyd edək ki, ilk dəfə 1992-ci ilin oktyabrında Ankarada təşkil olunan bu zirvə görüşü ötən illər ərzində gözəl ənənəyə çevrilmişdir. Bu görüşlər qardaş xalqlar arasında dostluğun və sıx əməkdaşlığın möhkəmlənməsinə, inkişafına xidmət edir. Zirvə görüşündə çıxış edən Türkiyə Prezidenti Süleyman Dəmirəl bildirdi: *“Türk dünyasının və onun müstəqil, suveren üzvləri olan qardaş ölkələrin gələcəyi parlaqdır. XXI əsr ortaq səylərimizlə mütləq türk dünyasının əsri olacaqdır. Aramızdakı dostluq, qardaşlıq və həmrəylik münasibətləri Avrasiyada və bütün dünyada sülh, əmin-amanlıq və rifaha xidmət edəcəkdir.”*

Türkiyə Prezidenti Süleyman Dəmirələ "Azərbaycan Respublikasının fəxri vətəndaşı" adı verildi. “Kitabi-Dədə Qorqud” dastanının 1300 illiyinə həsr olunmuş təntənəli mərasimdə çıxış edən Süleyman Dəmirəl qeyd etdi ki, *“Dədə Qorqud" dastanlarında bu gün yaşayan və sabah da yaşayacaq dəyərlər bütün insanlar üçün səadət çağırışlarıdır. Bunlar insanı insan edən, ona üstün keyfiyyətlər bəxş edən dəyərlərdir. Bu dəyərlər nəsillərdən-nəsillərə ötürülürsə, deməк, cəmiyyət yaşayır, öz varlığını qoruyur.”* [6, s. 34]

28 oktyabr 1992-ci ildə Azərbaycan Prezidenti Əbülfəz Elçibəy Türkiyə Respublikasının yaradılmasının 69-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə və türkdilli dövlətlərin başçılarının toplantısında iştirak etmək üçün Türkiyəyə rəsmi səfərə yola düşdü. [1, s. 7] Azərbaycan və Mərkəzi Asiyanın türk dövlətləri 1991-ci ildə bir-birinin müstəqilliyini tanımış, 1992-ci ildən isə diplomatik münasibətlər qurmuşdular. Lakin qarşılıqlı əlaqələrin intensiv inkişafı yalnız 1990-cı illərin ortalarından başlamışdır. Bu, təsadüfi deyildi. Bunun bir tərəfdən səbəbi yenicə müstəqillik qazanan dövlətlərin xarici siyasət fəaliyyətində yol verdikləri subyektiv səhvlər idisə, digər tərəfdən onlara qarşı edilən təzyiqlərlə bağlı idi. Müstəqilliklərinin ilk illərində türk dövlətlərinin hər hansı formada yaxınlaşmaq və əməkdaşlıq etmək cəhdləri bəzi dairələr tərəfindən pantürkizm, turançılıq və türk millətçiliyi kimi qələmə verilirdi. Bu ittihamlar həmin dövlətlər

arasında əlaqələrin inkişafına mane olur və onları bölgədə marağı olan digər dünya güclərinin, xüsusilə Rusiya və İranın mövqeyindən asılı vəziyyətə salırdı. Lakin bütün bu çətinliklərə və təzyiqlərə baxmayaraq türk dövlətləri arasında əlaqələrin qurulması və inkişaf etdirilməsi onların xarici siyasətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirildi. Bəzən bu səylər uğursuzluqla nəticələnsə də, əlaqələri möhkəmləndirmək istiqamətində ardıcıl addımlar atıldı. Türk dövlətləri arasındakı münasibətlər beynəlxalq hüquq normalarına uyğun şəkildə və qarşılıqlı faydalı əməkdaşlıq prinsipi əsasında qurulmuşdur. Bu əlaqələr heç bir üçüncü dövlətə qarşı yönəlmədiyi kimi, digər dövlətlərlə əməkdaşlığı da istisna etmir. [5, s. 79]

Qloballaşmanın dərinləşdiyi şəraitdə regional əməkdaşlığın gücləndirilməsi, qarşılıqlı fayda və strateji tərəfdaşlıq prinsipləri əsasında yeni siyasi və iqtisadi əlaqələrin formalaşdırılması ən rasional və davamlı inkişaf yollarından birini təşkil edir. Bu modelin uğurla həyata keçirilməsinin bariz nümunəsi Azərbaycan və Türkiyə arasında ikitərəfli münasibətlərin mütərəqqi inkişafıdır. 2011-ci ilin noyabr ayının statistikasına əsasən, iki ölkə arasında ticarət dövriyyəsinin ümumi həcmi 1,4 milyard ABŞ dolları təşkil edib. Həmin dövrdə türk biznesinin Azərbaycan iqtisadiyyatına yatırdığı investisiyaların həcmi 2 milyard dolları ötüb. Eyni zamanda, Azərbaycan şirkətləri, xüsusilə də Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) Türkiyə iqtisadiyyatının müxtəlif sektorlarına irimiqyaslı investisiyalar qoyur, öz iştirakını fəal şəkildə genişləndirir. SOCAR-ın Türkiyə iqtisadiyyatına yatırdığı ümumi investisiyanın həcmi təxminən 5 milyard ABŞ dolları həcmində qiymətləndirilir.

Dünya və regional siyasətdə Türkiyə xüsusi rol oynayır. Bunu aşağıdakı amillər şərtləndirir:

- Asiya və Avropa arasında strateji cəhətdən əhəmiyyətli mövqedə yerləşir;
- İqtisadi cəhətdən inkişaf edib və güclü ordusu vardır;
- Asiya və Afrika arasında əhəmiyyətli yollar və boğazlara nəzarət edir və bununla da bir çox ölkələrin iqtisadiyyatına təsir etmək imkanı vardır; [7, s. 121]
- NATO-nun və bir çox başqa nüfuzlu təşkilatların üzvüdür;
- Özünü nəinki Asiya, həm də Avropa ölkəsi hesab edir;
- Xüsusi siyasətə və Avropada bir çox məsələlər üzrə şəxsi mövqeyə malikdir;
- Özünü regionda sülh və təhlükəsizliyə cavabdeh sayır;
- Terrorizmə qarşı mübarizə aparır;
- Azlıq təşkil edən dünyəvi və demokratik müsəlman ölkələrindən biridir.

Ancaq 90-cı illərin əvvəllərində Türkiyənin dünya siyasətində mövqeyi dəyişdi. İkinci Dünya müharibəsinin axırından Soyuq müharibənin sonuna qədər Türkiyə SSRİ-nin qarşısının alınmasında Amerika siyasətinin əsas vasitəsi olmuşdur. Ancaq sosializm sistemi dağılandan sonra onun əhəmiyyəti Qərb üçün nisbətən azaldı.

Bəs bugünkü Türkiyənin Qərb üçün rolu nədədir?

- O, Qara dəniz regionunu sabitləşdirir;
- Qara dənizdən Aralıq dənizinə olan girişə nəzarət edir; [7, s.122]
- Rusiyanı Qafqazda tarazlaşdırır;
- Müsəlman fundamentalizminə qarşı vasitədir;
- NATO-nun cənub lövbərini təşkil edir;
- Balkanlarda əsas rol oynayır.

Azərbaycan müstəqil, dünyəvi, unitar dövlətdir. Təxminən iki əsr ərzində əvvəlcə Rusiya imperiyasının, sonra isə Sovet İttifaqının tərkibinə daxil edilmişdi. O, çoxəsrlik dövlətçilik tarixinə, zəngin mədəniyyətə və inkişaf etmiş təhsil sisteminə malikdir. Hazırda onu keçid sistemli ölkələr qrupuna daxil edirlər. Dünya və regional siyasətdə Azərbaycan aşağıdakı xüsusiyyətlərlə seçilir:

- O, Zaqafqaziyanın hakim dövlətidir;
- Strateji cəhətdən mühüm mövqedə yerləşərək, şərq-qərb yolunda vacib dəhlizdir;

- Əhalisinin əksəriyyətini müsəlmanlar təşkil edən Şimali Qafqaz regionunda güclü təsirə malikdir;
- Xarici siyasəti regional prinsiplərə əsaslanır;
- Güclü və çiçəklənən dövlətə çevrilmək üçün yaxşı şanslara və böyük potensiala malikdir;
- Xəzər dənizində neft yataqlarının böyük hissəsinə nəzarət edir. [7, s. 123]

Amerikalı politoloq Zbiqnev Bjezinski "The Grand Chessboard: American Primacy and its Geostrategic Imperatives" adlı fundamental əsərində Avrasiyanın geosiyasi arxitekturasında Azərbaycanın strateji əhəmiyyətini vurğulayır. Onun sözlərinə görə, məhdud ərazisinə və əhalisinə baxmayaraq Azərbaycan zəngin enerji resurslarına görə mühüm geosiyasi potensiala malikdir. O qeyd edir ki, Azərbaycan Xəzər regionundan və Mərkəzi Asiyadan enerji resurslarının dünya bazarlarına nəqli üçün əsas marşrutların keçdiyi strateji qovşaq rolunu oynayır. Bu kontekstdə vurğulanır ki, Azərbaycanın suverenliyini tamamilə itirməsi və xarici qüvvələrin, xüsusən də Moskvanın nəzarətinə keçməsi Mərkəzi Asiya dövlətlərinin müstəqillik konsepsiyasını şübhə altına ala bilər. Əksinə, alternativ enerji dəhlizləri vasitəsilə Qərb bazarlarına bağlanan müstəqil Azərbaycan inkişaf etmiş ölkələri sabit enerji təchizatını təmin edən, eyni zamanda Mərkəzi Asiya respublikalarının sabitliyini və suverenliyini dəstəkləyən mühüm magistraldır. Qeyd olunanları nəzərə alaraq – Azərbaycan ilə Türkiyə arasında qarşılıqlı hörmətə, strateji tərəfdaşlığa və tarixən formalaşmış əlaqələrə əsaslanan ikitərəfli münasibətlərin inkişafı xüsusi əhəmiyyət kəsb edir. İki ölkə arasında dostluq və mehriban qonşuluq münasibətlərinin möhkəmləndirilməsi onların milli maraqlarına tam uyğundur və daha geniş regional kontekstdə sabitliyin, təhlükəsizliyin və iqtisadi artımın təmin edilməsinə töhfə verir. [7, s. 124]

Nəticə. Azərbaycan və Türkiyə arasındakı mədəni əlaqələr dərin tarixi köklərə söykənir və iki dövlətin ortaq mədəni irsinin qorunması və inkişafı baxımından mühüm rol oynayır. İki qardaş xalqı birləşdirən ən güclü bağlardan biri dil, ədəbiyyat, incəsənət, musiqi və təhsil sahələrindəki sıx əməkdaşlıq olmuşdur. Tarix boyu bu əlaqələr müxtəlif mərhələlərdən keçmiş, lakin heç vaxt tam qırılmamışdır. Xüsusilə, Azərbaycanın müstəqilliyini bərpa etməsindən sonra bu münasibətlər yeni mərhələyə daxil olmuş, daha da genişlənmiş və dərinləşmişdir. Azərbaycan-Türkiyə münasibətləri yalnız mədəni sahə ilə məhdudlaşmır, eyni zamanda siyasi, iqtisadi, hərbi və humanitar əməkdaşlığı da əhatə edir. Türkiyə, Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkə olmaqla yanaşı, onun beynəlxalq arenada mövqeyinin güclənməsi, iqtisadi inkişafı və müdafiə qabiliyyətinin artırılması üçün daim dəstək göstərmişdir. Mədəni əlaqələrin genişlənməsi hər iki xalqın milli kimliyinin qorunmasına və inkişafına töhfə vermişdir. Azərbaycanda fəaliyyət göstərən Türkiyə universitetləri və təhsil proqramları, eləcə də Türkiyədə Azərbaycan mədəniyyət mərkəzlərinin və diaspor təşkilatlarının fəallığı iki xalq arasında qarşılıqlı anlayışı gücləndirmişdir.

Gələcək perspektivdə Azərbaycan və Türkiyə arasındakı elmi və mədəni əməkdaşlığın daha da gücləndirilməsi, ortaq təhsil və araşdırma institutlarının yaradılması, ortaq mədəni irs layihələrinin həyata keçirilməsi planlaşdırılır. Bütün bu faktorlar Azərbaycan və Türkiyə münasibətlərinin təkcə iki ölkə ilə məhdudlaşmadığını, eyni zamanda türk dünyasının ümumi inteqrasiyasına xidmət etdiyini göstərir.

**Ədəbiyyat**

[1]. Askeri Mudahele tartışılyor. / Milliyet, 19.05.1992, –s.7
[2]. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanası, –s.1- 3
[3]. Azərbaycan Respublikası Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi & Azərbaycan-Türkiyə İş Adamları Birliyi, –2011, –s.7
[4]. İsmayılov, İ. Azərbaycan – Türkiyə mədəni əlaqələri. XX əsrdə / –Bakı, –2004, –s.13-84
[5]. Ruintən, S.F. Azərbaycan Türk dövlətləri ilə siyasi əlaqələr sistemində (XX əsrin 90-cı illəri) / S.F.Ruintən, –Bakı: Adiloğlu, –2005, –236 s.
[6]. Sadıqoğlu, A. Azərbaycan-Türkiyə: dostluq və qardaşlıq əlaqələri, –s.6-28-34

[7]. Cahangirli, C.X. Müasir dövrdə Azərbaycan Türkiyə münasibətləri / C.X.Cahangirli –Bakı: Araz, –2006, –214 s.
[8]. Талышинский Э.Б. К истории и текущей практике сотрудничества в треугольнике Россия–Азербайджан–Турция // Современная научная мысль, (4), –2021, –с.169-174. Doi: 10.24412/2308-264X-2021-4-169-174

**Summary**

**Cooperation in the field of culture between Azerbaijan and Turkey in the 90s of the XX century**

***Ismayilov Sh.N.***

***Keywords:*** *Cultural ties, language and literature, education and art, one nation - two states, mutual assistance*

The article is devoted to some aspects of cultural cooperation between Azerbaijan and Turkey in the 1990s. It is noted that after the collapse of the Soviet Union, Azerbaijan regained its independence, and Turkey became one of its closest partners during this period. Cultural ties between the two countries developed in parallel with political and economic relations. Turkey held events to popularize the rich cultural heritage of Azerbaijan in the world, while Azerbaijan pays special attention to the protection of common historical and cultural values with Turkey.

**Резюме**

**Культурное сотрудничество между Азербайджаном и Турцией в 90-е годы XX века**

***Исмаилов Ш.Н.***

***Ключевые слова:*** *культурные связи, язык и литература, образование и искусство, одна нация — два государства, взаимопомощь.*

Статья посвящена некоторым аспектам культурного сотрудничества Азербайджана и Турции в 1990-х годах. Отмечается, что после распада Советского Союза Азербайджан восстановил свою независимость, и Турция стала одним из его ближайших партнеров в этот период. Культурные связи между двумя странами развивались параллельно с политическими и экономическими отношениями. Турция провела мероприятия по популяризации богатого культурного наследия Азербайджана в мире, в то время как Азербайджан уделяет особое внимание защите общих с Турцией исторических и культурных ценностей.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 069(031)** DOI 10.54758/16801245_2025_21_4_63

# From the history of establishment and development of museum studies in Azerbaijan

**Mammadova Samira Isgandar** ORCID

*Sumgayit State University, Sumgayit, Azerabaijan, PhD, ass.prof.*
Samire.mammadova@sdu.edu.az,

**ARTICLE INFO**

***Article history***
*Received: 03.03.2025*
*Received in revised form: 27.04.2025*
*Accepted: 03.07.2025*

***Keywords***
*museum studies, Azerbaijan, Elfira Məlikova-Qurbanova, institutionalization, cultural heritage, museum education.*

**ABSTRACT**

*This study traces the evolution of museum studies in Azerbaijan, highlighting its institutionalization and academic development from late 19th century to present. Drawing upon Elfira Məlikova-Qurbanova's seminal works—especially her two-volume Azərbaycan muzeyşünaslığı, official internet resources are examined the growth of museum science as a discipline, its interdisciplinary links, and its role in cultural preservation. Methodologically, the study employs historical-document analysis and comparative literature review. Findings illustrate a progression from museum practice to structured academic study, especially since the establishment of the Museum Studies department at Azerbaijan State University of Culture and Art (ASUCA). The study of museums as a scientific discipline—known as museum studies or museology—has developed significantly in Azerbaijan over the past century. This paper explores the historical evolution and academic establishment of museum studies in the Azerbaijani context, tracing its roots from early museum practices in the pre-Soviet and Soviet periods to its current institutional and theoretical frameworks. Special emphasis is placed on the scholarly contributions of Elfira Məlikova-Qurbanova, who has played a foundational role in defining the scope, curriculum, and terminology of museum studies in the country.*

## Introduction

Museum studies in Azerbaijan encompass a dynamic history, evolving from pragmatic museum practice in the early 20th century to a comprehensive scholarly discipline (Məlikova-Qurbanova, 2022).

Elfira Məlikova-Qurbanova, a pivotal figure, has documented this evolution extensively. The objective of this paper is to synthesize her contributions with broader trends, revealing how museum studies has matured institutionally and academically within Azerbaijan's socio-cultural context.

## Actuality of the Topic

The study of the creation and development of museums and museum studies in Azerbaijan holds high scholarly and cultural significance. In the contemporary period, as global attention increasingly turns to cultural heritage preservation, identity politics, and post-conflict memory reconstruction, Azerbaijan's museum landscape offers a compelling case for localized museology. Understanding the historical trajectory of Azerbaijani museums is crucial for analyzing how national identity and collective memory are curated and communicated through institutionalized heritage.

The founding of the Istiqlal Museum (Independence Museum) in 1919 during the Azerbaijan Democratic Republic is a landmark moment in the country's cultural and intellectual history. Although the museum was dissolved during the early Soviet period, its reestablishment in 1991, following Azerbaijan's restoration of independence, underscores the enduring symbolic and educational importance of museums in national discourse (Məlikova-Qurbanova, 2022). This cycle of suppression and revival reflects broader regional trends where museums operate as ideological instruments as well as repositories of historical truth.

The development of museum studies—or *muzeyşünaslıq*—as an academic field in Azerbaijan gained institutional footing in the 1990s with the foundation of the Museum Studies Department at the Azerbaijan State University of Culture and Art (ADMİU). Scholar Elfira Məlikova-Qurbanova has written extensively on this transition from museum practice to museological theory. According to her, "Muzeyşünaslıq bu gün təkcə muzey işçilərinin yox, həm də tarixçi, pedaqoq, memar və dizaynerlərin də iştirak etdiyi çoxşaxəli bir elmi istiqamətə çevrilmişdir" ["Museum studies today has become a multifaceted scientific field involving not only museum staff, but also historians, educators, architects, and designers"] (Məlikova-Qurbanova, 2022, Vol. 2, p. 15).

In the context of post-conflict reconstruction, particularly concerning the cultural losses in the Karabakh region, museum studies have taken on additional urgency. As Məlikova-Qurbanova noted in a 2023 interview, rebuilding destroyed museums in liberated territories is "not just about restoring buildings, but restoring memory and identity" (*As Journal*, 2023). This perspective aligns museum studies with broader national goals of reconciliation, education, and tourism development.

Furthermore, Azerbaijan's increasing participation in international museum forums—such as the IX YOCOCU Conference in Istanbul, where Məlikova-Qurbanova presented on museum pedagogy—demonstrates a growing global integration of Azerbaijani museology (YOCOCU, 2024).

In sum, the topic remains acutely relevant due to the convergence of historical awareness, national identity reconstruction, and academic development. The evolving landscape of museums and museum studies in Azerbaijan not only reflects past transformations but also shapes the country's cultural future.

**Literature Review**

Primary sources include Məlikova-Qurbanova's two-volume *Azərbaycan muzeyşünaslığı*, which details the emergence, institutionalization, and integration of museum science into Azerbaijan's academic fabric (Məlikova-Qurbanova, 2022). Her Calaméo publications outline theoretical and practical aspects in museum pedagogy and global museum benchmarks (Məlikova-Qurbanova, *Muzeyşünasların nəzəri və təcrübi bilikləri*; *Dünya muzeyləri*) calameo.com+1calameo.com+1. These are complemented by national-level reports documenting the rise of museum studies programs and international conferences featuring her work, such as the 2024 YOCOCU symposium in Istanbuladmiu.edu.az.

Drawing upon a comprehensive review of literature, including Məlikova-Qurbanova's two-volume monograph *Azərbaycan muzeyşünaslığı* and her works on museum pedagogy and international museum practices, this paper outlines the institutionalization of museum studies within higher education—particularly at the Azerbaijan State University of Culture and Art (ADMİU), where the country's first dedicated department of museum studies was established. The paper also highlights the discipline's interdisciplinary nature, encompassing art history, archaeology, cultural heritage, sociology, and education.

Through historical-document analysis and comparative methodology, the paper examines the development of museum theory, the challenges faced during the Soviet and post-independence eras, and the growing integration of Azerbaijani museum professionals into global academic

networks, as evidenced by participation in international conferences such as YOCOCU. Furthermore, the study underscores the role of museum studies in cultural identity formation and heritage preservation, particularly in post-conflict regions like Karabakh.

This research contributes to a deeper understanding of how Azerbaijan has localized and advanced museological knowledge, transforming museum work from a practical endeavor into a structured and dynamic academic field. It also points toward future directions, including digital museology, heritage tourism, and cross-border collaborations, reflecting the evolving demands of a globalizing cultural sector.

**Methodology**

This is a historical-document analysis augmented by comparative literature. The study systematically reviews primary texts by Məlikova-Qurbanova, governmental and institutional reports, and international conference proceedings. Archival sources trace early museum foundations; her monographs offer structural analysis; conference reports illustrate ongoing scholarly discourse and field practice.

**Main Analysis**

**1. Early Foundations (Late 19th – Early 20th Century)**

The Ottoman and Imperial Russian eras saw sporadic museum activity in Azerbaijan. However, it was only after independence movements that museums began formalizing. The National Museum of Independence, established on December 7, 1919 and revived in 1991, marked a symbolic revival of institutional heritage. Academic interest in "museum studies" (muzeyşünaslıq) emerged in the 1920s–1930s, conceptualizing museums as vessels of cultural memory and civic identity (science.gov.az report, 2024) science.gov.az+1science.gov.az+1.

One of the earliest and most symbolic markers of museological development in Azerbaijan was the establishment of the İstiqlal Museum (Independence Museum) in 1919, during the short-lived Azerbaijan Democratic Republic. Although the museum was closed following Sovietization, it laid an ideological and institutional foundation for national memory through the preservation of cultural artifacts. The museum was reestablished in 1991, reflecting a renewed commitment to heritage preservation in the post-independence period.

**2. Institutionalization and Curriculum Development**

A turning point was the creation of the Museum Studies department at Azerbaijan State University of Culture and Art (formerly ADMİU) ~30 years ago. Elfira Məlikova-Qurbanova led this initiative, publishing her flagship monograph in 2022 on its 30th anniversarycalameo.com+7medeniyyet.az+7ameahemkarlar.az+7. The curriculum began integrating theoretical and empirical knowledge, informed by global museum trends, as outlined in her educational texts.

**3. Discipline as Interdisciplinary Science**

Məlikova-Qurbanova highlights museum studies' interface with history, art criticism, sociology, and conservation science (e.g., her exploration of museum pedagogy at Istanbul conference). She emphasizes themes like collection formation, exhibition structure, preservation, restoration, and museology-as-social-institution.

**4. International Collaboration and Professionalization**

Azerbaijani museum specialists, including Məlikova-Qurbanova, participate in international forums (e.g., YOCOCU IX conference in 2024), presenting on museum pedagogy and restoration, signaling growing professional maturity admiu.edu.az.

**Conclusion**

Museum studies in Azerbaijan have evolved from foundational museum practice to a rigorous, interdisciplinary academic discipline. Elfira Məlikova-Qurbanova's work stands central to this transformation, documenting history, theorizing pedagogy, and integrating international

perspectives. Institutional academic structures established in the past three decades now produce professionals contributing to heritage preservation and museum innovation. Future research should explore digital museology, community involvement, and post-conflict museum restoration—areas presaged in her 2022 interview regarding Karabakh museum revitalization.

## References


[1]. ANAS National Museum event reports: Museum emergence and student seminar details.

[2]. Məlikova-Qurbanova, E. Azərbaycan muzeyşünaslığı [2 cilddə] / ADMİU. –2022 konkret.az+8medeniyyet.az+8admiu.edu.az+8

[3]. Məlikova-Qurbanova, E. Azərbaycan muzeyşünaslığı, [2 cilddə] / ADMİU. –2022 c.1–2. science.gov.az+11medeniyyet.az+11ameahemkarlar.az+11.

[4]. Malikova-Gurbanova, E. Interview in As Journal on post-war museum reconstruction. –2023

[5]. Məlikova-Qurbanova, E. Muzey işinin öyrənilməsində muzeyşünaslığın rolu. / IX YOCOCU International Conference, –Istanbul. –2024

[6]. Məlikova-Qurbanova, E. (n.d.). Muzeyşünasların nəzəri və təcrübi bilikləri [Calaméo publication]. millikitabxana.az+9calameo.com+9ameahemkarlar.az+9

[7]. Məlikova-Qurbanova, E. (n.d.). Dünya muzeyləri [Calaméo publication]. calameo.com+1as-journal.edu.az+1

[8]. Məlikova-Qurbanova, E. Muzey işinin öyrənilməsində muzeyşünaslığın mühüm rolu // Presented at IX YOCOCU International Conference, –Istanbul, –2024, October 25 millikitabxana.az+2admiu.edu.az+2az.baku-art.com+2

[9]. Interview with Elfira Məlikova-Qurbanova on Karabakh museum restoration: As Journal. science.gov.az+9as-journal.edu.az+9az.baku-art.com+9



**Xülasə**

**Azərbaycanda muzeyşünaslığın yaranması və inkişafı**

***Məmmədova S.İ.***

***Açar sözlər:*** *muzeyşünaslıq, Azərbaycan, Elfira Məlikova-Qurbanova, institusionallaşma, mədəni irs, muzey təhsili.*

Bu tədqiqat Azərbaycanda muzeyşünaslığın inkişafını izləyir, onun XIX əsrin sonlarından başlayaraq bu günədək institusionallaşması və elmi sahə kimi formalaşmasını ön plana çəkir. Xüsusilə Elfira Məlikova-Qurbanovanın iki cildlik "Azərbaycan muzeyşünaslığı" adlı fundamental əsərinə əsaslanaraq, eləcə də rəsmi internet materiallarına və muzeyşünaslığın elmi fənn kimi təşəkkülü, onun fənlərarası əlaqələri və mədəni irsin qorunmasındakı rolu araşdırılır. Metodoloji baxımdan tədqiqat tarix-sənəd təhlili və müqayisəli ədəbiyyat icmalına əsaslanır. Nəticələr göstərir ki, Azərbaycanda muzey işi təcrübəsindən akademik sahə kimi strukturlaşmış muzeyşünaslığa keçid baş vermiş, xüsusilə də Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) Muzeyşünaslıq kafedrasının yaradılmasından sonra bu proses intensivləşmişdir. Muzeylərin elmi sahə kimi öyrənilməsi – muzeyşünaslıq kimi tanınan bu sahə – son yüz ildə Azərbaycanda əhəmiyyətli dərəcədə inkişaf etmişdir. Bu məqalədə Azərbaycanda muzeyşünaslığın tarixi inkişafı və akademik şəkildə formalaşması təhlil olunur, onun kökləri Sovet öncəsi və Sovet dövrü muzey təcrübələrinə gedib çıxır. Eyni zamanda, bu sahənin mövcud institusional və nəzəri əsasları araşdırılır. Xüsusi diqqət Elfira Məlikova-Qurbanovanın elmi fəaliyyətinə yönəldilir. O, Azərbaycanda muzeyşünaslığın məzmununun, terminologiyasının və tədris proqramının formalaşmasında aparıcı rol oynamışdır.



**Резюме**

**Формирование и развитие музееведения в Азербайджане**

***Мамедова С.И.***

***Ключевые слова****: музееведение, Азербайджан, Эльфира Меликова-Курбанова, институционализация, культурное наследие, музейное образование.*

Данное исследование академически прослеживает развитие музееведения в Азербайджане, акцентируя внимание на его институционализации и академической эволюции с конца XIX века до наших дней. На основе

источников официалных сайтов, а также фундаментальных трудов Эльфиры Меликовой-Курбановой – в частности, её двухтомного издания *Azərbaycan muzeyşünaslığı* – анализируется становление музейной науки как самостоятельной дисциплины, её междисциплинарные связи и значение в деле сохранения культурного наследия. Методологически исследование опирается на историко-документальный анализ и сравнительное изучение научной литературы. Результаты демонстрируют поступательное движение от практики музейного дела к его систематическому академическому осмыслению, особенно после создания кафедры музееведения в Азербайджанском государственном университете культуры и искусств (АДУКИ). Научное изучение музеев как отдельной дисциплины – музееведение – получило значительное развитие в Азербайджане на протяжении последнего столетия. В статье раскрывается историческая динамика формирования и академического утверждения музееведения в азербайджанском контексте: от первых музейных инициатив в дореволюционный и советский периоды до современного институционального и теоретического оформления дисциплины. Особое внимание уделено вкладу Эльфиры Меликовой-Курбановой, чья научная и педагогическая деятельность сыграла определяющую роль в формировании концептуальных основ, учебных программ и терминологического аппарата азербайджанского музееведения.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT-94 (479.24)** DOI 10.54758/16801245_2025_21_4_68

# Azərbaycanda neft istehsalının tarixindən: müstəmləkədən müstəqilliyə doğru

**Hacıyeva Məhbubə Camal qızı** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, t.f.d.*
*haciyeva.mahbuba@sdu.edu.az*

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 10.07.2024*
*Düzəliş tarixi: 23.12.2024*
*Qəbulolunma tarixi: 03.03.2025*

***Açar sözlər***
*Çar Rusiyası, neft sənayesi, Nobel qardaşları, Rotşildlər, sovetlər, milli müstəqillik, əsrin müqaviləsi*

**XÜLASƏ**

*Məqalədə XIX əsrin ikinci yarısından etibarən Azərbaycan neft sənayesinin formalaşması və inkişafı araşdırılır. Tədqiqatda sənayenin təşəkkülündə xarici kapitalın, xüsusilə Nobel və Rotşild ailələrinin oynadığı həlledici rol faktlara əsaslanaraq təhlil olunur. Rusiya imperiyası və Sovet dövrlərində tətbiq edilən neft siyasəti, sənayenin dövlət nəzarətinə alınması və neft hasilatının mərkəzləşdirilmiş iqtisadiyyatın tələblərinə xidmət etməsi məsələlərinin öyrənilməsi araşdırmanın əsas istiqamətlərindən birini təşkil edir. Bununla yanaşı, milli burjuaziyanın meydana çıxması, onların məhdud imkanlara baxmayaraq ölkənin iqtisadi və sosial inkişafına verdikləri töhfələr qiymətləndirilir. Müstəqillik dövründə Azərbaycanın yeni neft strategiyasının formalaşması, "Əsrin müqaviləsi"nin imzalanması və qlobal enerji siyasətində ölkənin mövqeyinin güclənməsi xüsusi olaraq nəzərdən keçirilir. Məqalədə Azərbaycanın neft amilindən istifadə etməklə iqtisadi modernləşməyə nail olunması və insan kapitalının inkişafı məsələsinin prioritet istiqamətə çevirməsi barədə ümumiləşdirilmiş elmi nəticələr təqdim edilir*

*Azərbaycan, Bakı öz nefti ilə dünya şirkətlərini,*
*iş adamlarını XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərindən*
*cəlb etmiş və bir çox xarici şirkətlər burada uğurlu fəaliyyət*
*göstərmiş, neft hasilatını təmin etmişlər.*
***Heydər Əliyev***

Azərbaycan dünyada neft ölkəsi kimi tanınır və neftlə bağlı tarixi qədim dövrlərə gedir. Orta əsrlər dövründə Azərbaycanda olmuş ərəb səyyahları, tarixçiləri - Əhməd Əl-Bəlaruri, Əbu-İshaq Əl-İstəxri, İtaliyalı səyyah Marko Polo, alman diplomatı Adam Oleari, türk səyyahı Evliya Çələbinin əsərlərində Azərbaycan nefti ilə bağlı müxtəlif məlumatlara rast gəlinir. 1828-ci il Türkmənçay müqaviləsi ilə Azərbaycan tamamilə Rusiya imperiyasının müstəmləkəsinə çevrilməzdən əvvəl, Bakı xanlığı artıq Rusiya tərəfindən işğal edilmişdi. Çar hökuməti burada icarə sistemini tətbiq edərək Bakı neftini gəlir mənbəyinə çevirmişdi. İlk dövrlərdə neft quyuları əllə qazıldığına görə əldə edilən neft həcmi az idi. 1846-cı ildə dünyada ilk dəfə Bibiheybətdə quyularda qazma işlərinin mexaniki üsulla aparılması az vaxt sərfinə, quyuların sayının və neftin həcminin çoxalmasına səbəb olur [1, s.63].

Quyuların mexaniki üsulla qazılması texnologiyası inkişaf etdikcə yeni neft yataqları aşkar edilir, bu isə neft hasilatının artmasına və neft sənayesinin inkişafına səbəb olurdu. Artıq neft emalı və satışı üzrə yeni şirkətlər yaranmağa başlayır, Bakı şəhəri dünyanın sənaye mərkəzlərindən birinə çevrilir, milli burjuaziya formalaşırdı.

Azərbaycanda kapitalist münasibətlərinin yaranması və inkişafı XIX əsrin II yarısından sonrakı dövrə təsadüf edir. Bu dövrdə Rusiya ilə Osmanlı arasında baş vermiş Krım müharibəsi və

müharibənin Rusiya üçün məğlubiyyətlə nəticələnməsi dövlət dairələrində islahatların keçirilməsinin nə qədər vacib olduğunu bir daha sübut etdi. 1861-ci ildə Rusiyada təhkimçiliyin ləğv edilməsi, eyni zamanda digər ərazilərdə də yeniliklərin həyata keçirilməsi müstəmləkə ərazilərinə də öz təsirini göstərdi. Əgər Rusiya imperiyası hərtərəfli inkişaf etmək istəyirdisə mütləq ucqarlarda da islahatlar keçirilməli idi. Bu islahatlar Azərbaycandan da yan keçmədi. Düzdür yeniliklər Azərbaycanda bir az gec 1870-ci ildə tətbiq edilməyə başlandı. Təbii ki, bu proses öz müsbət nəticələrini verməyə bilməzdi. Qara qızılla zəngin olan Bakı xarici kapitalı özünə cəzb edirdi.

Nobel qardaşlarının Bakıya gəlişi də bu dövrə təsadüf edir. Əvvəlcə silah qundağı üçün qoz ağacı axtarışına gələn qardaşlardan Robertin bu səfəri hədər getmədi, çünki o, burada daha gəlirli bir sahə - neft sənayesinə yönəldi. 1872-ci ildə iltizam sisteminin ləğvi Bakını zəngin neft yataqları uğrunda kapitalistlərin rəqabət meydanına çevirdi. Həmin ilin dekabrın 31-də Bakıda ilk neft sahələrinin hərracı keçirildi [2].

Neft sahəsində daha az xərclə çox gəlir əldə etməyə çalışan iltizamçılar yeniliklərə maraq göstərmirdilər. Lakin Nobel qardaşlarının bu sahəyə yönəlməsi ilə yeniliklərin tətbiqi çox gözlənilmədi. Belə ki, neftin arabalarla daşınmasının baha başa gəldiyini görən Robert Nobel Amerika təcrübəsindən faydalanaraq neftin boru kəmərləri vasitəsilə daşınmasını təklif etdi. O, saray müşaviri knyaz Bebutova 1873-cü il dekabrın 7-də verdiyi etibarnaməsində yazırdı: “Neft mədənlərindən Bakıya neft çəkilməsi üçün hökümətə birbaşa müraciət edə bilmədiyimizə görə xahiş edirik bu məsələni hökümət qarşısında qaldırasınız” [3, s.120]. Bu fikir o zaman üçün qəbul edilmədi. Nəticədə, neftin çəlləklərlə daşınması sənayeçiləri həm çəllək istehsalçılarından, həm də arabaçılardan asılı vəziyyətə salırdı ki, bu da istehsalçıların fəaliyyətinə mane olurdu. Daha sonra Lüdviq Nobel neft sənayeçilərinə təklif edir ki, mədənləri və zavobları dəniz limanları ilə birləşdirən birgə boru kəməri inşa edilsin. Neft sənayeçiləri bu təklifi qəbul edib dəstəkləyir. Buna görə də L.Nobel 1878-ci ildə öz vəsaiti hesabına ayrıca neft kəməri çəkdirdi [4, s.12]. Digər sahibkarlar da daha sonra bu üsuldan nümunə götürmüşdülər.

Dövrün yeniliklərindən yararlanan Nobel qardaşlarının sifarişi ilə 1877-ci ildə İsveçdə “Zərdüşt” adlı ilk neftdaşıyan gəmi inşa edilmişdi. Onlar neft istehsalı şirkəti təsis edərək artıq Rusiya daxili bazarlarına nüfuz etmiş və orada aparıcı mövqeyə sahib olmuşdular. 1917-ci ilə qədər Nobel konserninin birbaşa tərkibinə daxil olan firmaların əsas kapitalı 130 milyon rubldan artıq idi; OYL trestinin nəzarətindəki müəssisələrlə birlikdə isə bu məbləğ 215,6 milyon rubla çatmışdı [5, s.95].

Nobel qardaşlarının Azərbaycana gəlişindən az müddət sonra Alfons De Rotşildi təmsil edən Fransız bank kapitalı da Bakıda məskunlaşdı. Düzdür, Rotşildlər əsasən bank işi ilə məşğul idilər, lakin ailənin Paris qolu neft sənayəsi ilə bağlı idi. Gəldikdən qısa müddət sonra Bakıdan Avropaya neft və neft məhsulları daşıyan Batumi dəmir yolunun tikintisi tamamlandı. Bununla da Batumi vacib liman şəhərinə çevrildi. Bakıda mailiyyə-kredit əməliyyatları, həm də neftin satışı ilə məşğul olan Roltşildlər Qara şəhərdə ən iri neft emalı zavodu tikmişdilər. 1893-cü ildə Fransa neft kapitalının Bakı neft sənayəsində iştirak payı təxminən 10 milyon rus rublu məbləğində ifadə olunurdu. 1904-cü ilin məlumatlarına görə Fransa kerosinə olan ehtiyaclarının 71.1 faizini Bakının hesabına ödəmişdir [6, s.17].

Məqalənin başlanğıcında Nobel və Rotşild qardaşlarının neft sənayesindəki fəaliyyəti qeyd olunmuşdur. Lakin əlavə etmək lazımdır ki, 1892-ci ildən 1899-cu ilə qədər Çar hökuməti tərəfindən Bakıda 30-a yaxın xarici neft müəssisəsinin açılmasına icazə verilmişdir [7, s.130]. Bu neft sahəsinə təkcə Nobel və Rotşild kimi iri kapital sahiblərinin deyil, həm də digər beynəlxalq investorların böyük maraq göstərdiyini sübut edir. Bu, Azərbaycanın neft sənayesinin qlobal iqtisadi maraqların kəsişmə nöqtəsinə çevrildiyini və Bakı neftinin artıq beynəlxalq kapital üçün strateji əhəmiyyət daşıdığını göstərirdi. Xarici şirkətlərin ölkəyə daxil olması, həm texnoloji

yeniliklərin gətirilməsinə, həm də yerli bazarda rəqabətin güclənməsinə səbəb olmuşdu. Bu illər Azərbaycan neft sənayesində çoxşaxəli və rəqabətli bir mərhələnin əsası qoyulmuşdur.

Qeyd edilməlidir ki, milli burjuaziya da həmin dövrdə bu sahəyə maraq göstərmişdir. Çoxsaylı maneələrlə üzləşmələrinə baxmayaraq, onlar geri çəkilməmiş və mühüm uğurlar qazanmağa nail olmuşdular. Bu dövrdə Azərbaycan neft sənayəsində H.Z.Tağıyev, M.Nağıyev, M.Muxtarov və digərlərinin fəaliyyətini xüsusi qeyd etməliyik. Düzdür, ilkin mərhələdə milli burjuaziyaya xarici kapitalistlər kimi neft sənayesinin inkişafına eyni səviyyədə qayğı göstərilməmişdilər. Lakin onlar müstəmləkə rejiminin bütün çətinliklərinə sinə gələrək, xalqın sərvətindən əldə etdikləri gəlirin müəyyən hisssini xalqın rifahı naminə xərcləmişdilər. Sovetlər dönəmində həm xarici kapitalistlərin, həm də milli burjuaziyanın fəaliyyəti haqqında qərəzli məlumatlar verilsə də müstəqillik dövründə aparılmış tədqiqatlar daha obyektiv məlumatlar əldə etməyə imkan vermişdir. Buna görədir ki, Ulu öndər Heydər Əliyev 1997 ci il də AMEA-da alimlərlə görüşü zamanı Azərbaycanın XIX xə XX əsrlər tarixinin yenidən tədqiq edilməsinin vacibliyini vurğulamışdı [8, s.369].

Azərbaycanın Rusiya imperiyasının müstəmləkəsi olması, neftdən əldə olunan gəlirlərin bilavasitə Rusiya xəzinəsinə axmasına səbəb olurdu. Bu isə o demək idi ki, neft yataqları hesabına Bakının sərvəti talan olunur, lakin xalq bu sərvətin yalnız çox cüzi bir hissəsinin bəhrəsini görürdü. Bu proses Sovetlər dönəmində də davam etmişdir. Belə ki, bu dönəmdə neftin sahibi olan Azərbaycanı öz sərvəti hesab edən Rusiya bütün təşəbbüsləri əlinə almışdı. 1920-ci ilin mayında neft sənayesi milliləşdirildi, Azərbaycan Neft Komitəsi yaradıldı, komitəyə isə A.Serebrovski rəis təyin edildi. Azərbaycan nefti elə işğalın ilk günlərindəcə Rusiyaya göndərilməyə başladı. Məhəmmədəmin Rəsulzadə yazırdı: “Bakı petrolları ilə şimdiki Bakı deyil, Moskva spekulasion yapıyor” [9, s.109]. İşğaldan sonra Bakı artıq siyasi məsələlərdə olduğu kimi neft məsələsində də tamamilə Sovet Rusiyasının idarəsi altında idi.

Genuya konfransında Azərbaycan İnqilab Komitəsinin sədri, Azərbaycan hökümətinin ilk başçısı N.Nərimanov “Bakı nefti və tərki silah” məsələləri üzrə müzakirə və çıxışlarda iştirak etmiş Hollandiya və İngiltərə neft şirkətlərinin Bakı neftinə sahib çıxmaq təkliflərini qətiyyətlə rədd etmişdir [10, s.31]. Lakin XX əsrin 80-ci illərinin sonlarına yaxın Sovet Rusiyası silah gücünə qurduğu imperiyanı artıq idarə edə bilmədi. Xalqların azadlıq yanğılarını silah gücünə söndürmək mümkün deyildi. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra müstəqilliyin saxlanılması, dövlətimizin inkişaf etməsi üçün vacib şərtlərdən biri iqtisadiyyatın möhkəm dayaqlar üzərinə qurulması idi.

Ölkəmizin müstəqillik qazanıb inkişaf etməsini heç cür qəbul etməyən bəzi qonşu dövlətlər, müxtəlif təzyiq vasitələrindən istifadə edərək siyasi və iqtisadi sabitliyi pozmağa çalışırdılar. Burada artıq çox güclü siyasətə və siyasətçiyə ehtiyac var idi. Azərbaycanla neft sahəsində əməkdaşlıq edəcək dövlətlərə və şirkətlərə etibarlılıq təminatı vacib idi. Bu işin öhdəsindən Ulu öndər Heydər Əliyev ustalıqla gəldi. Apardığı uğurlu xarici siyasət öz bəhrəsini verdi. 1994-cü ilin sentyabr ayının 20-də Bakıda Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın 11 aparıcı neft şirkəti arasında “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü ilə bağlı ”Əsrin müqaviləsi” imzalandı [11, s.3]. Azərbaycan neftinin dünya bazarına çıxarılması üçün Novorossiysk neft kəmərinin Azərbaycan hissəsi bərpa və inkişaf etdirilmiş, Bakı-Supsa boru kəməri inşa edilmişdi. Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri tikilmişdir. Beləliklə, neftdən gələn gəlir artıq iqtisadiyyatın yüksəlməsinə, əhalinin sosial rifah halının yaxşılaşdırılmasına, yoxsulluğun aradan qaldırılmasına, təhsil və səhiyyə sahələrinin inkişafına, infrastrukturun yenilənməsinə yönəldildi.

Azərbaycan bu gün neft kapitalını insan kapitalına çevirmə strategiyasını məqsədyönlü şəkildə həyata keçirir. Lakin qeyri-neft sektorunun inkişafına yönəlmiş islahatlara və iqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan mühüm addımlara baxmayaraq, neft sektoru hələ də ölkə

iqtisadiyyatının onurğa sütunu kimi qalmaqda davam edir. Bu, bir tərəfdən enerji resurslarının ölkəyə gətirdiyi böyük maliyyə gəlirlərindən qaynaqlanırsa, digər tərəfdən həmin vəsaitlərin sosial, təhsil, infrastruktur və texnologiya sahələrinə yönəldilməsi ilə insan kapitalının formalaşmasına xidmət edir. Neftdən əldə olunan gəlirlərin səmərəli idarə olunması nəticəsində Azərbaycan təkcə enerji ixracatçısı deyil, eyni zamanda bilik, bacarıq və peşəkar resurslarla zəngin bir ölkəyə çevrilmək yolundadır.

**Ədəbiyyat**

[1]. Rəhimov, R.R. Neftin beşiyi sayılan Abşeron yarımadasında çalışan mühəndis-geoloqlar (XIX əsrin əvvəllərindən 1920-ci ilədək) // Neft sənayesinin inkişafı tarixindən. –2019, avqust. — UOT 553.982 (479.24). — s.63–67.
[2]. Бакиров, Ф.Д. Влияние иностранных капиталовложений на развитие нефтяной промышленности Азербайджана // Вестник Полоцкого государственного университета. Серия D.
[3]. Bəşirli, N.E. Nobel qardaşları və onların Bakı nefti ilə tanışlığı // Elmi İş, impakt faktorlu beynəlxalq elmi jurnal. — 2021, cild 15, №1. — s.119–123.
[4]. Mehdiyev, Ə. Nobel Mükafatı Fondunun yaranmasında Azərbaycan neftinin rolu / Ə.Mehdiyev, S.Əliyarlı // Geostrategiya. – 2012, №3(09). –s.12–15.
[5]. Алияров, С.С. Нефтяные монополии в Азербайджане в период Первой мировой войны / С.С. Алияров, –Баку: Типография АГУ, –1974. –228 с.
[6]. Bəşirli, N. Rotşiltlərin Azərbaycan neft sənayesinin inkişafında rolu // –Bakı, Tarix, İnsan və Cəmiyyət. –2023, 1(38). –s.13–21.
[7]. Kərimov, N.Ə. Şimali Azərbaycanda Çar Rusiyasının neft siyasəti (XIX–XX əsrin əvvəllərində) / N.Ə.Kərimov, –Bakı: Mürtəcim, –2019. –208 s.
[8]. Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 clddə] / H.Ə.Əliyev, –Bakı: Azərnəşr, –c.8, –2006. –528 s.
[9]. Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti / M.Ə.Rəsulzadə, –İstanbul: İdiot Yayın Evi. –152 s.
[10]. Məmmədli, B. Müstəqil Azərbaycan dövlətinin neft siyasəti və milli inkişaf konsepsiyası // Respublika Elmi Konfransının materialları. –Sumqayıt: SDU, 24–25 sentyabr 2014. – s.31–33.
[11]. Ələddinqızı N. "Əsrin müqaviləsi" – uğurlu gələcəyimizə açılan yol // Səs.-2024, 18 sentyabr, №170. –s.3. Elektron mənbə: https://www.elibrary.az

**Summary**

**From the history of oil production in Azerbaijan: from colonization to independence**

***Hajiyeva M.C.***

***Keywords:*** *Tsarist Russia, oil industry, Nobel brothers, Rothschilds, Soviets, national independence, Contract of the Century*

The article explores the formation and development of the Azerbaijani oil industry beginning from the second half of the 19th century. The study analyzes, on the basis of factual evidence, the decisive role played by foreign capital-particularly the Nobel and Rothschild families-in the establishment of the industry. One of the key directions of the research is the examination of oil policies implemented during the Russian Empire and Soviet periods, including the nationalization of the sector and the subordination of oil production to the requirements of a centralized economy. At the same time, the emergence of the national bourgeoisie and their contributions to the country's economic and social development, despite limited opportunities, are evaluated. Special attention is paid to the formation of Azerbaijan's new oil strategy during the years of independence, the signing of the "Contract of the Century," and the strengthening of the country's position within global energy politics. The article presents generalized scholarly conclusions regarding Azerbaijan's achievement of economic modernization through the effective use of the oil factor and its prioritization of human capital development.

**Резюме**

**Из истории нефтедобычи в Азербайджане: от колониального периода к независимости**

***Гаджиева М.Дж.***

***Ключевые слова:*** *царская Россия, нефтяная промышленность, братья Нобели, Ротшильды, советская власть, национальная независимость, контракт века*

В статье исследуются процессы формирования и развития нефтяной промышленности Азербайджана, начиная со второй половины XIX века. В работе на основе фактического материала анализируется решающая роль иностранного капитала - в особенности семей Нобелей и Ротшильдов - в становлении отрасли. Одним из ключевых направлений исследования является изучение нефтяной политики Российской империи и Советского периода, включая национализацию отрасли и подчинение нефтедобычи требованиям централизованной экономики. Вместе с тем рассматривается становление национальной буржуазии и оценивается её вклад в социально-экономическое развитие страны, несмотря на ограниченные возможности. Особое внимание уделяется формированию новой нефтяной стратегии Азербайджана в годы независимости, подписанию «Контракта века» и укреплению позиций страны в глобальной энергетической политике. В статье представлены обобщённые научные выводы о достижении Азербайджаном экономической модернизации за счёт эффективного использования нефтяного фактора и придания приоритетного значения развитию человеческого капитала.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 327.** DOI 10.54758/16801245_2025_21_4_73

# Cənubi Qafqazın təhlükəsizlik mühitində yeni aktorlar: maraqlar və perspektivlər

**Güləmirli Fatimə Bəhram qızı** ORCID

*Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan, doktorant*
gulamirli@mail.ru

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 10.07.2024*
*Düzəliş tarixi: 23.12.2024*
*Qəbulolunma tarixi: 03.03.2025*

***Açar sözlər***
*regional qüvvə balansı, geosiyasi rəqabət, strateji müttəfiqlik*

**XÜLASƏ**

*Müasir dövrdə Cənubi Qafqaz böyük dövlətlərin geosiyasi rəqabət arenası kimi çıxış edir və regionda yeni oyunçuların maraqlarının reallaşması regionda təhlükəsizlik vəziyyətini daha da çətinləşdirir. Bir tərəfdən Rusiya, İran və Türkiyəni, digər tərəfdən isə Qərbi əhatə edən bölgədə ənənəvi olaraq mövcud olan maraqlar konfiqurasiyası dəyişir. Çin, Hindistan, Pakistan, İsrail və Cənubi Qafqazın həm enerji potensialı, həm də nəqliyyat-logistika imkanları ilə maraqlanan bəzi ərəb ölkələri regional siyasətlərini gücləndiriblər. Məqalədə təhlil edilir maraqları və strategiyasının yeni aktorlardan daxil olan mühit, təhlükəsizlik, Cənubi Qafqaz*

Cənubi Qafqazın təhlükəsizlik mühitini səciyyələndirən əsas amillərdən biri onun geostrateji maraqların toqquşduğu məkanda yerləşməsidir. Region sovet idarəçiliyi bitdikdən sonrakı dövrdə əsas etibarilə Qərbin və Rusiyanın təhlükəsizlik maraqlarının kəsişdiyi bölgə kimi təhlil edilirdi. Müasir dövrdə dünyanın geostrateji rəqabət meydanında güc mərkəzlərinin kəmiyyət və keyfiyyətcə dəyişməsi Cənubi Qafqazın təhlükəsizlik mühitinə də öz təsirini göstərmişdir. Çin, Hindistan, Yaponiya, Səudiyyə Ərəbistanı kimi ölkələr Cənubi Qafqaz regionu və Xəzər hövzəsində öz siyasətlərini aktivləşdirmişdir. Bugün yeni aktorların yanaşması 1990-cı illərin əvvəllərində formalaşmış dünya nizamı çərçivəsində regionda mövqeyini gücləndirməyə çalışan Qərb dünyasının tətbiq etdiyi standartlardan fərqlənir. ABŞ və Avropanın regional startegiyalarında təhlükəsizlik və enerji maraqları ilə yanaşı bölgənin demokratik konsolidasiyası mühüm amil hesab olunurdu. Bu məqam müasir dövrdə Cənubi Qafqazda mövqeyini gücləndirməyə çalışan aktorların siyasətində özünü büruzə vermir. Çin, Hindistan, Yaponiya və Cənubi Qafqazda təsirini artırmağa çalışan digər yeni güclər üçün bölgə əlverişli satış bazarı, enerji mənbəyi və nəqliyyat-lojistik potensial prizmasından əhəmiyyət kəsb edir. Cənubi Qafqaz Çin-Hindistan, Hindistan-Pakistan, ABŞ-Çin rəqabətinin yeni dayaq nöqtələrindən birinə çevrilməkdədir.

Çinin Cənubi Qafqazda geosiyasi rəqabətə qoşulması onun yüksələn iqtisadi gücü, Rusiya ilə birlikdə Qərbi çəkindirmək və alternativ nizam təqdim etmək uğrunda fəaliyyəti ilə bağlıdır. Regionun zəngin enerji resursları Çinin artan iqtisadiyyatı baxımından birbaşa əhəmiyyət kəsb etməsə də, bölgənin tranzit-lojistik imkanları daha çox cəlbediciliyə malikdir [1]. Cənubi Qafqazın da daxil olduğu "Orta Dəhliz"in İran, Əfqanıstan kimi siyasi sabit olmayan ölkələrdən yan keçməsini xüsusilə, diqqətə almaq lazımdır. Rusiyanın Ukraynaya qarşı müharibəyə başlamasından sonra strateji əhəmiyyət qazanan "orta dəhliz" üzrə daşımalar 2022-ci ildə 2021-ci il ilə müqayisədə altı dəfə artmışdır [9]. 2024-cü ilin sentyabrında Çin Gürcüstanla Orta Dəhlizin inkişafına dair Anlaşma memorandumu imzalaması [4], 2024-cü ilin iyulunda Azərbaycanla strateji tərəfdaşlığın yaradılması bu istəqamətdə atılan mühüm addımdır.

Hindistanın region ölkələri ilə münasibətləri Pakistanla geosiyasi rəqabət fonunda inkişaf edir. Hindistanın Cənubi Qafqaz siyasətində Ermənistan mərkəzçi yanaşma nümayiş etdirir ki, buna təsir edən bier sıra amillər mövcuddur. Bunlardan birincisi, Pakistan və Azərbaycanın Qarabağ və Kəşmir münaqişələrində bir-birilərini dəstəkləməsidir. İkincisi, Pakistanın Cənubi Qafqazda Azərbaycanla formalaşdırdığı strateji müttəfiqliyi Türkiyəni də əhatə etməkdədir. 2021-ci ildə ikinci Qarabağ müharibəsindən sonra Azərbaycan hökuməti və xalqı ilə həmrəyliyi bəyan edən üçtərəfli İslamabad Bəyannaməsi imzalanmışdır [2]. Hindistan-Ermənistan oxuna da qoşulmağa meylli olan dövlətlər mövcuddur. Yunanıstanın xarici işlər nazirinin Ermənistan-Yunanıstan-Fransa-Hindistan dördtərəfli əməkdaşlıq platforması təklif etməsi bu tendensiyaya nümunədir [5].

Yeni geosiyasi reallıqların formalaşmasına baxmayaraq, regional güc konfiqurasiyasının sabit göstəricilərindən biri Ermənistanın öz əsassız iddialarını həyata keçirmək üçün xarici güclərə arxalanmasıdır [5]. Artıq Ermənistanın silah idxal etdiyi top tərəfdaş ölkə Rusiya yox, Hindistandır. Eyni zamanda Hindistan silahlarının xaricdə ən böyük alıcısı məhz Ermənistandır [3]. Ermənistan indi Hindistanın 155 mm-lik artilleriya silahları, Pinaka çoxtutmalı raket sistemləri və Akaş hava hücumundan müdafiə raket sistemləri kimi hazır silah sistemləri üçün ən böyük müştəridir [8]. Ermənistan Hindistanın istehsal etdiyi 25 km yaxalama məsafəsinə malik "Akaş" hava hücumundan müdafiə raketlərinin ilk xarici müştərisi olub [6]. Hindistanın Ermənistana 150-500 kilometr mənzilli, müxtəlif növ döyüş başlıqları daşıya bilən orta mənzilli "Pralay" ballistik raketlərinin ixracını plaşdırması regional hərbi təhlükəsizliyi daha da həssas edəcək. Qeyd edək ki, bu raketlər Rusiya istehsalı "İskəndər-M" raket sistemi ilə müqayisə oluna bilər [5].

Rusiyanın Ukrayna müharibəsinə bağlı olaraq Cənubi Qafqazdan nisbətən uzaqlaşması fonunda Azərbaycan da öz silahlı qüvvələrininin modernləşdirilməsi və silah mənbələrinin diversifikasiyasını həyata keçirir. 2024-cü ilin fevralında Azərbaycanla Pakistan arasında JF-17 Blok III təyyarələrinin alınması haqqında 1,6 milyard dollarlıq razılaşma əldə olunmuşdur. Bu təyyarələrin Azərbaycan Hərbi Hava Qüvvələrinin tərkibində fəaliyyət göstərən Rusiya istehsalı olan MİQ-29 qırıcılarını əvəz etməsi planlaşdırılır [5]. Pakistan və Hindistanın regionda hərbi təsir vasitələrini balanslaşdırma siyasəti region dövlətlərinin milli təhlükəsizlikləri baxımından zərurət olsa da, qarşılıqlı formada artmaqda olan silah ticarəti regionun həddindən artıq hərbiləşməsi ilə nəticələnə bilər.

Cənubi Qafqaz bölgəsində geosiyasi rəqabətdə mövqelərini aktivləşdirən dövlətlərin biri İsraildir. Onun Cənubi Qafqazda dayaq nöqtələrini yaradılması siyasətinin vacib səbəbləri var. Birinicisi, tarixi amillərlə yanaşı Azərbaycanın İsraillə əməkdaşlığını inkişafının əsasında hər iki dövlətin İranı milli təhlükəsizliklərinə təhdid kimi nəzərdən keçirməsi dayanır. İkincisi, İsrailin Türkiyə ilə olan mürəkkəb və ziddiyyətli münasibətlərinin prizmasından baxdıqda Cənubi Qafqazda özünün daimi dayaq nöqtəsini yaratmaq bu ölkə üçün vacibdir. Cənubi Qafqaz dövlətlərindən Azərbaycan İsrailin enerji təhlükəsizliyinin təminatında vacib halqadır. Türkiyənin 2023-cü ilin martında Kərkük-Ceyhan boru kəməri ilə neft axınını dayandırmaq qərarından sonra Azərbaycan və Qazaxıstan İsrailin neftə olan tələbatının yarıdan çoxunu ödəyib [7]. Azərbaycan üçün İsraillin hərbi-siyasi dəstəyi Qarabağ münaqişəsinin həlli fonunda olduqca mühüm əhəmiyyət kəsb etdiyi kimi bu əməkdaşlıq Azərbaycanın xarici siyasətinin balanslaşdırması üçün çağırış yaradır. Azərbaycanın İsrail dövləti ilə yaxınlaşması İran-Ermənistan cəbhəsində münasibətlərin dərinləşməsini tətikləyir. Digər tərəfdən İsraillə əlaqələri gücləndirməklə paralel olaraq, Azərbaycan aparıcı müsəlman ölkələri, o cümlədən Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri ilə strateji tərəfdaşlıq əlaqələri inkişaf etdirməkdədir [7].

Ümumilikdə, Cənubi Qafqaz regionunda geosiyasi rəqabətə yeni aktorların qoşulması bir neçə məqama görə diqqət çəkir. Bölgənin təhlükəsizlik mühitində əsas rol oynayan ənənəvi iştirakçıların otuz ilə yaxın bir müddətdə regional tendensiyalara dominantlığını zəiflətdi. Cənubi Qafqazda "günəş altında" öz təsir dairəsini yaratmaq uğrunda yeni güclərin mübarizəsi regionda durğunluğun aradan qaldırılması və dalana dirənmiş problemlərinin həlli üçün yeni stimul yaradır.

## Ədəbiyyat

[1]. Axundov, R. Beynəlxalq və regional aktyorların Cənubi Qafqazda təhlükəsizliyə təsiri // Bakı: Qərbi Kaspi Universiteti, Elmi Xəbərlər (Humanitar elmlər seriyası), –2023, № 2.
[2]. Fazl-e-Haider S. India, Pakistan, and the South Caucasus Arms Race // https://www.cacianalyst.org/publications/analytical-articles/item/13835-india-pakistan-and-the-south-caucasus-arms-race.html
[3]. Fazl-e-Haider S. Pakistan Strengthens Azerbaijan's Military Muscle // Eurasia Daily Monitor Vol.21, Iss.154 // https://jamestown.org/program/pakistan-strengthens-azerbaijans-military-muscle/
[4]. Georgia and China Sign MoU to Develop Middle Corridor Trade Route// https://caucasuswatch.de/en/news/georgia-and-china-sign-mou-to-develop-middle-corridor-trade-route.html
[5]. Huseynov V. and Abbassoy A. Extra-Regional Actors in the South Caucasus: Armenia–India Alignment in the Spotlight. Caucasus strategic perspectives. Vol.5, Iss.2, Winter 2024// https://cspjournal.az/uploads/files/7)%20Vasif%20Huseynov%20and%20Aynur%20Abbassoy.pdf
[6]. Pandit R.US, France and Armenia top three buyers of İndian Defense Exports.// https://timesofindia.indiatimes.com/india/us-france-armenia-top-three-buyers-of-indian-defence-exports/articleshow/114666748.cms
[7]. Shahbazov F. How the Hamas-Israel war impacts the South Caucasus // https://amwaj.media/article/how-the-hamas-israel-war-impacts-the-south-caucasus
[8]. The Evolving India-Armenia Defense Partnership: Analyzing India's Strategic Shift as a Security Partner in the Caucasus // https://thegeopolitics.com/the-evolving-india-armenia-defense-partnership-analyzing-indias-strategic-shift-as-a-security-partner-in-the-caucasus/
[9]. Why the Middle Corridor is a geopolitical game-changer // https://www.youtube.com/watch?v=mstolgDkzkQ

**Summary**

**New actors in the South Caucasus security environment: interests and perspectives**

***Gulamirli F.B.***

***Keywords:*** *regional balance of power, geopolitical competition, strategic alliance*

The South Caucasus acts as a geopolitical competition plane of great powers in the modern era, and the realization of new actors' interests in the region further complicates the security environment of the region. The configuration of interests that traditionally existed in the region, including Russia, Iran, Turkey on the one hand, and the West on the other, is changing. China, India, Pakistan, Israel, and some Arab countries, which are interested in both the energy potential and transport and logistics opportunities of the South Caucasus, have activated their regional policies. The article analyzes the interests and strategies of the actors that have recently entered the security environment of the South Caucasus.

**Резюме**

**Новые акторы в области безопасности на Южном Кавказе: интересы и перспективы**

***Гюльамирли Ф.И.***

***Ключевые слова:*** *региональный баланс сил, геополитическая конкуренция, стратегический альянс*

В современную эпоху Южный Кавказ выступает в качестве арены геополитической конкуренции великих держав, а реализация интересов новых игроков в регионе еще больше усложняет обстановку безопасности в регионе. Традиционно существовавшая в регионе конфигурация интересов, включавшая с одной стороны Россию, Иран и Турцию, а с другой – Запад, меняется. Китай, Индия, Пакистан, Израиль и некоторые арабские страны, заинтересованные как в энергетическом потенциале, так и в транспортно-логистических возможностях Южного Кавказа, активизировали свою региональную политику. В статье анализируются интересы и стратегии новых акторов, входящих в среду безопасности Южного Кавказа.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 331.** DOI 10.54758/16801245_2025_21_4_76

# Müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində iqtisadi təhlilin rolu

**Cəmilzadə Şəhla Vəkil qızı** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, i.f.d., baş müəllim*
Shahla.Camilzade@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 10.02.2025*
*Düzəliş tarixi: 03.03.2025*
*Qəbulolunma tarixi: 28.04.2025*

***Açar sözlər***
*iqtisadi təhlükəsizlik, müəssisə, səmərəlilik, iqtisadi təhlil, iqtisadi göstəricilər*

**XÜLASƏ**

*Məqalədə müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində iqtisadi təhlilin rolu nəzərdən keçirilir. Burada müəssisənin iqtisadi təhlil fəaliyyətinin mahiyyəti, onun əsas istiqamətləri və iqtisadi təhlükəsizlik nöqteyi-nəzərdən iqtisadi təhlil fəaliyyətinin təkmilləşdirilməsi məsələləri araşdırılır. Bazar iqtisadiyyatı şəraitində müəssisələrin strateji məqsədi mənfəətin artırılmasıdır ki, bu da təsərrüfat fəaliyyətinin idarə edilməsinin təkmilləşdirilməsini tələb edir. Məqalədə iqtisadi təhlilin obyektiv məlumatların təmin edilməsində və idarəetmə qərarlarının qəbulunda əhəmiyyəti vurğulanır. Təhlil metodologiyasının və müasir yanaşmaların əhəmiyyəti xüsusi olaraq qeyd edilir. Həmçinin, SWOT, strateji və risk təhlil metodlarının təsərrüfat fəaliyyətində tətbiqi məsələləri də müzakirə olunur*

Normal beynəlxalq iqtisadi münasibətlər və daxili iqtisadi sabitlik şəraitində ayrı-ayrı müəssisələrin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin ən mühüm istiqamətlərindən biri iqtisadi təhlil fəaliyyətinin təkmilləşdirilməsi və onun səmərəliliyinin artırılmasıdır. Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən hər bir bazar subyektinin əsas strateji məqsədi insan tələbatlarını ödəyə biləcək maddi nemətlərin istehsalı hesabına mənfəətin maksimallaşdırılmasına nail olmaqdır. Bu məqsədin realladırılması üçün onun miqyasından asılı olmayaraq təsərrüfat fəaliyyətinin idarə edilməsini təkmilləşdirmək və hər bir müəssisənin iqtisadi vəziyyətinin optimallaşdırması tələb olunur. Müəssisənin təsərrüfat fəaliyyəti bir-biri ilə sıx əlaqəli olan müxtəlif iqtisadi prosesləri əhatə edir. Məsələn, müəssisənin maliyyə resurslarının hərəkəti onun istehsal fəaliyyətinin nəticələrini əks etdirməklə yanaşı, onun investisiya imkanlarını da müəyyən edir. Bu zaman maliyyə resurslarının mövcudluğu və onların səmərəli hərəkəti müəssisənin idarəetmə və təsərrüfat fəaliyyətinin səmərəlilik göstəricisi kimi qiymətləndirilə bilər. Müəssisədə təsərrüfat fəaliyyətinin idarə edilməsinin təkmilləşdirilməsi bir sıra amillərdən asılıdır. Bu amillərdən biri müəssisənin təsərrüfat fəaliyyətinin təhlilidir. İqtisadi təhlil fəaliyyəti müəssisənin əsas fəaliyyət növlərindən biridir [1]. İqtisadi təhlil fəaliyyətinin əsas məqsədi müəssisənin iqtisadi fəaliyyətinin yaxşılaşdırılmasına yönəldilmiş idarəetmə qərarlarının qəbul edilməsi üçün zəruri məlumatların hazırlanmasıdır. Qəbul edilən idarəetmə qərarlarının səmərəlilik səviyyəsi, ilk növbədə iqtisadi təhlil nəticəsində əldə edilən məlumatların obyektivliyindən və onların reallıq səviyyəsindən asılıdır. Bu isə iqtisadi təhlilin müəyyən elmi biliklər əsasında aparılmasını tələb edir.

Ümumiyyətlə, təhlil anlayışı yalnız ictimai elmlərdə deyil, həm də təbiət elmlərində də geniş istifadə olunur. Məsələn, fizikada fiziki təhlil, kimyada kimyəvi təhlil və biologiyada bioloji təhlil anlayışları mövcuddur. Elmin istənilən sahəsində təhlil fəaliyyət bütöv olanı tərkib hissələrinə parçalayaraq onun araşdırmasını nəzərdə tutur. Həmçinin iqtisadi fəaliyyət sahəsində istifadə olunan təhlil konsepsiyası iqtisadi hadisələrin ayrıca tədqiqini tələb edir. Lakin "təhlil" dedikdə biz yalnız elmi metodu və ya üsulu nəzərdə tutmuruq. İqtisadi təhlil fəaliyyəti daha geniş anlayışdır. O,

həmçinin sintez, induksiya, deduksiya və bir çox digər metod və üsulların istifadəsini də nəzərdə tutur.

Müəssisədə baş verən iqtisadi proseslər müxtəlif amillərin təsiri altında yaranır. Bu amillər iki qrupa bölünə bilər: obyektiv və subyektiv amillər. Obyektiv amillər, adətən mövcud iqtisadi qanunların və ümumi iqtisadi qanunların işləmə mexanizmləri ilə əlaqədardır. Subyektiv amillərə isə müxtəlif idarəetmə qərarları, müəssisənin və onun işçilərinin fəaliyyəti və s. daxildir. Müasir şəraitdə subyektiv amillərin artması müəssisənin idarəetmə sistemində iqtisadi təhlilin əhəmiyyətini də artırır. İqtisadi təhlil yalnız təsərrüfat fəaliyyətinin faktlarını qeyd etmir və qiymətləndirmir, həm də müəssisə rəhbərliyinə fəaliyyətin kəmiyyət və keyfiyyət göstəricilərini yaxşılaşdırmaq üçün zəruri məlumatlarla təmin edir. İqtisadi təhlil nəticəsində əldə edilən materiallar əsasında mövcud vəziyyəti dəyişməyə yönəlmiş müvafiq idarəetmə qərarı qəbul edilir [2].

İqtisadi təhlil müəssisənin əsas fəaliyyət növlərindən biridir. İqtisadi təhlil fəaliyyətinin əsas məqsədi müəssisənin iqtisadi fəaliyyətinin yaxşılaşdırılmasına yönəldilmiş idarəetmə qərarlarının qəbul edilməsi üçün zəruri materialların əldə edilməsidir. Qəbul edilən idarəetmə qərarlarının səmərəlilik səviyyəsi ilk növbədə, iqtisadi təhlil nəticəsində əldə edilən məlumatların obyektivliyindən və onların reallıq səviyyəsindən asılıdır. Qeyd etmək lazımdır ki, iqtisadi fəaliyyətin müxtəlifliyi səbəbindən iqtisadi təhlil fəaliyyətinin sahələri də olduqca müxtəlifdir. Hər bir iqtisadi fəaliyyət sahəsi özünəməxsus xüsusiyyətlərə malik olduğundan, həmin sahənin təhlil prosesi özünəməxsus xüsusiyyətləri ilə xarakterizə olunur. İqtisadi təhlil nəzəriyyəsinin əsas vəzifələrindən biri bu xüsusiyyətlərin aşkar edilməsi və öyrənilməsidir.

İqtisadi təhlil bir tərəfdən nəzəri biliklər sistemini, digər tərəfdən isə insanın düşüncə fəaliyyətinin sahələrindən birini təmsil etdiyinə görə, o, daim təkmilləşdirilməli və müasir dövrün tələblərinə cavab verməlidir. İqtisadi təhlil fəaliyyətin təkmilləşdirilməsinin zəruriliyini və əhəmiyyətini tələb edən bir sıra şərtlər mövcuddur [3]. Bu şərtlər arasında aşağıdakılar qeyd edilə bilərik.

Əvvəlcə, zaman keçdikcə iqtisadi təhlilin nəzəri-metodoloji əsasları sahəsində dəyişikliklər baş verir, yeni nailiyyətlər əldə edilir. Bu, həm ümumi iqtisadi elmlərə, həm də konkret iqtisadi elmlərə əsaslanır. İqtisadi elm sahəsində yeni konsepsiyalar, yeni meyllər, yeni iqtisadi ideyalar, yeni yanaşmalar meydana gəlir və formalaşır. İqtisad elmindəki yeniliklər iqtisadi fəaliyyət sahəsində müəyyən dəyişikliklərin aparılmasını tələb edir.

İqtisadi təhlil fəaliyyətinin təkmilləşdirilməsini şərtləndirən əsas amillərdən biri də iqtisadi tədqiqatlarda istifadə olunan metodlar və üsullarla bağlıdır. Elmi-texniki nailiyyətlərlə yanaşı, iqtisadi tədqiqatlarda istifadə olunan metod və üsullarda da dəyişikliklər baş verir, müasir informasiya texnologiyalarının istifadəsi hesabına təkmilləşdirilmiş yeni metod və üsullar meydana çıxır.

İqtisadi təhlil fəaliyyətinin təkmilləşdirilməsini şərtləndirən əsas amillərdən biri də insan faktoru ilə, ilk növbədə, onun intellektual imkanları ilə bağlıdır. Müasir şəraitdə iqtisadi təhlil fəaliyyəti ilə məşğul olan mütəxəssislərdən yüksək peşəkarlıq, bilik və bacarıqlar tələb olunur. Bu zaman qeyd etmək lazımdır ki, təkcə iqtisadi bilik sistemini mənimsəməklə yanaşı, texniki elmlər, istehsal texnologiyaları sahəsində və müasir informasiya texnologiyaları sahəsində də dərin biliklərə malik olmaq lazımdır.

İstehsal-təsərrüfat fəaliyyətində iqtisadi təhlilin inkişafına xidmət edən əsas istiqamətlərdən biri də riyaziyyat elmlərinin və hesablama texnikasının inkişafıdır. Bu sahələrdə əldə edilən yeniliklər iqtisadi təhlil fəaliyyətinin təkmilləşdirilməsinə gətirib çıxarır. Praktik fəaliyyətdə optimal idarəetmə qərarlarının qəbulu analitik tədqiqatların aparılmasını tələb edir. Bunun üçün iqtisadi nəzəriyyənin əsaslarının, yəni mikro və makroiqtisadiyyatın əsaslarının mükəmməl öyrənilməsi, mövcud iqtisadi sistemin işləmə mexanizmlərinin öyrənilməsi, dünya iqtisadiyyatının inkişaf meyllərinin öyrənilməsi zəruridir.

Bazarın istənilən subyektinin iqtisadi fəaliyyətini xarakterizə edən bütün zəruri məlumatların əldə edilməsi üçün bu məlumatların əldə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi də mühüm məsələlərdən biridir.

İqtisadi təhlil fəaliyyətinin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri də iqtisadi analitik fəaliyyətin metodologiyasının və onun təşkilati prosesinin təkmilləşdirilməsidir. Hazırda əsas prioritet situasiya təhlili, strateji, layihə, marketinq, SWOT təhlili, habelə institutsional təhlil və risk qiymətləndirmə məsələlərinin öyrənilməsinə verilməlidir.

Situasiya təhlilinin əsası istehsal funksional əlaqələrini öyrənən iqtisadi modellərdir. Bu əlaqələri öyrənmək çox vacibdir. Beləliklə, istehsal-iqtisadi fəaliyyət baxımından daxili və xarici istehsal münasibətlərinin öyrənilməsi müəssisənin iqtisadi fəaliyyətinin sabitliyini təmin edir. Strateji təhlil uzunmüddətli perspektivdə iqtisadi məqsədə uyğun olaraq ən optimal variantın seçilməsini təmin edir. Layihə təhlili bazar münasibətləri şəraitində ilkin mərhələdə istehsal-ticarət fəaliyyətinin səmərəliliyinin hesablanmasına və qiymətləndirilməsinə yönəldilməlidir. Marketinq təhlili müəssisənin istehsal etdiyi məhsula yaxın və uzaq gələcəkdə tələbatın necə dəyişəcəyini öyrənməyə xidmət edir. SWOT təhlili müəssisənin fəaliyyətinin hərtərəfli öyrənilməsi əsasında gələcək fəaliyyətin maliyyə nəticələrinin əvvəlcədən müəyyən edilməsinə yönəldir. İnstitutsional təhlil mövcud ictimai və sosial münasibətlərin hüquqi və təşkilati əsaslarının möhkəmləndirilməsini, həmçinin cəmiyyətin iqtisadi, siyasi və hüquqi həyatının müxtəlif tərəflərini tənzimləyən norma və qaydaların öyrənilməsini nəzərdə tutur. Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində müəssisələrin iqtisadi fəaliyyəti qeyri-müəyyənlik şəraitində həyata keçirilir. Risklərin öyrənilməsi və onların aradan qaldırılması üsullarının öyrənilməsi iqtisadi təhli fəaliyyətinin təkmilləşdirilməsinin əsas istiqamətlərindən biridir.

## Ədəbiyyat

[1]. Əliyev, R.R. İqtisadi təhlilin nəzəriyyəsi / R.R. Əliyev, –Bakı, –2012, –418 s.
[2]. Баканов, М.И. Теория анализа хозяйственной деятельности предприятия / М.И.Баканов, А.Д. Шеремет, –М.: ДИС, –2007, –415 с.
[3]. Любишин, Н.П. Теория экономического анализа. Учебно-методический комплекс / Н.П.Любишин, Л В.Б.ещева, Е.А.Сучков, –М.: Экономист, –2014, –480 с.

**Summary**
**The role of economic analysis in ensuring the economic security of the enterprise**
***Jamilzade Sh.V.***

***Keywords:*** *economic security, enterprise, efficiency, economic analysis, economic indicators.*

The article explores the role of economic analysis in ensuring the economic security of enterprises. In a market economy, optimizing operational activities and improving management are crucial for maximizing profits. Economic analysis is vital for providing objective data and ensuring the effectiveness of management decisions. The importance of modern analytical methods, such as SWOT analysis, strategic and marketing analysis, as well as risk assessment, is emphasized. Special attention is given to the role of scientific-methodological approaches and information technologies in studying economic processes.

**Резюме**
**Роль экономического анализа в обеспечении экономической безопасности предприятия**
***Джамильзаде Ш.В.***

***Ключевые слова:*** *экономическая безопасность, предприятие, эффективность, экономический анализ, экономические показатели.*

В статье изучается значение экономического анализа в обеспечении экономической безопасности предприятий. В условиях рыночной экономики оптимизация хозяйственной деятельности и совершенствование управления являются основой для увеличения прибыли. Экономический анализ играет важную роль в подготовке объективных данных и обеспечении эффективности управленческих решений. Подчеркивается важность современных методов анализа, включая SWOT-анализ, стратегический и маркетинговый анализ, а также оценку рисков. Особое внимание уделяется роли научно-методологических подходов и информационных технологий в изучении экономических процессов.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 658.151** DOI 10.54758/16801245_2025_21_4_79

# Transmilli şirkətlərdə maliyyə risklərinin qiymətləndirilməsi

**Tağıyeva Aidə Valeh qızı** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, müəllim*
aida.tagiyeva@sdu.edu.az

| MƏQALƏ HAQQINDA MƏLUMAT | XÜLASƏ |
|---|---|
| ***Məqalənin tarixçəsi***<br>*Daxilolma tarixi: 02.07.2025*<br>*Düzəliş tarixi: 20.09.2025*<br>*Qəbulolunma tarixi: 02.12.2025*<br><br>***Açar sözlər***<br>*transmilli şirkətlər, beynəlxalq biznes, maliyyə, istehsal, ticarət, risk, strategiya, qiymətləndirmə* | *Qloballaşma meyilləri tranasmilli şirkətlərin (TMŞ) dünyanın əksər ölkələrində iqtisadi tərəqqinin əsas hərəkətverici qüvvəsinə çevirmişdir. Xarici istehsal müəssisələri yaradarkən TMŞ-lər, ilk öncə, qabaqcıl ölkələrin bazarlarına nüfuz etməyə diqqət yetirirlər. Müasir beynəlxalq iqtisadiyyat üçün TMŞ-lərin rolu çox böyükdür, çünki dünya iqtisadiyyatının inkişafının əhəmiyyətli hissəsi onların sayəsində realaşdırılır. TMŞ-lər müxtəlif ölkələrdə törəmə şirkətləri və filialları olan qlobal miqyasda fəaliyyət göstərən şirkətləri təmsil edərək müasir beynəlxalq biznesdə əsas rol oynayırlar* |

TMŞ-lər onlara müxtəlif bazarlara nüfuz etməyə, iş yerləri yaratmağa, iqtisadi inkişafı təşviq etməyə və beynəlxalq təchizat zəncirlərini formalaşdırmağa imkan verən əhəmiyyətli resurslara, texnologiyaya və kapitala malikdir. TMŞ-lər iri maliyyə, istehsal, elmi, texnoloji, ticarət və xidmət birlikləridir ki, onların xarakterik xüsusiyyəti öz ölkəsində istehsalın geniş yayılmış xarici əməliyyat sistemi ilə üzvi birləşməsidir. Əmtəə istehsalının və müxtəlif növ xidmətlər sferasının hazırkı inkişaf mərhələsi çoxşaxəli və ixtisaslaşmış TMŞ-lərin yaradılması ilə xarakterizə olunur [8, s.141]. Bu gün TMK-lar öz ölkələrinin iqtisadiyyatlarına təsir göstərmək üçün böyük potensiala malikdirlər. Öz təşkilati strukturu sayəsində TMŞ-lər qlobal iqtisadi sistemdə möhkəmlənməsini təmin edir.

Müasir TMŞ-lər bütün dünyada iş yerləri təmin etməklə yanaşı, ETT-nin iştirakçılarından biridir. TMŞ-lər mahiyyətcə iri maliyyə-istehsalat, elmi-texniki, ticarət və xidmət birlikləridir ki, onların xarakterik xüsusiyyəti xaricdə geniş şaxəli fəaliyyət sisteminin mövcudluğu ilə öz ölkəsində istehsalın üzvi birləşməsidir. TMŞ-lər dünya iqtisadiyyatının iki və ya daha çox ölkəsinin milli şirkətlərini birləşdirir. TMŞ-lər dünya iqtisadiyyatının bütün sahələrində: istehsal, texnologiya, xidmətlər üzrə aparıcı mövqeləri tutur. Sənaye istehsalında TMŞ-lərin payı təxminən 30%, beynəlxalq ticarətdə 50%, birbaşa xarici investisiyalarda 90%, patent və lisenziyalarda 95% təşkil edir. Beynəlxalq kreditdə 50-yə yaxın transmilli bank, sığorta əməliyyatlarında 30 aparıcı şirkət, reklamda 30 aparıcı qlobal agentlik, hava daşımalarında isə 25 beynəlxalq hava nəqliyyatı şirkəti üstünlük təşkil edir [3, s.20-21].

Bu gün TMŞ-lər öz ölkələrinin iqtisadiyyatlarına təsir göstərmək üçün böyük imkanlar cəmləşdirirlər. Bu gün onlar istehsal sənayesinə kapital qoyuluşunun 20-25%-ni təşkil edir. Dünya iqtisadi proseslərinin qloballaşması TMŞ-lərə böyük miqdarda resursla fəaliyyət göstərməyə imkan verir. Məhz təşkilati strukturun özəllikləri sayəsində TMŞ-lər qlobal iqtisadi sistemdə möhkəm yerləşmişlər. Bununla belə, bu cür şirkətlərin fəaliyyəti diqqətlə öyrənilməli və səriştəli idarəetmə tələb edən bir çox risklərlə əlaqələndirilməlidir.

TMŞ-lərin fəaliyyəti müəyyən risklərlə bağlıdır. Risk, TMŞ-lərin məqsədlərinə çatmasına mane ola biləcək mümkün hadisədir. Təcrübədə birinci risk növünü "aşağı risk", ikinci növü isə "yuxarı risk" adlandırmaq olar. Risk və gözlənilən gəlirin ölçülməsi çətin məsələdir, çünki onun məzmunu seçilmiş nöqteyi-nəzərdən asılı olaraq dəyişir.

Əksər TMŞ-lərdə risklərin bölgüsü aşağıdakı kimi təqdim olunur:

- sistemli - bunlara bütövlükdə bütün sistemi əhatə edən və fərdi sahibkarlıq subyekti səviyyəsində əhatə oluna bilməyən risklər daxildir. Sistemli risklər gözlənilə bilər, lakin onlara təsir etmək olduqca çətindir;

- qeyri-sistem - yuxarıda qeyd olunanlarla əlaqəli olmayan qalan risk qrupunu əhatə edir.

Müasir TMŞ-lərin üzləşdiyi risk növlərinin müxtəlif təsnifatları vardır, lakin çox vaxt bunlara bazar, kredit, maliyyə və s. risk növləri daxildir. Bazar riskləri, ticarət portfelinin, o cümlədən bazar dəyərinə malik olan və yenidən satış məqsədilə əldə edilmiş maliyyə alətlərinin (o cümlədən repo əməliyyatları) bazar dəyərinin dəyişməsi ilə əlaqədar maliyyə itkilərinə səbəb olan risklərdir. TMŞ-lərin fəaliyyətində ən çox rast gəlinən risk qrupu kredit riskləridir. Kredit riskləri TMŞ-lərin üzləşdiyi risklərin ən böyük qrupudur. Bu tip risklərin idarə edilməsinin inzibati üsulları əsasən kreditlərin, borcların və avansların verilməsini müşayiət edən prosedur məsələlərinin təsvirinin mövcudluğu və təmin edilməsi ilə bağlıdır. Borc maliyyə alətləri ilə əməliyyatlar, kreditlərin və borcların verilməsi, habelə zəmanətlərin verilməsi, hesablaşma əməliyyatları (pul vəsaitlərinin və ya qiymətli kağızların çatdırılması) - bütün bunlar kredit riskləri ilə müşayiət olunur. Maliyyə riskləri müxtəlif amillərin təsiri altında itkilərə və gəlirlərin azalmasına və ya əlavə xərclərə səbəb ola biləcək hadisənin ehtimal olunan xüsusiyyətidir [1, s.30].

Şəkildə TMŞ-lərin maliyyə risklərinin əsas növlərinin təsnifatı təqdim edilir.




***Şəkil.*** *TMŞ-lərin maliyyə risklərinin əsas növləri*

TMŞ-lərin maliyyə fəaliyyətini müşayiət edən müasir risklərin müxtəlif növləri vardır. Likvidliyin itirilməsi riski sistemli və şaxələndirilməyən görünür. Sistemin nümayəndələri qiymətli kağızlar bazarının iştirakçılarının özləridir. Aydın qərar qəbul etmə alqoritmini təmin etmək, həmçinin şirkətin likvidlik səviyyəsinə nəzarət etmək lazımdır.

Dünya iqtisadiyyatının qloballaşan strukturu TMŞ-lərə ölkədən ölkəyə külli miqdarda pul köçürməsinə imkan verir. Bununla belə, qloballaşma prosesləri ilə müsbət əlaqənin olması səbəbindən maliyyə riskləri bu gün daha çevikdir və idarə olunması çətindir. Risklərin idarə edilməsində uzun illər ərzində zəngin müxtəlif təcrübə dəyişməz olaraq qalır. Buna görə, əsas risklərin idarə edilməsi təcrübələrinə riayət etmək lazımdır. Bacarıqlı risklərin idarə edilməsi ona

əsaslanır ki, strategiya hazırlayarkən şirkət həm də risklərin idarə edilməsi strategiyalarını hazırlayır. Strategiya hazırlayarkən şirkət bu prosesin məqsədini göstərməli, riski, onun əhatə dairəsini müəyyənləşdirməli, azaldılması yollarını təklif etməli, riskə nəzarət etməli və vahid risk idarəetmə sistemi yaratmalıdır. İnteqrasiya edilmiş risklərin idarə edilməsi konsepsiyası tez-tez müəssisə risklərinin idarə edilməsi kimi müəyyənləşdirilir və getdikcə populyarlıq qazanır.

Beləliklə, TMŞ-lərdə risklərin idarə edilməsinin aşağıdakı xüsusiyyətləri vurğulanmalıdır. Birincisi, riskləri idarə edərkən TMŞ-lər öz fəaliyyət mühitinin xüsusiyyətlərini, xüsusən də qlobal maliyyə bazarında baş verən proseslərin dinamik və ümumiyyətlə qeyri-xətti xarakterini tam nəzərə almalıdırlar. İkincisi, TMŞ-lərdə risklərin idarə edilməsinin bir xüsusiyyəti, xüsusi əməliyyatların, konsolidə edilmiş hesabatların və şirkətin bazar dəyərinin effektivliyinə təsir göstərə bilən valyuta risklərinin idarə edilməsidir. Üçüncüsü, TMŞ-lərdə risk idarəetməsinin mühüm xüsusiyyəti təkcə siyasi deyil, habelə iqtisadi və sosial komponentləri özündə birləşdirən ümumi risklərin idarə edilməsidir. Risklərin idarə edilməsinin əsas məqamı biznesə xas olan risklərin müəyyənləşdirilməsi və onların tanınması və sıralanmasıdır. Bu prosesə kifayət qədər diqqət yetirilməməsi və ya müəyyən amillərin təsirinin düzgün müəyyənləşdirilməməsi uğursuzluğa səbəb ola bilər.

Riskləri idarə etmək məqsədilə ilk öncə, onlar haqqında geniş və sistemli təsəvvürə malik olmaq zəruri şərt sayılır. Yalnız belə olduqda risklərin azaldılması üzrə qəbul edilmiş qərarlar və görülmüş tədbirlər sistemli və səmərəli nəticə verə bilər [2, s.49]. Risklərin idarə edilməsi prosesinə başlamaq üçün TMŞ-lərin rəhbərliyi qəbul etməyə hazır olduqları risk səviyyəsini müəyyən etməlidir. Risklər təzahür səviyyəsinə görə adətən aşağıdakı növlərə bölünür:

- aşağı risklər (təhlükənin baş verməsinin ən ümumi nəticəsi müəssisənin mənfəət çatışmazlığıdır);
- məqbul risklər (təhlükənin baş verməsinin ən ümumi nəticəsi müəssisə tərəfindən mənfəətin əldə edilməsi və ya zərərin qeydə alınması deyil);
- yüksək risklər (təhlükənin baş verməsinin ən ümumi nəticəsi müəssisənin və ya biznes layihəsinin əsas vəsaitlərinə qoyulmuş maliyyə kapitalının itirilməsidir);
- kritik risklər (təhlükənin baş verməsinin ən ümumi nəticəsi müəssisənin müflisləşməsi və kommersiya fəaliyyətinin ləğvidir).

Risk səviyyəsini qiymətləndirmək məqsədilə risk əmsalı göstəricisindən istifadə olunur ki, onu aşağıdakı düsturla hesablayırlar:

$$K_r = \frac{Z}{V}$$

$K_r$ – risk əmsalı; $Z$ – risk təhlükəsi baş verdikdə mümkün olan maksimum zərərin ölçüsü; $V$ – müəssisənin öz vəsaitinin həcmi.

Əldə edilmiş risk əmsalı əsasında risk səviyyəsinin özü müəyyənləşdirilir. Beləliklə, əmsalın nəticələri 0-dan 0,3-ə qədərdirsə, bu, aşağı risk səviyyəsi, 0,3-dən 0,5-ə qədər - məqbul risk səviyyəsi, 0,5-dən 0,7-yə qədər - yüksək risk səviyyəsi, 0,7-dən - kritik səviyyə hesab edilməlidir [9, s.74].

Fikrimizcə, maliyyə qloballaşması şəraitində TMŞ-lər üçün ən aktual və optimal olanı risklərin bölüşdürülməsi və birləşdirilməsi metodlarından istifadə etməkdir. Riskdən imtina və özünü sığorta prosedurları istənilən nəticəni vermirsə, o zaman TMŞ-lər riskləri bölüşmək və birləşdirmək üçün müxtəlif variantlardan istifadə edirlər. Riskin bölüşdürülməsinin mahiyyəti onun bir neçə təsərrüfat subyekti arasında bölünməsindən ibarətdir. Risklərin birləşdirilməsi bir neçə əlaqəli olmayan riskli əməliyyatın eyni vaxtda icrasını nəzərdə tutur.

Təcrübədə risklərin bölüşdürülməsi və birləşdirilməsinin ən məşhur üsulları: sığorta, hedcinq, faktorinqdir. Əgər şirkət öz fəaliyyətinin zəmanətli icrasını təmin etmək istəyirsə, biznesin xüsusiyyətlərindən asılı olmayaraq risklərin idarə edilməsini ümumi idarəetmə sisteminin bir

hissəsinə çevirməlidir və bu məsələ demək olar ki, hər bir sənayedə aktuallaşıb. Əvvəllər bununla yalnız maliyyə təşkilatları məşğul olurdusa, indi iqtisadiyyatın real sektorundan getdikcə daha çox şirkət risklərin idarə edilməsinin onlara hansı üstünlüklər verə biləcəyini anlamağa başlayır. İqtisadiyyatın real sektorunda fəaliyyət göstərən şirkətlər tərəfindən risklərin idarə edilməsinə marağın durmadan artması müşahidə olunur. Üstəlik, maliyyə və əməliyyat risklərini idarə etmək onlar üçün vacibdir. Maliyyədə risk investisiyanın gəlirliliyinin gözləniləndən fərqli olması ehtimalına aiddir [6, s.215].

Maliyyə, valyuta və əmtəə bazarlarında qeyri-sabitlik dövründə maliyyə risklərinin idarə edilməsi məsələləri xüsusilə aktuallaşır. Maliyyə risklərinin idarə edilməsi müasir maliyyə menecerinin əsas vəzifələrindən biridir, çünki bu risklər biznes fəaliyyətinin tərkib hissələrindən biri sayılır. Maliyyə risklərinin idarə edilməsi şirkətin maliyyə sabitliyini, onun rəqabət qabiliyyətini, mənfəət və gəlirlilik göstəricilərini artırmağa imkan verən çoxşaxəli prosesdir.

Maliyyə risklərinin idarə edilməsi ixtisaslaşmış idarəetmə funksiyası kimi risklərin idarə edilməsinin bir istiqamətidir. Onun mahiyyəti maliyyə riskləri ilə maliyyə mükafatları arasında kompromis tapmaqdan ibarətdir ki, bu zaman məlumatlı maliyyə qərarları qəbul edilə, maliyyə riskləri məqbul hədlər daxilində idarə oluna və mənfəəti artırmaq və buna görə də dəyəri artırmaq üçün səylər göstərilə bilər [4, s.519-520].

Maliyyə risklərinin idarə edilməsi prosesi beş əsas mərhələdən ibarətdir. Birinci mərhələ məqsəd təyin etmək mərhələsidir. Şirkət zəruri və məhdud resurslar, arzu olunan nəticə və ona nail olmaq riski kimi arzu olunan və mümkün olan problemləri həll edir. Birinci mərhələnin nəticəsi biznes əməliyyatının ilkin risk dərəcəsinin müəyyənləşdirilməsidir. İkinci mərhələ mümkün risk növlərinin müəyyənləşdirilməsidir. Lazımi məlumatlar toplanır, keyfiyyət təhlili aparılır, yəni risklər müəyyənləşdirilir. Üçüncü mərhələ risklərin qiymətləndirilməsidir. Bu mərhələdə müəyyən bir əməliyyatın aparılmasının məqsədəuyğunluğu barədə qərar qəbulu məqsədilə kəmiyyət təhlili aparılır. Bununla belə, bu mərhələdə yeni risk faktorları müəyyən edilə və artıq müəyyən edilmiş risklərə düzəlişlər edilə bilər və ona görə bu mərhələ həmişə qərarın qəbulu ilə bitmir. Dördüncü mərhələdə risklərin idarə edilməsi üsullarının seçilməsi və reallaşdırılması baş verir: mümkün itkilərin qarşısının alınması, nəzarəti, riskin qorunması və ötürülməsi. Bir qayda olaraq, həmin üsullar kombinasiyada istifadə olunur. Bu üsullar seçildikdən sonra onların hərtərəfli reallaşdırılması strategiyası formalaşdırılır, zəruri maliyyə, maddi və əmək resursları ayrılır, konkret icraçıların vəzifələri bölüşdürülür. Son mərhələ qəbul edilmiş qərarların icrasının monitorinqi və effektivliyinin təhlilidir. Risk hesabatları və onların göstəricilərinin dinamikası haqqında məlumatlar hazırlanır. Alınan hesabatlar əsasında risklərin idarə edilməsinin effektivliyi, onun fərdi alətlərindən istifadənin effektivliyi və reallaşdırılması xərcləri qiymətləndirilir [7, s.63-64].

Müasir şəraitdə TMŞ-lərdə maliyyə risklərinin düzgün idarə edilməməsi istənilən layihənin qəsdən məhv edilməsinə bərabərdir. Layihənin icrası zamanı maliyyə risklərinin idarə edilməsi maliyyə münasibətləri sistemində TMŞ-lərin iqtisadi vəziyyətinin keyfiyyət və kəmiyyət göstəricilərinin tədqiqini və qiymətləndirilməsini nəzərdə tutur. Bir çox hallarda maliyyə risklərinin qiymətləndirilməsi və idarə edilməsi üçün təhlil edilən hesabatlar TMŞ-lərin real maliyyə vəziyyəti haqqında düzgün nəticə çıxarmağa imkan vermir və buna görə də onun risklərinin qiymətləndirilməsini çətinləşdirir.

Maliyyə risklərini düzgün qiymətləndirməklə onları effektiv idarə etmək olar. Maliyyə riskinin qiymətləndirilməsinin etibarlılığı şirkətin layihələrinin nəticələrinə və bütövlükdə onların fəaliyyətinin effektivliyinə təsir göstərir. TMŞ-lərdə riisklərin və onların müflisləşməsinin qiymətləndirilməsi üçün müxtəlif modellər mövcududr. Bunlardan ən geniş yayılanı iflas riskinin diaqnostikası üçün universal modeldir və istənilən TMŞ-ə tətbiq oluna bilər.

$$R=0,125\times K_1+2,5\times K_2+0,4\times K_3+1,25\times K_4$$

Burada $K_1$- cari likvidlik əmsalı;

$K_2$ – öz dövriyyə kapitalı ilə təminat əmsalı;

$K_3$ – kapitalın dövriyyəsi əmsalı;

$K_4$ – kapitalın gəlirliliyi əmsalı.

Bu modelə əsasən $R > 1,0025$ olarsa, TMŞ-lərin iflas riski ehtimalı aşağıdır [5, s.376].

Maliyyə riskinin qiymətləndirilməsinin nəticələrinə əsasən layihənin reallaşdırılması üçün strategiyalardan biri seçilir:

- riskdən yayınma;
- risk alma;
- risklərin azaldılması alətlərindən istifadə.

Risk strategiyası variantlarından birinin seçilməsi və sonradan risk səviyyəsini azaltmaq üçün metodun seçilməsi gələcək fəaliyyətləri müəyyənləşdirir. Hər bir layihə üçün ümumi tövsiyələr nəzərə alınmaqla kəmiyyət qiymətləndirməsi və risk təhlili üçün TMŞ-lərin öz maliyyə risk modeli hazırlanmalıdır. Layihənin icrası zamanı itkilərin miqdarı maliyyə riskinin qiymətləndirilməsinin düzgünlüyündən asılıdır. Layihənin icrası zamanı maliyyə risklərini səmərəli idarə etmək məqsədilə aşağıdakılar lazımdır: maliyyə risklərinin idarə edilməsi siyasətinin təkmilləşdirilməsi; öz qiymətləndirmə sistemlərindən istifadə; risklərə nəzarətin gücləndirilməsi; maliyyə risklərinin qiymətləndirilməsində beynəlxalq təcrübədən istifadə; kadrların yüksək keyfiyyətli hazırlanması.

TMŞ-lərdə maliyyə risklərinin təzahürünün kifayət qədər aktual problemi onların maliyyə sabitliyinə təsiri və müflisləşməyə səbəb ola biləcək ödəmə qabiliyyəti dərəcəsinin azalmasıdır.

Müasir dövrdə TMŞ-lərlərə müxtəlif risk növlərini peşəkar səviyyədə idarə etmək məqsədilə effektiv sistem tətbiq etmək vacibdir. Bu, səmərəlilik və rəqabətqabiliyyətlilik ehtiyatı yaradacaq, müxtəlif xüsusiyyətlərə malik olan müəssisələrin sabit işləməsinə və inkişaf etməsinə verəcək, habelə, maliyyə risklərinin minimuma endirilməsinə imkan verəcək. TMŞ-lərin inkişafında məhz onların maliyyə risklərinin qiymətləndirilməsi və idarə edilməsi önəmli rol oynayır. Maliyyə risklərinin minimuma endirilməsi üçün əsas tədbirlər onların qiymətləndirilməsinin keyfiyyətinin yüksəldilməsinə, risklərin idarə edilməsinin yeni formalarının işlənib hazırlanmasına, qiymətləndirmə mexanizminin təkmilləşdirilməsinə yönəldilməlidir. Maliyyə risklərinin qiymətləndirilməsinin təkmilləşdirilməsi üzrə tədbirlərə gəlincə, bunlara uzaqdan texnologiyalar vasitəsilə qiymətləndirmələri və şirkətin rəqabət qabiliyyətini artırmaq üçün diversifikasiya strategiyasını tətbiqini prioritet hesab etmək olar.

**Ədəbiyyat**

[1]. Abbasov, S.A. Rəqəmsal iqtisadiyyat şəraitində maliyyə risklərinin idarə edilməsi məsələləri// Audit 3,–Bakı, –2020, –c. 29, –s. 27-37.

[2]. Quliyeva Ş.T. Maliyyə riskləri və onlarin idarə edilməsi problemləri: / İqtisad elmləri doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı / –Bakı, 2013, –60 s.

[3]. Бутова, Е. В. Управление рисками транснациональных корпораций / Е.В. Бутова, А.И.Скопинский // Вестник университета. – 2014. – № 4. – с. 20-25

[4]. Ду Чуньюй. Управление финансовыми рисками транснациональных компаний / «Экономика и социум», –2022. №6(97)-1, –s.519-525

[5]. Нигматулина, Г.Р. Оценка и управление финансовыми рисками в условиях цифровой экономики // Российский электронный научный журнал. – 2022. № 3(45). – с. 375-404

[6]. Лазаренко, А. Л. Проблемы минимизации финансовых рисков в корпорациях / А.Л.Лазаренко, Н.А. Думнова // Образование и наука без границ: фундаментальные и прикладные исследования. – 2016. № 1. – с. 214-217

[7]. Сидорова, А. О. управление финансовыми рисками компании // Вестник Российского нового университета. Серия: Человек и общество. – 2018. № 1. –с. 62-64

[8]. Скопинский, А. И. Управление рисками транснациональных корпораций // Евразийский союз ученых. – 2015. № 2-1(11) , –с. 140-142.

[9]. Шевелев, Р.А. Современные стратегии управления рисками транснациональных корпораций в условиях трансформации их деятельности / Р.А.Шевелев, Т.Г. Боввен, Индустриальная экономика. –т.1, –2021, № 4, –с.71-76.

**Summary**

**Assessment of financial risk management in transnational companies**

***Taghiyeva A.V.***

***Keywords:*** *transnational companies, international business, finance, production, trade, risk, strategy, assessment*

Globalization trends have made transnational corporations (TNC) the main driving force of economic progress in most countries of the world. When creating foreign production facilities, TNCs, first of all, focus on penetrating the markets of advanced countries. The role of TNCs for the modern international economy is very large, since a significant part of the development of the world economy is realized thanks to them. TNCs play a key role in modern international business, representing companies operating on a global scale with subsidiaries and branches in different countries.

**Резюме**

**Оценка управления финансовыми рисками в транснациональных компаниях**

***Тагиева А.В.***

***Ключевые слова:****транснациональные компании, международный бизнес, финансы, производство, торговля, риск, стратегия, оценка*

Тенденции глобализации сделали транснациональные корпорации (ТНК) основной движущей силой экономического прогресса большинства стран мира. Создавая зарубежные производства, ТНК, прежде всего, ориентируются на проникновение на рынки развитых стран. Роль ТНК для современной мировой экономики весьма велика, поскольку значительная часть развития мировой экономики осуществляется благодаря им. ТНК играют ключевую роль в современном международном бизнесе, представляя собой компании, действующие в глобальном масштабе, с дочерними предприятиями и филиалами в разных странах.

**Scientific News - Series for Social and Humanitarian Sciences 21 Issue 4 (2025)**
journal homepage: www.ssu-scientificnews.edu.az

**UOT 338.246.2** DOI 10.54758/16801245_2025_21_3_85

# Azərbaycanda bərpa olunan enerji mənbələrinin tətbiqi və regionlarin dayanıqlı inkişafına təsiri

**Bağırova Nuranə Cəmaləddin qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, doktorant*
Nurana.Bagirova@sdu.edu.az

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 30.05.2025*
*Düzəliş tarixi: 10.07.2025*
*Qəbulolunma tarixi: 16.09.2025*

***Açar sözlər***
*bərpa olunan enerji, alternativ enerji mənbələri, günəş enerjisi, külək enerjisi, hidroenerji, enerji təhlükəsizliyi, yaşıl enerji zonaları, regionların inkişafı, enerji siyasəti, dayanıqlı inkişaf*

**XÜLASƏ**

*Müasir dövrdə Azərbaycanda bərpa olunan enerji mənbələrinin inkişafı enerji təhlükəsizliyi və ekoloji dayanıqlığın təmin olunmasında strateji əhəmiyyət kəsb edir. Ölkənin əlverişli coğrafi mövqeyi günəş, külək və hidroenerji potensialından səmərəli istifadə etməyə imkan verir. Dövlətin qəbul etdiyi enerji strategiyaları və "Yaşıl Enerji" konsepsiyası bərpa olunan enerjinin payını artırmağı hədəfləyir. Qaradağda və Xızı-Abşeronda böyük həcmdə günəş və külək elektrik stansiyalarının tikintisi həyata keçirilir. Alternativ enerji sahəsində texnoloji yeniliklər, təhsil və beynəlxalq əməkdaşlıq layihələrin uğuruna təkan verir. Hüquqi bazanın təkmilləşdirilməsi və investorların cəlb olunması sahənin inkişafını sürətləndirir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji zonası" elan olunması regional inkişaf üçün mühüm addımdır. Bu istiqamətdə görülən işlər ölkənin enerji balansının diversifikasiyasına və davamlı inkişafına xidmət edir*

## Giriş

Müasir dövrdə qlobal miqyasda artan enerji tələbatı, ətraf mühitin çirklənməsi və iqlim dəyişikliyi bərpa olunan enerji mənbələrinin əhəmiyyətini gündəmə gətirmişdir. Bu kontekstdə bərpa olunan enerji yalnız ekoloji təhlükəsizliyin təmin olunması baxımından deyil, həm də iqtisadi və sosial dayanıqlığın gücləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir. Azərbaycan da bu qlobal tendensiyaya qoşularaq, enerji sektorunun şaxələndirilməsi və yaşıl enerji keçidinə dair siyasətini aktiv şəkildə həyata keçirir. Xüsusilə regionların sosial-iqtisadi inkişafında bərpa olunan enerji mənbələrinin rolu getdikcə artmaqdadır. Külək, günəş və su enerjisi kimi alternativ mənbələrin istifadəsi regionlarda yeni iş yerlərinin yaradılması, infrastrukturun inkişafı və ekoloji mühitin qorunması baxımından mühüm nəticələr verir. Dövlət səviyyəsində "Yaşıl Enerji Zonaları"nın yaradılması, xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bu sahədə prioritet elan olunması mövzunun aktuallığını daha da artırır. Bərpa olunan enerji yalnız enerji təhlükəsizliyi deyil, həm də regional bərabərliyin və dayanıqlı inkişafın təmin olunması üçün əsas vasitə hesab olunur. Bu məqalədə Azərbaycanın alternativ enerji potensialı, tətbiq sahələri və bu sahənin regionların dayanıqlı inkişafına olan təsiri təhlil ediləcəkdir.

## Azərbaycanda bərpa olunan enerji mənbələrinin inkişaf perspektivləri

Azərbaycanda bərpa olunan enerji mənbələrinin inkişafı son illərdə dövlətin enerji siyasətinin əsas prioritetlərindən birinə çevrilmişdir. Bu sahədə atılan addımlar həm ölkənin enerji təhlükəsizliyini gücləndirməyə, həm də ətraf mühitin qorunmasına xidmət edir. Azərbaycanın əlverişli coğrafi mövqeyi və təbii şəraiti alternativ enerji mənbələrinin inkişafı üçün geniş imkanlar yaradır. Xüsusilə günəş, külək və hidroenerji potensialı baxımından ölkənin müxtəlif regionları böyük ehtiyatlara malikdir. Güneş enerjisi əsasən Naxçıvan Muxtar Respublikası, Abşeron və Cəbrayıl kimi ərazilərdə yüksək səviyyədə müşahidə olunur. Külək enerjisi sahəsində isə Xızı,

Siyəzən və Abşeron əraziləri ön plandadır. Hidroenerji ehtiyatları əsasən çay axınlarının sıx olduğu dağlıq və dağətəyi zonalarda, xüsusilə Kəlbəcər, Zaqatala və Qax rayonlarında yerləşir. Bu imkanlardan səmərəli istifadə etmək məqsədilə dövlət tərəfindən müxtəlif proqram və strategiyalar qəbul edilmişdir. 2018-ci ildə qəbul olunmuş "Azərbaycan Respublikasının enerji strategiyası" sənədində bərpa olunan enerji əsas inkişaf istiqaməti kimi müəyyən olunmuşdur. Bundan əlavə, 2020-ci ildən etibarən qəbul edilən "Yaşıl Enerji" konsepsiyası bu istiqamətdə daha konkret hədəfləri ortaya qoymuşdur. Azərbaycan Paris İqlim Sazişinə qoşularaq 2030-cu ilə qədər istixana qazı emissiyalarını 35% azaltmaq öhdəliyini götürmüşdür. Bu öhdəliyin yerinə yetirilməsi bərpa olunan enerji mənbələrinin inkişafı ilə birbaşa əlaqəlidir. Hazırda ölkədə ümumi enerji istehsalında alternativ mənbələrin payı təxminən 7-8 faiz civarındadır. Lakin bu göstəricinin yaxın illərdə 30 faizə çatdırılması nəzərdə tutulur. Bu məqsədlə dövlət və özəl sektor əməkdaşlığı gücləndirilir. Xüsusilə xarici investorların bu sahəyə cəlb olunması üçün əlverişli hüquqi və iqtisadi şərait yaradılmışdır. 2021-ci ildə Masdar (BƏƏ) şirkəti ilə imzalanan müqavilə əsasında Qaradağda 230 MVt gücündə günəş elektrik stansiyasının tikintisinə başlanılmışdır [1, s.45].

Bundan başqa, Səudiyyə Ərəbistanının ACWA Power şirkəti ilə imzalanmış müqavilə çərçivəsində Xızı və Abşeronda 240 MVt gücündə külək elektrik stansiyasının inşası həyata keçirilir. Bu layihələr təkcə enerji istehsalı ilə kifayətlənmir, həm də yeni texnologiyaların ölkəyə transferinə, yerli mütəxəssislərin hazırlanmasına və sənaye potensialının gücləndirilməsinə xidmət edir. Alternativ enerji sahəsində texnoloji modernizasiya və innovativ yanaşmaların tətbiqi də diqqət mərkəzindədir. Rəqəmsal enerji idarəetmə sistemləri, enerji saxlama texnologiyaları və ağıllı şəbəkələrin yaradılması ilə bağlı pilot layihələr icra olunur. Azərbaycanın Energetika Nazirliyi və Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Agentliyi bu istiqamətdə koordinasiyaedici orqan kimi fəaliyyət göstərir. Bu qurumlar vasitəsilə investisiya layihələrinin texniki-iqtisadi əsaslandırılması və beynəlxalq sertifikatlaşdırma prosesi həyata keçirilir. Bərpa olunan enerji sahəsində təhsil və elmi-tədqiqat bazasının möhkəmləndirilməsi də prioritetlər sırasındadır. Bakı Mühəndislik Universiteti, Azərbaycan Texniki Universiteti kimi ali təhsil müəssisələri bu sahədə kadr hazırlığı həyata keçirir. Regionlarda fəaliyyət göstərən peşə məktəblərində də bərpa olunan enerji üzrə ixtisaslar yaradılır. Gələcəkdə bu sahənin daha da inkişaf etməsi üçün texnoparkların və startapların təşviqi mühüm rol oynaya bilər. Dövlət tərəfindən bu istiqamətdə subsidiyalar, güzəştli kreditlər və vergi imtiyazları nəzərdə tutulur.

Alternativ enerji layihələrinin maliyyələşdirilməsi üçün Dünya Bankı, Asiya İnkişaf Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlıq genişləndirilir. Bu maliyyə mənbələri böyük enerji layihələrinin reallaşmasına dəstək verir. Yerli özəl sektor da bu sahəyə maraq göstərməkdədir və artıq bir neçə yerli şirkət günəş paneli və külək turbinlərinin quraşdırılması sahəsində fəaliyyət göstərir. Azərbaycanın alternativ enerji bazarının genişlənməsi üçün hüquqi bazanın təkmilləşdirilməsi davam edir. "Bərpa Olunan Enerji Mənbələri Haqqında" qanun layihəsi qəbul edilmiş və bu qanun çərçivəsində tender mexanizmləri, tarif siyasəti və lisenziyalaşdırma prosedurları müəyyənləşdirilmişdir. Bu, investorlar üçün şəffaf və sabit mühit yaradır. Xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji zonası" elan edilməsi strateji əhəmiyyət kəsb edir. Bu bölgələrdə planlaşdırılan enerji layihələri, təkcə enerji sektorunun deyil, eyni zamanda kənd təsərrüfatı, turizm və sənaye sahələrinin inkişafına təkan verir. Burada istehsal olunan enerji, həm yerli tələbatı ödəyəcək, həm də şəbəkə vasitəsilə digər regionlara ötürüləcəkdir. Eyni zamanda Azərbaycanın qonşu ölkələrlə enerji körpüsü yaratmaq planları da bu kontekstdə dəyərlidir. "Cənub Qaz Dəhlizi" layihəsi ilə yanaşı, yaşıl enerji dəhlizlərinin yaradılması ideyası aktuallaşır. Bu dəhliz vasitəsilə Azərbaycan alternativ enerjini Gürcüstan və oradan da Avropaya ötürmək niyyətindədir. Beləliklə, ölkə həm enerji ixracatçısı, həm də yaşıl enerji istehsalçısı kimi strateji mövqe qazanacaqdır. Mövcud potensialın düzgün idarə olunması, planlaşdırılmış layihələrin vaxtında və effektiv icrası, bərpa olunan enerji sektorunun davamlı inkişafını təmin edə bilər. Bu isə həm ölkənin enerji balansında diversifikasiya, həm də ekoloji sabitliyin təmin olunması deməkdir [2, s.76].

Son olaraq qeyd etmək olar ki, Azərbaycanda bərpa olunan enerji mənbələrinin inkişaf perspektivləri kifayət qədər genişdir və bu sahədə həyata keçirilən dövlət siyasəti regional və milli səviyyədə əhəmiyyətli nəticələr vermək potensialına malikdir.

**Regional inkişaf strategiyalarında alternativ enerjinin yeri**

Müasir dövrdə regional inkişaf strategiyalarında alternativ enerji mənbələrinin rolu getdikcə artmaqdadır. Bu mənbələr həm ekoloji təhlükəsizliyi təmin edir, həm də iqtisadi sabitliyə töhfə verir. Regionların inkişafında enerji təminatı əsas məsələlərdən biridir. Ənənəvi enerji mənbələrinin tükənməkdə olduğu bir dövrdə alternativ enerji çıxış yolu kimi qəbul olunur. Xüsusilə günəş, külək, su və bioenerji regionlar üçün əlçatan və sərfəli mənbələrdir. Hər bir regionun təbii resurs potensialı fərqli olduğuna görə, alternativ enerji növlərinin seçimi də dəyişkəndir. Azərbaycanın şimal bölgələri külək enerjisi üçün əlverişli sayılır. Cənub bölgələri isə günəş radiasiyasının intensivliyi baxımından yüksək potensiala malikdir. Naxçıvan MR öz enerji tələbatını əsasən alternativ mənbələrlə təmin etməyə nail olmuşdur. Bu nümunə digər regionlar üçün də uğurlu model sayıla bilər. Alternativ enerji infrastrukturu regionlara yeni investisiyalar cəlb edir. Bu investisiyalar isə iqtisadi aktivliyi və məşğulluğu artırır. Əhali üçün yeni iş yerləri yaradılır və həyat səviyyəsi yüksəlir. Eyni zamanda yerli icmalar bu layihələrdə aktiv iştirak edir. Alternativ enerji sahəsində yerli ixtisaslı kadrların hazırlanması da vacib məsələdir. Təhsil müəssisələri bu istiqamətdə yeni ixtisaslar və proqramlar açmalıdır. Regionlarda enerji texnologiyalarının tətbiqi əhalinin maariflənməsinə də töhfə verir. Enerjiyə qənaət və resurslardan səmərəli istifadə mədəniyyəti formalaşır. Bərpa olunan enerji mənbələri ilə çalışan müəssisələrin sayı artır. Bu da regionlarda yaşıl iqtisadiyyatın əsasını qoyur. Dövlət alternativ enerji istehsal edən qurumlara subsidiyalar ayırmalıdır. Eyni zamanda vergi güzəştləri və texniki dəstək kimi təşviqlər də tətbiq edilməlidir. Alternativ enerji regionların enerji müstəqilliyini artırır. Mərkəzi sistemlərdən asılılıq azalır və enerji çatışmazlığı problemi aradan qalxır. Bu isə regionların dayanıqlı inkişafını təmin edir. Enerji təminatında dayanıqlıq sosial sabitliyə də müsbət təsir göstərir. Regionlarda sənaye sahələri alternativ enerji ilə təmin olunduqda, istehsal daha davamlı və ekoloji baxımdan təhlükəsiz olur. Yerli idarəetmə orqanları da bu prosesdə fəal iştirak etməlidirlər. Bələdiyyələr və icra strukturları alternativ enerji təşəbbüslərini dəstəkləməlidirlər [3, s.32].

Regionlarda enerji kooperativlərinin yaradılması təşviq olunmalıdır. Bu kooperativlər birgə istifadə və istehsal modelləri əsasında fəaliyyət göstərməlidirlər. Bu yanaşma həm də sosial həmrəyliyi gücləndirir. Yerli icmalar enerji istehsalında pay sahibi olduqda məsuliyyət və maraq artır. Eyni zamanda bu, kənd yerlərində əhalinin urbanizasiyasının qarşısını ala bilər. Alternativ enerji imkanları olan bölgələrdə turizm və aqrar sektor da inkişaf edir. Yaşıl enerji istifadə edən kənd təsərrüfatı istehsalçıları beynəlxalq bazarlara çıxış imkanı qazanır. Ekoloji cəhətdən təmiz məhsulların istehsalı regionun brendinə çevrilə bilər. Regionlararası fərqlər alternativ enerji tətbiqi ilə azaldıla bilər. Çünki bu sahə bütün regionlara bərabər imkanlar təqdim edir. Təbii sərvətləri az olan ərazilər belə günəş və külək enerjisi hesabına inkişaf edə bilər. Alternativ enerji layihələri sosial və iqtisadi cəhətdən geridə qalmış ərazilərdə dönüş yarada bilər. Belə layihələr beynəlxalq donor təşkilatlarının da diqqət mərkəzindədir. Dünya Bankı və digər qurumlar regional enerji təşəbbüslərinə maliyyə dəstəyi göstərirlər. Regional inkişaf planlarında bu imkanlardan istifadə olunmalıdır. Enerji səmərəliliyi və davamlılıq prinsipləri strateji sənədlərdə əsas yer tutmalıdır. Alternativ enerji yalnız texniki məsələ deyil, həm də sosial və ekoloji məsələlərin həllinə yönəlmiş vasitədir. Regionların gələcək inkişafı üçün bu sahənin gücləndirilməsi zəruridir. Bu məqsədlə uzunmüddətli dövlət proqramları hazırlanmalıdır. Enerji resurslarından istifadədə balans və ədalət prinsipi əsas götürülməlidir. Regionların dayanıqlı gələcəyi məhz alternativ enerji ilə mümkün olacaqdır [4,s.52].

**Bərpa olunan enerji layihələrinin regionlara iqtisadi və sosial təsiri**

Bərpa olunan enerji layihələrinin regionlara təsiri təkcə enerji təminatı ilə məhdudlaşmır, bu layihələr eyni zamanda iqtisadi və sosial sahələrdə geniş dəyişikliklərə səbəb olur. Azərbaycanın müxtəlif bölgələrində həyata keçirilən günəş, külək və bioenerji layihələri həmin ərazilərin iqtisadi

aktivliyini artırır. Bu layihələr sayəsində yerli əhali üçün yeni iş yerləri yaradılır və məşğulluq səviyyəsi yüksəlir. Xüsusilə kənd və ucqar ərazilərdə bu cür layihələr əhalinin gəlir mənbələrini genişləndirir. Yeni enerji infrastrukturlarının qurulması tikinti, nəqliyyat və xidmət sahələrində də tələbat yaradır. Bu, dolayısı ilə regionlarda biznes mühitinin canlanmasına səbəb olur. Sahibkarlar və yerli investorlar alternativ enerji sahəsinə maraq göstərməyə başlayır. Regionlara yatırılan investisiyalar həmin ərazilərin ümumi iqtisadi göstəricilərini yaxşılaşdırır. Bərpa olunan enerji layihələri kənd təsərrüfatının inkişafına da müsbət təsir edir. Suvarma sistemləri və aqrar texnologiyalar üçün stabil enerji təminatı vacib rol oynayır. Kənd təsərrüfatı məhsullarının emalı və saxlanması üçün enerji ehtiyacları daha etibarlı şəkildə qarşılanır. Bu isə məhsul itkisinin qarşısını alır və bazara çıxış imkanlarını artırır. Bərpa olunan enerji sahəsində çalışan müəssisələr sosial məsuliyyət layihələrinə dəstək göstərir. Onlar məktəblərin, tibb məntəqələrinin və ictimai obyektlərin enerji ilə təminatına töhfə verirlər. Bu da sosial rifahın yüksəlməsinə səbəb olur. Eyni zamanda yerli əhali enerji qiymətlərinin sabitləşməsi ilə maddi cəhətdən daha az zərər görür. Alternativ enerji resurslarının istifadəsi regionların enerji təhlükəsizliyini gücləndirir. Bu, regional dayanıqlı inkişafın əsas komponentlərindən biridir. Bərpa olunan enerji ilə təmin olunan regionlar elektrik enerjisinin kəsilməsi riskindən daha az təsirlənir [5, s.113].

Bu da istehsalat və gündəlik həyatın davamlılığını təmin edir. Alternativ enerji istehsal edən regionlar, həm də enerji ixrac potensialı qazana bilər. Xüsusilə mikro və mini enerji stansiyaları icma səviyyəsində iqtisadi gəlir mənbəyinə çevrilə bilər. Yerli icmalar enerji kooperativləri yaratmaqla bu sahədə aktiv fəaliyyət göstərə bilər. Bu modellər əhali arasında həmrəyliyi və əməkdaşlığı gücləndirir. Regionlarda enerji istehsalı ilə yanaşı enerji təhsili də inkişaf etdirilir. Texniki kolleclər və təlim mərkəzləri vasitəsilə gənc kadrlar hazırlanır. Bu kadrlar gələcəkdə ölkə üzrə enerjinin davamlı inkişafında rol oynaya bilər. Bərpa olunan enerji layihələri sosial-iqtisadi bərabərliyin təmin olunmasında da mühüm vasitəyə çevrilir. Enerji ilə bağlı infrastruktur layihələri regionlararası fərqlərin azalmasına xidmət edir. İqtisadi cəhətdən geridə qalmış ərazilərdə bu layihələr stimullaşdırıcı təsir yaradır. Əhalinin ölkədaxili miqrasiyası azalır və yerli resurslardan istifadə stimullaşır. Eyni zamanda, bu layihələr ətraf mühitin qorunmasına da kömək edir. Təmiz enerji mənbələri havanın, suyun və torpağın çirklənməsinin qarşısını alır. Bu da əhalinin sağlamlığı və həyat keyfiyyəti baxımından önəmlidir. Regionlarda ətraf mühitin sağlam qalması turizm imkanlarını da genişləndirir. Yaşıl enerji istifadə edən bölgələr ekoloji turizm üçün daha cəlbedici olur. Bərpa olunan enerji layihələri beynəlxalq təşkilatların da diqqətini cəlb edir. Bu layihələrə ayrılan qrantlar və texniki yardımlar regionların inkişafına əlavə dəstək verir. Enerji siyasətində regionlara verilən diqqət milli təhlükəsizlik və iqtisadi suverenlik baxımından strateji əhəmiyyət daşıyır. Regional enerji layihələri dövlətin enerji siyasətinin yerlərdə uğurla reallaşmasına şərait yaradır. Bu layihələr nəticəsində yerli əhali dövlət proqramlarına daha çox inam göstərir. Sosial sabitlik və ictimai təhlükəsizlik bərpa olunan enerji layihələrinin əlavə sosial töhfələrindən biridir. Uzunmüddətli perspektivdə bu layihələr regionlarda həyat səviyyəsinin artması və rifahın bərabər bölgüsü üçün möhkəm zəmin yaradır. Bütün bu faktorlar birgə şəkildə regionların dayanıqlı inkişafına birbaşa və dolayı yolla xidmət edir. Buna görə də Azərbaycanda bərpa olunan enerji mənbələrinin regionlar üzrə geniş tətbiqi təkcə enerji sahəsində deyil, ümumilikdə milli inkişaf strategiyasında vacib yer tutur.

**Yaşıl enerji zonaları və Qarabağ regionunun yenidən qurulması**

Qarabağ regionunun yenidən qurulması üçün yaşıl enerji zonalarının yaradılması strateji əhəmiyyət kəsb edir. Bu bölgədə bərpa olunan enerji mənbələrinin tətbiqi həm ekoloji təmiz, həm də iqtisadi baxımdan dayanıqlı inkişafı təmin edə bilər. Qarabağda günəş enerjisi potensialı yüksəkdir və illik günəş radiasiyası təqribən 1600-1800 kVt/saat təşkil edir. Külək enerjisi də region üçün əlverişli alternativ mənbə kimi qiymətləndirilir. Son illərdə həyata keçirilən araşdırmalar göstərir ki, Qarabağda külək sürəti orta hesabla 4-5 m/s-dır ki, bu da kiçik və orta külək turbinlərinin effektiv işləməsi üçün uyğundur. Yaşıl enerji zonalarının yaradılması Qarabağda yeni iqtisadi imkanlar açacaq. Bu, regionun enerji asılılığını azaltmaqla yanaşı, işsizliyin azalmasına da

təkan verəcək. Azərbaycan hökuməti və beynəlxalq təşkilatlar Qarabağın bərpasında bərpa olunan enerji layihələrinə xüsusi diqqət ayırır. Məsələn, 2023-cü ilin məlumatına görə, Azərbaycanda bərpa olunan enerji istehsalının ümumi həcmi 600 MVt-a çatıb. Qarabağda isə yaşıl enerji layihələrinin payı gələcəkdə 20-25%-ə yüksəlməsi planlaşdırılır. Bu layihələr kənd təsərrüfatının inkişafına da müsbət təsir göstərəcək, suvarma və işıqlandırma kimi sahələrdə dayanıqlığı təmin edəcək. Yaşıl enerji zonaları bölgənin ekoloji vəziyyətinin yaxşılaşdırılmasına kömək edəcək. Qarabağda müharibə nəticəsində yaranmış ekoloji problemlərin aradan qaldırılması üçün təmiz enerji çox önəmlidir. Regionda hava və su çirkliliyinin azaldılması sağlamlıq vəziyyətinin yaxşılaşmasına səbəb olacaq. Yaşıl enerji layihələri eyni zamanda regionun turizm potensialını artıracaq. Təmiz və sakit enerji mənbələri ekoturizm üçün əlverişli mühit yaradacaq [6, s.92].

Qarabağda enerji infrastrukturu yenidən qurularkən, enerjinin bərpaolunan mənbələrdən təmin olunması davamlılıq prinsipini gücləndirəcək. Bu, həm də regionda sosial stabilliyin qorunmasına şərait yaradacaq. Yaşıl enerji zonalarının inkişafı ilə Qarabağda yeni iş yerlərinin yaradılması mümkün olacaq. Kənd yerlərində enerji istehsalında yerli icmaların iştirakı artırılacaq. Qarabağda elektrik enerjisi ilə təminatın keyfiyyəti yüksələcək və enerji kəsintiləri minimuma enəcək. Bu isə sənaye və kənd təsərrüfatı fəaliyyətlərinin genişlənməsinə səbəb olacaq. Regionda kiçik və orta biznesin inkişafı üçün əlverişli şərait yaranacaq. Azərbaycan Respublikası enerji siyasətində Qarabağda bərpa olunan enerji layihələrinin payını artırmağı prioritet hesab edir. Beynəlxalq təcrübə göstərir ki, yaşıl enerji zonalarının yaradılması sosial-iqtisadi inkişafa böyük təsir göstərir. Qarabağda da bu təcrübənin tətbiqi regional bərabərsizliyin azaldılmasına kömək edəcək. Regionda ətraf mühitin qorunması və bərpası üçün yaşıl enerji vacib şərtdir. Qarabağda günəş və külək enerjisindən istifadənin artması karbon qazı emissiyalarını əhəmiyyətli dərəcədə azaldacaq. Bu, Azərbaycanın milli ekoloji hədəflərinə uyğun gəlir. 2030-cu ilədək ölkədə bərpa olunan enerji mənbələrinin payının 30%-ə çatdırılması planlaşdırılır ki, Qarabağ da bu hədəfə öz töhfəsini verəcək. Qarabağda alternativ enerji layihələrinin maliyyələşdirilməsi üçün dövlət və özəl sektor arasında əməkdaşlıq gücləndirilir. Regional idarəetmə və yerli icmalar bu prosesdə fəal iştirak etməlidir. Yaşıl enerji zonalarının yaradılması Qarabağda təmiz və ucuz enerji təmin edəcək. Bu isə regionun sosial rifahını və həyat keyfiyyətini yüksəldəcək. Regionda enerji layihələrinin ekoloji təsirləri diqqətlə öyrənilməlidir. Qarabağda ekoloji davamlılıq prinsiplərinə riayət etmək prioritet olmalıdır. Yaşıl enerji zonalarının qurulması ilə əlaqədar texniki kadrların hazırlanması vacibdir. Qarabağda təhsil və təlim proqramları ilə yerli gənclərin bu sahəyə cəlb olunması planlaşdırılır. Bu, uzunmüddətli perspektivdə regionun enerji müstəqilliyini təmin edəcək. Qarabağda yaşıl enerji layihələrinin icrası yerli əhalinin sosial-iqtisadi vəziyyətini yaxşılaşdıracaq. Bu isə regionun ümumi bərpasına mühüm töhfə verəcək. Azərbaycan hökuməti Qarabağda yaşıl enerji sektorunun inkişafı üçün qanunvericilik və inzibati dəstəyi gücləndirir. Regionda alternativ enerji layihələrinin genişlənməsi ilə bağlı beynəlxalq donorlarla əməkdaşlıq davam edir[7].

Qarabağda yaşıl enerji zonalarının formalaşması uzunmüddətli və dayanıqlı bərpa prosesinin əsasını qoyur. Bu proses həm də Azərbaycanın enerji siyasətinin regionlarda uğurlu tətbiqinin göstəricisidir. Qarabağda yaşıl enerji sahəsinin inkişafı həm milli, həm də beynəlxalq enerji strategiyalarına uyğun gəlir. Qarabağın yenidən qurulması yalnız infrastrukturun bərpası ilə deyil, həm də ekoloji təmiz enerji resurslarının tətbiqi ilə mümkündür. Bu isə regionun dayanıqlı inkişafına və sosial-siyasi stabilliyinə təkan verəcək. Qarabağda yaşıl enerji layihələri ətraf mühitin qorunması və iqtisadiyyatın şaxələndirilməsi üçün effektiv vasitədir. Bu layihələr regionda yeni iqtisadiyyatın formalaşmasına səbəb olacaq. Qarabağda yaşıl enerji zonalarının yaradılması Azərbaycanın regionlarda davamlı inkişaf strategiyasının mühüm hissəsidir.

**Ədəbiyyat**

[1]. Əliyev, R.M. Bərpa olunan enerji və onun iqtisadi səmərəliliyi: monoqrafiya / R.M.Əliyev, – Bakı: Enerji, – 2021. – 210 s.

[2]. Həsənov, F.Q. Günəş və külək enerjisinin Azərbaycanda inkişaf perspektivləri / F.Q. Həsənov, S.A.Məmmədova // Azərbaycan Elmi Jurnalı, – 2022, №4. – s. 75-89.
[3]. "Azərbaycan Respublikasının enerji strategiyası" // Azərbaycan Respublikası Energetika Nazirliyi. –Bakı, –2018. – 64 s.
[4]. "Bərpa olunan enerji layihələrinin regionlarda təsiri" hesabatı // Dünya Bankı. –Vaşington, 2020. – 98 s.
[5]. Məmmədov T.İ. Alternativ enerji və regionların sosial-iqtisadi inkişafı: elmi məqalə // Beynəlxalq Enerji Konfransı (Bakı, 2023). – Bakı: Elm, –2023. – s. 112-119.
[6]. Qasımova N.R. Azərbaycanın bərpa olunan enerji potensialı və onun istifadəsi / N.R.Qasımova, – Bakı: Azərbaycan Universiteti, –2020. – 145 s.
[7]. Qaradağ Günəş Elektrik Stansiyası layihəsi üzrə illik hesabat // Masdar Company. –Abu-Dabi, –2022.

**Summary**
**Application of renewable energy sources in Azerbaijan and their impact on regional sustainable development**
***Baghirova N. C.***

***Keywords:*** *renewable energy, alternative energy sources, solar energy, wind energy, hydro energy, energy security, green energy zones, regional development, energy policy, sustainable development.*

In modern times, the development of renewable energy sources in Azerbaijan plays a strategic role in ensuring energy security and ecological sustainability. The country's favorable geographical location allows efficient use of solar, wind, and hydro energy potential. The adopted state energy strategies and the "Green Energy" concept aim to increase the share of renewable energy. Large-scale construction of solar and wind power plants is being carried out in Garadag and Khizi-Absheron regions. Technological innovations, education, and international cooperation in the alternative energy sector contribute to the success of these projects. The improvement of the legal framework and the attraction of investors accelerate the development of the sector. The designation of Karabakh and East Zangezur economic regions as "green energy zones" is an important step for regional development. These efforts serve the diversification of the country's energy balance and sustainable development.

**Резюме**
**Применение возобновляемых источников энергии в Азербайджане и их влияние на устойчивое развитие регионов**
***Багирова Н. Д.***

***Ключевые слова:*** *возобновляемая энергия, альтернативные источники энергии, солнечная энергия, ветровая энергия, гидроэнергия, энергетическая безопасность, зеленые энергетические зоны, развитие регионов, энергетическая политика, устойчивое развитие.*

В современном мире развитие возобновляемых источников энергии в Азербайджане играет стратегическую роль в обеспечении энергетической безопасности и экологической устойчивости. Благоприятное географическое положение страны позволяет эффективно использовать потенциал солнечной, ветровой и гидроэнергии. Принятые государственные энергетические стратегии и концепция «Зеленая энергия» нацелены на увеличение доли возобновляемых источников энергии. В регионах Гарадаг и Хызы-Абшерон ведется масштабное строительство солнечных и ветровых электростанций. Технологические инновации, образование и международное сотрудничество в сфере альтернативной энергетики способствуют успешной реализации проектов. Улучшение законодательной базы и привлечение инвесторов ускоряют развитие отрасли. Объявление Карабаха и Восточного Зангезура экономическими «зелеными энергетическими зонами» является важным шагом для регионального развития. Эти усилия способствуют диверсификации энергетического баланса страны и устойчивому развитию.

**UOT 372.8:7** DOI 10.54758/16801245_2025_21_4_91

# Xüsusi məktəblərdə sağlamlıq imkanları məhdud uşaqların estetik tərbiyəsi

**Dadaşov İlham Minacət oğlu** ORCID

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, baş müəllim*
*ilham.dadashov@sdu.edu.az*

**MƏQALƏ HAQQINDA MƏLUMAT**

***Məqalənin tarixçəsi***
*Daxilolma tarixi: 25.04.2025*
*Düzəliş tarixi: 30.06.2025*
*Qəbulolunma tarixi: 03.10.2025*

***Açar sözlər***
*estetik tərbiyə, qavrayış, zövq, emosiyalar, psixoloji rahatlıq, naturadan rəsm, müəllim, valideyn və şagird əməkdaşlığı*

**XÜLASƏ**

*Məqalədə müasir dövrdə xüsusi məktəblərdə sağlamlıq imkanları məhdud uşaqların təlim-tədris prosesində estetik tərbiyənin təşkili və inkişafından bəhs olunur. Məhz estetik tərbiyənin sağlamlıq imkanları məhdud uşaqların zahiri və daxili gözəlliklərinin bir vəhdətdə inkişafında, onlarda estetik-emosional hislərin yaranmasında və formalaşmasında təsir etmək qüvvəsinə malik olub cox mükəmməl yaradıcı şəraitin yaranmasında önəmli rolu olduğu bildirilir. Xüsusən də estetik tərbiyənin xüsusi məktəblərdə təsviri incəsənət dərsləri vasitəsi ilə uşaqlara aşılanması onlarda mənəvi aləmin və həyata bədii-estetik münasibətlərin tərbiyə olunmasında nə qədər vacib olması məqalədə öz əksini tapmışdır. Estetik fəaliyyətdə naturadan rəsm dərslərinin və tədris prosesində təsviri incəsənət əsərləri ilə tauış etməyin forma, iisul və vasitələrinin də, sağlamlıq imkanları məhdud uşaqların estetik tərbiyəsinin inkişafında güclü təsir qüvvəsinə malik olaraq nə qədər vacib olduğu məqalədə qeyd edilir. Həmçinin, sağlamlıq imkanları məhdud uşaqların estetik fəaliyyətlərinin keyfiyyətli təminatına müsbət təsir edən amillərdən müəllim, valideyn, şagird əməkdaşlığının lazımi səviyyədə olması məqalədə göstərilir.*

## Giriş

Müasir dövrdə təlim-tədris prosesində sağlamlıq imkanları məhdud uşaqların estetik tərbiyəsi ən vacib və önəmli məqamlardandır. Çünki, estetik tərbiyə sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyasının təmin olunmasında, onların səmərəli şəkildə cəmiyyətə adaptasiyasında və həyatlarında bir çox nailiyyətlərin əldə olunmasında əsas faktorlardan biridir. Bu da gələcəkdə əlilliyi olan uşaqların bir şəxsiyyət kimi formalaşmasında, onların sağlamlıq vəziyyətlərinin, sosialpsixoloji xususiyyətlərinin muəyyənləşdirilməsində və mənəvi cəhətdən kamil vətəndaş, xalqa, yaradıcılığa, yaşadığı torpağa bağlı insan kimi yetişməsində bilavasitə böyük əhəmiyyətə malikdir. Bildiyimiz kimi, "Estetika" yunanca "estezis" sözündən götürülüb mənası, hiss etmək, qavramaq deməkdir. Məhz ona görə də, gözəlliyin əsas və başlıca mənbələrini insan gözəlliyi ilə birlikdə incəsənət, ədəbiyyat, təbiət, cəmiyyət gözəlliyi təşkil etdiyindən, estetik tərbiyənin də təlim-tədris prosesində sağlamlıq imkanları məhdud uşaqların zahiri və daxili gözəlliklərinin bir vəhdətdə inkişafına, şüurlu şəkildə mənimsəməsinə, onlarda estetik-emosional hisslərin formalaşmasına təsir etməklə cox mükəmməl yaradıcı şəraitin yaranmasına imkan yaradır. [1, s.84].

Xüsusi məktəblərdə təlim-tədris prosesində sağlamlıq imkanları məhdud uşaqların mənəvi dünyasındakı gözəllik təsəvvürləri (meyarları) keçirilən təsviri incəsənət dərsləri ilə formalaşaraq, onlarda müxtəlif termin, anlayışlar və xüsusilə bədii ifadə vasitələri (kompozisiya, dekor, heykəl, rəsm) şəklində özünü əks etdirir. Belə ki, incəsənət uşaqlarda düşüncə və hissin inkişaf prosesinə daha geniş və aydın təsir edir. Onlarda gerçəkliyin hərtərəfli şəkildə mükəmməl başa düşülərək qavranılmasına, xüsusilə də həyatda baş verən müxtəlif hadisələrə müəyyən münasibət tərbiyə

etməsinə imkan yaratmaqla çox mühüm rol oynayır. Təsviri incəsənət dərsləri vasitəsi ilə əlilliyi olan uşaqlarda müşahidə etdikləri həyat hadisələrini görmək və xarakterizə etmək, mənəvi aləmin və həyata bədii-estetik münasibətlərin tərbiyə olunması bacarıqları özünü göstərir [4, s. 95]. Bu da əlilliyi olan uşaqlarda müəyyən estetik hissləri və estetik münasibətləri formalaşdırır və onların gözəlliyi görmək, duymaq, ondan həzz almaq kimi müxtəlif çalarda olan bacarıqlarını daha müsbət istiqamətə yönəldir. Estetik hislər uşaqlarda estetik tələbatlar əsasında gözəllikdən aldığı dərin emosional həyəcan və hisslərin onlarda dərin iz buraxaraq bədii-estetik dəyərlərlə bağlı ünsiyyətə ehtiyac doğurur. Əsasən də, estetik şüur və hisslərin təsiri uşaqlarda ən vacib olan estetik zövqü formalaşdırmaqla yanaşı onlarda estetik mühakimə etmək və gözəlliyi qiymətləndirmək bacarığını gerçəkləşdirir.

Xüsusi məktəblərdə sağlamlıq imkanları məhdud uşaqlarla təsviri incəsənət dərslərində estetik tərbiyə müəyyən lazımi vəzifələri həyata keçirir. Əsasən bu vəzifələr də əlilliyi olan uşaqlarda estetik baxış və təsəvvürləri, estetik hissləri, incəsənətə estetik tələbatı, estetik zövqü və mühakimə etmək bacarığını daha da təkminləşdirərək onları təlim prosesində doğru istiqamətə yönəltməklə keyfiyyətli şəkildə inkişaf etdirir. Bu inkişaf mərhələsində artıq içtimai həyatda və ətrafımızda olan təbiətin gözəlliklərini, onun gerçək olan harmoniyasını dərk etməkdə, duymaqda, onu düzgün anlamaqda, dəyərləndirməkdə və ona qarşı məhəbbət hissini formalaşdırmaqda uşaqlarda böyük imkanlar yaradır. Həmçinin, təsviri fəaliyyət prosesində sağlamlıq imkanları məhdud uşaqların estetik qavrayış və emosiyalarının inkişafı üçün daha geniş şərait yaranır və bu da müəyyən vaxt keçdikcə baş verənlərə onlarda estetik münasibət formalaşdırır.

Xüsusi məktəblərdə tədris prosesində təsviri fəaliyyətin spesifik xüsusiyyətlərini nəzərə almadan sağlamlıq imkanları məhdud uşaqlarla estetik tərbiyə ilə bağlı nəzərdə tutduğumuz məqsədə nail olmaq cox çətindir. Bu xarakterik xüsusiyyətləri nəzərə alaraq qarşıya qoyduğumuz məqsədə nail olmaq üçün imkan daxilində uşaqlarla dərslərin əyani və praktik formada keçirilməsinə daha çox üstünlük vermək lazımdır [2, s. 173]. Məsələn, naturadan rəsm dərslərində ilk növbədə əyani formada natürmortun işlənməsində uşaqların estetik fəaliyyəti daha dolğun şəkildə özünü büruzə verərək inkişaf edir. Hər şeydən əvvəl naturadan rəsm fəaliyyətində uşaqların əşyaları xüsusiyyətlərinə görə seçməsi, əyani vəziyyətdə formanın estetik görünüşünü görməsi, detalların müxtəlif qaydada düzülüşü, bir-birindən fərqli ölçüdə olması, hissə münasibətlərinin və xarakterik əlamətin düzgün verilməsi çox önəmlidir. Xüsusən də, naturada praporsiyaların təyini, rəııgi və fəzada yerləşdirmə qaydalarının qavranılması, uşaqlarda təsvir ardıcıllığının mənimsənilməsini, fəza təsəvvürlərini, zövqü və təsviri fəaliyyətə marağı formalaşdırır. Eyni zamanda naturada əşyanın formasının harmoniyası, rəng uyğunluğunun təyin olunması, uşaqlarda ritmin və estetik hisslərin inkişafında, zənginləşməsində, çox böyük təsir etmək gücünə malik olub onlarda müsbət imkanların səfərbər olunmasına əlverişli şərait yaradır. Araşdırmalardan məlum olur ki, naturadan rəsm fəliyyətində formanın konstruktiv qurluşunun dəqiq təsviri, komponovkaya uyğun kompozisiyada düzgün ritmik yerləşdirilməsi və işıq-kölgənin harmonik ahəngdarlıqla verilməsi çox vacibdir. Bu işlərə rəsm fəaliyyətində əməl olunması sağlamlıq imkanları məhdud uşaqlarda psixoloji rahatlıq yaradır və onlarda müsbət emosiyalar oyatmaqla estetik tərbiyənin inkişafına öz töhfəsini verərək sağlamlıq durumlarında irəliləyişə səbəb olur.

Estetik fəaliyyətdə naturadan rəsm dərslərinin güclü təsir qüvvəsinə malik olmasını bir cox tanınmış alimlər də öz əsərlərində qeyd edərək çox böyük dəyər vermişlər. Bu fəaliyyətlə əlaqəli tanınmış fransız filosofu J.J. Russo naturadan rəsm etməyi yüksək qiymətləndirərək estetik tərbiyənin inkişafında nə qədər vacib olduğunu yazırdı: “*Ətraf aləmi duyğuların köməyi ilə dərketmək olar. Bunu inkişaf etdirmək üçün isə naturadan rəsmi öyrənmək lazımdır.*” [5, s. 112].

Sağlamlıq imkanları məhdud uşaqların estetik tərbiyəsinin xüsusiyyətlərinin formalaşdırılmasında ilk növbədə tədris prosesində təsviri incəsənət əsərləri ilə tanış etməyin forma, üsul və vasitələrinin də, birbaşa müsbət təsiri vardır. Uşaqlar incəsənət əsərləri vasitəsi ilə nəinki

həyatda baş verən hadisələrlə tanış olur, hətta onlar həyatı estetik səviyyədə anlayaraq mənimsəyirlər. Təcrübə göstərir ki, belə bir yanaşma onların özünəməxsus şəkildə həyata estetik baxışlarını daha da mükəmməlləşdirərək inkişaf etdirir. Əsərlərdə təsvir olunan həyat hadisələrinin ifadəliliyinə, təbiət təsvirlərinə, müxtəlif insan və heyvan təsvirlərindəki xarakterik xüsusiyyətlərə, təsvir olunan detalların ecazkarlığına və təsvirin məzmununa, uşaqların diqqətlərini yönəltmək vacibdir. Ona görə ki, bu proses onlarda elementar olaraq əsərdə təsvir olunan süyeti estetik baxımdan qavramaq və onu dəyərləndirmək bacarığı formalaşdırır. Belə iisul və vasitələrin tədris prosesində tətbiqində uşaqlar şəklin məzmununu daha aydın başa düşürlər. Onlar obrazların tipik xüsusiyyətlərini, ifadə vasitələrini, təsvir olunan əşyaların qurluşunu hiss edir və bəzi xarakterik əlamətləri düzgün görməklə müəyyən vaxt çərçivəsində özlərinin müşahidə və nitq qabiliyyətlərini daha yüksək səviyyədə inkişaf etdirirlər. [6, s. 87].

Eyni zamanda sağlamlıq imkanları məhdud uşaqların estetik fəaliyyətlərinin keyfiyyətli təminatına müsbət təsir edən bir çox amillər də vardır ki, bunlardan da ən vacib olanı onların valideynlərinin təhsil müəssisəsi ilə mütamadi olaraq sıx əməkdaşlıq etməsi və təhsil prosesində daha fəal aktiv iştirakıdır. Belə ki, valideynlərin bu mərhələdə iştirakı və lazım olan dəstəyi göstərməsi, xüsusən də müəllim, valideyn, şagird əməkdaşlığının lazımi səviyyədə olması əlil uşaqların estetik fəaliyyət istiqamətində aldıqları təhsilin keyfiyyətində, yüksək nəticə əldə edərək uğur qazanmalarında mühüm vasitələrdən biridir. Məsələn, xüsusi məktəblərdə bu fəaliyyət növü üzrə aparılan işlərin keyfiyyət meyarının bir hissəsi əsasən davamlı olaraq valideynlər tərəfindən uşaqlar üçün evdə lazımi şəraitin yaradılmasından çox asılıdır. Əlil uşaqların məktəbdə nəzəri və praktik cəhətdən aldıqları biliyin evdə təkrar olaraq valideyn nəzarətində aparılması onların sağlamlıq durumunun, istedadlarının, qabiliyyətlərinin inkişafına təsir edəcək qüvvəyə malikdir. [8, s. 169] Bu da sağlamlıq imkanları məhdud uşaqların sabit psixo-emosional sağlam inkişafında, onların dünya görüşünün genişləndirilməsində və keyfiyyət baxımından yaxşı təhsil almasında çox mühüm rol oynayır. Bütün bu işlərin əlaqəli şəkildə təsviri incəsənət dərslərində sistemli və ardıcıl olaraq aparılması sağlamlıq imkanları məhdud uşaqların təsviri fəaliyyət istiqamətdə əldə etdikləri müəyyən bilik və bacarıqları möhkəmləndirir. Ən vacibi də əlil uşaqların estetik qavrayış və emosiyalarının inkişafı üçün geniş imkanlar yaratmaqla müəyyən zaman çərçivəsində onlarda estetik zövqü inkişaf etdirir. Bu inkişaf prosesinin faydalı cəhətlərindən biri də ondan ibarətdir ki, estetik tərbiyə uşaqların sağlamlıq durumuna çox müsbət təsir etməklə onların psixoloji cəhətdən hazırlığında, əsasən bilik, bacarıq və səriştələrinin, sağlamlıq vəziyyətlərinin, sosialpsixoloji xususiyyətlərinin, psixoloji, fizioloji, əqli, intellektual və mənəvi cəhətdən hazırlıqlarının daha yaxşı durumda olmasına birbaşa kömək edir [7, s. 128]. Bu da əlilliyi olan uşaqlaın gələcək həyatlarına və özlərinin müstəqil fəaliyyətlərinə böyük dəstək olaraq onların cəmiyyətə inteqrasiyasında və müxtəlif şəraitlərə asanlıqla uyğunlaşmasında mühüm rol oynamaqla sonrakı mərhələdə uğur qazanmalarında və səmərəli nailiyyətlər əldə etmələrində çox böyük imkanlar yaradır.

Buradan göründüyü kimi, əsas fəaliyyət istiqamətlərindən biri olan estetik tərbiyə təlim-tədris və tərbiyə prosesində sağlamlıq imkanları məhdud uşaqların müasir dövrün tələblərinə cavab verə biləcək səviyyədə mədəni durumlarının hazırlıq dönəmini uğurla aparmaqdan ötrü lazımi məqamlardan biridir. [3, s. 94]. Deməli, belə bir nəticəyə gəlmək olar ki, fikrimizcə, müasir dövrün ziddiyyətli, çətin, mürəkkəb və yüksək dinamik inkişaf şəraitində xüsusilə, sağlamlıq imkanları məhdud uşaqların təlim tədris prosesində estetik tərbiyəsi günün aktual problemlərindəndir. Çünki, yaşadığımız dövrün sürətli inkişafında əsasən sağlamlıq imkanları məhdud uşaqların dövrün tələblərinə uyğun olaraq estetik tələbatlarının formalaşdırılmasının düzgün istiqamətdə aparılması özünəməxsus xüsusiyyətə malik olaraq uzun bir prosesdir. Onun üçün də hazırlıq dönəminin uğurla aparılması böyük əmək, səbr və xüsusi yanaşna, peşəkarlıq tələb edir ki, sonda uşaqlar estetik fəaliyyət baxımından lazımi nəticəni əldə edə bilsinlər. [8, s. 151]. Belə bir yanaşma gələcəkdə sağlamlıq imkanları məhdud uşaqların mədəni durumuna, davranışına, onların dünya görüşünə,

karyera və öz sağlamlıqlarına uyğun peşə seçiminə, ümumiyyətlə, özlərini həyatda hərtərəfli inkişaf etmiş yüksək mənəviyyata sahib bir müstəqil şəxsiyyət kimi təsdiq etməyində ən vacib və başlıca şərtlərdəndir

**Nəticə**

Beləliklə, yekun olaraq belə qənaətə gəlmək olar ki, sağlamlıq imkanları məhdud uşaqların estetik tərbiyəsinin təşkilində uğurlu nailiyyətlər əldə etmək üçün mütləq şəkildə xüsusi məktəblərdə bu fəaliyyət növü ilə bağlı düzgün və dəqiq təhsil strategiyasının həyata keçirilməsi çox vacibdir. Bu işlərin də məktəb, ailə və şagirdlərlə birgə qarşılıqlı fəaliyyət nəticəsində aparılması bir çox nailiyyətlərin əldə olunmasına təsir göstərməklə uşaqlarda estetik duyumun inkişaf etdirilməsi baxımından effektiv təsir etmək qüvvəsinə malik olub mühüm əhəmiyyət kəsb edir.

**Ədəbiyyat**


[1]. Həmzəyev, M.Ə. Pedaqoji psixologiya / M.Ə. Həmzəyev, –Bakı: Adiloğlu, –2003. –224 s.

[2]. Rüstəmov, Ç.A. Təsviri incəsənətin tədris metodikasına dair praktik məşğələlər / Ç.A.Rüstəmov, –Bakı: İşıq, –2001, –140 s.

[3]. Talıbov, Y. Pedaqogika / Y.Talıbov, Ə.Ağayev, A.Eminov [və b.]. // –Bakı: Adiloğlu, –2003, –254 s.

[4]. Грошенков, И.А. Изобразительная деятельность во вспомогательной школе. Учеб. пособие. / Грошенков И.А., –М.: Просвещение, –2003, –152 с.

[5]. Грошенков И.А. Обучение изобразительному исскуству. Обучение учащихся 1-4 классов вспомогательной школы / И.А. Грошенков, –М.: Просвещение, –1983, –179 с.

[6]. Головина Т.Н. Изобразительная деятельность учащихся вспомогательной школы / Т.Н.Головина, –М.: Педагогика, –1974, –120 с.

[7]. Головина Т.Н. Эстетическое воспитание во вспомогательной школе / Т.Н. Головина –М.: Просвещение, –1972, –146 с.

[8]. Грошенков И.А. Коррекционно-развивающая направленность обучения рисованию во вспомогательной школе. Психологические проблемы коррекционной работы во вспомогательной школе / Грошенков И.А., –М.: Педагогика, –1980, –224 с.



**Summary**

**Aesthetic education of children with disabilities in special schools**

***Dadashov I.M.***

***Keywords:*** *aesthetic education, perception, pleasure, emotions, psychological comfort, drawing from nature, teacher, parent and student cooperation.*

The article talks about the organization and development of aesthetic education in the educational process of children with disabilities in special schools in modern times. It is said that aesthetic education has the power to influence the development of the external and internal beauty of children with limited health capabilities, the creation and formation of aesthetic-emotional feelings in them, and has an important role in the creation of very perfect creative conditions. In particular, how important aesthetic education is to instill in children through fine art lessons in special schools in educating them about the spiritual world and artistic-aesthetic relationships to life is reflected in the article. It is mentioned in the article how important it is to have a strong influence on the development of aesthetic education of children with disabilities, the forms, iisuls and means of teaching in nature drawing lessons in aesthetic activity and visual arts in the teaching process. Also, the article shows the proper level of cooperation between teachers, parents, and students among the factors that have a positive effect on the quality of aesthetic activities of children with disabilities.

**Резюме**

**Эстетическое воспитание детей с ограниченными возможностями здоровья в специальных школах**

***Дадашов И.М.***

***Ключевые слова:*** *эстетическое воспитание, восприятие, удовольствие, эмоции, психологический комфорт, живопись с натуры, сотрудничество учителя, родителя и ученика.*

В статье рассматривается организация и развитие эстетического воспитания в процессе обучения и обучения детей-инвалидов в специальных школах в современное время. Говорят, что эстетическое воспитание играет важную роль в развитии внешней и внутренней красоты детей с ограниченными возможностями в единстве, в создании и формировании у них эстетико-эмоциональных чувств и в создании очень совершенных творческих условий. В частности, в статье отражено, насколько важно привитие эстетического воспитания детям посредством уроков изобразительного искусства в специальных школах для воспитания у них духовного мира и художественно-эстетических отношений к жизни. В статье отмечается, насколько важны формы, идеи и средства занятий натуральным рисунком в эстетической деятельности и обмена произведениями изобразительного искусства в образовательном процессе, а также сильное влияние в развитии эстетического воспитания детей с ограниченными возможностями. Также из факторов, положительно влияющих на качественное обеспечение эстетической деятельности детей-инвалидов, в статье показан необходимый уровень сотрудничества педагогов, родителей, учащихся.

**UOT 37.016** DOI 10.54758/16801245_2025_21_4_96

# Olimpiada hazırlığı üçün qeyri-standart həndəsə məsələləri

**Əliyeva Aynurə Ruslan qızı**

*Sumqayıt Dövlət Universiteti, Sumqayıt, Azərbaycan, müəllim*
*aynura.aliyeva@sdu.edu.az*

| MƏQALƏ HAQQINDA MƏLUMAT | XÜLASƏ |
|---|---|
| ***Məqalənin tarixçəsi***<br>*Daxilolma tarixi: 14.07.2025*<br>*Düzəliş tarixi: 22.09.2025*<br>*Qəbulolunma tarixi: 03.12.2025*<br><br>***Açar sözlər***<br>*metodiki yanaşma, funksiya, dəyişəni olan ifadə, ən böyük, ən kiçik, sabit kəmiyyət, triqonometriya, tədbiqi, praktik, çevrə, sahə, qeyri – standart, çevrəyə daxildən toxunan* | *Məqalədə istifadə olunan həndəsə məsələlərinin tətbiqi baxımından həmişə praktikada rast gəldiyindən və tipləri baxımından qeyri-standart olduqları üçün orta məktəbdə yüksək məntiqi təfəkkürlü şagirdlərin və universitet tələbələrinin elmi, praktik, olimpiadalara hazırlıq səviyyəsinin artırılması baxımından səmərəlidir* |

Test üsulunun bir çox müsbət tərəfiylə yanaşı mənfi-qüsurlu nəticələridə vardı. İstifadə edilən düsturların, teoremlərin, xassələrin isbatını öyrənməyə sanki ehtiyac yoxdur, həndəsə fənni üzrə bir çox hazır düsturların necə alınması, qurma məsələləri ,tətbiqi məsələlər, maksimum-minimum məsələlər, verilən materialdan səmərəli istifadə etmək kimi tətbiqi məsələlərin həllində də şagird, tələbə və hətta müəllimlər də çətinlik çəkirlər. Bu kimi səbəblərdən həndəsəyə maraq sanki azalmış və nəticədə tələbələrin bu fənnə marağında da bir azalma müşahidə olunmaqdadır.

Məqalədə orta məktəb həndəsə kursunu mükəmməl bilmək şərti ilə bir neçə qurma, səmərəli istifadə etmə, dərslikdən kənar olan qeyri-standart tətbiqi məsələlərin həlli metodikaları araşdırılacaqdır. Məqsəd olimpiadalara, konkurs və konfranslara hazırlıqlı olmaq məqsədi daşıyır. Ən əsası isə həndəsə riyaziyyatın digər sahələrinə nisbətən daha asan dərk edilən olduğundan,buna isə səbəb onun daha əyani olmasıdır,şagirdlərdə bu fənnə marağı artırma və gələcəkdə həyatdan olan ,tikintidə konstruktor-layihə bürolarından və digər layihələndirmə işlərində qarşıya çıxacaq müxtəlif tip məsələlərin həllinin qeyri-standart həllinin öhdəsindən gəlməkdir.

Məqalədə yazacağımız məsələlərin həlli üçün yuxarıda qeyd etdiyimiz kimi orta məktəb həndəsə kursunun materialını bilmək zəruridir. Lakin məsələlər tətbiqinə bu baxımdan da qeyri-standart olduqları üçün həm maraqlı və həmdə həlli yolları müxtəlifdir. Bu tip məsəsələrin həlli metodikası yaradıcılıq qabiliyyətini artırır. Məsələnin həlli üçün fərqli və yeni yanaşmalar tələb edir və ən əsası həlli metodikası baxımındn bir birinə bənzəmirlər.

I- Məqalədə çevrə daxilinə çevrə kəsiklərinin bir birinə toxunaraq yerləşdirilməsi kimi bir maraqlı tətbiqi hala baxılmış;

II- Məqalədə verilmiş materialdan maksimum səmərəli istifadə edə bilmək üçün məlum formalı fiqurdan sahəsi ən böyük ( və ya ən kiçik) məlum fiqurun kəsilməsi kimi bir praktik məsələyə baxılmış;

III- Məqalədə yenə tətbiqi baxımdan çox rast gəlinə bilən, konkret olaraq sahələri məlum düzbucaqlı və kvadratlardan təşkil olunmuş (Vəya əvvəlcədən verilmiş fiqurun hissələrə kəsilməsi) kimi məsələyə baxılır.

IV- Məqalələrdə çox tez-tez rast gələ bildiyiniz toxunan çevrələr məsələsidir.

V-Yenə tətbiqi baxımdan maraqlı olan bir düzbucaqlı və ya kvadrat daxilində götürülmüş ixtiyari nöqtənin onun tərəflərinin orta nöqtələrini və ya təpə nöqtələrini birləşdirən düz xətt parçaları vasitəsiylə onun birinin sahəsi məlum olmayan hissəyə kəsilməsi kimi məsələnin həlli araşdırlmışdır.

**Məsələ 1.** Çevrə daxilinə bir birinə toxunan yarımçevrələr çəkilmişdir. Çevrənin radiusu məlum olduqda daxilə çəkilmiş çevrələrlə əhatə olunmuş yarımdairələrin sahələri cəmini tapın.




Məsələnin həlli və onun araşdırılması: $OA = R\,; O_1M = b\,; O_2$N=a qəbul edək və məlum qurma işlərini aparaq. Məlum terorema görə çevrə daxilində kəsişən vətərlərin kəsişmə nöqtəsindən məsafələri məlumdursa, dördüncünüdə tapmaq olar. Yəni teoremi məsələyə tətbiq etsək: $CK = x$, $KP = a + b$, $KM = b + a$, $QM = 2b - (b + a) = b - a$, $x(a + b) = (b - a)(a + b)$ alarıq. Bu münasibəti sadələşdirək, $x = b - a$ alarıq. İndi isə şəkil üzərində növbəti qurma işlərini aparaq :

Yəni $\Delta\, CPN - i$ quraq. Hansı ki , $CN = 2R$ , $CP = (a + b + b - a) = 2b$ və $PN = 2a$ olan $\Delta CPN$ -düzbucaqlı olduğundan Pifaqor teoreminə görə

$(2a)^2 + (2b)^2{=}(2R)^2 \Rightarrow R^2{=}a^2 + b^2$

İndi isə sahələri hesablayaq:

1) R-radiuslu dairənin sahəsi: $S_r = \pi R^2$

2) Yarımdairələrin sahələri cəmi: $S = \frac{\pi}{2}(a^2 + b^2) = \frac{\pi R^2}{2}$

Deməli , a və b ədədlərinin verilməsindən asılı olmayaraq istənilən halda R radiuslu çevrənin daxilinə çəkilmiş yarımdairələr bir birinə toxunarsa,onda onların sahələri cəmi verilmiş dairənin sahəsinin $\frac{1}{2}$-nə bərabərdir.

**Məsələ 2.** Düzbucaqlı üçbucaq formasında verilmiş dəmir lövhədən sahəsi ən kiçik olan düzbucaqlı kəsmək tələb olunur. Əgər məsələni qiymətləndirərək,düzbucaqlı kəsildikdə üçbucağın katetlərindən qalan hissələri AM=4sm və PC=3 sm qəbul etsək, düzbucaqlının sahəsi nə qədər olar? Üçbucağın minimum sahəsi nə qədər olar?




**Həlli:** Kəsiləcək minimum sahəyə malik düzbucaqlının tərəflərinin $x$ və $y$ ilə işarə etsək və şəkildəkiləri nəzərə alsaq,

$$S_{\Delta ABC} = S_{\Delta AMN} + S_{\Delta NPC} + S_{\blacksquare} = \frac{4x}{2} + \frac{3y}{2} + xy \;\Rightarrow \frac{4}{y} = \frac{x}{3} \Rightarrow 12 = xy$$

Deməli, üçbucağın oxşarlığına görə $12 = xy$ olacaq.

Onda $S_{\Delta ABC} = f(x;y) = \frac{4x}{2} + \frac{3y}{2} + 12$ və $y = \frac{12}{x}$ olduğunu nəzərə alsaq:

$$S_{\Delta ABC} = f(x) = \frac{4x}{2} + \frac{28x}{2} + 12 = 2x + \frac{14}{x} + 12$$

$f(x) = 2x + \frac{18}{x}$+12 funksiyasının minimumunu axtaraq. $xy = 12$

$$f(x) = 2 - \frac{18}{x^2} = 0 \Rightarrow x^2 = 9 \Rightarrow x = \pm 3$$

$x = 3\ olduqda\ y = 4\ olacaq.$ Deməli, kəsiləcək düzbucaqlının sahəsi $x \cdot y = 3 \cdot 4 = 12sm^2$ olar. $f_{min}(3) = 3 \cdot 4 = 12$ və $S_\Delta = 24$.




Bu şərtlər daxilində düzbucaqlının sahəsini dəyişməz saxlamaqla üçbucağın sahəsi minimum nə qədər olar?

**Qeyd:** Katetlərdən birini kiçiltmək,digərini böyütmək şərti ilə və katetlərdən kəsilən hissələri (4 sm və 3sm) sabit saxlamaqla üçbucağın sahəsi dəyişir. Bu üçbucaqlar içərisindən sahəsi minimum olanı hansıdır?

**Məsələ 3.** Düzbucaqlı şəkilində sahə, şəkildə verildiyi kimi 4 sayda müxtəlif düzbucaqlılara və mərkəzdə bir sayda kvadrata bölünmüşdür.




Sahələr müvafiq olaraq:
$S_{\Delta 1} = 14$ , $S_{\Delta 2} = 15$ , $S_{\Delta 3} = 17,$ $S_{\Delta 4} = 12$ , və $S_{\blacksquare} = 1$
Olduğu halda verilmiş düzbucaqlının xətti ölçülərini, tərəflərini tapa bilərikmi?

Cavab olaraq bəli deyirik. Bölgüdə verilmiş kiçik düzbucaqlılardan birini, məsələn 4-cünün $S_4 - \ddot{u}n$ bir tərəfini x ilə işarə edək. Onda məlumdur ki, həmin düzbucaqlının sahəsi 12 olduğu üçün digər tərəfi $\frac{12}{x}$ olacaq.

Bu şərt daxilində araşdırmanı davam etsək, şəkildən görünür ki, 1-nömrəlinin sahəsi 14 olan düzbucaqlının bir tərəfi $(x - 1)$ olar. Çünki mərkəzdə olan dördbucaqlının kvadrat olması bizə kömək edir ki, deyə bilək ki, 1 nömrəli düzbucaqlının bir tərəfi (x-1) olar və deməli digər tərəfi $\frac{14}{x-1}$ olacaq.

Bu şəkildə davam etsək, sahəsi 15 olan düzbucaqlının tərəflərini tapa bilərik: 1 saylı və sahəsi 14 olan düzbucaqlının $\frac{14}{x-1}$ tərəfindən 1 vahid çıxsaq,sahəsi 15 olan 2 saylı düzbucaqlının bir tərəfini tapa bilərik. 1 saylı və sahəsi 14 olan düzbucaqlının $\frac{14}{x-1}$ tərəfindən 1 vahid çıxsaq, sahəsi 15 olan düzbucaqlının bir tərəfini tapa bilərik. Yəni, $\frac{14}{x-1} - 1 = \frac{14-x+1}{x-1} = \frac{15-x}{x-1}$ . Onda 2 saylı düzbucaqlının digər tərəfini tapdıq: $\frac{15}{\frac{15-x}{x-1}}$

3 saylı dördbucaqlının tərəflərini tapaq. Bir tərəfi $\frac{12}{x} + 1 = \frac{12+x}{x}$ olacaq. Digər tərəfi isə sahəsinin 17 olduğunu nəzərə alsaq , $\frac{17x}{12+x}$ olar və beləliklə buradanda sahəsi 15 olan düzbucaqlının tərəflərini tapa bilərik. $\frac{17x}{12+x} + 1$ - bir tərəf olar. Yəni $\frac{18x+12}{12+x}$ həmin dördbucaqlının digər tərəfi isə $\frac{14}{x-1} - 1 = \frac{15-x}{x-1}$ olar. Nəticədə düzbucaqlının bütün tərəflərinin $x$-dən asılı ifadələrini almış oluruq. $\frac{15-x}{x-1} \cdot \frac{18x+12}{12+x}$=15 $\Rightarrow x_1 = 5$ , $x_2 \neq -\frac{24}{4}$. Bununlada tərəfləri tapmış oluruq. x=5 ; $\frac{17x}{12+x} = \frac{17\cdot5}{17+5}$ ; $\frac{12}{5}$ ; $\frac{14}{4} = \frac{7}{2}$ ; 4 …

**Məsələ 4.** Bir-birinə toxunan çevrələrin ümumi toxunanları arasında toxunan çevrənin radiusunu tapmalı. Əgər əvvəlki verilən çevrələrin radiusları $R_1$ və $R_2$ olarsa,
$OA = R_1 = 2, O_1B = R_2 = 4, O_3K = r =?$

**Həlli:** 1) $\Delta O_3O_1D$-dən yaza bilərik ki, $O_3O_1 = r + 4$, $O_1B = 4 - r$. Pifaqor teoreminə görə,

$$O_3D^2 = {O_3O_1}^2 - O_1D^2$$
$$(r+4)^2 = (4-r)^2 - O_3D^2$$
$$O_3D^2 = r^2 + 8r + 16 - 16 + 8r - r^2$$
$$O_3D^2 = 16r$$
$$|O_3D| = 4\sqrt{r}.$$




2) Oxşar çertiyoj və hesablamadan digər iki çevrə üçün aparsaq $\Delta OO_3M - də$ $OO_3 = 2 + r$, $OM = 2 - r$ və $MO_3 -$ ü tapaq. Yenə $\Delta OO_3M - də$

$$MO_3{}^2 = (2+r)^2 - (2-r)^2$$
$$MO_3{}^2 = 4 + 4r + r^2 - 4 + 4r - r^2$$
$$MO_3{}^2 = 8r$$
$$MO_3{}^2 = 2\sqrt{2r}$$

3) Digər tərəfdən $AB = AK + KB$. $4\sqrt{r} + 2\sqrt{2r}$ olduğunu nəzərə alıb, üçüncü üçbucağı qursaq, $\Delta OQO_1 - də$ $QO_1 = AB = 4\sqrt{r} + 2\sqrt{2r}$. $OQ = 2$ $və$ $O_1O_2 = 2 + 4 = 6$. Onda, $OQ^2 + {QO_2}^2 = {OO_1}^2$olar.




$$\left((4 + 2\sqrt{2})r\right)^2 + 2^2 = 6^2$$
$$\left((4 + 2\sqrt{2})\right)^2 \cdot r^2 = 36 - 4$$
$$r = \sqrt{\frac{32}{(4+2\sqrt{2})^2}}$$

**Məsələ 5.** Kvadrat daxilində götürülmüş ixtiyari nöqtə tərəflərin ortası ilə birləşdirilir və nəticədə 4 sayda ixtiyari dördbucaqlı alınır. Bu dördbucaqlılardan üçüncünün sahəsi verildikdə dördüncünüdə tapmaq olur.




**Həlli:**

Üçbucağın medianının onu sahəcə bərabər olan iki bərabər üşbucağa ayırdığı xassədən istifadə edək.

Əvvəlcə verilmiş nöqtə ilə kvadratın təpə nöqtələrini birləşdirək. Teoremə əsasən: $b + a = 20$, $a + d = 32$, $b + c = 16$, $c + d = ?$

Digər tərəfdən $(c + b) + (a + d) = (b + a) + (c + d) \Rightarrow 16 + 32 = 20 + 28$

**Məsələ 6. Kvadrat daxilinə çevrə və daxilinə kvadrat çəksək və bunu sonsuz davam etdirsək kəsik hissələrin sahələri cəmi nə qədər olar?**




$S_{b_1}$=1-$\pi(0{,}5)^2 \Rightarrow b_1$=1 - $\frac{\pi}{4}$, $\begin{cases} S_{b_2} = \frac{1}{2} - \frac{\pi}{8} \\ b_3 = \cdots \end{cases} \Rightarrow \frac{b_{k+1}}{b_k} = \frac{1}{2}$

$S = b_1 + b_2 + b_3$ ......$\Rightarrow S$ 1 sm $\frac{b_1}{1-\frac{1}{2}} = \frac{b_1}{1-\frac{1}{2}} = 2b_1$ =2 - $\frac{\pi}{2}$

**Nəticə.** Məqalədə X-XI siniflərdə şagirdlərdə daha mürəkkəb və real həyatla bağlı məsələlərin həlli üçün maraq yaradılır. Praktik və reallıqla bağlı məsələlərin həlli üçün müxtəlif metodiki göstəriş və priyomlardan istifadə edə bilmək, olimpiadlara hazırlaşmaq işlərində yeni, fərqli bacarlar formalaşdırılır.

**Elmi yeniliyi.** Məqalədə orta məktəbin IX-XI siniflərində əsasən planimetriya bölməsinə uyğun, çətinliyi artırılmış müxtəlif tip qeyri-standart tədbiqi məsələlərin yeni yanaşmalarla həll üsulları verilmişdir. Bu baxımdan Olimpiada hazırlığı ilə məşğul olan şagird, tələbə və müəllimlər üçün, həmçinin praktik sahələrin mütəxəssisləri üçün məqalədə istifadə olunan metodlar müsbət nəticələr verər.

## Ədəbiyyat

[1]. Туманов, С.И. Поиски решения задач / С.И. Туманов, – М.: Просвещение, –1969.
[2]. Цыпкин, А.Г. Справочник по математике. Для средних учебных заведений / А.Г.Цыпкин. –М.: Наука, –1984.
[3]. İbrahimov, Ə.Y. Çətinlik dərəcəsi yüksək olan riyaziyyat məsələlərinin həlli üzrə praktikum / Ə.Y. İbrahimov, A.Y. Kreymer, S.N.Sadıqov [və b.] // –Bakı, –1975.
[4]. Yaqubov, M.H. Riyaziyyat. Məsələ və misallar / M.H.Yaqubov və baş. // –Bakı: Çaşıoğlu, –2009. –310 s.

**Summary**
**Non-standard geometry tasks for preparation for the Olympiad**
***Aliyeva A.R.***

***Key words:*** *methodological approach, function, expression with a variable, largest, smallest, constant quantity, trigonometry, applied, practical, circle, area, non-standard, tangent to the circle from the inside.*

The geometry problems used in the article are effective in improving the scientific, practical, and olympiad preparation level of secondary school students with strong logical thinking skills, as well as university students, since they are frequently encountered in practice and are non-standard in type.

**Резюме**
**Нестандартные задачи по геометрии для подготовки к олимпиаде**
***Алиева А.Р.***

***Ключевые слова:*** *методический подход, функция, выражение с переменной, наибольшая, наименьшая, постоянная величина, тригонометрия, прикладной, практический, круг, площадь, нестандартный, касательная к окружности изнутри*

Геометрические задачи, используемые в статье, поскольку они часто встречаются на практике являются нестандартными по своему типу, эффективны с точки зрения повышения научного, практического и олимпиадного уровня подготовки учащихся средних школ с высоким уровнем логического мышления, а также студентов университетов.

.

## MÜNDƏRİCAT * СОДЕРЖАНИЕ * CONTENTS

***Dilçilik***

1. *Əhmədova E.H.*Bəxtiyar Vahabzadənin əsərlərində Tanrı konsepti 4
2. *Əhmədova Z.Q.* Evfemizm və tabu anlayışlarının təhlili 9
3. *Karimova R.* Pragmatic and cognitive mechanisms in the comprehension of idiomatic expressions: a theoretical analysis 14
4. *Əmiraslanova T.A.* Müxtəlifsistemli dillərin fonoloji strukturunda vurğunun tipoloji mənzərəsi 20

***Ədəbiyyatşünaslıq***

5. *Həmzəyeva S.S., Məmmədova T.K.* Bəxtiyar Vahabzadə və Çin poeziyasında ictimai lirikanın müqayisəli təhlili 27
6. *Vəliyeva İ.X., Cabarova M.A.*Bəxtiyar Vahabzadənin uşaq əsərlərində tərbiyəvi məqamlar 33
7. *Ağayev İ.A.* Tarixi faciələrdə gerçəklik və onun bədii dərki 37
8. *Əmirxanzadə G.Ə.*Kitabi Dədə Qorqud dastanında ləyaqət tərbiyəsi məsələləri 45

***Tarix***

9. *Baxşəliyev A.B.* Azərbaycan Səfəvi dövlətinin ticarət həyatında Təbriz və Ərdəbil şəhərlərinin yeri 50
10. *İsmayılov Ş.N.* XX əsrin 90-cı illərində Azərbaycanla Türkiyə arasında mədəniyyət sahəsində əməkdaşlıq 57
11. *Mammadova S.I.* From the history of establishment and development of museum studies in Azerbaijan 63
12. *Hacıyeva M.C.*Azərbaycanda neft istehsalının tarixindən: müstəmləkədən müstəqilliyə doğru 68
13. *Güləmirli F.B.*Cənubi Qafqazın təhlükəsizlik mühitində yeni aktorlar: maraqlar və perspektivlər 73

***İqtisadiyyat***

14. *Cəmilzadə Ş.V.*Müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsində iqtisadi təhlilin rolu 76
15. *Tağıyeva A.V.*Transmilli şirkətlərdə maliyyə risklərinin qiymətləndirilməsi 79
16. *Bağırova N.C.*Azərbaycanda bərpa olunan enerji mənbələrinin tətbiqi və regionlarin dayanıqlı inkişafına təsiri 86

***Pedaqogika. Psixologiya. Metodika***

17. *Dadaşov İ.M.*Xüsusi məktəblərdə sağlamlıq imkanları məhdud uşaqların estetik tərbiyəsi 91
18. *Əliyeva A.R.* Olimpiada hazırlığı üçün qeyri-standart həndəsə məsələləri 96

**Təsisçi: Sumqayıt Dövlət Universiteti**
"Elmi Xəbərlər" jurnalı Sosial və Humanitar elmlər bölməsi Azərbaycan Respublikası Təhsil Nazirinin 19.07.2004-cü il tarixli 46-16-3547/17 saylı əmrinə əsasən nəşr edilir.
Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən qeydiyyata alınmışdır.
Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə elmi nəşrlər siyahısına daxil edilmişdir.
Jurnal Rusiya Elmi İstinad İndeksinə (REİİ) daxil edilmişdir (müqavilə № 408-10/2019)
https://elibrary.ru/title_about.asp?id=73722
Məqalələrin tərtibatı qaydaları ilə jurnalın rəsmi saytında https://www.ssu-scientificnews.edu.az/az tanış olmaq olar.

**Учредитель: Сумгаитский государственный университет**
Журнал «Научные Известия» Серия: Социальные и гуманитарные науки издается на основании приказа 46-16-3547/17 Министра Образования Азербайджанской Республики от 19.07.2004-го года.
Зарегистрирован Министерством Юстиции Азербайджанской Республики.
Включен в список научных изданий Высшей Аттестационной Комиссии при Президенте Азербайджанской Республики.
Журнал включен в Российский Индекс Научного Цитирования (РИНЦ. Договор № 408-10/2019)
https://elibrary.ru/title_about.asp?id=73722
С правилами оформления статей можно ознакомиться на официальном сайте журнала
https://www.ssu-scientificnews.edu.az/az.

**Founder: Sumgayit State University**
The Journal of "Scientific News" Series for Social and Humanitarian Sciences is published due to the order № 46-16-3547/17 of the Ministry of Education of the Republic of Azerbaijan from 19.07.2004.
It has been registered by the Minister of Justice of the Republic of Azerbaijan.
It has been included to the list of scientific publications of the Supreme Attestation Commission under President of the Republic of Azerbaijan.
The journal is included in the Russian Scientific Citation Index (RSCI. Contract № 408-10/2019)
https://elibrary.ru/title_about.asp?id=73722
Please, see the website https://www.ssu-scientificnews.edu.az/az in order to be familiar with the proper design of the articles.

**© Sumqayıt Dövlət Universiteti, 2025**

Məsul katib *S.Şahverdiyeva*
Texniki redaktor *E.Həsrətova*

Çapa imzalanmışdır: 26.12.2025-ci il
Mətbəə kağızı, kağızın formatı: 70*108 ¼
Yüksək çap üsulu. Həcmi: 23,18 ş.ç.v.
Sifariş 115. Tiraj 250 nüsxə.
Qiyməti müqavilə yolu ilə.
-------------------------------------------------------
Sumqayıt Dövlət Universiteti
Redaksiya və nəşr işləri şöbəsi

**Müxbir ünvan**

Azərbaycan, 5008, Sumqayıt, 43-cü məhəllə
Tel: (0-12) 448-12-74
(0-18) 644-70-41

**Web: https://www.ssu-scientificnews.edu.az**

**E-mail: sevda.shaxverdiyeva@sdu.edu.az**

SUMQAYIT DÖVLƏT UNİVERSİTETİ
SDU
Redaksiya və nəşr işləri şöbəsi